**TOĞRUL ALLAHMANLI**

# AZƏRBAYCAN - POLŞA İQTİSADİ ƏLAQƏLƏRİ

***(məqalələr)***

**BAKI-2024**

Elmi redaktoru: ***Müzəffər Məmmədov***
iqtisad elmləri üzrə fəlsəfə
doktoru, dosent, əməkdar müəllim,
Türkiyə Milli Elmlər Akademiyasının
professoru

Rəyçilər: ***Elmira Qocayeva***
iqtisad elmləri üzrə fəlsəfə doktoru,
dosent

***Elnur Əlizadə***
iqtisad elmləri üzrə fəlsəfə doktoru

**Toğrul Allahmanlı. "Azərbaycan - Polşa iqtisadi əlaqələri" (məqalələr). Bakı: 2024, "Zərdabi Nəşr" MMC, 184 səh.**

***Kitabda Azərbaycan və Polşa respublikalarının iqtisadi əlaqələri, tarixi mənzərəsi və gəlinən yolun ümumi diaxroniyası, dövlət müstəqilliyindən sonra gedən proseslərin polifoniyasi, iqtisadi əlaqələr baxımından sərgilədiyi mənzərə özünün təfərrüatlı əksini tapır. Digər aspektdə Xəzəryanı dövlətlər baxımından, eləcə də Avropa məkanındakı dövlətlər səviyyəsində bu iki ölkənin oynadığı rol və iqtisadi sferada sərgilədiyi çağdaş mənzərə, həm də perspektivlər aydınlaşdırılır.***

ISBN 978-9952-583-35–9

© ***Toğrul Allahmanlı***

## MÜNDƏRİCAT

Ön söz əvəzi.........................................................................5
Geoiqtisadi amillərin funksional xarakteri (Azərbaycan və Polşa iqtisadi əlaqələri üzrə)......................7
Qloballaşma, beynəlxalq iqtisadi əlaqələr və geoiqtisadi amillər (Azərbaycan və Polşa iqtisadi münasibətləri əsasında)....................................................16
Beynəlxalq iqtisadi münasibətlərin məzmunu və nəzəri-konseptual mənzərəsi.............................................27
Beynəlxalq iqtisadi münasibətlərin tarixi dinamikası və elmi-nəzəri aspektləri....................................................37
Azərbaycan və Polşa respublikaları: sahə quruluşu, iqtisadi inkişaf xüsusiyyətləri və bağlantıları......................46
Azərbaycan-Polşa respublikalarının iqtisadi əlaqələri: çağdaş vəziyyəti və perspektivlər.......................................56
Polşa və Azərbaycan respublikalarının iqtisadi əlaqələrinin ümumi mənzərəsi və perspektivləri................66
Azərbaycan və Polşa respublikalarının inkişafının dinamik göstrəricisi.........................................................78
Azərbaycan və Polşa respublikalarının iqtisadi münasibətlərinin inkişaf xüsusiyyətləri............................87
Azərbaycan-Polşa iqtisadi əlaqələri: mövcud vəziyyəti və dinamikası.................................................................96
Azərbaycan və Polşa respublikaları arasında ticarət əlaqələri və onun ümumi vəziyyəti.................................108
Beynəlxalq iqtisadi əlaqələr: Geoiqtisadi amillər (Azərbaycan və Polşa respublikalarının iqtisadi münasibətləri üzrə)...........................................................118

Azərbaycan, Türkiyə və Polşa: şaxələnən yeraltı resurslar....................................................................130
Azərbaycan və Polşa qarşılıqlı iqtisadi münasibətlərinin inkişaf meyilləri..................................135
Azərbaycan - Polşa iqtisadi əlaqələrinin təkmilləşdirilməsi və həlli istiqamətləri..........................146
Azərbaycanın Polşa respublikası ilə sahəvi iqtisadi əlaqələri və onun perspektivləri.....................................158
Azərbaycan və Polşa respublikaları: qarşılıqlı iqtisadi əlaqələr..............................................................168
Azərbaycan - Polaşa iqtisadi əlaqələri: davamlı inkişaf strategiyası.........................................................171
Son söz.........................................................................182

## ÖN SÖZ ƏVƏZİ

Uzun illərin araşdırmalarının nəticəsi olaraq meydana çıxan bu məqalələrin bir araya gətirilərək kitablaşdırılması sırf reallığa, çağdaş iqtisadi münasibətlər səviyyəsində gedən proseslərin zərurətinə bağlanır. Dünya düzənində gedən proseslər, siyasi, iqtisadi və mədəni sferadakı mürəkkəbliklər və onun gərginləşmələrə açılan qapıları müxtəlif aspektlərdə bağlantıları və birgə (həm də qarşılıqlı) yararlanmaların gərəkliyini ön xəttə çıxarır. Azərbaycan və Polşa respublikalarının iqtisadi əlaqələrinin müasir mənzərəsi bunun bariz göstəricisidir.

Azərbaycanın keçdiyi tarixi yol, cahanşümul dövlət məfkurəsi bütün zaman kəsiklərində qarşılıqlı bağlantılara, iqtisadi, siyasi, mədəni əlaqələrin güclənməsi fonunda işlərin aparılmasına köklənir. Zəngin etnoqrafik mədəniyyəti, ibtidai təsəvvürə bağlanan arxeoloji qatı, ayrı-ayrı zaman kəsiklərində dövlətlər və xalqlarla olan çeşidli təmasları yüzilliklər, minilliklər boyu artan tempdə getməsi və qarşılıqlı faydalanmaları əsas götürmək düçüncəsi ilə nümunəyə çevrilmişdir. Polşa ilə əlaqələri və iqtisadi, siyasi bağlantıları da əlimizdə olan örnəklər baxımından bunun göstəricisidir.

Şərq və Qərb mədəniyyətinin uğurları, çeşidli nailiyyətləri üzərində bütün dünyaya açılmağı özü üçün ali məqama çevirən Azərbaycan orta əsrlərin intibah məfkurəsi funksiyasında daim nümunəyə çevrilmiş və bəşəri mədəniyyət quruculuğu müstəvisində “bəxşişlər verən” təsəvvüründə özünü göstərmişdir. Polşa ilə əlaqələr timsalında bu bağlantılar orta əsrlərin dərinliklərindən günümüzə qədər həmişə artan istiqamətdə getmişdir. Təkcə onu demək kifayətdir ki, Azərbaycan xalqının yaratdığı qəhrəmanlıq eposu “Koroğlu”nun yazıya alınması və  mətbuatda özünə yer almasının başlanğıcı polyak ziyalısı İ.Şopen tərəfindən qoyulmuşdur. Kitablaşdırılmasının başlamğıcı da polyak yazıçısı

A.Xodzko tərəfindən reallaşmışdır.

XIX əsrin sonu XX əsrin əvvəllərində polyak elm və mədəniyyət xadimlərinin Azərbaycana marağı ayrıca bir mərhələdir. Bakının memarlıq abidələrinin mühüm bir hissəsi polyak memarlarının, arxitektorlarının sənət abidəsidir. Həmin binalar bu gün də dövlət səviyyəsində qorunur. Azərbaycanı, Bakımızı bəzəyən mədəni sərvət olaraq uca tutulur.

İkinci dünya müharibəsi zamanı Azərbaycan əsgərlərinin rəşadəti bir tarixdir. Bunların ümumi mənzərəsi sovetlər imperiyasının dağılmasından sonrakı mərhələdə əlaqələrin güclənməsi və iqtisadi, siyasi, mədəni bağlantıların yeni bir sfera sərgiləməsi ilə diqqətçəkici təsəvvür formalaşdırır. Azərbaycanın dövlət müstəqilliyini elan etməsi, Polşanın sosialist ölkələr sistemindən uzaqlaşıb bütünlükdə dünyaya açılışı artıq geoiqtisadi, geosiyasi və geocoğrafi arenada canlanmanın hadisəsidir. Geoiqtisadi sferadakı vahidləşmə, Cənubi Qafqaz və Xəzər hövzəsi timsalında diqqət önünə gələn iqtisdi maraq və güclərin həssaslığı Şərq-Qərb timsalında bağlantıları və zəngin yeraltı resurslardan yararlanmanı ön xəttə çıxarır.

Polşa Respublikası özünün iqtisadi, siyasi və mədəni çəkisi etibarilə Avropada ilk beşlikdə dayanan ölkədir. Onun çağdaş ümumi mənzərəsi, dünya iqtisadi məkanı ilə təmasları və müxtəlif aspektli açılımları sistemli yanaşmaları zəruri edir. Azərbaycan və Polşa respublikaları timsalında baş verənlər də bunun tərkib hissəsi olaraq səciyyəvilik qazanır. Turizm, təhsil, elm və texnologiya, iqtisadiyyatın müxtəlif sahələrini əhatələyən maraq bunun bariz örnəyidir. Bütünlükdə bunların dövlət və birliklər səviyyəsində məqsədli şəkildə həyata keçirilməsi və daha uğurlu variantlarının araşdırılaraq reallaşdırılması sistemli təhlilləri zəruriləşdirir. Kitabdakı məqalələr də məhz bunların məqsədyönlü fəaliyyət məramı olaraq ortaya çıxmışdır. Başlanğıc olaraq aparılan bu təhlillər daha perspektivli və sistemli araşdırmalara zəmin yaradacaqdır. Biz buna əminik.

## GEOİQTİSADİ AMİLLƏRİN FUNKSİONAL XARAKTERİ

***(Azərbaycan və Polşa iqtisadi əlaqələri üzrə)***

Azərbaycan və Polşa Respublikalarının iqtisadi münasibətlərinin inkişaf tendensiyasının spesifikasının müəyyənləşməsində geoiqtisadi amillər mühün önəm daşıyır. Çünki geoiqtisadiyyat dövlətin konkret mühit və şərait daxilində iqtisadi münasibətlərini, fəaliyyət sistemini tədqiq etməklə beynəlxalq arenada strategiya və taktikasını formalaşdırmaq kimi ciddi bazanı özündə ehtiva edir. Geoiqtisadi məkan, dünyanın geoiqtisadi atlası, mütəhərrik iqtisadi sərhədlər, dünya gəliri, strateji manevr və strateji effektlər, geoiqtisadi texnologiyalar, etnoiqtisadi sistemlər, geoiqtisadi təzminat, geoiqtisadi təhlükəsizlik və s. kimi ciddi faktorlar terminin məzmununda cəmlənir. Ona görə də bu problemin bir bütöv olaraq təhlili bütünlükdə beynəlxalq iqtisadi münasibətlərin uğurluluğu üçün əsas olur. Bunlara xarici iqtisadi doktrina və xarici iqtisadi strategiya müstəvisində yanaşmaq və bu kontekstdə də təhlil faktına çevirmək lazımdır.

Dünya iqtisadi proseslərinin baş verdiyi qlobal iqtisadi məkan öz olanları ilə iqtisadi münasibətləri müəyyənləşdirir və bu münasibətlərin davamlılığı, düzgün nizamı həm də perspektivləri müəyyənləşdirir. Yüksək geoiqtisadi texnologiyalar sayəsində geoiqtisadi siyasətin həyata keçirilməsi gəlirlərin artırılmasına, uğurlu bölüşdürülməsinə və rifahın yaxşılaşdırılmasına hesablanır. Burada əlbəttə digər müstəvidə dünyanın yenidən dərk edilməsinə meyillənmə var və bu isə yeni yanaşmaları, prinsipləri, sistemin yenilənməsi qanunauyğunluqlarını əsas edir. Geoiqtisadi amillər iqtisadi sferada beynəlmiləlləşmənin müasir mexanizmlərinin yaranmasının gərəkliyini ortaya qoyur. Artıq bütün olanlar yeni iqtisadi sərhədlərlə, yəni əlavələrin, alternativlərin ortaya çıxması ilə şərtlənir.

Beynəlxalq iqtisadi əlaqələrdə geoiqtisadi amillərin əhəmiyyəti geoiqtisadi sistemin birbaşa məzmunu ilə bağlanır. Milli inkişafın ümumi hədəfləri onun həyata keçirilməsində strateji ehtiyatlara bağlanır. Çünki hər hansı milli iqtisadiyyat özlüyündə dayanıqlılığa, dinamikanın gözlənməsinə yönəlir. Bunun isə təkcə hansısa sərhədlər daxilində qorunuşu və mövcudluğu mümkünsüzdür. Əsas olan mühitdə və daha geniş sferada tənzimlənmənin həyata keçirilməsi, dünya düzənində baş verənlərlə müvaziliyin gözlənməsidir.

Geoiqtisadiyyatın özündə bir çoxcəhətlilik var ki, bu da dünya iqtisadi mənzərəsində baş verənlərin rənga-rəngliyindən, praqmatik səciyyəsindən irəli gəlir. E.Q.Koçetov bu məsələni şərh edərkən xüsusi olaraq vurğulayır ki, "geoiqtisadiyyat (geoekonomics) - 1) iqtisadi atributlar sistemi vasitəsilə qlobal dünyanın təfsirini əks etdirən konseptual baxışlar; 2) dünya iqtisadi proseslərin baş verdiyi qlobal iqtisadi məkanın konturlarını müəyyənləşdirən milli çərçivədən kənara çıxarılmış iqtisadi atributlar və iqtisadi münasibətlər sistemi; 3) milli iqtisadiyyatların və dövlət institutlarının simbiouzu, milli və üst milli iqtisadi və dövlət sturkturlarının qarşılıqlı "toxunması"; 4) dövlət siyasətinin iqtisadi amillər, dünyanın geoiqtisadi atlasında (həmçinin onun milli hissəsində) əməliyyatlar aparılması, yüksək geoiqtisadi texnologiyalar əsasında dünya gəlirinin formalaşdırılması və bölüşdürülməsində iştirak məqsədi ilə milli iqtisadiyyatların və onların təsərrüfat subyektlərinin beynəlmiləlləşdirilmiş təkrar istehsal nüvələrinə (dövrlərinə) daxil olması ilə müəyyən edilən baxışlar sistemi (konsepsiyası)"dir (6, 17). Geoiqtisadi proseslərin özündə gələcəyə istiqamətlənmiş konseptual baxışlar, elmi-nəzəri təhlillər üçün mükəmməl baza var və onun verdiyi imkanlardan istifadə etməklə dünya düzənində baş verən və verə biləcək iqtisadi proseslərin ümumi dinamikasını müəyyənləşdirmək olur.

Transmilli dünya gücləri və yerli dövlətlər geoqitisadi müna-

sibətlər səviyyəsində Cənubi Qafqazda və Xəzər hövzəsində ciddi fəaliyyət proqramı ilə təmsil olunurlar. Ümumiyyətlə, "XX əsrin son onilliyində və XXI əsrin başlanğıcından dünyada gedən ictimai-siyasi və beynəlxalq əhəmiyyətli hadisələr nəticəsində Xəzər dənizi və Qafqaz regionu yenidən öz əhəmiyyətinə görə dünyada mərkəzi yerlərdən birini tutdu. Planetin artan enerji ehtiyacı və ticarət əlaqələrinin genişləndirilməsi tələbatı qarşısında Xəzər hövzəsi və Cənubi Qafqaz özünün zəngin karbohidrogen ehtiyatları, Şərq-Qərb, Şimal-Cənub əlaqələrində, nəqliyyat–kommunikasiya sahəsindəki imkanları ilə bütün transmilli dünyanın nəzər diqqətini özünə cəlb edərək geoiqtisadi maraqların kəsişmə nöqtəsinə çevrilmişdir" (5, 9). Xəzər, Qara dəniz hövzəsi, Cənubi Qafqaz timsalında söylənmiş bu mülahizələr özlüyündə dünya geoiqtisadi məkanında gedən prosesləri, iqtisadi maraqların səbəb və mahiyyətini müəyyənləşdirir. Beynəlxalq iqtisadi münasibətlərdə geoqitisadi amillər bir sıra məsələlərin gərəkliyini aktuallaşdırır və ciddi təsəvvürlər ortaya qoyur.

a) dünya sistemi yeni geoiqtisadi sferalarda vahidləşir;

b) beynəlmiləlləşmənin mexanizmlərində dəyişiklliklərin zərurəti;

c) dünya əmək bölgüsündə geoiqtisadi məkanın rolu və iqtisadi sərhədlərin təzələnməsi;

ç) əmtə istehsalının modifikasıyasında baş verən dəyişmələr;

d) beynəlmiləlləşmiş təkrar istehsal nüvələrinin formalaşması;

e) milli xarici iqtisadi modellərin strateji effektliliyi və s.

Mövcud zaman kəsiyində geoiqtisadi qlobal dəyişikliklər, xarici geoiqtisadi sistemlərin məzmunu, uzunmüddətliliyi, perspektivə hesablanmış doktrinalara diqqət yetirməyi və işlərin bu müstəvidə həyata keçirilməsini gərəkli edir. Ç.Abbasov (1), G.Gənciyev (4), Z.Məmmədov (7), J.C.Benjamin (3), B.Slay (9), F.Millard (10) və başqaları geoiqtisadi məqamlara araşdırma-

larında xüsusi diqqət yetirmişlər. Müasir proseslər diqqətin strateji ehtiyatlara yönləndirilməsini və onların formalaşdırılması prosesində geoiqtisadi amillərin rolunu müəyyənləşdirməyi diqqət önünə gətirir. Qlobal dəyişikliklər şəraitində dünya birliyinin genetikası üzərində təhlillər aparan institutlar gediləcək yolun iqtisadi perspektivlərinə diqqəti yönəldirlər. Burada mühüm olan dünya gəlirinin formalaşdırılması və onun haqqında dolğun təsəvvür yaradılması deyil, əlbəttə bu mühüm məsələlərdəndir, onun ikinci tərəfində həmin gəlirin bölüşdürülməsinin hansı qanunauyğunluq əsasında həyata keçirilməsi məsələsidir. Bütün iqtisadi institutlar və iqtisadi fikrin nəzəri yönləndiriciləri öz müşahidələrini baş verənlər üzərində cəmləşdirir, dünya iqtisadi pulsunun perspektivasını ortaya qoymağa çalışırlar. Burada əlbəttə dinamik və təhlükəsiz qoşulma, münbit şəraitin təmini, inkişafın yeni nöqtələrinin müəyyənliyi kimi məsələlər də vardır.

Beynəlxalq iqtisadi maraqların geoiqtisadi mənzərəsində strateji qərarların qəbul edilməsi və onun uğurluluq əmsalının müəyyənləşməsi də vacib məsələdir. Çünki sürətlə dəyişən situasiyalarda qloballaşan dünyaya çıxış nöqtələri o qədər mükəmməllik kəsb etməlidir ki, geoiqtisadi, geomaliyyə, geosiyasi maraqlar özü strateji xarakterliliyi ilə perspektivə yönləndirilsin. Əlbəttə milli strateji iqtisadi maraqların möhkəmliyi və davamlılığı üçün geoiqtisadi mühitdə fəaliyyətin hədəfləri aydınlaşmalıdır. Bu isə "xarici sahədə yaranan vəziyyət; milli maraq və prioritetlər sisteminin vəziyyəti; milli iqtisadiyyatda vəziyyət"lə izah olunur. Çünki müasir beynəlxalq sistemdə güzəştsizlik bir amil olaraq nəzəri cəlb edir. Məlum olduğu kimi, "texnogen dünya insan dərrakəsini deformasiya etmiş və onun ruhi vəziyyətinin harmoniyasını pozmuşdur. Bunun əleyhinə qəti etiraz ətrafa yayılır, insanın davranışında özünü göstərir. Sağlam praqmatizm ideal sistemlərlə dəyişdirilmişdir. Belə sistemlər elə buna görə də cəzasını çəkən nəsillərin sosial yaddaşında uzun müddət yaşayan xüsusiyyətə malikdirlər. İdealda bir insanın

özünü təsdiq etməsi milyonlarla insanın məhvinə səbəb olur. "Milli maraqlar", "Milli təhlükəsizlik" kateqoriyaları formalaşır ki, onları da maddi bağlantı olmadan dərk etmək çətindir. Bura həmçinin texnogen şüurun bir aləti kimi "dayanıqlı inkişaf" kateqoriyası da aiddir" (6, 22).

Avropa elmi bu gün geoiqtisadi proseslərin ümumi mənzərəsində bir tərəf olaraq dayanıqlı inkişafa və onun təmin olunması mexanizmlərinin hazırlanmasına daha çox diqqət yetirir. "Milli maraqlar", "milli təhlükəsizlik" üzərinə köklənmiş geoiqtisadi proseslərin gedişinin ümumi məzmununda da dayanıqlılığın təminatı və onun perspektivinin hansı dərəcəyə hesablanmasıdır. Müasir dünya reallığının dərki və sürətlə gedən yeniləşmənin tərəf və təklif paketlərinin elmi mexanizmlərlə təhlili baş verənləri hansı səviyyədə ehtiva edir. Klassiklərin, neoklassiklərin, keynsçilərin, neokeynisçilərin düşüncələrində özünə yer almış iqtisadi sferanın prinsipləri, eləcə də sonrakı mərhələdə meydana çıxmış nəzəriyyələr, məsələn, məhsulun həyat dövrü nəzəriyyəsi, rəqabət üstünlüyü nəzəriyyəsi, kəsişən tələb nəzəriyyəsi ortaya qoyduğu konsepsiya ilə iqtisadi münasibətlərin tənzimlənməsini yeni dünya müstəvisində nə dərəcədə ifadə edir. Müasir dünya reallığında yeni qlobal proseslərin dinamik mənzərəsi perspektivdə əlbəttə mühitin və reallığın özünə uyğun bir qanunauyğunluğu müəyyənləşdirir. Onun mexanizmlərində isə geoiqtisadi münasibətlərin mənzərəsindən əlavə inkişaf texnologiyası, spesifiklilik sxemləri boy göstərir.

Geoiqtisadi amillərin (iqtisadiyyat üçün əlverişli olan sahə və ərazilər) uğurluluğunda iqlim şəraiti, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı üçün mövcud şərait, təbii ehtiyatlar, resursların düzgün istiqamətlənməsi və s. nə varsa hamısı bir bütöv olaraq geoiqtisadi mühitdə təmsil olunmanı müəyyənləşdirir. Dünyanın müasir iqtisadi mənzərəsinə kənardan baxdıqda diaxronik mənzərə iqtisadiyyatın özünün tələbləri və reallığı ilə razılaşmağı ortaya qoyur. Əlbəttə burada ayaqlaşma, geoiqtisadi

məkanda baş verənlərin və iqtisadi proseslərin millilik ampulasında nələrlə təmsil olunması kimi məsələlər vardır. Bütün məsələlərə millilik mövqeyindən baxmaqla geoiqtisadi gedişatların mahiyyətinə diqqət yetirmək mümkün də deyildir.

Müasir dünya beynəlxalq iqtisadi münasibətlərdə regionallığın xarakterik cəhətlərindən də yan keçmir. Əksinə bunların, yəni olanların müvaziliyi müstəvisində xammaldan tutumuş texnoloji sistemə qədər hamısını diqqət mərkəzində saxlayır və bazarın diktə etdiyi prinsipləri aydınlaşdırır. Burada geoiqtisadi məkanın hansı mədəni kordinatlara düşməsi məsələsi də vardır və “bir çox alimlərin fikrincə, XXI əsrin ortalarına doğru sonuncu sual (hədsiz ehtiyat tükənmə, bəşəriyyəti texnogen yoruculuq fazasında qalması nə qədər çəkəcəkdir – T.A.) öz cavabını tapacaqdır: ya artıq postsənaye dərinliklərində yeni mədəni paradiqmalarının nüvələri formalaşacaq və möhkəmlənəcək, yeni neoiqtisadiyyat, geoiqtisadi məkan (dünya) öz axarı ilə bu yeni mədəniyyətə daxil olacaq və bütün səylər belə keçidin ixtilafsızlığına yönələcəkdir; ya da bəşəriyyət qarşısında zəhmli alternativ dayanacaqdır – postsənayenin ehtiyatlar tükədən “ağuşundan” çıxmaq üçün “dünya” parçalanmalı olacaq, bu da qloballaşmanın “parçalanmasından” (iqtisadi, siyasi, sosial, hərbi, fəlsəfi və bu kimi digər münasibətlərdə) başqa bir şey deyildir” (6, 27). Artıq dünya bütün parametrlərdə postsənaye qloballığında dayanmaqdadır və onun texnogen resursları bu əvəzlənmələrdə sonrakı mərhələdə nə ilə təmsil olunacağı əlbəttə suallarla səciyyələnir.

Beynəlxalq iqtisadi münasibətlərin müəyyənlik dərəcəsi geoiqtisadi amillərin çəkisi və uğurluluq əmsalı ilə xarakterizə olunur. Məsələn, Xəzər-Qara dəniz hövzəsi geoiqtisadi məkan olaraq enerji ehtiyatlarının zənginliyi ilə diqqət önünə gəlir. Z.Bzejinski XXI əsrdə Qərbin geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlarının əsas təmsil olunduğu bölgə Avrasiyanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz bölgəsidir” (5, 17). Çağdaş geoiqtisadi proseslər perspektivləri, iqtisadi məkanlarda

baş verənlərin hansı keyfiyyətlərlə, nələrlə səciyyələnməsi məsələsini ortaya qoyur. Transmilli dünya güclərinin və yerli dövlətlərin marağındakı Xəzər hövzəsi və Cənubi Qafqazın zəngin ehtiyatlarından yararlanmaq, iqtisadi-ticarət və digər əlaqələrdə uğurluluq təmin etməkdir. Çünki mütəxəssislərin qənaətlərinə əsasən Xəzər dənizi dünyanın ən zəngin karbohidrat yataqlarına malik bölgələrdəndir. Gedən proseslər, iqtisadi məkanda baş verənlər Avrasiyada geosiyasi maraqların güclənən istiqamətə yönləndiyini vurğulayırlar. Xəzər – Qara dəniz hövzəsi və Cənubi Qafqaz iqtisadi-ticarət əlaqələrinin perspektivnə və imkanlılıq dərəcəsinə görə daha diqqət önünə gəlir. Məhz transmilli güclər ona görə də buraya daha çox diqqət yetirirlər. Geoiqtisadi amillərin əhəmiyyəti mühüm tərəf kimi xüsusi çəkiyə malikdir.

Xəzər-Qara dəniz və Cənubi Qafqaz müstəvisində baş verənlər, onun zənginlik səviyyəsi, iqtisadi proseslərin gedişi üçün münbitliliyi bu regiona marağı daha da artırmışdır. Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində geiqtisadi amillərin öncüllüyü qarşılıqlı faydalanmanın gərəkliliyini şərtləndirir. Burada qlobal iqtisadi məkan olaraq beynəlxalq iqtisadi proseslərin gedişi milli çərçivədən kənar yeni atributları, iqtisadi münasibətləri müəyyənləşdirir.

Beynəlxalq iqtisadi münasibətlər elmi-nəzəri müstəvidə konseptual baxışlar sistemidir. Onun genetikasında dünya gəlirlərinin formalaşdırılması və bölüşdürülməsi məqsədilə olan proseslərin gedişinin müəyyənliyi dayanır. Dünya arenasına çıxmağı öncülləyən istənilən milli iqtisadiyyat beynəlxalq təsərrüfat əlaqələrində möhkəmlənməyi və geoiqtisadi proseslərdə fəallığı diqqət önündə saxlayır. Əlbəttə dünya iqtisadi məkanı vahidliliyi və bütövlüyü ilə özünə nəzarəti həyata keçirir. Burada müasir beynəlmiləlləşməni yeni mexanizmlərinin yaradılması, vaxtaşırı yeniləşməsi və işləkliyi kimi ciddi məsələlər əsas təşkil edir. Məlum olduğu kimi, geoiqtisadi prosesdə xarici iqtisadi əlaqə

iştirakçılarının sayı artır və həm də bu artımda hər bir ölkənin əmək bölgüsü sistemində yerini tapa biləcəyi kimi ciddi məsələ dayanır. Əməkdaşlıq modelində bazarı lazım olan malla təmin etmək, daha doğrusu, xidmət və malların bazarda birgə istehsalı və birgə satışı kimi məsələlər vardır. Bazarın geoiqtisadi məkanda birgə tənzimlənməsi iqtisadi çevrənin gəlirlilik və işləklik dərəcəsini müəyyənləşdirir. Heç şübhəsiz bu da qarşılıqlı təsir və aslılığı ortaya qoyur. "Təkraristehsal proseslərinin qarşılıqlı kəsişməsi, tam yeni texnologiyaların yaradılması, beynəlxalq mübadilənin "zehniləşdirilməsi" – bütün bunlar dünya əmtəə münasibətlərində əks olunmaya bilməzdi. Yeni beynəlxalq ünsiyyət obyektləri və subyektləri yaranmışdır. Müasir xarici sahənin ən vacib məqamlarından biri də əmtəənin dəyişməsinin və dünya təsərrüfatı ünsiyyətinin təşkili – iqtisadi strukturunun təkamülünün qarşılıqlı təsir və qarşılıqlı asılılığının nəzərə alınmasıdır" (6, 33). Müasir beynəlxalq iqtisadi əlaqələrdə geoiqtisadi amillərin əhəmiy-yəti qarşılıqlı əlaqə, asılılıq və anlaşma ilə reallaşır ki, bu da bazarların birgə tənzimlənməsinə əsas olur. Azərbaycan və Polşa respublikaları kontekstində apardığımız təhlillər təkcə iki respublika arasında iqtisadi münasibətləri sərgiləməklə kifayətlənmir, burada həm də yeni-yeni xətlər, istiqamətlər, perspektivlər müəyyənləşir. Çünki Azərbaycan özünün uğurluluq əmsalı baxımından geiqtisadi məkan olaraq böyük vədlər verir. Xəzər hövzəsindəki karbohidratlar, neft sənayesinin inkişaf perspektivləri və onun əldə etdiyi nailiyyətlər, irihəcmli layihələr, qeyri-neft sahələrinin inkişafı üçün münbit şəraitin olması geoiqtisadi amillərin Azərbaycan səviyyəsində əhəmiyyətliliyini əsas edir. Məhz bu baxımdan Xəzər hövzəsi və Cənubi Qafqazın geoiqtisadi xarakteristikası beynəlxalq, regional müstəvisində böyük vədlər verir. Bu region öz əhəmiyyətlilik dərəcəsinə görə dünyanın daha çox diqqət mərkəzində dayanır.

Azərbaycan və Polşa Respublikalarının iqtisadi əlaqələrinin

bu sistem üzərində təhlili ciddi bir iqtisadi fakturanı ortaya qoyur. Azərbaycanın zəngin enerji resursları, onun mənimsənilməsi, birgə işlənmə və yararlanma mexanizmi, ixrac marşrutları, istehsal və istehlak problemləri, qeyri-neft sahələrinə olan marağın güclənməsi beynəlxalq iqtisadi əlaqələrdə geoiqtisadi amillərin əhəmiyyətliliyi müstəvisində reallaşır. Son olaraq beynəlxaq iqtisadi əlaqələrin əhəmiyyətliliyi kontekstində bütöv bir modeli ortaya qoyur.

## ƏDƏBİYYAT

1. Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.

2. Azərbaycan Respublikasının idxal-ixrac əməliyyatları. (1992-1996-cı illər). Bakı: Azərbaycan Dövlət Statistika Komitəsi, 1997, 108 s.

3. Benjamin J.Cohen. Pulun coğrafiyası. Bakı, Əbilov, Zeynalov oğulları, 2003, 192 s.

4. Gənciyev G. Beynəlxalq iqtisadi münasibətlər: müasir vəziyyət və inkişaf problemləri. Bakı: Elm, 2005, 260 s.

5. Həsənov Ə. Xəzər –Qara dəniz hövzəsi və Cənubi Qafqazın gfeoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti. Bakı: Zərdabi LTD MMC, 2016, 296 s.

6. Koçetov E.Q. Geoiqtisadiyyat. Bakı, İqtisad Universiteti, 2015, 438 s.

7. Məmmədov Z. Dünya ticarəti kontekstində Azərbaycan iqtisadiyyatı: hadisələr, şərhlər və faktlar. Bakı: Azərnəşr, 2008, 535 s.

8. Məmmədov Z. XXI əsr: iqtisadi inkişafın nəqliyyat faktoru. Bakı: Azərnəşr, 2002, 384 s.

9. Ben Slay. The Polish Economy: Crisis, Reform, and Transformation. New Jersey, USA: Princeton University Press, (April 19, 2016), 246 p.

10. Frances Millard. Polish Politics and Society. Great Britain: MPG Books Ltd, Bodmin, 1999, 246 p.

## QLOBALLAŞMA, BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏR VƏ GEOİQTİSADİ AMİLLƏR
***(Azərbaycan və Polşa iqtisadi münasibətləri əsasında)***

Dünya iqtisadi proseslərinin baş verdiyi qlobal iqtisadi məkan öz olanları ilə iqtisadi münasibətləri müəyyənləşdirir və bu münasibətlərin davamlılığı, düzgün nizamı həm də perspektivləri aşkarlayır. Yüksək geoiqtisadi texnologiyalar sayəsində geoiqtisadi siyasətin həyata keçirilməsi gəlirlərin artırılmasına, uğurlu bölüşdürülməsinə və rifahın yaxşılaşdırılmasına hesablanır. Burada əlbəttə digər müstəvidə dünyanın yenidən dərk edilməsinə meyillənmə var və bu isə yeni yanaşmaları, prinsipləri, sistemin yenilənməsi qanunauyğunluqlarını əsas edir. Geoiqtisadi amillər iqtisadi sferada beynəl- miləlləşmənin müasir mexanizmlərinin yaranmasının gərəkliyini ortaya qoyur. Artıq bütün olanlar yeni iqtisadi sərhədlərlə, yəni əlavələrin, alternativlərin ortaya çıxması ilə şərtlənir.

Qloballaşma, beynəlxalq iqtisadi sferada baş verənlər yeni-yeni elmi istiqamətlərin yaranmasını, inkişafını və perspektivlərini müəyyənləşdirir. Geoiqtisadiyyat da bir elm sahəsi kimi son dövrlərdə formalaşmasına baxmayaraq ciddi elmi baza ilə səciyyələnir. Geomaliyyə, geoinformatika, geoloqistika, geomədəniyyət XXI əsrin başlanğıcında reallığın hadisəsi kimi ortaya çıxmaqla qlobalistikanı bir bütöv olaraq ehtiva edir. Geoiqtisadiyyatın özündə bir çoxcəhətlilik var ki, bu da dünya iqtisadi mənzərəsində baş verənlərin rəngarəngliyindən, praqmatik səciyyəsindən irəli gəlir.

Transmilli dünya gücləri və yerli dövlətlər geoqitisadi münasibətlər səviyyəsində Cənubi Qafqazda və Xəzər hövzəsində ciddi fəaliyyət proqramı ilə təmsil olunurlar. Ümumiyyətlə, "XX əsrin son onilliyində və XXI əsrin başlanğıcından dünyada gedən ictimai-siyasi və beynəlxalq əhəmiyyətli hadisələr nəti-

cəsində Xəzər dənizi və Qafqaz regionu yenidən öz əhəmiyyətinə görə dünyada mərkəzi yerlərdən birini tutdu. Planetin artan enerji ehtiyacı və ticarət əlaqələrinin genişləndirilməsi tələbatı qarşısında Xəzər hövzəsi və Cənubi Qafqaz özünün zəngin karbohidrogen ehtiyatları, Şərq-Qərb, Şimal-Cənub əlaqələrində, nəqliyyat–kommunikasiya sahəsindəki imkanları ilə bütün transmilli dünyanın nəzər diqqətini özünə cəlb edərək geoiqtisadi maraqların kəsişmə nöqtəsinə çevrilmişdir" (5, 9). Xəzər, Qara dəniz hövzəsi, Cənubi Qafqaz timsalında söylənmiş bu mülahizələr özlüyündə dünya geoiqtisadi məkanında gedən prosesləri, iqtisadi maraqların səbəb və mahiyyətini müəyyənləşdirir.

Ümumiyyətlə, "geoiqtisadiyyat (geoekonomics) - 1) iqtisadi atributlar sistemi vasitəsilə qlobal dünyanın təfsirini əks etdirən konseptual baxışlar; 2) dünya iqtisadi proseslərin baş verdiyi qlobal iqtisadi məkanın konturlarını müəyyənləşdirən milli çərçivədən kənara çıxarılmış iqtisadi atributlar və iqtisadi münasibətlər sistemi; 3) milli iqtisadiyyatların və dövlət institutlarının simbiouzu, milli və üst milli iqtisadi və dövlət sturkturlarının qarşılıqlı "toxunması"; 4) dövlət siyasətinin iqtisadi amillər, dünyanın geoiqtisadi atlasında (həmçinin onun milli hissəsində) əməliyyatlar aparılması, yüksək geoiqtisadi texnologiyalar əsasında dünya gəlirinin formalaşdırılması və bölüşdürülməsində iştirak məqsədi ilə milli iqtisadiyyatların və onların təsərrüfat subyektlərinin beynəlmiləlləşdirilmiş təkrar istehsal nüvələrinə (dövrlərinə) daxil olması ilə müəyyən edilən baxışlar sistemi (konsepsiyası)"dir (6, 17). Göründüyü kimi, beynəlxalq iqtisadi münasibətlərin uğurluluq əmsalında birbaşa geoiqtisadi amillər mühüm rol oynayır.

Müasir proseslər diqqətin strateji ehtiyatlara yönləndirilməsini və onların formalaşdırılması prosesində geoiqtisadi amillərin rolunu müəyyənləşdirməyi diqqət önünə gətirir. Qlobal dəyişikliklər şəraitində dünya birliyinin genetikası üzərində təhlillər aparan institutlar gediləcək yolun iqtisadi perspektiv-

lərinə diqqəti yönəldirlər. Burada mühüm olan dünya gəlirinin formalaşdırılması və onun haqqında dolğun təsəvvür yaradılması deyil, əlbəttə bu mühüm məsələlərdəndir, onun ikinci tərəfində həmin gəlirin bölüşdürülməsinin hansı qanunauyğunluq əsasında həyata keçirilməsi məsələsidir. Bütün iqtisadi institutlar və iqtisadi fikrin nəzəri yönləndiriciləri öz müşahidələrini baş verənlər üzərində cəmləşdirir, dünya iqtisadi pulsunun perspektivasını ortaya qoymağa çalışırlar. Burada əlbəttə dinamik və təhlükəsiz qoşulma, münbit şəraitin təmini, inkişafın yeni nöqtələrinin müəyyənliyi kimi məsələlər də vardır.

"Milli maraqlar", "milli təhlükəsizlik" üzərinə köklənmiş geoiqtisadi proseslərin gedişinin ümumi məzmununda da dayanıqlılığın təminatı və onun perspektivinin hansı dərəcəyə hesablanmasıdır. Müasir dünya reallığının dərki və sürətlə gedən yeniləşmənin tərəf və təklif paketlərinin elmi mexanizmlərlə təhlili baş verənləri hansı səviyyədə ehtiva edir. Klassiklərin, neoklassiklərin, keynsçilərin, neokeynisçilərin düşüncələrində özünə yer almış iqtisadi sferanın prinsipləri, eləcə də sonrakı mərhələdə meydana çıxmış nəzəriyyələr, məsələn, məhsulun həyat dövrü nəzəriyyəsi, rəqabət üstünlüyü nəzəriyyəsi, kəsişən tələb nəzəriyyəsi ortaya qoyduğu konsepsiya ilə iqtisadi münasibətlərin tənzimlənməsini yeni dünya müstəvisində nə dərəcədə ifadə edir.

Müasir dünya reallığında yeni qlobal proseslərin dinamik mənzərəsi perspektivdə əlbəttə mühitin və reallığın özünə uyğun bir qanunauyğunluğu müəyyənləşdirir. Onun mexanizmlərində isə geoiqtisadi münasibətlərin mənzərəsindən əlavə inkişaf texnologiyası, spesifiklilik sxemləri boy göstərir. Geoiqtisadi amillərin (iqtisadiyyat üçün əlverişli olan sahə və ərazilər) uğurluluğunda iqlim şəraiti, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı üçün mövcud şərait, təbii ehtiyatlar, resursların düzgün istiqamətlənməsi və s. nə varsa hamısı bir bütöv olaraq geoiqtisadi mühitdə təmsil olunmanı müəyyənləşdirir.

Beynəlxalq iqtisadi münasibətlərin müəyyənlik dərəcəsi geoiqtisadi amillərin çəkisi və uğurluluq əmsalı ilə xarakterizə olunur. Məsələn, Xəzər-Qara dəniz hövzəsi geoiqtisadi məkan olaraq enerji ehtiyatlarının zənginliyi ilə diqqət önünə gəlir. Z.Bzejinski XXI əsrdə Qərbin geosiyasi, geoiqtisadi və hərbi-geostrateji maraqlarının əsas təmsil olunduğu bölgə Avrasiyanın Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz bölgəsidir" (5, 17). Çağdaş geoiqtisadi proseslər perspektivləri, iqtisadi məkanlarda baş verənlərin hansı keyfiyyətlərlə, nələrlə səciyyələnməsi məsələsini ortaya qoyur.  Transmilli dünya güclərinin və yerli dövlətlərin marağındakı Xəzər hövzəsi və Cənubi Qafqazın zəngin ehtiyatlarından yararlanmaq, iqtisadi-ticarət və digər əlaqələrdə uğurluluq təmin etməkdir.

Gedən proseslər, iqtisadi məkanda baş verənlər Avrasiyada geosiyasi maraqların güclənən istiqamətə yönləndiyini vurğulayırlar. Xəzər – Qara dəniz hövzəsi və Cənubi Qafqaz iqtisadi-ticarət əlaqələrinin perspektivnə və imkanlılıq dərəcəsinə görə daha diqqət önünə gəlir. Məhz transmilli güclər ona görə də buraya daha çox diqqət yetirirlər. Geoiqtisadi amillərin əhəmiyyəti mühüm tərəf kimi xüsusi çəkiyə malikdir. Xəzər-Qara dəniz və Cənubi Qafqaz müstəvisində baş verənlər, onun zənginlik səviyyəsi, iqtisadi proseslərin gedişi üçün münbitliliyi bu regiona marağı daha da artırmışdır. Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində geiqtisadi amillərin öncüllüyü qarşılıqlı faydalanmanın gərəkliliyini şərtləndirir. Burada qlobal iqtisadi məkan olaraq beynəlxalq iqtisadi proseslərin gedişi milli çərçivədən kənar yeni atributları, iqtisadi münasibətləri müəyyənləşdirir.

Bazarın geoiqtisadi məkanda birgə tənzimlənməsi iqtisadi çevrənin gəlirlilik və işləklik dərəcəsini müəyyənləşdirir. Heç şübhəsiz bu da qarşılıqlı təsir və aslılığı ortaya qoyur. "Təkraristehsal proseslərinin qarşılıqlı kəsişməsi, tam yeni texnologiyaların yaradılması, beynəlxalq mübadilənin "zehniləşdirilməsi"

– bütün bunlar dünya əmtəə münasibətlərində əks olunmaya bilməzdi. Yeni beynəlxalq ünsiyyət obyektləri və subyektləri yaranmışdır. Müasir xarici sahənin ən vacib məqamlarından biri də əmtəənin dəyişməsinin və dünya təsərrüfatı ünsiyyətinin təşkili – iqtisadi strukturunun təkamülünün qarşılıqlı təsir və qarşılıqlı asılılığının nəzərə alınmasıdır" (6, 33). Müasir beynəlxalq iqtisadi əlaqələrdə geoiqtisadi amillərin əhəmiyyəti qarşılıqlı əlaqə, asılılıq və anlaşma ilə reallaşır ki, bu da bazarların birgə tənzimlənməsinə əsas olur.

Azərbaycan və Polşa respublikaları kontekstində apardığımız təhlillər təkcə iki respublika arasında iqtisadi münasibətləri sərgiləməklə kifayətlənmir, burada həm də yeni-yeni xətlər, istiqamətlər, perspektivlər müəyyənləşir. Çünki Azərbaycan özünün uğurluluq əmsalı baxımından geiqtisadi məkan olaraq böyük vədlər verir. Xəzər hövzəsindəki karbohidratlar, neft sənayesinin inkişaf perspektivləri və onun əldə etdiyi nailiyyətlər, irihəcmli layihələr, qeyri-neft sahələrinin inkişafı üçün münbit şəraitin olması geoiqtisadi amillərin Azərbaycan səviyyəsində əhəmiyyətliliyini əsas edir. Məhz bu baxımdan Xəzər hövzəsi və Cənubi Qafqazın geoiqtisadi xarakteristikası beynəlxalq, regional müstəvisində böyük vədlər verir. Bu region öz əhəmiyyətlilik dərəcəsinə görə dünyanın daha çox diqqət mərkəzində dayanır.

XXI əsr bütün müstəvilərdə ictimai həyatda beynəlmiləlləşməni bir zərurət olaraq qoyur və proseslər də açıq şəkildə bunu əsas edir. Elmi-texnoloji, istehsal səviyyəsində olanlarla yanaşı, mədəni, mənəvi aspektdəkilər də bunu düşünməyi əsasa çevirir. Elmi texniki inkişaf şərtləri geoiqtisadi sferada yeniləşməni və bunlardan uğurla yararlanıb qarşılıqlı faydalanmanı gərəkli edir. Beynəl-miləlləşmə məhz elmi-texniki tərəqqinin yeniləşməsi, yeni uğurlar qazanması ilə dinamik xarakterlidir və geoiqtisadi məkanda hərəkətlidir. Yeni elmi nəaliyyətlər, texnoloji sahədə əldə edilənlər, əmək üsullarında baş verən dəyişikliklər sərhəd tanımır, ziqzaqvari gedişlərlə yeniləşməyə meyilliliyi şərtləndirir.

Elmi sferada əldə olunan nailiyyətlər bir qayda olaraq istehsala tətbiqi, birliklərin, iri istehsal sahələrinin genişlənməsini və yenilik müstəvisində işlərin təşkilini aktuallaşdırır. Əlbəttə burada mövcud istehsal strukturlarının yeniləşməsi də bir tərəf olaraq diqqət mərkəzində saxlanır.

Geoiqtisadi sferada beynəlmiləlləşmə bir geoiqtisadi məkanla digəri arasındakı əlaqə bağlantıları dünya təsərrüfat həyatındakı proseslərin ümumi bir sistemə oturuşmasını və ümumi gedişin ona hesablandığını düşünməyə əsas yaradır. Bunlar hamısı ümumdünya təsərrüfat həyatını şərtləndirir. “Belə şəraitdə beynəlmiləlləşmə xarici iqtisadi siyasət sahəsində hər hansı bir qərarın qəbulunda əsas oriyentirlərdən biri kimi çıxış edir. Məsələ beynəlxalq əmək bölgüsünə daxil olub-olmamaqda deyil, beynəlmiləlləşmənin yorucu məngənəsinə düşməmək məqsədilə beynəlxalq qarşılıqlı münasibətlərin hansı temp, hansı prioritet istiqamətlərdə və ən əsası hansı proporsional sahələr üzrə qurulmasındadır” (6, 36). Ona görə də beynəlxalq iqtisadi münasibətlərin uğurluluğunda geoiqtisadi amillərin düzgün müəyyənləşdirilməsi və onun perspektivasının dəqiqliyi daha çox vacib olan məsələdir.

Beynəlxalq iqtisadi əlaqələrin uğurluluğu geoiqtisadi məkanda milli iqtisadiyyatla beynəlxalq təsərrüfatın ortaqlıq nöqtələrinin tapılmasında, iqtisadi imkanların mahiyyətinin düzgün qiymətləndirilməsindədir. Çünki milli iqtisadiyyat beynəlxalq iqtisadiyyatın tərkib hissəsidir. Müasir dünya bunların geoqtisadi amillər müstəvisəndə əhəmiyyətliliyinə bağlanır. Geoiqtisadi amillərin əhəmiyyətliliyi kontekstində nəzərə alınmalı əsas istiqamətlər; a) təbii resursların ölkələr üzrə paylanmasındakı fərqliliklər, b) torpaq-iqlim şəraiti, c) ölkələrin coğrafi mövqeyi; ç) əmək resurslarının imkanlılıq səviyyəsi; d) ölkənin daxili bazarlarının potensiyası, e) səmərəlilik və iqtisadi maraqlar, ə) elmi-texniki tərəqqi. Bütün bunlar bir bütöv olaraq beynəlxaq iqtisadi əlaqələrin geoiqtisadi müstəvidə əhəmiyyətlilik dərəcə-

sini aydınlaşdırır. Onu da əlavə edək ki, beynəlxalq iqtisadi münasibətlərin formalaşması və inkişafının əsasında beynəlxalq əmək bölgüsüsünün mahiyyətinin dərk edilməsi və həyata keçirilməsi mexanizminin düzgünlüyü dayanır. Məlum olduğu kimi, "beynəlxalq rəqabətdə ölkələr (onların müəssisələri) üstünlüklərə malik olduğu sahələrdə qalib gəlir, üstünlüklərə malik olmadıqları sahələrdə isə məğlub olurlar və müvafiq sahələr istiqamətində beynəlxalq səviyyədə ixtisaslaşırlar, digərlərindən imtina edirlər. Beləliklə, ölkələrin bu və ya digər sahələr üzrə BƏB-də ixtisaslaşması əvvəlcə BİM-in ilk forması olan beynəlxalq ticarətin, BƏB-in dərinləşməsi isə sonradan BİM-in qalan formalarının təşəkkülünə səbəb olur, onların inkişafı üçün ilkin ünsürlər yaradır" (4, 8-9). Beynəlxalq əmək bölgüsündə ölkələrin ixtisaslaşması, müəyyən sahələr üzrə ciddi üstünlüklərə malik olması beynəlxalq ticarət sahəsində uğurlu bir sistemin düzənlənməsi ilə şərtlənir və bu dərinləşmə beynəlxalq iqtisadi münasibətlərin digər formalarının təşəkkülü və inkişafı üçün başlanğıc olur.

Müasir dünya beynəlxalq müstəvidə geoiqtisadi proseslərin sürətli inkişafı, yeni məzmun və mahiyyət kəsb etmələri ilə xarakterizə olunur və əmək bölgüsünün dərinləşməsini bir problem olaraq daha sürətlə və çevik həyata keçirilməsini aktuallaşdırır. Çünki "beynəlxalq əmək bölgüsünün dərinləşməsi ayrı-ayrı ölkələrdə milli iqtisadiyyatın ixtisaslaşma səviyyəsini yüksəltmək və bununla da, mövcud iqtisadi resurslardan daha səmərəli istifadə etməklə istehsalın həcmini artırmaq imkanı yaradır. Belə ki, xarici iqtisadi əlaqələrin inkişafı nəticəsində ölkələr, nisbətən səmərəli istehsal edə bildiyi məhsullar üzrə ixtisaslaşması və bu məhsulları nisbətən səmərəsiz istehsal etdikləri məhsullara mübadilə etməsi nəticəsində əlavə gəlir əldə edə bilirlər. Bundan başqa, idxal inkişaf üçün zəruri olan maşın və avadanlıqların, xammal və materialların artmasına, ixrac isə daxili bazar məhdudiyyətlərini aradan qaldırmağa şərait yaradır.

Həmçinin, xarici investisiyanın cəlb edilməsi iqtisadi inkişaf üçün zəruri olan investisiya qoyuluşlarının həyata keçirilməsi sahəsində məhdudiyyətləri azaltmağa imkan verir" (2, 3). Beynəlxalq iqtisadi sfera iqtisadi əlaqələrin dərinləşməsini şaquli və üfiqi müstəvidə bir zərurət kimi getdikcə daha çox aktuallaşdırır.

Dünyanın bizim dərk etdiyimiz və texnalogiyaların belə sürətlə inkişaf etməsi səviyyəsində elə də əlçatmazlığı nəzərə çarpmır, əksinə dünya zənginliyini mənimsəməklə ondan daha uğurlu yararlanmanı gərəkli edir. Beynəlxalq iqtisadi münasibətlər, əmək bölgüsü üzərində aparılan təhlillər iqtisadi ixtisaslaşmanı, bağlantıları, qarşılıqlı yararlanmanı, birgə layihələrin hazırlanmasını əsasa çevirir və bunsuz problemlərin həllini mümkünsüz edir. Ona görə də milli iqtisadiyyatlarda ixtisaslaşma səviyyəsinin yüksəldilməsi, mövcud iqtisadi resurslardan yararlanmaq kimi ciddi məsələlər öncüllük təşkil edir.

Geoiqtisadi sferada bütün proseslərin reallığa hesablanması, strateji hədəflərin aydınlığı və ehtiyatlılıq bir bütöv olaraq dərki və onun nəzərə alınması vacibdir. "Qeyd etmək lazımdır ki, dünya təsərrüfat sistemində gedən qlobal proseslər ölkənin beynəlxalq əmək bölgüsündə malik olduqları üstünlüklər, milli iqtisadiyyatlaırn inkişaf potensialı və konkret şəraitin xüsusiyyətləri nəzərə alınmaqla məqsədyönlü xarici iqtisadi siyasətin aparılması lazım gəlir. Bu isə öz növbəsində beynəlxalq hüquq normalarına və mütərəqqi dünya təcrübəsinə əsaslanan dünya təsərrüfat sisteminin, beynəlxalq iqtisadi münasibətlərin və milli iqitsadiyyatın inkişaf xüsusiyyətlərini və perspektivlərini nəzərə alan səmərəli xarici iqtisadi fəaliyyətin, o cümlədən xarici ticarət fəaliyyətinin mükəmməl və çevik dövlət tənzimlənməsi sisteminin yaradılmasını nəzərdə tutur" (7, 3-4). Milli iqtisadiyyatın inkişaf potensialı dünya təsərrüfat sistemində gedən qlobal proseslərlə bağlanır, ölkələrin beynəlxalq əmək bölgüsündə malik olduqları üstünlüklər onlardan sistemli yararlanmanın vaci-

bliyini gərəkli edir. Konkret şəraitin nəzərə alınması, geoiqtisadi sferanın özünün uğurluluq dərəcəsi, xarici ticarət dövriyyəsindəki artım tempi dövlətlərin iqtisadi maraqlarında müsbət tendensiyanı ifadə edir.

Xəzər hövzəsi, Qərb-Şərq, Şimal-Cənub geoiqtisadi məkanında baş verən proseslər birbaşa həmin ərazilərdəki geosiyasi mənzərənin atlasına da təsir edir. Xəzər hövzəsindəki zəngin karbohidratlar, yeraltı sərvətlərin, enerji resurslarının əhatəliliyi, daşımaların həyata keçirilməsi üçün münbitlik şəraiti dünya ölkələrinin artan marağını təbii edir. Burada digər istiqamətdə torpaq-iqilm şəraiti, Cənubi Qafqaz ölkələrinin coğrafi mövqeyi, əmək resurslarının imkanlılıq səviyyəsi, ölkənin daxili bazarlarının potensiyası, səmərəlilik və iqtisadi maraqlar və s. kimi ciddi amillər mühüm rol oynayır. Bütün bunlar kəsişən maraqlarda geoiqtisadi qarşıdurmalara, maraqların toqquşmasına, mövqe üstünlüyünün əldə olunması kimi amillərə də yol açır.

Geoiqtisadi vəziyyətin düzgün qiymətləndirilməsi bütün proseslərə, milli iqtisadiyyatların, rifahın yaxşılaşmasına təsir edir. Məlum olduğu kimi, "beynəlxalq iqtisadi miqyasda əlaqələrin inkişafı iki əsas şərtlə əsaslanır: birincisi, xarici iqtisadi əlaqələrin obyektiv zəruriliyinə; ikincisi isə həmin əlaqələrin qarşılıqlı faydalı olmasına.

Dünya təcrübəsi göstərir ki, dövlətlər arasındakı iqtisadi əlaqələr daim artır və genişlənir. Bu prosesin obyektiv əsasları aşağıdakılardır:

-ümumdünya əmək bölgüsü;

-təsərrüfat həyatının beynəlmiləlləşməsi.

...Müasir dövrdə xarici iqtisadi inkişafda xarici iqtisadi əlaqələrin əhəmiyyəti və rolunun nəzəri və metodoloji əsasları tədqiq edilərkən müəyyən edilmişdir ki, Azərbaycan beynəlxalq iqtisadi münasibətlər sisteminə aktiv inteqrasiya etmək üçün böyük potensial imkanlara malikdir" (3, 8). Dövlətlər arasında əlaqələrin artma tendensiyası geoiqtisadi amillərin əhəmiyyətliyi

üzərində qurulur.

Şərq-Qərb, Şimal-Cənub kəsişmə nöqtələrində transmilli maraqların, nəqliyyat-komunikasiya sahəsindəki imkanların mövcud vəziyyəti baxımından dünyanın nəzər-diqqətini özünə yönəltmişdir. Belə bir zənginliyin ümumi mənzərəsi geosiyasi və geostrateji hədəfləri də öncülləyir, hətta böyük güc mərkəzlərinin maraqları çevrəsində geoiqtisadi çətinliklərin baş verməsi və yaşanması halları da istisna edilmir. Onu da əlavə edək ki, "geoiqtisadi parametrlər üzrə qiymətləndirmə aparsaq Xəzər hövzəsindəki düşərgələrarası rəqabətin əsas hədəfləri ilk növbədə:

-Xəzər hövzəsinin enerji ehtiyatlarına sahiblənmək, yaxud ondan istifadə sahəsində üstün mövqeyə malik olma;

-hövzənin enerji resurslarının istehsalı və dünya bazarlarına çıxarılmasında iştirak;

-hövzənin enerji istehsalında istifadə edilən texnologiya və maliyyə vəsaitinə sahiblik, yaxud malik olmaq;

-hasilatın pay bölgüsü;

-bölgənin enerji ixrac marşrutlarının və nəqliyyat-kommunikasiya sistemlərinin seçiminə təsir etmək və onların fəaliyyətinə nəzarət;

-neft-qaz istehsalı, istehlakı və ixracı sahəsindəki digər geoiqtisadi dividentlərə sahib olma və s. ibarətdir" (5, 13). Göründüyü kimi, beynəlxalq iqtisadi əlaqələrdə geoiqtisadi amillərin əhəmiyyəti xüsusi funksiyonal xarakterliliyi, müstəsna mahiyyəti ilə diqqəti cəlb edir. Xəzər hövzəsi ölkələri timsalında verdiyimiz bu nümunə bütünlüklə iqtisadi münasibətlərdəki mövcud mənzərəni, qarşılıqlı yararlanmanı, texnalogiyalardan istifadənin uğurluluq əmsalını, problemlərin həlli istiqamətini aydınlaşdırır. Düzdü, burada mövqe üstünlüyü məsələsində maraqların toqquşması faktları da vardır və qaçılmazdır.

Ümumiyyətlə, müasir qloballaşma milli iqtisadiyyatların beynəlxalq müstəvidə yaxınlaşmasını, sərvətlərin bölüşdürül-

məsində, iqtisadi nizamın yaradılmasında, texnologiyaların tətbiqində, əmək bölgüsündə vahid sistemdən çıxış etməni zəruri edir. Ayrıca bir ölkənin bütün problemlərini ödəməsi, ehtiyacların daxili imkanlar hesabına aradan qaldırılması mümkünsüzdü. Məhz bu baxımdan beynəlxalq iqtisadi münasibətlər çərçivəsində problemlərin həlli geoiqtisadi amillərin əhəmiyyətliliyi səviyyəsində bir mövqedən çıxış etməyi şərtləndirir. Təbii resursların ölkələr üzrə paylanmasındakı fərqliliklər, torpaq-iqlim şəraiti, ölkələrin coğrafi mövqeyi, əmək resurslarının imkanlılıq səviyyəsi, ölkənin daxili bazarlarının potensiyası, səmərəlilik və iqtisadi maraqlar, elmi-texniki tərəqqi və s. kimi amillər geoiqtisadi sferanın əhəmiyyətlilik dərəcəsini bir bütöv olaraq aydınlaşdırır.

## ƏDƏBİYYAT

1. Abdullayev S. Azərbaycan Respublikasının xarici ticarət sahəsində qanunvericiliyinin təhlili. Bakı: Adiloğlu, 84 s.

2. Bölek Uğur Arif. Azərbaycan və Türkiyə arasında investisiya əməkdaşlığının inkişaf problemləri. Avtoreferat (iqtisadi elmlər üzrə fəlsəfə doktoru). Bakı, Azərbaycan Dövlət İqtisad Universiteti, 2014, 21 s.

3. Eyvazov A. Azərbaycan və Ukrayna respublikaları arasında iqtisadi əlaqələrin təkmilləşdirilməsi istiqamətləri. Avtoreferat (iqtisad elmləri namizədi). Bakı, İqtisad İnstitutu, 2008, 24 s.

4. Gənciyev G. Beynəlxalq iqtisadi münasibətlər: müasir vəziyyət və inkişaf problemləri. Bakı: Elm, 2005, 260 s.

5. Həsənov Ə. Xəzər –Qara dəniz hövzəsi və Cənubi Qafqazın gfeoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti. Bakı: Zərdabi LTD MMC, 2016, 296 s.

6. Koçetov E.Q. Geoiqtisadiyyat. Bakı, İqtisad Universiteti, 2015, 438 s.

7. Köçərli Anar. Müasir şəraitdə xarici ticarətin inkişafının

nəzəri problemləri. Avtoreferat (iqtisadiyyat üzrə fəlsəfə doktoru). Bakı: İqtisad Universiteti, 2011, 24 s.

8. Raymond Taras. Consolidating Democracy in Poland. Boulder, CO: Westview Press, 1995, 288 p.

9. Węcławowicz Gregorz. Contemporary Poland: Space and Society. Boulder, CO: Westview Press, 1996, 208 p.

## BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN MƏZMUNU VƏ NƏZƏRİ-KONSEPTUAL MƏNZƏRƏSİ

Beynəlxalq iqtisadi münasibətlər qloballaşmanı, dinamik beynəlxalq rəqabəti, ölkələrin beynəlxalq əmək bölgüsündə yerini və onun fəallıq dərəcəsini zəruri edir. Ona görə də əsas olan işlərin necə təşkili, bu sistemlə ayaqlaşmanın uğurlu variantlarının müəyyənləşməsi və ondan yararlanmadır. Azərbaycanın müstəqilliyindən sonra ölkədə baş verən yeniləşmə, kəmiyyət və keyfiyyət dəyişmələrinin meyar və prinsipləri məhz ciddi elmi-nəzəri bazaya əsaslanır. Məlum olduğu kimi, ölkənin iqtisadi artımının uğurluluq dərəcəsini, inkişaf tendensiyasını xarici iqtisadi fəaliyyət təşkil edir və bu da forma rəngarəngliyi, iştirakçı sayının dinamikliyi ilə müşahidə olunur. Məsələn, əgər Azərbaycan 2000-ci ildə dünyanın 122 ölkəsi ilə xarici iqtisadi əlaqələr qurmuşsa, bu göstərici artaraq 2012-ci ildə 156-ya çatmışdır. Sonrakı dövrlərdə də bu dinamika qorunmuş, artıq ikitərəfli iqtisadi əməkdaşlıq müstəvisində ciddi uğurlar əldə edilmişdir.

İqtisadi münasibətlərin meyar və prinsipləri ciddi elmi-nəzəri qanunauyğunluqlara, tarixi təcrübəyə, klassik siyasi iqtisad məktəbinin görkəmli nümayəndələrinin dediklərinə əsaslanır. U.Petti, A.Smit, D.Rikardo XVIII əsrin sonu, XIX əsrin əvvəllərində xarici iqtisadi fəaliyyətin ölkənin gələcək inkişafında əsaslı rol oynadığını təhlillərində təfərrüatlı şərh etmişlər. Klassiklərin, neoklassiklərin (D.Gilder, A.Laffer, M.Feldstayn,

R.Xoll, C.Perri), eləcə də monetaristlərin (M.Fridmen, E.Felps, F.Keyqen, D.Meyzelman, K.Brunner, A.Moltser), institusional-sosioliji məktəbin (T.Veblen, C.Danlop, C.Helbreyt, L.Ulman) yanaşmaları, onların baxışlarındakı fərqlilik beynəlxalq iqtisadi münasibətlərin inkişaf tendensiyasını aydınlaşdırmağa, alternativlərin ortaya çıxmasına şərait yaradır.

Beynəlxalq iqtisadi münasibətlərin zəruriliyində vahid sistemin formalaşması bütün proseslərin uğurluluğuna təkan verən amildir. Burada əmək bölgüsündən tutmuş innovasiyaların yeni variantlarının tətbiqinə qədər bir müxtəliflik müşahidə olunur. Ona görə də dünya təsərrüfatı özü sistemin bütün parametrlərdə bütövləşməsini, bağlantıların uğurluluq əmsalının müəyyənləşməsini aktlaşdırır. Əlbəttə burada əmək bölgüsünün funksional çəkisi daha aparıcı, obyektiv əsas olandır. Beynəlxalq əmək bölgüsü, iqtisadi əlaqələrin müvəffəqiyyətli həyata keçirilməsi qarşılıqlı faydalanmanı, beynəlxaq iqtisadi münasibətlərin zəruruliyini ortaya qoyur.

Beynəlxalq iqtisadi münasibətlər heç şübhəsiz ayrı-ayrı ölkələrin iqtisadiyyatının qarşılıqlı əlaqə və asılılığı üzərində formalaşır. Ona görə də vahid iqtisadi əlaqələrin sxemlərinin müəyyənləşməsi, əlaqələrin bağlılıq dərəcəsinə nəzarətin gücləndirilməsi dinamikanın stixiyasını açıqlayır. "İnnovasiyaların tətbiqi vasitəsilə elmin inkişaf səviyyəsi və onun texnoloji tətbiqi dərəcəsi, istehsal prosesinin ictimai kombinasiyası, istehsal vasitələrinin qədəri və səmərəliliyi təbii şəraitdə müəyyən olunur. Texnikada, texnologiyada, iş qüvvəsində baş verən ciddi dəyişikliklər, elmin ən yeni kəşflərinə əsaslanır. Bu kəşflər yeni əmək alətləri və əmək vasitələri, adamların yeni iş təcrübəsi şəklində maddi istehsala daxil olaraq məhsuldar qüvvəyə çevrilir" (8, 7). Beynəlxalq iqtisadi münasibətlərin nəzəri prinsipləri özlüyündə iqtisadi strategiyanın məzmununu, qarşıya qoyulan məqsədin davamlılığını, perspektivasını hədəfləyir.

İqtisadi münasibətlərin dialektikasında milli iqtisadiyyatın

inkişaf etdirilməsi son olaraq dünya təsərrüfatının beynəlmiləlləşməsinə gətirib çıxarır. Onu da əlavə edək ki, “dünya təsərrüfatı uzun tarixi inkişaf prosesinin nəticəsidir. Əsasən son əsrdə vahid sistem kimi formalaşan bu təsərrüfat sistemi sosial iqtisadi və ictimailəşmə səviyyəsinə görə dünya ölkələrinin müxtəlif strukturlarını özündə birləşdirir” (6, 603).

Məlum olduğu kimi, “Beynəlxalq iqtisadi təşkilatlar ticarət və iqtisadiyyat sahəsində dövlətlərarası çoxtərəfli münasibətlərin tənzimlənməsinin mühüm vasitəsidir. Bunun üçün onların razılaşdırılmış məqsədi, özünün daimi orqanları, təşkilati normaları, o cümlədən nizamnamələri, qərar qəbulu qaydası və s. vardır. Beynəlxalq tənzimləmədə təsir üsulları aşağıdakılardır:

-Beynəlxalq təşkilatların işləyib qəbul etdikləri və bütün üzv dövlətlər üçün məcburi olan qətnamə və direktivlər;

-hökumətlərarası səviyyədə razılaşmalar, məsləhətləşmələr və əməkdaşlıq.

Tənzimləmə bütövlükdə maraqlı dövlətlər arasında dünya təsərrüfat əlaqələrinin daha da gücləndirilməsinə yönəldilmişdir” (3, 13). Burada iqtisadi münasibətlərin reallaşmasının ümumi prinsipləri vardır ki, bu da əlaqələrin dinamik inkişafının təmin edilməsinə hesablanmışdır. İqtisadi münasibətlərin xüsusiyyətlərinin aydınlaşması və onun genetik məzmununun müəyyənləşərək reallıq əsasında nizamlanması birbaşa zəruriliyə bağlanır.

Qarşılıqlı yaxınlaşma, əməkdaşlıq, qarşılıqlı maraqların təmin edilməsi özlüyündə iqtisadi müstəqilliyin gərəkliyini və bu müstəqillik formatında işlərin sistemliliyini yaradır. Bunlar ümumiyyətlə beynəlxalq iqtisadi münasibətlərdə həm də qarşılıqlı əlaqə və asılılığa bağlanır. Ayrı-ayrı ölkələrin milli təsərrüfatlarının inkişaf etdirilməsi, onların imkanlılıq dərəcəsinin nəzərə alınması qarşılıqlı anlaşmada və əməkdaşlıqda ciddi faktora çevrilir. Beynəlxalq iqtisadi münasibətlərin dilalektikası klassiklərin işləyib hazırladığı qanunauyğunluğa hesablanır. Əlbəttə burada ayrı-ayrı məktəb və nəzəriyyələrin fərqli baxışları,

başqa mövqelərdən yanaşmaları da vardır. Məsələ məqsədyönlülüyə, işlərin məqsədyönlü aparılmasına və həyata keçirilməsinə, dünya təsərrüfatının daha çox beynəlmiləlləşməsinə bağlanır. Milli iqtisadiyyatlar xarici aləm üçün daha çox açılır və beynəlmiləlləşməyə doğru gedən yolun gərəkliyini aydınlaşdırır.

Əmək bölgüsünün dərinləşməsi beynəlxalq iqtisadi münasibətlər səviyyəsində ciddi prinsiplərin müəyyənləşməsini və həyata keçirilməsini əsas edir. A.Smit əmək bölgüsü ilə bağlı düşüncələrini verərkən xüsusi olaraq vurğulayır ki, "əmək bölgüsü nəticəsində, bütün fərqli sənət sahələrində  böyük məhsul artımı, yaxşı idarə olunan cəmiyyətlərdə ona səbəb olur ki, ümumi sərvət öz-özünə əhalinin ən aşağı  təbəqələrinə çatır" (2, 119). Beynəlxalq iqtisadi münasibətlərin zəruriliyində dayanan məsələlərdən biri böyük məhsul artımının təmin olunması və onun ümumi sərvət kimi əhalinin ən aşağı təbəqələrinə çatmasının təşkilidir. A.Smitin bir dövlət, ölkə səviyyəsində dedikləri daha geniş sferada beynalxaq iqtisadi münasibətlər kontekstində dövlətləri əhatə edir. Burada digər tərəf istehsal vasitələrinin bərabər şəkildə bölünməməsi ilə bağlıdır, heç şübhəsiz bunun özü beynəlxalq aləmə inteqrasiyanı, qarşılıqlı əlaqələr müstəvisində yararlanmanı, təbii bağlantıları, ehtiyacların ödənməsini zəruriləşdirir. Bu məsələlərə diqqət yetirən J.Harvey vurğulayır ki, "istehsal vasitələri bütün dünyaya bərabər şəkildə bölünməmişdir. Bir ölkənin torpağı bol ola bilər, digərinin ixtisaslaşmış işçi qüvvəsi. Müxtəlif ölkələr kapital, neft, mineral ehtiyatlar üzrə ixtisaslaşmış əmək və tropik iqlim kimi digər faktorlara müxtəlif dərəcədə sahibdirlər.

Həmçinin bu vasitələr asanlıqla bir ölkədən digərinə köçürülə bilməz. İqlim, torpaq və mineral ehtiyatlar təbii ki, səciyyəvidir. İşçi qüvvəsi beynəlxalq səviyyədə milli sərhədlər daxilində olduğundan daha çox hərəkətsizdir.

İstehsal vasitələrinin yerdəyişməsi çətin olduğundan buna alternativ olan faktorlarla düzəldilən əmtəələrin hərəkəti qəbul

edilmişdir. Beləliklə, ticarət şəraiti uyğundursa ölkələrin ən yüksək müqayisəli üstünlükləri əldə etdikləri əmtəələrin istehsalında ixtisaslaşması və onları başqa ölkələrin əmtəələrinə dəyişməsidir" (5, 542-543).

Azərbaycan və Polşa Respublikaları kontekstində apardığımız tipoloji təhlillər, eləcə də bu istiqamətdə irəli sürülən nəzəri mülahizələr istehsal vasitələri, ticarət şəraitinin uyğunluğu, əmtələrin istehsalı üzrə ixtisaslaşma kimi məsələlər beynəlxalq iqtisadi münasibətlərdə ciddi tərəflərdir. İstehsal vasitələrinin yerdəyişməsinin çətinliyi şəraitində təbii ki, ticarət şəraitinin uyğunluğu əsaslı fakta çevrilir. Dunya iqtisadi sferasında gedən proseslər və iqtisadi fikrin görkəmli nəzəriyyəçilərinin apardığı təhlillər beynəlxalq iqtisadi münasibətlərin zəruriliyində şərait uyğunluğunu həmişə diqqət mərkəzində saxlamışlar. Bərpa olunmayan ehtiyatlara malik ölkələrdəki mənzərə ilə bərpa olunan ehtiyatlara malik ölkələr arasındakı vəziyyətin tarazlaşması və qarşılıqlı yararlanma qloballaşmanın bir proses olaraq davamlılığında əsasdır.

Müasir dünya indi əlaqələrin daha çox uğurluluğunu, əhalinin rifah halının yaxşılaşmasını, yeni bazarların yaranması və dolğunlaşması gərəkliyini ortaya qoyur. Ona görə də bütün proseslər beynəlxalq ticarətin üstünlüyünü bir xətt kimi diqqət mərkəzinə gətirir. Çünki beynəlxalq ticarətin üstünlüyü həm də ixtisaslaşmaya doğru gedən yolu əsas edir. Heç şübhəsiz, ölkələr iqtisadi münasibətlərin zəruriliyində olanları, imkanları və müxtəlif ehtiyacları və onun reallaşması ilə təmsil olunur. Burada digər məsələ mənfəətin əldə olunması ilə bağlıdır. Ümumiyyətlə, iqtisadi sferada bütün olanlar məfəətin əldə olunmasına hesablanır ki, bu da ixtisaslaşmada təbii proses kimi səciyyələnir. Bütün bunlar isə müqayisəli dəyər qanununun prinsipləri, ortaya qoyduğyu nəzəri prinsiplərlə müəyyənləşir.

Bazarı genişləndirmək mənfəətlilik dərəcəsinin artırılmasına gətirib çıxarır. Beynəlxalq ticarət öz fəaliyyət sistemində bazarın

genişləndirilməsində maraqlıdır və bununla tələbat əmsalı və onun nizamlanması müqayisəlilik prinsipini bir meyar kimi qarşıya qoyur. Beynəlxalq iqtisadi münasibətlərin düzgünlüyündə ticarət böyükmiqyaslı istehsal prosesini gərəkli etməklə mənfəət dərəcəsini artırır. Təklif şərtlərində ehtiyacın nəzərə alınması və mənfəətliliyin çoxalması ilə dəyişikliklər yaranır. Burada digər əsas olan istiqamətlər, daha doğrusu, iqtisadi münasibətlərin zəruriliyində əhəmiyyətlisi ticarət rəqabətliliyidir. Rəqabətliliyin mövcud olduğu və artdığı şəraitdə (mühitdə) heç şübhəsiz effektlilik ortaya çıxır. Çünki rəqabətlilik effektivliliyi zəruri edir, seçim şəraitini artırır. Onu da əlavə edək ki, beynəlxalq iqtisadi münasibətlərin düzgünlüyü, qurulmasının uğurluluğu siyasi mənfəətliliyi də zəruri edir. İqtisadi münasibətlərin dinamikası siyasi münasibətlərin müsbət məcrada inkişafına istiqamət verir.

Məlum olduğu kimi, "dəyər və istehsal nəzəriyyəsinin əksər traktatları ilk növbədə işçi ehtiyatlarının verilmiş həcminin müxtəlif sferalar arasında bölüşdürülməsinə və bu miqdarda resursların istifadəsini ehtimal etməklə onların nisbi mükafatlanmasını, habelə məhsullarının nisbi dəyərini müəyyənləşdirən şəraitlərin aydınlaşmasına həsr olunmuşdur" (7, 4). Burada mənfəət və kapitalın tarazlılıq dərəcəsinin mütənasibliyi mühüm rola malikdir. Çünki işçi ehtiyatlarının dərəcəlilik səviyyəsi ilə onların müxtəlif səviyyələrdə bölüşdürülməsi, resursların istifadəsi biri-digərindən kənarda olan məsələlər deyildir. Ona görə də bazarın tənzimlənməsində bütün komponentlər təbii prosesi və həm də uğurlu idarə olunmanı əsas edir. Dəyər və istehsal nəzəriyyəsinin genetik məzmunu, onun spesifikası işçi ehtiyatları ilə müxtəlif sferalar arasında bağlantıların gərəkliyini aparıcı məqama çıxarır.

Ümumiyyətlə, "mənfəət hər hansı bazarda kapitalın istifadəsi üçün ödənilən qiymət olmaqla elə bir tarazlılıq səviyyəsinə meyil edir ki, həmin mənfəət normasında bazardakı kapitala olan

ümumi tələb yenə bu norma şəraitində bazara çıxan ümumi fonda bərabər gəlir. Əgər bizim nəzərdən keçirdiyimiz bazar kiçikdirsə deyək ki, ayrıca bir şəhər və ya müttəfiqi (inkişafda olan) ölkədə olan ayrıca bir sahədirsə - onda bu bazardakı kapitala yüksələn tələb, dərhal ətraf rayonlardan və ya başqa sahələrdən yaranaraq gələn yüksəliş təkliflə qarşılaşacaq. Yox, əgər biz bütün dünyanı və yaxud bütöv böyük bir ölkəni kapitalın vahid bazarı kimi nəzərdən keçiririksə, onda kapitalın ümumi təklifini mənfəət normasının dəyişməsi ilə sürətli və əhəmiyyətli dərəcədə dəyişikliyə uğrayan bir hadisə kimi təhlil edə bilmərik" (7, 208-209). Ona görə də beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində, mənfəətlilik dərəcəsinin qorunuşunda təlabatın nəzərə alınması mühüm tərəfdir.

Milli iqtisadiyyatların bazar xarakteri beynəlxalq iqtisadi münasibətlərdə bir tərəf kimi müəyyənləşir. Beynəlxalq mübadilə nəticəsində əmtəə, xidmət, kapital, işçi qüvvəsi və s. axınları ilə dünya bazarı formalaşır. Burada daimi sistematiklik yaradan, daha çox isə kəsb edən alqı-satqı prosesləri müəyyən hədlər və sərhədlər daxilində aparılır ki, onun tənzimlənməsi tələb və təkliflə nizamlanır. İstehsalçılar, satıcılar və alıcılar arasında gedən dalğavari proses bütünlükdə rəqabətlə, uğurluluq əmsalının dərəcəsi ilə ölçülür. Rəqabətə davamlılıq isə məhsulun keyfiyyət dərəcəsini, tələbin hansı meyarlarla ortaya çıxmasını, uyğunluğu şərtləndirir. Ona görə də beynəlxalq iqtisadi münasibətlərin xüsusiyyətlərində bazarın ümumi mənzərəsi əsasında şərtlənən nə varsa hamısı öz ifadəsini tapır. İqtisadiyyatın xarakteristikasında inhisarlaşma bazarın özündən doğan bir proses kimi nəzərə çarpır. Burada həm istehsal, həm də satış inhisarlaşması baş verir. Beynəlxalq iqtisadi münasibətlərin ümumi məzmununda istehsalçının məhsulundakı keyfiyyət dərəcəsi, tələb və təklifdən gələnlər inhisarlaşmanı, daha doğrusu, bazarda mövqeyi müəyyənləşdirir.

Milli sərhədlərdən kənara çıxan və kənarda baş verən iqtisadi

proseslər geniş ərazini, daha böyük bazarları ehtiva edir. Bununla da mübadilə həcmi artır, subyektlərin sayı isə müqayisəyə gəlməz səviyyəyə qalxır. Çünki beynəlxalq əmək bölgüsü büynəlxalq iqtisadi münasibətlərin gərəkliyi ilə şərtlənir. "BƏB ona görə təşəkkül tapmışdır ki, istənilən ölkə çərçivəsində tələb olunan əmtəələrin bütün nomenklaturasının istehsalını yüksək texnoloji səviyyədə təmin etmək praktiki cəhətdən qeyri-mümkündür. Ona görə də ölkələr müəyyən üstünlüyə malik olduqları sahələrdə ixtisaslaşmış və həmin məhsulları ixrac etmişlər. Üstünlüyə malik olmadıqları sahələrin məhsullarını isə onlar idxal etməyə başlamışlar. Nəticədə ayrı-ayrı ölkələrin  BƏB sistemində müxtəlif istiqamətlərdə ixtisaslaşmaları beynəlxalq mübadiləni zəruri etmiş, beləliklə də BİM-in əsası qoyulmuşdur" (4, 17).

Təzə və modernləşdirilmiş beynəlxalq əmək bölgüsündə sahəviləşmə və yeni-yeni keyfiyyət göstəriciləri ilə təminata meyllənmə müxtəlif təklifləri, nəzəri müşahidələrin praktik həllini müəyyən edir. Çünki heç şübhəsiz beynəlxalq iqtisadi münasibətlər beynəlxalq əmək bölgüsündəki fərqliliyin üzərində qurulmuşdur. Belə ki, heç bir ölkə özündə bütün ehtiyaclarının təminatçısı olmaqdan uzaqdır, hətta bu mümkünsüzdür. Ona görə də mövcud ehtiyacların ödənilməsi, aradan qaldırılması üçün xarici iqtisadi əlaqələrə, ehtiyacların təmin olunmasına zərurət yaranır və yüksək texnoloji səviyyədə fəaliyyət göstərən bazarlara üz tutulur. Burada ölkələrin ayrı-ayrı sahələr üzrə ixtisaslaşması prosesi baş verir və ixrac başlayır. Üstünlüyə malik olduqları məhsulların ixracı və malik olmadıqlarının isə idxalı başlayır və beləliklə, qarşılıqlı iqtisadi münasibətlərin beynəlxalq səviyyədə təbii nizamlanması prosesi gedir. Burada onu da nəzərə alaq ki, bir neçə ölkə səviyyəsində ixtisaslaşmanın, yəni ixrac prosesinin baş verməsi də mümkündü. Müqayisəli üstünlüklə səciyyələnən bu proses bazarda rəqabəti, keyfiyyət dərəcəsinin yaxşılaşdırılmasını, beynəlxalq iqtisadi münasibətlərin zəruriliyində ciddi parametrlərin gərəkliliyini və onun gözlənməsini

diqqətə gətirir. Burada "işçilərin ixtisas səviyyəsi, ölkələr arasında əmək haqqında olan fərqlər və s. göstərmək olar. Bunları nəzərə almaqla isveçli alimlər Eli Hekşer və Bertir Olin iki istehsal amilinə kapitalın və əməyin istifadə olunduğu BƏB modelini işləyib hazırladılar.

Onların modelinin əvvəlki nəzəriyyələrdən fərqi ondadır ki, əgər A.Smit, D.Rikardo BƏB və BİM probleminə yalnız ölkələrin təbii, iqlim fərqlərinə əsaslanan eyni əmtəənin istehsalına çəkilən müxtəlif əmək sərfi aspektindən yanaşırdılarsa, burada artıq qeyd etdiyimiz kimi iki ayrı-ayrı istehsal amilinin (mahiyyət etibarı ilə isə çoxsaylı amillərin) həmin proseslərə təsiri öyrənilir" (4, 15). Burada əlbəttə əmək və kapital resurslarının azlığı və yaxud da çoxluğu məsələsi ortaya çıxır və nəticədə əməktutumlu və kapitaltutumlu əmtəə üstünlükləri yaranır. Ölkələr bu müstəvidən çıxış etməklə beynəlxalq əmək bölgüsündə təbii bir qanunauyğunluğa otururlar. Beynəlxalq iqtisadi əlaqələrin iştirakçısı olan ölkələrin hansı fərqliliklə görünüşü məsələsi bu prosesdə aktuallıq kəsb edir. A.Smit vurğulayırdı ki, "istehlak bütün istehsal prosesinin yeganə nəticəsi və məqsədidir və istehsalçının marağı ona yönəlməlidir ki, istehlakçının ona zəruri ehtiyacı nə dərəcədədir" (2, 119).

Məqsədə müvafiqlik istehlak və istehsal arasında proseslərin ümumi mənzərəsini tarazlayır. Burada həm də ölkələr öz istehsal güclərini və iqtisadi potensiallarını ortaya qoymağa imkan qazanır. Sahə iqtisadiyyatı ölkələrin yararlanması üçün əsas olur. Məsələn, hansısa zəif və güclü ölkə öz iqtisadi potensialından yararlanır və beynəlxalq əmək bölgüsündə onun ortaya qoyulması üçün imkan qazanır.

Beynəlxalq iqtisadi münasibətlərin nəzəri əsaslarında və iqtisadi münasibətlərin zəruriliyində baş verənlər bütün mahiyyəti ilə perspektivi, ciddi müqayisələri müəyyənləşdirir. Əlbəttə iqtisadi münasibətlərin nəzəri əsaslarında keynsçilər, klassiklər, eləcə də neokeynsçilər, neo-klassiklər öz prinsipial mövqeləri və

yanaşmaları ilə sonrakı dövrlərdə müxtəlif təhlil faktına çevrilmiş və nəzəri-elmi şərhini tapmışdır. İqtisadi münasibətlərin qarşılıqlı faydaya, kapitaldan maksimum yararlanmaya, istehsalın uğurluluq dərəcəsinin qorunuşuna diqqətin yetirilməsi bazarın daha da canlanmasına şərait yaradır. Xarici iqtisadi fəaliyyət işlərin planlı və məqsədli aparılmasını, perspek-tivlərin müəyyənləşməsini, dünya ölkələri ilə milli iqtisadiyyatlar arasında münasibətlərin düzgünlüyünü müəyyənləşdirir. Bütün bunlar qarşılıqlı bağlantılar əsasında işlərin qurulmasını zəruri edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının idxal-ixrac əməliyyatları. (1992-1996-cı illər). Bakı: Azərbaycan Dövlət Statistika Komitəsi, 1997, 108 s.

2. Butler Eamon. Adam Smit – iqtisadiyyatın əlifbası. Bakı: Azad düşüncələr, 2008, 134 s.

3. Ələkbərov Ə.H., Vəliyev M.Ə., Məmmədov S.M., Ramazanov M.K. Beynəlxalq iqtisadi təşkilatlar. Bakı: Çaşıoğlu, 2010, 384 s.

4. Gənciyev G. Beynəlxalq iqtisadi münasibətlər: müasir vəziyyət və inkişaf problemləri. Bakı: Elm, 2005, 260 s.

5. Harvey Jask, Jovsey Ernie. Müasir ekonomiks. Bakı: Kitab klubu, 2008, 648 s.

6. İqtisadi nəzəriyyə. Bakı, Çaşıoğlu, 2001, 692 s.

7. Keyns Meynard Con. Məşğulluq, mənfəət və pulun ümumi nəzəriyyəsi. Bakı: Qanun, 2001, 478 s.

8. Muradov V.A. Regionların inkişafında Qərbi Avropa innovasiya inkişaf modelinin tətbiqi imkanları. Avtoreferat, (iqtisad üzrə fəlsəfə doktoru. Bakı, BDU, 2016, 20 s.

9. Alton Thad Paul. Polish Postwar Economy. New York: Columbia University Press, 1955, 352 p.

## BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN TARİXİ DİNAMİKASI VƏ ELMİ-NƏZƏRİ ASPEKTLƏRİ

Beynəlxalq iqtisadi münasibətlərin dialektikası klassiklərin işləyib hazırladığı qanunauyğunluğa hesablanır. Əlbəttə burada ayrı-ayrı məktəb və nəzəriyyələrin fərqli baxışları, başqa mövqelərdən yanaşmaları da vardır. Məsələ məqsədyönlülüyə, işlərin məqsədyönlü aparılmasına və həyata keçirilməsinə, dünya təsərrüfatının daha çox beynəlmiləlləşməsinə bağlanır. Ayrı-ayrı ölkələrin milli təsərrüfatlarının inkişaf etdirilməsi, onların imkanlılıq dərəcəsinin nəzərə alınması qarşılıqlı anlaşmada və əməkdaşlıqda ciddi faktora çevrilir. Milli iqtisadiyyatlar xarici aləm üçün daha çox açılır və beynəlmiləlləşməyə doğru gedən yolun gərəkliyini aydınlaşdırır. İstehlak iqtisadiyyatda investisiyaların zəruriliyini mühüm fakta çevirir. Beynəlxaq iqtisadi münasibətlərin nizamında ayrı-ayrılıqda dövlət maraqları, ölkənin iqtisadi təhlükəsizliyi kimi ciddi məsələlər özünə yer alır.

İqtisadi-nəzəri fikrin yanaşmalarında olan müxtəliflik, məsələn, klassiklərin və neoklassiklərin investisiya və istehlakla bağlı irəli sürdüyü mülahizələr mahiyyətin ifadəsində fərqliliklərlə təzahür edir. İnvestisiyanın qoyuluşundan və istehlakdan asılılıq təbii vardır və bunu olan kimi qəbul etmək gərəkdir. Keynsçilər və neo-keynsçilərlə klassiklər və neo-klassiklər arasındakı fikir ayrılıqları müxtəlif nəzəri konsepsiyalar əsasında qənaətlərini ümumiləşdirsələr də burada ortaqlıq nöqtələrinin gərəkliyində məsələnin mahiyyəti aydınlaşır. Əlbəttə istehsalda istehlak və investisiya mühüm tərəf kimi müəyyənləşir, ancaq onun aparıcılığının hansı şəraitdə birinin digərindən əsas olması mübahisələrə yol açacaq məsələdir. Beynəlxalq iqtisadi münasibətlərin zəruriliyində də belədir, həm istehlak, həm də investisiya biri digərini şərtləndirir.

Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsi ilə bağlı nəzəri fikirlərdəki fərqlilik (məsələn, merkantilistlər, klassiklər)

sırf yanaşma tərzi və problemin həlli ilə bağlı mövqe idi. Merkantiristlərin nəzəri təhlillərində yer alan məsələ ondan ibarət idi ki, hər hansı bir ölkənin qazancı digər ölkənin ziyanı hesabına baş verir qənaətidir. Mütləq üstünlüklər nəzəriyyəsinin tərəfdarları isə istehsal xərclərinin mütləq səviyyəsindəki fərqə diqqət yetirirdilər. Burada isə bir tərəf kimi ixtisaslaşma məsələsi önəm təşkil edirdi. Çünki başqa dövlətlərə nisbətən daha ucuz istehsal etdikləri mallar üzrə ixtisaslaşmaqla onları ixrac etməli; əgər mütləq üstünlüyə malik olmadıqları mal varsa onu idxal etməlidirlər. bu prinsip bazarları, beynəlxalq iqtisadi münasibətlərin uğurluluq əmsalını müəyyənləşdirir.

Milli sərhədlərdən kənara çıxan və kənarda baş verən iqtisadi proseslər geniş ərazini, daha böyük bazarları ehtiva edir. Bununla da mübadilə həcmi artır, subyektlərin sayı isə müqayisəyə gəlməz səviyyəyə qalxır. Çünki beynəlxalq əmək bölgüsü büynəlxalq iqtisadi münasibətlərin gərəkliyi ilə şərtlənir. "BƏB ona görə təşəkkül tapmışdır ki, istənilən ölkə çərçivəsində tələb olunan əmtəələrin bütün nomenklaturasının istehsalını yüksək texnoloji səviyyədə təmin etmək praktiki cəhətdən qeyri-mümkündür. Ona görə də ölkələr müəyyən üstünlüyə malik olduqları sahələrdə ixtisaslaşmış və həmin məhsulları ixrac etmişlər. Üstünlüyə malik olmadıqları sahələrin məhsullarını isə onlar idxal etməyə başlamışlar. Nəticədə ayrı-ayrı ölkələrin BƏB sistemində müxtəlif istiqamətlərdə ixtisaslaşmaları beynəlxalq mübadiləni zəruri etmiş, beləliklə də BİM-in əsası qoyulmuşdur" (3, 17). Təzə və modernləşdirilmiş beynəlxalq əmək bölgüsündə sahəviləşmə və yeni-yeni keyfiyyət göstəriciləri ilə təminata meyllənmə müxtəlif təklifləri, nəzəri müşahidələrin praktik həllini müəyyən edir.

Beynəlxal iqtisadi münasibətlərin meyar və prinsipləri ciddi elmi-nəzəri qanunauyğunluqlara, tarixi təcrübəyə, klassik siyasi iqtisad məktəbinin görkəmli nümayəndələrinin dediklərinə əsaslanır. U.Petti, A.Smit, D.Rikardo XVIII əsrin sonu, XIX əsrin əvvəllərində xarici iqtisadi fəaliyyətin ölkənin gələcək inkişa-

fında əsaslı rol oynadığını təhlillərində təfərrüatlı şərh etmişlər. Klassiklərin, neoklassiklərin (D.Gilder, A.Laffer, M.Feldstayn, R.Xoll, C.Perri), eləcə də monetaristlərin (M.Fridmen, E.Felps, F.Keyqen, D.Meyzelman, K.Brunner, A.Moltser), institusional-sosioliji məktəbin (T.Veblen, C.Danlop, C.Helbreyt, L.Ulman) yanaşmaları, onların baxışlarındakı fərqlilik beynəlxalq iqtisadi münasibətlərin inkişaf tendensiyasını aydınlaşdırmağa, alternativlərin ortaya çıxmasına şərait yaradır.

Ticarət nəzəriyyələrində bu və bu kimi məsələlər bir xətt olaraq davamlı şəkildə özünə yer almış və ciddi fakt bolluğu ilə səciyyələnmişdir. Məlum olduğu kimi, “istehsal amillərinin beynəlxalq hərəkəti bütövlükdə əmtəə və xidmətlərlə beynəlxalq ticarətin tabe olduğu qanunlara tabe olur və həmçinin dövlət tənzimlənməsi obyektidir. Lakin qeyd etmək lazımdır ki, kapitalın, əməyin və texnologiyanın bir dövlətdən digərinə yerdəyişməsi yalnız iqtisadi problemlər yaratmır, həm də həmin dövlətlərin siyasi və sosial həyatına xeyli təsir göstərir. Bununla əlaqədar olaraq istehsal amilləri yerdəyişməsinin dövlət tənzimləməsi beynəlxalq ticarətin tənzimlənməsindən xeyli sərtdir.

İstehsal amillərinin beynəlxalq hərəkəti beynəlxalq ticarətlə sıx bağlıdır” (6, 714). İstehsal amillərinin yerdəyişməsinin dövlət ticarəti ilə beynəlxalq ticarət səviyyəsində nəzərdən keçirilməsi və müqayisəsi dövlət səviyyəsində sərtləşməni bir məsələ kimi zəruri edir və beynəlxalq ticarətin ümumi mahiyyətində bu sərtləşmə xeyli yumşaqlıqla nəzərə çarpır. Kapitalın, əməyin, texnalogiyanın yerdəyişməsi, hərəkətliliyi beynəlxalq iqtisadi münasibətlərdə elə mühitin özünün təbii nizamı və elə də ciddi olmayan nəzarətlə aparılır. Onu da əlavə edək ki, kapitalın beynəlxalq hərəkətində əmtəə kapitalından çox pul kapitalı funksional səciyyə daşıyır. Kapitalın hərəkət-liliyində xarici investisiyalar mühüm çəkiyə malik olur. Burada maksimim gəlir gətirmə və yararlanma məsələləri də vardır. Məhz bu müstəvidə A.Smitin irəli sürdüyü sadə bir tezisin mahiyyətində bunlar bütün

tərəfləri ilə yerləşir və o vurğulayır ki, "ümumilikdə hər hansı ticarət sahəsi və ya hansısa əmək bölgüsü ictimaiyyət üçün əlverişlidirsə, azad və daha ümumi rəqabət hər zaman daha artıq dərəcədə sərfəli olacaq" (2, 119). Beynəlxalq iqtisadi münasibətlərin nəzəri əsaslarında və iqtisadi münasibətlərin zəruriliyində bu tezis bütün mahiyyəti ilə perspektivi, ciddi müqayisələri müəyyənləşdirir. Əlbəttə iqtisadi münasibətlərin nəzəri əsaslarında keynsçilər, klassiklər, eləcə də neokeynsçilər, neo-klassiklər öz prinsipial mövqeləri və yanaşmaları ilə sonrakı dövrlərdə müxtəlif təhlil faktına çevrilmiş və nəzəri-elmi şərhini tapmışdır. İqtisadi münasibətlərin qarşılıqlı faydaya, kapitaldan maksimum yararlanmaya, istehsalın uğurluluq dərəcəsinin qorunuşuna diqqətin yetirilməsi bazarın daha da canlanmasına şərait yaradır.

Xarici iqtisadi əlaqələrin mahiyyəti beynəlxalq əmək bölgüsü ilə ifadə olunur. Çünki ölkələr arasında olan qeyri-bərabərlik nəticə etibarı ilə ehtiyacların ödənməsinə, rifah vəziyyətinin yaxşılaşmasına, qeyr-bərabər paylanmadakı tarazlığın aradan qaldırılmasına, vahid dünya evinin qorunuşuna əsas verir. Müasir dünya inkişaf etmiş, nisbətən zəif imkişaf etmiş və inkişafdan geri qalmış ölkələrlə təmsil olunur. Ona görə də bu proseslər çağdaş vəziyyətdə bütün resursların ortaya qoyulması, beynəlxalq əmək bölgüsünün bir reallıq olaraq düzgün həyata keçirilməsi kontekstində ciddi faktura əsasında reallaşır. Həm inkişaf etmiş, həm də inkişaf etməkdə və zəif inkişaf etmiş ölkələr beynəlxalq iqtisadi münasibətlər çərçivəsində bütün olanları ilə təmsil olunur, bütün resurslar, vasitələr, elmi-texniki potensial müstəvisində ortaqlıq nöqtəsini tapırlar və bununla da ciddi bir sistemin fəaliyyəti başlayır.

Hekşer-Olin nəzəriyyəsi üzərində aparılan təhlillər Pol Samuelsonun yeni qənaətlər və nəticələr əldə etməsinə gətirib çıxardı. O, istehsal amillərinin qiymətinin bərabərləşdirilməsi nəzəriyyəsini yaratdı və burada əsas olan ondan ibarət idi ki, sərbəst ticarət ölkələr arasında amillərin qiymətini bərabərləşdirir

və bununla da istehsal amillərinin sərbəst hərəkəti ilə eyni nəticə alınır. İstehsal amillərinin bolluğu sayəsində istehsal mallarının ixracı çoxalır və buna olan tələbat qiymətə müsbət təsir edir. Heç şübhəsiz, kəsirli olan amillərə tələb azaldıqda qiymətlərin azalması prosesi baş verir. İqtisadi nəzəri fikirdə bu Hekşer-Olin-Samuelson modeli kimi tanınıb təhlil olunur.

Özlüyündə beynəlxalq ticarət sistemində gedən proseslər heç şübhəsiz yeni-yeni nəzəriyyələrin ortaya çıxmasını zəruriləşdirir. Çünki beynəlxalq iqtisadi münasibətlər elə çoxşaxəli, rəngarəng, müxtəlifliklərlə dolu prosesdir ki, onun bir sistem olaraq hansısa nəzəriyyə səviyyəsində şərhi axıra qədər olmur. İstehsal amilləri və xüsusi amilləri məsələsi mahiyyətin daha dərininə doğru yönlənməsinə diqqəti yönəldir. Burada əsas məsələ amillərin xüsusi və mobil olması üzrə şərhidir. Adından da göründüyü kimi, xüsusi amillər müəyyən sahələr üzrə hesablanır və onun digər sahələr üzrə hərəkətliliyi mümkünsüzdür və mobil amillər isə sərbəst hərəkətliliyi ilə seçilir. Xüsusi amillərin sayəsində isə xarici ticarətdə qeyri-bərabərlik yaranır və bu da özlüyündə qiymət fərqi ilə nəticələnir.

Müasir şəraitdə klassik nəzəriyyələrin ortaya qoyduğu prinsiplərin zənginləşdirilməsi həm də təkmilləşmələrlə müşahidə olunur. Beynəlxalq iqtisadi münasibətlərin ümumi sisteminin nəzəri problemlərinin doğru təhlili, fikrimizcə, iki istiqaməti şərtləndirir ki, bunlardan biri klassik nəzəriyyələrdən çıxış etməklə işlərin əlavələrlə izahıdırsa, digər istiqaməti, müasir iqtisadi mühitdə ortaya çıxan yeni nəzəriyyələrin yanaşmaları ilə müəyyənləşir.

Məlum olduğu kimi, “cəmiyyətin iqtisadi həyatı milyonlarla hadisələrlə və proseslərlə doludur. Həm də bu üzdə görünən hadisələr çox qarışıq, bir-birilə çuğlaşan hadisələr kimi fəaliyyət göstərirlər. Bu hadisələri müşahidə etmək, onların görünən və görünməyən tərəflərini fərqləndirmək, mühüm hadisələri təsadüfi keçici hadisələrdən ayıra bilmək elmi təfəkkürün vəzifəsidir.

Bunun üçün birinci növbədə elmi abstraksiya metodundan istifadə etmək tələb olunur. Elm tarixində sınaqdan çıxmış abstraksiya metodu vasitəsilə müşahidə edilən hadisələrdə mühüm olan tərəflər aşkara çıxarılır və nəzəri ümumiləşdirmələr aparılır" (5, 26). Beynəlxalq iqtisadi münasibətlərin məhz bu müstəvidə təhlili, nəzəriyyələrin yanaşmalarındakı uğurluluq dərəcəsinin müəyyənliyi, iqtisadi münasibətləri hansı səviyyədə ifadə edə bilməsi cəmiyyətdə baş verən iqtisadi proseslərin çoxluğunda birtərəfliliklə, yəni müəyyən incəliklərin kənarda qalması ilə nəticələnir. Ona görə də sonrakı mərhələlərdə bu çatışmamazlıq nəzərə çarpır və yenisi ilə əvəz olunmaq zərurəti yaranır. Ona görə də bir nəzəriyyənin yenisi ilə əvəz olunması prosesi baş verir.

Müasir iqtidsadi münasibətlərdə geniş müstəvidə baş verənlər əlbəttə elmin müəyyənləşdirdiyi ümumiləşdirmələrin sayəsində nəzəri təhlil səviyyəsinə çıxarılır. Neoklassiklər, keynsçilər, institutsional sosiolojilər hər birisi öz prinsipal nəzəri konsepsiyaları ilə beynəlxalq iqtisadi münasibətləri təhlil edir və son olaraq nəzəri konsepsiyalarını ortaya qoyurlar. Azad iqtisadiyyata üstünlük verən neoklassiklərin dedikləri, eləcə də bazarın tənzimlənməsini bir problem kimi qarşıya qoyan keynsçilər və s. hamısı müxtəlif baxışlar sistemidir.

Beynəlxaq iqtisadi münasibətlərin ümumi sisteminin müəyyənləşməsində və uğurluluğunda hər bir nəzəriyyənin öz yeri və yanaşma prinsipləri vardır. Aparılan təhlillər, bazarın izlənməsi məhsuldarlıq həddinin bir nəzəriyyə səviyyəsində təhlillərini də zərurətə çevirdi. Amerika iqtisadçısı C.B.Klark bu nəzəriyyənin banisi olmuş və faydalılıq həddi timsalında çıxış etmişdir. Bu nəzəriyyə məhsuldarlığın və gəlirin azalması prinsipinə əsaslanaraq təhlillərini aparır. Neoliberalizm, monetarizm və s. kimi nəzəriyyələr beynəlxalq iqtisadi münasibətlərin təhlilində və öyrənilməsində mühüm ciddi konsepsiyalarla və yeni müşahidələrlə çıxış edirlər.

İqtisadi nəzəriyyələrin birinin digərini əvəzləməsi reallıqdan,

fərqli baxışların bazarı tam ifadə edə bilmək bacarığının olmamasından yaranırdı. Məsələn, XX əsrin əvvəllərində sənaye baxımından inkişaf etmiş ölkələrin böhran yaşamasında problemi klassiklər həll edə bilmədi və zərurət kimi daha fərqli təhlillərə ehtiyac özünü göstərdi. Onlar iqtisadiyyatın fasiləsiz artımı məsələsinə diqqət yönəldirdilər və məsələnin mahiyyətini resurslara təklifdən tələbə, oradan da sabitliyə formulunu ortaya qoyurdular. "Keynsçiliyin mahiyyəti səmərəli tələbi müəyyən edən xərclər və gəlirlər arasındakı nisbətin tənzimlənməsidir. Tənzimlənmənin obyekti səmərəli tələbin ən mühüm tərkib hissəsi olan kapitalın qoyuluşudur. Məqsəd dövlətin köməyilə kapital qoyuluşlarının sabit artımını təmin etməkdir. Məhz onların artımına səmərəli tələbin təmin olunmasının həlledici amili kimi baxılır.

Keynsçi makroiqtisadi nəzəriyyədə əsas məqsəd iqtisadi tsikli sabitləşdirmək və məşğulluğun yüksək səviyyəsini təmin etməkdir" (5, 64). Burada əlbəttə problemin həllinə və reallığın özünüifadəsinə hesablanmış ciddi istiqamətlər vardır; dövlət xərcləri, investisiya, dövlət sifarişlərinin artırılması, kredit faizinin azaldılması və gəlirlərin əhalinin ən aşağı təminatlı hissəsinin mənafeyinə uyğunlaşdırılması kimi məsələlər özünə yer alır. Göründüyü kimi, ciddi nəzəri baza üzərində dayanmış keynsçilər problemin həllində vəziyyətdən çıxış yolunun (böhranın) mahiyyətini açıqlayır və kredit faizlərinin azaldılması, əhalinin aztəminatlı hissəsinin ümumi ehtiyacları və onun ödənilməsi üzrə işlərini qurmaqla vəziyyətə nəzarət etmək prinsipini irəli sürürdülər. Neoklassiklər də bu məsələdə kapitalist iqtisadiyyatına dövlət təsirinin zəruriliyini sistematik və birbaşa olması mövqeyində dayanırdılar.

Xarici ticarətdə yeni texnologiyalara meyillilik bütün parametrlərdə beynəlxaq iqtisadi münasibətlərdə yeni dəyişmələrə, münasibətlərin və maraqların canlanmasına şərait yaradır. Keçən əsrin ortalarında texnoloji üstünlüklərin bazara müdaxiləsi texnoloji üstünlüklər nəzəriyyəsinin meydana gəlməsini zəruri etdi.

Bu nəzəriyyənin yaradıcısı M.Rozner olmuşdur. Bu nəzəriyyə texnologiyaların ayrı-ayrı ölkələrdə beynəlxalq ticarətdə doğurduğu nəticələrin öyrənilməsinə həsr olunmuşdur. Məlum olduğu kimi, ayrı-ayrı ölkələrin əldə etdiyi yeni texnologiyalar iqtisadiyyata tətbiq edilir və onun tətbiqində iqtisadi sferada özünəməxsus dəyişikliklər müşahidə olunurdu. Burada digər məsələ müəyyən ölkədə əldə edilmiş texnologiyanın digər ölkədə eyni vaxtda iqtisadiyyata tətbiq edilməməsi məsələsidir. Bu üstünlük şəraitində yeni məhsulun istehsalı səmərəli ixracla səciyyələnir. Başqa ölkələrə yayılması ilə isə mövcud üstünlük aradan qalxır.

R.Vernonun məhsulun həyat dövrü nəzəriyyəsi, M.Rorterin rəqabət üstünlüyü nəzəriyyəsi, S.Linderin kəsişən tələb nəzəriyyəsi və başqaları hamısı beynəlxalq iqtisadi münasibətlər səviyyəsində ümumi problemləri, iqtisadi məkanda baş verən proseslərin gedişini əhatə edir və bu isə onu deməyə əsas verir ki, bu nəzəriyyələr hamısı bir istiqamət üzrə problemə yanaşmaqla mahiyyəti ifadə etməyə yönəlmişlər. Çünki beynəlxalq iqtisadi münasibətlər iqtisadi sferada baş verənlərlə həmahəngdir və onun ehtiyacları üzərində qurulur. Göründüyü kimi, nəzəriyyələrin adlarında və yanaşmalarında iqtisadi məkanı və baş verənləri izləmək bir məqsəd olaraq elmi-nəzəri mühitin diqqətində dayanır. Məsələn, R.F.Xarrodun iqtisadi dinamika modeli kapitalın iqtisadi artımı problemi üzərində müşahidələri ön xəttə gətirir. O vurğulayırdı ki, kapitalın bol olduğu ölkələrdə iqtisadi artımın aşağı olması kapitalın digər ölkələrə ixracını əsas edir.

Bütün bunlar, yəni bir-birinə yaxın və ya bir-birindən kifayət qədər fərqli iqtisadi nəzəriyyələr bir bütöv olaraq iqtisadi prosesləri, onun daxili dinamikasını, genetik mahiyyətini, funksional səciyyəsini, beynəlxaq iqtisadi sferada baş verən proseslərin nəzəri problemlərini öyrənir. Beləliklə, beynəlxalq iqtisadi münasibətlərin nəzəri təhlilində onun zəruriliyi, spesifikası bir bütöv olaraq həllini tapır və məsələnin daha perspektiv təhlilini aktuallaşdırır.

## ƏDƏBİYYAT

1. Benjamin J.Cohen. Pulun coğrafiyası. Bakı, Əbilov, Zeynalov oğulları, 2003, 192 s.

2. Butler Eamon. Adam Smit – iqtisadiyyatın əlifbası. Bakı: Azad düşüncələr, 2008, 134 s.

3. Gənciyev G. Beynəlxalq iqtisadi münasibətlər: müasir vəziyyət və inkişaf problemləri. Bakı: Elm, 2005, 260 s.

4. Gərayzadə T. Dünyanın iqtisadi və sosial coğrafiyası. Bakı: Aspoliqraf, 2005, 159 s.

5. İqtisadi nəzəriyyə. Bakı, Çaşıoğlu, 2001, 692 s.

6. İqtisadi Nəzəriyyə. Makroiqtisadiyyat–1, 2. Metaiqtisadiyyat. Transformasiya iqtisadiyyatı. M., "Daşkov və K", 2008, 920 s.

7. Keyns Meynard Con. Məşğulluq, mənfəət və pulun ümumi nəzəriyyəsi. Bakı: Qanun, 2001, 478 s.

8. Vəliyev D. Beynəlxalq iqtisadiyyat. Bakı: Avropa, 2012, 400 s.

9. Krugman R.Paul, Obstfeld Maurice. İnternational economics: theory and policy. (sixth edition). Boston, 2015, 185 s.

## AZƏRBAYCAN VƏ POLŞA RESPUBLİKALARI: SAHƏ QURULUŞU, İQTİSADİ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ VƏ BAĞLANTILARI

Azərbaycan və Polşa Respublikalarının iqtisadi əlaqələrinin perspektiv inkişaf istiqamətlərinin bir problem olaraq təhlili ciddi fakt zənginliyi ilə səciyyələnir. Çünki həm Azərbaycanın, həm də Polşanın iqtisadi imkanları qarşılıqlı yararlanmanı, təbii resurslardan, əmək qüvvəsindən, texnologiyanın müasir nəaliyyətlərindən birgə istifadənin gərəkli əhəmiyyətini və perspektivlərini aydınlaşdırır. Sahə quruluşu, iqtisadiyyatının tarixi perspektivası və inkişaf xüsusiyyətləri zəngin təhlillərə imkan verir və bütünlükdə Avropa və Asiya iqtisadiyyatında gedən proseslər kontekstində əsaslı faktura ilə səciyyələnir. Avropa məkanında ərazi və əhali sayına görə boyük potensiyaya malik olan Polşa Azərbaycan üçün ciddi iqtisadi tərəfdaş kimi mühüm önəm daşıyır.

Polşa Respublikası Mərkəzi Avropada bir sıra sahələrin üstünlükləri, məsələn, xidmət sahəsi, daxili bazarlarının imkanlığı, iqtisadi münasibətlərin əhəmiyyətliliyi ilə seçilir. Burada respublikanın çoğrafi şəraitin uğurluluq əmsalı da mühüm önəm daşıyır. Belə ki, qərbdə Almaniya, cənubda Çex Respublikası və Slovakiya, şərqdə Ukrayna və Belarus, şimalda Baltik dənizi, Litva və Rusiya ilə həmsərhəd olması bazar keçidlərinə, onun idxal, ixrac münasibətlərinin əhatəliliyinə əsas verir. Ölkənin bundan əlavə Danimarka və İsveçlə dəniz sərhədləri vardır ki, bu da xarici iqtisadi münasibətlərin qurulmasının münbitliliyini şərtləndirir. Bütün bunlar Polşa Respublikasının iqtisadi əlaqələrin qurulmasında əsaslı faktura ilə təmsil olunmasının göstəricisidir.

Azərbaycanın ümumi coğrafi şəraitinə, yerləşmə arealının xüsusiyyətlərinə diqqət yetirdikdə uğurluluq baxımından ciddi

bir mənzərə yaranır. Belə ki, Azərbaycan Respublikası Cənubi Qafqaz, Xəzər dənizi hövzəsində yerləşən dövlət kimi bərpa olunmayan resursların zənginliyi ilə seçilir. Onun iqtisadi imkanlılığı, geoiqtisadi şərait üçün əlverişli səciyyə daşıması, tranzit ölkə kimi Şərq, Qərb, Şimal, Cənub üçün böyük marağa səbəb olması XXI əsrin yeniləşən iqtisadi mənzərəsində mühüm önəm daşıyır. Şimaldan Rusiya, Gürcüstan, qərbdənErmənistan, Türkiyə və cənubdan İran ilə həmsərhəd olması geoiqtisadi proseslərin tənzimində uğurlu perspektivlər vəd edir. Onu da əlavə edək ki, Azərbaycanın anklavı olan Naxçıvan Muxtar Respublikası Ermənistanla şimal-şərqdən, İranla qərbdən və Türkiyə ilə şimal-qərbdən həmsərhəddir. Xəzər dənizi hövzəsi ölkələrinin ticarət əlaqələrində son dərəcədə əsaslı bir faktdır. Ona görə də bərpa olunan və bərpa olunmayan resursların fərqliliyi, eləcə də coğrafi şəraitin özünəməxsusluğu baxımından bu iki ölkə eyni iqlim şəraitinə hesablanır.

Azərbaycan Cənubi Qafqaz ərazisində öz iqtisadi potensialı, bərpa olunan və olunmayan iqtisadiyyatının zənginlikləri, xarici bazarda təmsil olunma xüsusiyyətlərinin dinamikası ilə uğurlu tərəfdaşdır. Asiya ölkəsi (Avropa ilə Asiyanın kəsişdiyi sərhədlərdə yerləşməsi baxımından) olaraq Azərbaycanın Polşa ilə, daha doğrusu, bir mərkəzi Avropa ölkəsi ilə iqtisadi münasibətlərinin perspektivlərinin izlənməsi digər ölkələrlə də tipoloji təhlillərə ciddi əsas verir. Eyni zamanda məsələnin perspektivlərini müəyyənləşdirməyə, strateji hədəfləri aydınlaşdırmağa şərait yaradır.

Azərbaycan ilə Polşanın iqtisadi müstəvidə əlaqələrinin təhlili siyasi və mədəni əlaqələrin də tarixini aydınlaşdırmağı zəruriləşdirir. Əlbəttə tarixi mənbələr, elmi ədəbiyyatların, mətbuat orqanlarının verdiyi bilgilər zəngin fakt bolluğunu müəyyənləşdirir. Hələ XIX əsrin əvvəllərindən başlayaraq Polşanın elm, mədəniyyət adamlarının, yaradıcı mühitin, coğrafiyaçıların Qafqaza, eləcə də onun bir hissəsi olan Azərbaycana marağı

həmişə artan istiqamətdə getmişdir. Bunu memarlıq abidələri, Polşa etnoqraflarının, arxeoloqlarının, tarixçilərinin, ədəbiyyatşünas və musiqiçilərinin dedikləri də tam aydınlıqla göstərir. Məsələn, Polşa şərqşünası Yozef Sepkovskinin tərcümələri, B.Romanoviç Bakı və onun memarlığı haqqında məqalələri (1825), “Koroğlu” dastanının kitab kimi ilk nəşri (1842, Aleksandr Xodzkonun) və s. bu bağlantıların, Azərbaycana olan marağın göstəricisidir. Polşa Şərqşünaslıq məktəbinin Azərbaycanla bağlı gördükləri gərəkli işlər bu gün də özünün masştabına, dəyərlilik dərəcəsinə görə xüsusi çəkiyə malikdir. Sovetlər dönəmində hadisələrin gedişi isə bir başqa xətlidir, daha doğrusu, Azərbaycan sovetlər ittifaqının ərazi birliyində Polşa isə sosialist ölkələri çevrəsində bir-biri ilə bağlanırdı. Ona görə də bu iki ölkənin sovetlər ittifaqının dağılmasından sonrakı mərhələdə ümumi mənzərəsinin işlənməsi, inkişaf səviyyəsinin öyrənilməsi bir problem olaraq əsaslı özünəməxsusluqlarla, fakt zənginlikləri ilə səciyyələnir.

***Həll üsulları.*** Xəzər hövzəsi ölkəsi kimi Azərbaycanın iqtisadi potensialının Mərkəzi Avropanın digər bir ölkəsi, Polşa ilə əlaqələrinin geoiqtisadi münasibətlər səviyyəsində təhlili müasir şəraitdə qloballaşmanın genetikasını, onun daxili texnoloji sferasında baş verənləri, hansı məzmunla səciyyələndiyini aydınlaşdırmağa şərait yaradır. İqlim şəraitinin yaxınlığında, lakin fərqli-fərqli siyasi sistemlərin əhatəsində beynəlxalq iqtisadi münasibətlər səviyyəsində məsələnin araşdırılması bütünlükdə dünya iqtisadi sferasındakıların təmas nöqtələrini, iqtisadi proseslərin inkişaf texnologiyalarını aydınlaşdırmağı, perspektiv dünya hədəflərini diqiqləşdirməyi zərurətə çevirir. Artıq müasir texnoloji inkişafın sürəti dünyanı çox kiçiltmiş və zərurətləri, ölkələrin iqtisadi, mədəni bağlantılarını, olanlardan birlikdə faydalanmanı qaçılmaz etmişdir. Zəngin sərvət resursları olan Xəzər hövzəsi və Qara dəniz ətrafında baş verənlərlə, daha doğrusu, iqtisadi proseslərin mənzərəsi ilə, xidmət sahəsinin

üstünlükləri baxımından seçilən Mərkəzi Avropanın müqayisəli iqtisadi təhlili geoiqtisadi münasibətlərin inkişaf mənzərəsini müəyyənləşdirir. İdxal və ixrac münasibətləri, istehsal hədəflərinin aydınlığı, bazar münasibətlərinin düzgün qurulması bir bütöv olaraq hamısında qarşılıqlı yararlanmanın vacibliyi münasibətlərin dinamikliyinə, həyat səviyyəsinin yüksəldilməsinə əsas olur. Bunlar bir istiqamətdə iqtisadi diplomatiyanın düzgünlüyündən, uğurluluğundan asılıdır. Məlum olduğu kimi, "iqtisadi diplomatik fəaliyyətin tənzimlənməsində mühüm prinsiplərdən biri də təbii ehtiyatlar və iqtisadi fəaliyyət üzərində dövlət suverenliyinin təmin olunmasıdır. Qeyd olunan prinsip özündə aşağıdakıları ehtiva edir:

-dövlətin sərvət, sahiblik, sərəncam, istifadə və müstəqil iqtisadi fəaliyyəti;

-müvafiq sferada iqtisadi fəaliyyətə nəzarət;

-təbii ehtiyatların istifadəsi rejiminin sərbəst müəyyən edilməsi;

-beynəlxalq hüquqa uyğun olaraq xarici kapitalı ictimai, dövlət maraqları naminə milliləşdirmək;

-təbii resursların istehsalçılarının təşkilatında birləşmək;

-təbii ehtiyatların və suverenliyin müvəqqəti itirilməsi ilə əlaqədar işğal olunmuş ərazilərlə özünün təbii resursları üzərində nəzarətin bərpa edilməsi zamanı dəymiş zərərin ödənilməsi və s.

Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində xüsusi çəkisi olan prinsiplərdən biri də iqtisadi əməkdaşlıq prinsipidir" (6, 92-93). Göründüyü kimi, iqtisadi diplomatik münasibətlər müstəvisində verilmiş bu müddəalar konseptual bir mənzərəni, təbii ehtiyat və iqtisadi fəaliyyətlə bağlı olanları ehtiva edir. Burada Azərbaycan Respublikası kontekstində vurğulanan bir müddəa işğal olunmuş ərazilərdə iqtisadi fəaliyyətin həyata keçirilməsi ilə əlaqədardır.

Azərbaycan və Polşa Respublikaları öz tarixi, dövlətçilik ənənəsi ilə daha qədimlərə, orta əsrlərə bağlanır. Belə ki, tarixi

mənbələrin verdiyi məlumata görə ilk polyak dövləti X əsrə (966) aid edilir və sərhədləri təxminən bugünkü Polşa Respublikasının sərhədləri ilə üst-üstə düşür. 1025-ci ildə krallığa çevrilən bu dövlət 1569-cu ildə Litva hersoqluğu ilə birləşərək Polşa-Litva birliyinin əsasını qoymuş və 1795-ci ildə dağılmışdı. Polşa 1918-ci ildə yenidən müstəqilliyini qazanmış və ikinci cahan savaşında təzədən işğala məruz qalmışdı. Almanların məğlubiyyətindən sonra sovetlər ittifaqının nəzarətində olmuş və rejimin dağılmasından sonra (1989) yenidən müstəqillik qazanmışdır. Bu quruluşu müasir tarixşünaslıq Polşanın tarixində "üçüncü respublika" adı ilə vurğulayırlar.

Polşa Avropa Birliyi, NATO, BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı, Dünya Ticarət Təşkilatının üzvüdür. Avropa ittifaqında əhali sayına görə altıncı yerdədir (7). On altı voyevodalıqdan ibarət liberal demokratik ölkə olan Polşa bütün iqtisadi göstəriciləri, imkanları ilə tərəfdaş kimi xüsusi önəm daşıyır.

Qərbə açılma siyasəti Polşanın tarixində yeni mərhələdir. Azərbaycan və Polşanın eyni zaman kəsiyində müstəqillik qazanması iqtisadiyyatda islahatları, sistemli iqtisadi siyasətlərin həyata keçirilməsini aktuallaşdırdı. Artıq həm Azərbaycan, həm də Polşa uğurlu inkişaf yoluna qədəm qoymuş, dövlət müstəqilliyindən sonrakı problemlərinin böyük bir hissəsini həll etmişdir. Beynəlxalq İnkişaf Assosiasiyası, Beynəlxalq Maliyyə Korporasiyası, Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Əmək və Kənd təsərrüfatı Fondu, Ümumdünya Ticarət Təşkilatı və s. təşkilatlarda təmsil olunması və işlər qurması gərəkli perspektivanı müəyyənləşdirir.

Azərbaycan Respublikasının tarixi, xalqın zəngin mədəniyyət fondu, dövlətçilik ənənələri ilə bağlı kifayət qədər fundamental tədqiqatlar vardır. Dünyanın ən qədim yaşayış, həm də mədəniyyət mərkəzlərindəndir. Azıx mağarası, Quruçay mədəniyyəti, Damcılı və s. ciddi arxeoloji faktlarla səciyyələnir. Etnoqrafların, tarixçilərin, musiqişünasların və s. maraqları və

monoqrafik araşdırmaları buna nümunədir. Dövlətçilik tarixi isə min illərlə ölçülür. Bütün bunlar Azərbaycan və Polşa Respublikaları səviyyəsində iqtisadi paralellərin aparılmasını, son dövrün iqtisadiyyatında gedən prosesləri izləmək üçün əsaslı faktla səciyyələnir.

Polşa sənayesi əsaslı müxtəlifliklərlə səciyyələnir (8). Gəmi istehsalı, meşə sahələri, tekstil, kimya, metal sənayesi, alüminium, neft məhsulları başlıca istiqamətlər kimi uğurlu inkişafla xarakterizə olunur. Dada çox isə mədənçilik və mədən sənayesi ilə xarici bazarda təmsil olunur. Onu da əlavə edək ki, Polşa Almaniya və İngiltərədən sonra Avropanın ən çox kömür istehsal edən ölkəsidir. Duz, dəmir, manqan və s.yeraltı sərvətləri sırasında xüsusi çəkiyə malikdir. Son dövrlərdə ən çox uğur qazanan sahələrdən diri kağız sənayesinin inkişafıdır.

“Polşa yeyinti sənayesində konsentrasiya prosesləri də özünü göstərir. 2010-cu ildə sektorda fəaliyyət göstərən təxminən 16 min şirkətin yalnız 1,7% -ni təşkil edən 250-dən çox işçi işləyən şirkətlər bütün məşğulluqların 36,9% -ni və istehsal dəyərinin 54,1% -ni təşkil ediblər. Üç kapital qrupu neft istehsalında gəlirlərin 85,7%, pivə istehsalında 78,5%, tütün sənayesində 76,9%, kartof istehsalında 75,6%, şəkər istehsalı isə 69,6% təşkil etmişdir. 2003-2010-cu illərdə istehsal dəyərinin 102,7-dən 158,9 milyard zl-ə qədər artmış, müəssisələrin sayı 19,52-dən 15,97 minədək azalmıdır. 2013-ci ildə satışda konsentrasiya nisbəti qida istehsalında 0,79, içki istehsalı 0,66, tütün sənayesində isə 0,37 təşkil etmişdir. Qida sektorunda konsentrasiya prosesinin davam edəcəyi və böyük şirkətlərin rolu artacağı da nəzərdə tutulur” (8, 1012).

Polşada qida sektorunda 2002-2013 dövründə analiz edilmiş şirkətlərin istehsal dəyərinin böyük artımı müşahidə edilir. 2013-ci ildə maksimum 212,93 milyon zl olmuş və 2002-ci ilə nisbətən 127.22% artım özünü göstərmişdir. Qeyd edək ki, 1995-2013-cü illərdə bütün Polşa aqro-ərzaq sektorunun ixracı 3 milyard avro-

dan 14 milyard avroya, məsələn, 2012-ci ildə demək olar ki, 77 faizi AB bazarlarına çıxmışdır" (8, 1025).

Polşa iqtisadiyyatında enerji istehsalı xüsusi çəkiyə malikdir. Hətta enerji baxımından inkişaf etmiş ölkələr sırasında Polşa xüsusi olaraq qeyd edilir. Qdansk və Seçin limanları ölkənin iqtisadi imkanlılığının təmin olunmasında əhəmiyyətli rol oynayır. Yerli qida, alüminium və süni kübrə sənayeləri inkişaf və gəlirlilik imkanlarına görə xüsusi çəkiyə malikdir. Məlum olduğu kimi, iqtisadiyyatın transformasiyasını üç istiqamətdə qruplaşdırırlar:

"-cəmiyyətin və iqtisadiyyatın liberallaşdırılmasının əsası kimi gəlirlərin formalaşdırılmasına sistemli münasibət;

-bazar iqtisadiyyatının bazisi kimi kapitalların yaranmasına və fəaliyyətinə münasibətin sistemli surətdə yenidən qurulması;

İdarəetmənin, iqtisadiyyatın – institutsional strukturuna, bazar tələblərinə uyğun yenidən qurulması" (5, 598). Əlbəttə həm Polşa, həm də Azərbaycan cəmiyyətin və iqtisadiyyatın liberallaşdırılmasında xeyli müvəffəqiyyətli addımlar atmışdır.

XVIII əsrin sonu, XIX əsrin əvvəllərində yaşamış ingilis iqtisadçısı D. Rikardo vurğulayırdı ki, "xarici ticarət, bir ölkə üçün olduqca faydalı olmasına baxmayaraq, gələcəkdə gəlir əldə edə biləcəyi obyektlərin məbləğini və müxtəlifliyini artırır və malların bolluq və ucuzluğu, səmərənin qənaət edilməsi və səmərəliliyinin təşviqi ilə təmin edir. Əmtəə idxalı əmək haqqının xərcləndiyi təsvirdən başqa olmadıqda, səhmdar mənfəətini artırmaq meyli yoxdur.

Yolların və kanalların yaradılması və ya istehsalda və ya malların çatdırılmasında əmək qabiliyyətinin azaldılması vasitəsi ilə, maşınların ixtirası ilə əmək qabiliyyətinin daha yaxşı şəkildə bölüşdürülməsi ilə heç vaxt artım olmaz" (9, 89). Bu mülahizə özlüyündə iqtisadi münasibətlərin uğurluluğu timsalında ciddi fakturaya əsaslanır. Sosializm sistemindən çıxmış ölkələrin iqtisadi problemlərinin çözülməsi, uğurluluq əmsalının yuksəldilməsi üçün beynəlxaq iqtisadi əlaqələrin düzgünlüyü əsas olandır.

Polşa Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 27-də tanıyıb və 1992-ci il fevralın 21-də iki ölkə arasında diplomatik əlaqələr qurulub. 2001-ci ildə Polşanın Azərbaycanda, 2004-cü ildə isə Azərbaycanın Polşada səfirliyi təsis edilib. Son illər Azərbaycan - Polşa iqtisadi-ticari əlaqələr sahəsində ciddi uğurlar əldə olunub (12; 13). Azərbaycandan ixrac olunan məhsulun tərkibində neft və neft məhsulları üstünlük təşkil edir. Enerji sahəsində əməkdaşlıqda da böyük perspektivlər gözlənilir. Bu isə Polşanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın əhəmiyyətinin yaxın illərdə daha da artacağını göstərir.

Son dövrlərin statistik göstəricilərinə (2) diqqət yetirdikdə məlum olur ki, Polşanın sənayesi yüksək göstəricilərlə səciyyələnir və müxtəlifliklərlə maraq doğurur. Maşınqayırma sənayesi, kimya sənayesi, aqrar sənaye, metallurgiya, meşə sənayesi və s. sahəsində olan artım bunun nümunəsidir. Bundan əlavə mebel istehsalı, tikinti materiallari və konstruksiya istehsalı da xüsusi çəkiyə malikdir. Yüngül və ağır sənaye, kimya sənayesi, gəmi istehsalı, metal avtomobil, təyyarə, maşın, sement, alüminium başlıca sənaye aspektləridi. Son zamanlarda taxta-şalban və kağız sənayeləri, tekstil, meşə məhsulları da ölkənin iqtisadi həyatında xüsusi rola malikdir. Mədənçilik və mədən sənayesi olduqca inkişaf etmişdir. Bunların ən əhəmiyyətliləri kömür, sink və misdir. Yeraltı qaynaqlarının səmərəliliyi də beynəlxalq iqtisadi əlaqələrdə Polşanın ciddi tərəfdaş olduğunu əsas edir. Bütün bunlar Polşa ilə Azərbaycan arasında xarici iqtisadi əlaqələrin, geoiqtisadi münasibətlərin uğurluluğuna əsas verir. Məlum olduğu kimi, Avropa geoiqtisadi məkan olaraq iqtisadi göstəricilərinin müxtəlifliyi, iqtisadi potensialının çəkisi ilə fərqlənir. Ona görə də güc və potensial baxımından bu ölkələr özü də fərqli-fərqli iqtisadi münasibətlərlə tənzimlənirlər. Məsələn, Avrozonaya daxil olan ölkələr daha əlverişli üstünlüklərlə çıxış edirlər. Avropa İttifaqı ölkələrində müsbət olan odur ki, iqtisadi sabitlik xüsusi bir hal kimi müşahidə olunur. Avropa Komissi-

yasının hesabatında vurğulananlar da bunu göstərir.

Azərbaycan müstəqillik qazandıqdan sonra dünyanın müxtəlif inkişaf etmiş ölkələri ilə qarşılıqlı iqtisadi əməkdaşlıq əsasında işlərini qurmağa üstünlük verdi. Beynəlxalq güc mərkəzləri, iqtisadi təşkilatlarla iqtisadi anlaşmalarda bir tərəf kimi iştiraka olan maraq perspektivlərə əsas oldu. Avropa və Şərq, eləcə də Cənubi Qafqaz ölkələri ilə qarşılıqlı faydalılıq əsasında qurulan münasibətlər iqtisadi ehtiyacların həllində də gərəkli addımlara şərait yaratdı. Polşa Respublikası ilə olan əməkdaşlıq, prezidentlərin görüşü, dövlət səviyyəsində sazişlərin bağlanması, iqtisadi layihə sənədlərinin imzalanması, ticarət əlaqələri xarici iqtisadi əlaqələrin əhəmiyyətliliyini və perspektivlərini aydınlaşdırır. Azərbaycan və Polşa iqtisadiyyatının xüsusiyyətləri, inkişaf tendensiyası, sahə quruluşu və s. bunların zəruri bağlantılarına şərait yaradır. Bütün bunlar Polşa və Azərbaycan Respublikalarının iqtisadi imkanlarının ümumi göstəricisini, qarşılıqlı iqtisadi əlaqələrin geniş bazaya malik olduğunu düşünməyə əsas verir.

## ƏDƏBİYYAT

1. Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.

2. Azərbaycan Respublikasının idxal-ixrac əməliyyatları. (1992-1996-cı illər). Bakı: Azərbaycan Dövlət Statistika Komitəsi, 1997, 108 s.

3. Gənciyev G. Beynəlxalq iqtisadi münasibətlər: müasir vəziyyət və inkişaf problemləri. Bakı: Elm, 2005, 260 s.

4. Həsənov Ə. Xəzər –Qara dəniz hövzəsi və Cənubi Qafqazın gfeoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti. Bakı: Zərdabi LTD MMC, 2016, 296 s.

5. İqtisadi nəzəriyyə. Bakı, Çaşıoğlu, 2001, 692 s.

6. Məhərrəmov A.M. İqtisadi diplomatiya. Bakı, Adventa

MMC, 2013, 386 s.

7. Jadvyga Ciburiene, Kaunas University of Technology, Lithuania, The Evaluation of Economic Development, Proceedings of the 8th International Conference on Applied Economics Contemporary Issues in Economy under the title Market or Government?. Torun, Poland: Institute of Economic Research and Polish Economic Society Branch in Toruń, 18-19 June 2015, s.362-363 (1817))

8. Justyna Kufel, Institute of Agricultural and Food Economics – National Research Institute, Poland, Monopolistic Markups in the Polish, Proceedings of the 8th International Conference on Applied Economics Contemporary Issues in Economy under the title Market or Government?. Torun, Poland: Institute of Economic Research and Polish Economic Society Branch in Toruń, 18-19 June 2015, 1817 p.

9. Rikardo D. On the prinsiplen of political economy and taxation. Canada, Ontario, Kitchener, 2001, 333 p.

10. Węcławowicz Gregorz. Contemporary Poland: Space and Society. Boulder, CO: Westview Press, 1996, 208 p.

11. Chodubski, Andrzej, Azerbejdżan-Polska: odsłony kontaktów kulturowych. Poland: Wydawnictwo Adam Marszałek, 2015, 327 p.

12. state.gov.az

13. state.gov.pl

# AZƏRBAYCAN-POLŞA RESPUBLİKALARININ İQTİSADİ ƏLAQƏLƏRİ: ÇAĞDAŞ VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏR

Azərbaycanın Xəzər hövzəsi ölkəsi kimi Polşa ilə əlaqələrinin geoiqtisadi münasibətlər səviyyəsində təhlili müasir şəraitdə qloballaşmanın genetikasını, onun daxili texnoloji sferasında baş verənləri, hansı məzmunla səciyyələndiyini aydınlaşdırmağa şərait yaradır. İqlim şəraitinin yaxınlığında, lakin fərqli-fərqli siyasi sistemlərin əhatəsində beynəlxalq iqtisadi münasibətlər səviyyəsində məsələnin araşdırılması bütünlükdə dünya iqtisadi sferasındakıların təmas nöqtələrini, iqtisadi proseslərin inkişaf texnologiyalarını aydınlaşdırmağı, perspektiv dünya hədəflərini diqiqləşdirməyi bir zərurətə çevirir. Artıq müasir texnoloji inkişafın sürəti dünyanı çox kiçiltmiş və zərurətləri, ölkələrin iqtisadi, mədəni bağlantılarını, olanlardan birlikdə faydalanmanı qaçılmaz etmişdir. Ona görə də zəngin sərvət resursları ilə güc mərkəzində olan Xəzər hövzəsi və Qara dəniz ətrafında baş verənlərlə, xidmət sahəsinin üstünlükləri ilə seçilən Mərkəzi Avropanın müqayisəli iqtisadi təhlili geoiqtisadi münasibətlərin inkişaf mənzərəsini müəyyənləşdirir. İdxal və ixrac münasibətləri, istehsal hədəflərinin aydınlığı, bazar münasibətlərinin düzgün qurulması bir bütöv olaraq hamısında qarşılıqlı yararlanmanın vacibliyi münasibətlərin dinamikliyinə, həyat səviyyəsinin yüksəldilməsinə əsas olur.

Azərbaycan və Polşa Respublikaları öz tarixi, dövlətçilik ənənəsi ilə daha qədimlərə, orta əsrlərə bağlanır. Belə ki, tarixi mənbələrin verdiyi məlumata görə ilk polyak dövləti X əsrə (966) aid edilir və sərhədləri təxminən bugünkü Polşa Respublikasının sərhədləri ilə üst-üstə düşür. 1025-ci ildə krallığa çevrilən bu dövlət 1569-cu ildə Litva hersoqluğu ilə birləşərək Polşa-Litva birliyinin əsasını qoymuş və 1795-ci ildə dağılmışdı. Polşa 1918-ci ildə yenidən müstəqilliyini qazanmış və ikinci cahan savaşında

təzədən işğala məruz qalmışdı. Almanların məğlubiyyətindən sonra sovetlər ittifaqının nəzarətində olmuş və rejimin dağılmasından sonra (1989) yenidən müstəqillik qazanmışdır. Bu quruluşu müasir tarixşünaslıq Polşanın tarixində "üçüncü respublika" adı ilə vurğulayırlar. Polşa Avropa Birliyi, NATO, BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı, Dünya Ticarət Təşkilatının üzvüdür. Avropa ittifaqında əhali sayına görə altıncı yerdədir. On altı voyevodalıqdan ibarət liberal demokratik ölkə olan Polşa bütün iqtisadi göstəriciləri, imkanları ilə tərəfdaş kimi xüsusi önəm daşıyır.

Qərbə açılma siyasəti Polşanın tarixində yeni mərhələdir. Azərbaycan və Polşanın eyni zaman kəsiyində müstəqillik qazanması iqtisadiyyatda islahatları, sistemli iqtisadi siyasətlərin həyata keçirilməsini aktuallaşdırdı. Artıq həm Azərbaycan, həm də Polşa uğurlu inkişaf yoluna qədəm qoymuş, dövlət müstəqilliyindən sonrakı problemlərinin böyük bir hissəsini həll etmişdir. Beynəlxalq İnkişaf Assosiasiyası, Beynəlxalq Maliyyə Korporasiyası, Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Əmək və Kənd təsərrüfatı Fondu, Ümumdünya Ticarət Təşkilatı və s. təşkilatlarda təmsil olunması və işlər qurması gərəkli perspektivanı müəyyənləşdirir.

Azərbaycan Respublikasına gəlincə onun tarixi, xalqın zəngin mədəniyyət fondu, dövlətçilik ənənələri ilə bağlı kifayət qədər fundamental tədqiqatlar vardır. Dünyanın ən qədim yaşayış məskəni kimi, həm də dünyanın ən qədim mədəniyyət mərkəzlərindəndir. Azıx mağarası, Quruçay mədəniyyəti, Damcılı və s. ciddi arxeoloji faktlarla səciyyələnir. Dünyanın müxtəli ölkələrinin arxeoloqları son dövrlərdə Azərbaycana daha çox diqqət yetirməkdədir. Etnoqrafların, tarixçilərin, musiqişünasların və s. maraqları və monoqrafik araşdırmaları buna nümunədir. Dövlətçilik tarixi isə min illərlə ölçülür. Bütün bunlar Azərbaycan və Polşa Respublikaları səviyyəsində iqtisadi parallelərin aparılmasını, son dövrün iqtisadiyyatında gedən proses-

ləri izləmək üçün əsaslı faktla səciyyələnir.

Polşa sənayesi əsaslı müxtəlifliklərlə səciyyələnir. Gəmi istehsalı, meşə sahələri, tekstil, kimya, metal sənayesi, alüminium, neft məhsulları başlıca istiqamətlər kimi uğurlu inkişafla xarakterizə olunur. Dada çox isə mədənçilik və mədən sənayesi ilə xarici bazarda təmsil olunur. Onu da əlavə edək ki, Polşa Almaniya və İngiltərədən sonra Avropanın ən çox kömür istehsal edən ölkəsidir. Duz, dəmir, manqan və s.yeraltı sərvətləri sırasında xüsusi çəkiyə malikdir. Son dövrlərdə ən çox uğur qazanan sahələrdən diri kağız sənayesinin inkişafıdır.

Polşa iqtisadiyyatında enerji istehsalı xüsusi çəkiyə malikdir. Hətta enerji baxımından inkişaf etmiş ölkələr sırasında Polşa xüsusi olaraq qeyd edilir. Bundan əlavə kömürlə işləyən dəmir və polad sənayesi ölkə üçün əsaslı gəlir qaynağı olaraq vurğulanır. Bıdqoş, Poznan, Vroslav və s. elektrik mühəndisliyi sənayesi baxımından Avropada xüsusi sənaye mərkəzlərindəndir. Qdansk və Seçin limanları ölkənin iqtisadi imkanlılığının təmin olunmasında əhəmiyyətli rol oynayır. Yerli qida, alüminium və süni kübrə sənayeləri inkişaf və gəlirlilik imkanlarına görə xüsusi çəkiyə malikdir. Bu sənaye sahəsi üzrə olanlardır ki, ümumi şəkildə vurğuladıq və idxal, ixrac baxımından ölkənin yaşayış səviyyəsinin yaxşılaşmasında xüsusi rol oynayır. Xidmət sahələrinin inkişafı da Polşa iqtisadiyyatında önəmli yer tutur. Əmək bazarında gedən müsbət tendensiyalı proseslər bütünlükdə xarici iqtisadi əlaqələrin formalaşmasında gərəkli əhəmiyyət daşıyır.

Azərbaycan və Polşa respublikaları yaxın iqlim xüsusiyyətləri ilə səciyyələnir və kənd təsərrüfatının inkişafı, imkanlılığı baxımından geniş faktura ilə maraq doğurur. Əkinçilik məhsulları baxımından geniş imkanlara malik olan Polşa kartof, tütün, kətan, çovdar, arpa,  buğda, yulaf üçün xeyli üstünlüklərə malikdir. Heyvandarlıq sahəsində mal və qoyunçuluq təsərrüfatı geniş inkişaf etmişdir. Balıqçılıq sənayesində də ciddi nailiyyətlər

vardır. Əhalinin 30%-i əkinçilik və heyvandarlıqla məşğul olur. Polşanın iqtisadi əlaqələrinin mühüm hissəsi Almaniya ilə bağlıdır. Bundan əlavə İngiltərə və ABŞ ilə əsaslı iqtisadi əlaqələri vardır. Polşanın bir dövlət olaraq idxal etdiyi məhsulların mühüm hissəsini tekstil xammalı, dəmir cövhəri, maşın və təchizat, taxıl məhsulları, neft və s.-dir.

Polşa Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 27-də tanıyıb və 1992-ci il fevralın 21-də iki ölkə arasında diplomatik əlaqələr qurulub. 2001-ci ildə Polşanın Azərbaycanda, 2004-cü ildə isə Azərbaycanın Polşada səfirliyi təsis edilib. Son illər Azərbaycan - Polşa iqtisadi-ticari əlaqələr sahəsində ciddi uğurlar əldə olunub. Azərbaycandan ixrac olunan məhsulun tərkibində neft və neft məhsulları üstünlük təşkil edir. Enerji sahəsində əməkdaşlıqda da böyük perspektivlər gözlənilir. Bu isə Polşanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın əhəmiyyətinin yaxın illərdə daha da artacağını göstərir.

Son dövrlərin statistik göstəricilərinə diqqət yetirdikdə məlum olur ki, Polşanın sənayesi yüksək göstəricilərlə səciyyələnir və müxtəlifliklərlə maraq doğurur. Maşınqayırma sənayesi, kimya sənayesi, aqrar sənaye, metallurgiya, meşə sənayesi və s. sahəsində olan artım bunun nümunəsidir. Bundan əlavə mebel istehsalı, tikinti materiallari və konstruksiya istehsalı da xüsusi çəkiyə malikdir. Yüngül və ağır sənaye, kimya sənayesi, gəmi istehsalı, metal avtomobil, təyyarə, maşın, sement, alüminium başlıca sənaye aspektləridi. Son zamanlarda taxta-şalban və kağız sənayeləri, tekstil, meşə məhsulları da ölkənin iqtisadi həyatında xüsusi rola malikdir. Mədənçilik və mədən sənayesi olduqca inkişaf etmişdir. Bunların ən əhəmiyyətliləri kömür, sink və misdir. Yeraltı qaynaqlarının səmərəliliyi də beynəlxalq iqtisadi əlaqələrdə Polşanın ciddi tərəfdaş olduğunu əsas edir. Bütün bunlar Polşa ilə Azərbaycan arasında xarici iqtisadi əlaqələrin, geoiqtisadi münasibətlərin uğurluluğuna əsas verir.

Məlum olduğu kimi, Avropa geoiqtisadi məkan olaraq iqti-

sadi göstəricilərinin müxtəlifliyi, iqtisadi potensialının çəkisi ilə fərqlənir. Ona görə də güc və potensial baxımından bu ölkələr özü də fərqli-fərqli iqtisadi münasibətlərlə tənzimlənirlər. Məsələn, Avrozonaya daxil olan ölkələr daha əlverişli üstünlüklərlə çıxış edirlər. Avropa İttifaqı ölkələrində müsbət olan odur ki, iqtisadi sabitlik xüsusi bir hal kimi müşahidə olunur. Avropa Komissiyasının hesabatında vurğulananlar da bunu göstərir. Daha yüksək iqtisadi artımlar (Avrozonaya daxil olmayanlar timsalında) sırasında Çexiya, İsveç, Ruminiya, Polşa xüsusi olaraq önəm kəsb edir. Bir faktı əlavə edək ki, Polşa Avropa ölkələri arasında iqtisadiyyatının potensial imkanlarına görə altıncı yerdədir. Bu özlüyündə Polşanın iqtisadi imkanlarının nə qədər əhəmiyyət kəsb etdiyini, inkişafın ümumi mənzərəsini aydınlaşdırır.

Polşa Avropa Birliyi, NATO, BMT, Dünya Ticarət Təşkilatı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa İqtisadi Sahəsi, Avropada Əməliyyat, Beynəlxalq Atom Enerji Təşkilatı, Avopa Məkanı Agentlik, G6, Baltik dənizi Dövlətləri Şurası, Visegrad qrupu, Weimar Üçbucağı və Şengen Anlaşması kimi beynəlxalq təşkilat və qruplarda təmsil olunur. Bunların bir hissəsində Azərbaycan ilə Polşa eyni sistemdə birləşir, ayrı-ayrı problemlərin, iqtisadi layihələrin həyata keçirilməsində iştirak edirlər. Yəni dünyanın siyasi, iqtisadi, texnoloji proseslər müstəvisində xeyli kiçilməsi həm də münasibətlərin, qarşılıqlı anlaşmaların baş verməsi üçün ciddi bağlantıları əsas edir.

Polşanın Baltik dənizi dövlətləri ilə, Azərbaycanın Xəzər hövzəsi dövlətləri ilə bir xətdə bağlanması da bir başqa müstəvidə dövlət qurupları ilə əlaqələrin və təmas xətlərinin bağlanmasına şərait yaradır. Məlum olduğu kimi Qara dəniz ətrafı ölkələr, Xəzər hövzəsi dövlətləri öz coğrafi şəraitinin uğurluluğu, ticarət, nəqliyyat prosesinin həyata keçirilməsi üçün ən əhəmiyyətli ərazidir. Qədim zamanlardan Qərblə Şərqi, Cənubla Şimalı birləşdirən bu ərazilər yaddaşlarda karvan yolu kimi ciddi iqti-

sadi, siyasi, mədəni bağlantıları özündə ehtiva edir. Sovetlər imperiyasının dağılması həmin yaddaşın oyanışı, transmilli layihələrin həyata keçirilməsi üçün bir əsas oldu. Böyük iqtisadi layihələr, neft və qaz kəmərlərinin çəkilməsi, dünyanın güc mərkəzlərinin bu layihələrdə mühüm tərəf kimi təmsil olunma cəhdləri və s. hamısı dünyanın iqtisadi xəritəsində gedən proseslərin ayrılmalardan çox qloballaşdığını, qlobal maraqların önəmlilik təşkil etdiyini göstərir. Bu, dünya iqtisadi sferasının əlifbası kimi tam aydınlığı ilə dərk olunur.

Azərbaycan müstəqillik qazandıqdan sonra dünyanın müxtəlif inkişaf etmiş ölkələri ilə qarşılıqlı iqtisadi əməkdaşlıq əsasında işlərini qurmağa üstünlük verdi. Ona görə də beynəlxalq güc mərkəzləri, iqtisadi təşkilatlarla iqtisadi anlaşmalarda bir tərəf kimi iştiraka üstünlük verdi və bütünlükdə Avropa ölkələri, eləcə də Şərq ölkələri, Cənubi Qafqaz ölkələri ilə faydalılıq əsasında bir-birindən bazar münasibətlərində, iqtisadi ehtiyacların həlli xəttində də gərəkli addımlara üstünlük verdi. Polşa Respublikası ilə olan əməkdaşlıq, prezidentlərin görüşü, dövlət səviyyəsində sazişlərin bağlanması, iqtisadi layihə sənədlərinin imzalanması, ticarət əlaqələri xarici iqtisadi əlaqələrin əhəmiyyətliliyini və perspektivlərini aydınlaşdırır. Azərbaycan və Polşa iqtisadiyyatının xüsusiyyətləri, inkişaf tendensiyası, sahə quruluşu və s. bunların zəruri bağlantılarına şərait yaradır.

Polşa iqtisadçılarının fikrincə (8; 9;), ixrac ölkə iqtisadiyyatının əsas gücünü təşkil edir və sonrakı illərdə də bu aydın şəkildə nəzərə çarpır. Ötən ildə ölkənin daxili tələbatının artması amili bununla izah olunur. Çünki makroiqtisadi sferada ümumi daxili məhsula tələbatın artması və rolu bir neçə amillə xarakterizə olunur. Burada əsas olan rifah, məhsul, gəlir sahələri ilə bağlıdır. Məsələn, 2015 ci il üzrə göstəricilərə diqqət yetirdikdə aydınlaşır ki, əhalinin sayı 38,5 mln. nəfər olmuşdur və işləyənlərin sayı 14,850 mln.-dur və bu da ümumi əhalinin 38,5 %-ni təşkil edir.

Xarici iqtisadi əlaqələr, onun nizamlanması, bazarın qiymətləndirilməsi, iqtisadi çevrədəki ümumi mənzənnənin müvafiqliyi məhz yaşananlarda əsaslı funksiya daşıyır. Məşhur ingilis iqtisadçısı D.Rikardo vurğulayırdı ki, "xarici ticarətin uzadılması bir ölkədə dəyərin dərhal artmasına səbəb olacaqdır, baxmayaraq ki, əmtəələrin kütləvi artımına çox güclü təsir göstərəcəkdir. Bütün xarici malların dəyəri bizim torpaqlarımızın və əməyinin keyfiyyəti ilə ölçülür və ona qarşı verilmişdir" (10, 85). Bu tezis bütünlükdə iqtisadi düzəndə proseslərin istiqamətlənmə tendensiyasını öncülləyir. Prosesin təbii axarında bazar qanunlarının, iqtisadi sxemlərin, beynəlxalq iqtisadi münasibətlərdə qarşılıqlı əlaqələrin, ehtiyacların (idxalın), eləcə də əlavə olanların (ixracın) nizamlanmasını gərəkli edir.

Rəsmi sənədlərə görə, 2017-ci il Polşa iqtisadiyyatında ümumi daxili məhsulun həcmi 521.03 milyard dollar, artım dərəcəsi 0.9%, işsizlik dərəcəsi 6.6%, inflyasiya dərəcəsi 2.1%, xarici ticarət dövriyyəsi 764 mlyn avrodur.

Bütün bunlar Polşa və Azərbaycan Respublikalarının iqtisadi imkanlarının ümumi göstəricisini, qarşılıqlı iqtisadi əlaqələrin geniş bazaya malik olduğunu düşünməyə əsas verir. Xarici iqtisadi əlaqələr baxımından Azərbaycanın 137 ölkə ilə iqtisadi əməkdaşlıqda olması və bunun artan tempi geniş perspektivləri, qarşılıqlı münasibətlərin uğurluluğunu müəyyənləşdirir.

Sənaye, aqrar sahə, nəqliyyat, informasiya və rabitə, xarici ticarət, istehlak qiymətləri və xidmət tarifləri, əmək haqqı, əhalinin gəlirləri və əhalinin əmanətləri, kredit qoyu-luşu, idxal – ixrac əməliyyatları və s. sahələr üzrə atılan gərəkli addımlar ölkənin iqtisadi baxımdan strategiyasının dönməzliyini və düşünülmüş siyasətini aydınlaşdırır. Məhz bu səbəbdən də həm bərpa olunan, həm də bərpa olunmayan sərvətlərin düzgün istifadəsi baxımından Azərbaycan iqtisadiyyatı ciddi perspektivlər vəd edir. Onun sahə quruluşu, iqtisadiyyatının inkişaf xüsusiyyətləri və xarici iqtisadi əlaqələrinin əhəmiyyətliliyi Azərbaycana olan

maraqların artmasına əsas verir. Dünyanın 137 ölkəsi ilə aparılan qarşılıqlı anlaşma və iqtisadi sahədə atılan əsaslı addımlar bunun təsdiqidir. Məsələn, ikitərəfli əməkdaşlıqla bağlı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 21 fevral 1992-ci il tarixli məktubunda bütün məsələlər tərəflərilə öz ifadəsini tapmışdır (12).

Məlum olduğu kimi, Polşa Avropa Birliyinin qonşuları üçün Şərq Tərəfdaşlığı əməkdaşlıq proqramı müstəvisində gərəkli işlərə imza atmışdır. Bu işlərdə İsveçrənin də mühüm rolu vardır. Azərbaycan məsələsi həmin proqramda əsaslı yerə malikdir. Proqramın qəbulu Şərq siyasətinin sistemli həyata keçirilməsini, iqtisadi, siyasi, mədəni sahədə gərəkli addımların atılmasını əsas etdi. Bu ikitərəfli və çoxtərəfli əməkdaşlıq üçün ciddi imkanlar yaratmaqla həm də iqtisadi siyasətin düzgünlüyünə yardımçı oldu. Burada vurğulanan əsas məsələlərdən birisi partnoyorların istəmədikləri ölkə ilə əlaqələri qurmamaq məsələsidir, yəni bu ölkələr arasında əsaslı sərbəstlik imkanları yaradır. Polşa və Azərbaycan Respublikalarının ikitərəfli əməkdaşlığı qarşılıqlı anlaşma, iqtisadi bağlantıların gücləndirilməsi, bazar münasibətlərinin, eləcə də böyük layihələrin həyata keçirilməsində qarşılıqlı yararlanma kimi məsələlər əsas tutulurdu. Polşanın yüksək səviyyəli hökümət nümayəndələrinin Azərbaycana gəlişi, eləcə də Azərbaycan dövlət rəsmilərinin Polşaya səfərləri iqtisadi münasibətlərin daha da dərinləşməsinə, əlavə istiqamətlərdə birgə çıxış etməyə əsas verir.

Polşanın iqtisadiyyatının yüksələn səviyyədə nəzərə çarpması, iqlim şəraiti səviyyəsində hər iki ölkənin yaxınlıqları, ölkələrin  sahə quruluşundakı yaxınlıqlar, iqtisadiyyatın inkişaf xüsusiyyətlərinin oxşarlıqları gərəkli bağlantılara şərait yaradır. Azərbaycan neft ölkəsi olaraq böyük perspektivlər vəd edir və onun karbohidrat potensialı bundan birgə yararlanmanı bir zərurət kimi ortaya qoyur. Bütün bunlardan yüksək səviyyədə istifadə etməklə Azərbaycan  qeyri neft sahəsində aparılan işlərin

daha da yaxşılaşdırılmasını təmin etməyə çalışır. Polşanın iqtisadi göstəricilərində gəmi istehsalı, meşə sahələri, tekstil, kimya, metal sənayesi, alüminium, neft məhsulları, mədənçilik və mədən sənayesi kömür istehsal, duz, dəmir, manqan və s. mühüm yer tutur. Xidmət sahələrində olan göstəricilər mühüm tərəf kimi önəm daşıyır. Ona görə də həm Polşa, həm də Azərbaycan idxal və ixrac proseslərinin tənzimlənməsi və qarşılıqlı faydalanma üçün xüsusi çəkiyə malikdir. A.Smit vurğulayırdı ki, "bütün müxtəlif əmanətlər üzrə, adi dərəcə nisbəti, gəlirlərin müəyyənlik və ya qeyri-müəyyənliyi ilə daha az və ya çox dəyişir. Bunlar daxili ticarətdə və xarici ticarətdə bəzi sahələrdə başqalarına nisbətən daha az qeyri-müəyyəndir" (11, 91).

Azərbaycan Xəzər hövzəsi dövlətlər sırasında əsaslı imkanlılıqla təmsil olunur. Zəngin karbohidrat yataqları, neft strategiyası, qeyri-neft sektorunda gedən inkişaf tendensiyası bir bütöv olaraq bizə əsas verir ki, bunların iqtisadi uğurluluq əmsalından istifadə etməklə ölkənin dinamik inkişafını, davamlılıq sistemini yaradaq. Azərbaycanın, Qazaxsıstanın və Türkmənistanın malik olduğu enerji ehtiyatları güclü rəqabətlilik zəminində yeni bazarların və yeni iqtisadi münasibətlərin gərəkliliyini əsas edir və regionu iqtisadi maraqların cəmləşdiyi nöqtəyə çevirir. Rusiyanın, ABŞ-ın, Avropa İttifaqı ölkələrinin, İranın mövqe üstünlüyü müstəvisində yeritdiyi iqtisadi siyasət eyni zamanda Azərbaycan üçün perspektivlər vəd edir. Əlavə onu da deyək ki, bütün bu zənginlik geoiqtisadi maraqlarla yanaşı, həm də geosiyasi, geostrateji mövqe uğrunda mübarizəni də ortaya qoyur. Azərbaycanın bir dövlət olaraq yeritdiyi iqtisadi siyasət qarşılıqlı anlaşma, qarşılıqlı faydalılıq prinsipinə hesablanmışdır. Məhz Polşa Respublikası ilə olan anlaşmalar iqtisadi müstəvidə proseslərin düzgünlüyünə, inkişaf dinamikasının təmininə, bazar münasibətləri səviyyəsində uğurlu siyasətin həyata keçirilməsinə hesablanmışdır.

Azərbaycan və Polşa Respublikalarının iqtisadiyyatının Qərb

və Şərq iqtisadi sistemləri üzrə geniş müstəvidə təhlili, eləcə də bərpə olunan və olunmayan iqtisadi göstəricilərinin xüsusiyyəti ilə araşdırılması perspektiv imkanlar yaradır və respublikamızın iqtisadi potensialının daha da güclənməsi haqqında müsbət təsəvvür formalaşdırır. Çünki bu ölkələrin iqtisadiyyatının inkişaf xüsusiyyətləri, sahə quruluşu, xarici iqtisadi əlaqələri iqtisadi münasibətlərin düzgünlüyünü düşünməyə əsas verir. Bütün bunlar problemin köklü şəkildə müxtəlif səviyyədə izlənməsini və sistemli araşdırmaları zəruri edir.

## ƏDƏBİYYAT

1. Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.

2. Azərbaycan Respublikasının idxal-ixrac əməliyyatları. (1992-1996-cı illər). Bakı: Azərbaycan Dövlət Statistika Komitəsi, 1997, 108 s.

3 Azərbaycanın statistik göstəriciləri. Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2017, 814 s.

4. Gənciyev G. Beynəlxalq iqtisadi münasibətlər: müasir vəziyyət və inkişaf problemləri. Bakı: Elm, 2005, 260 s.

5. Koçetov E.Q. Geoiqtisadiyyat. Bakı, İqtisad Universiteti, 2015, 438 s.

6. Clifford R. Barnett, Poland: Its People, Its Society, Its Culture. New Haven, CT: HRAF Press, 1958, 484 p.

7. Janek Toporowski. İqtisadiyyatda Polşa töhfəsi. www.res.org.uk/view/art4Apr14Features.html.

8. Jadvyga Ciburiene, Kaunas University of Technology, Lithuania, The Evaluation of Economic Development, Proceedings of the 8th International Conference on Applied Economics Contemporary Issues in Economy under the title Market or Government?. Torun, Poland: Institute of Economic Research and Polish Economic Society Branch in Toruń, 18-19 June 2015,

s.362-363 (1817))

9. Magdalena Zajączkowska, Cracow University of Economics, Poland, Prospects for the Development of Prosumer Energy in Poland, Proceedings of the 8th International Conference on Applied Economics Contemporary Issues in Economy under the title Market or Government?. Torun, Poland: Institute of Economic Research and Polish Economic Society Branch in Toruń, 18-19 June 2015, 1817 p.

10. Rikardo D. On the prinsiplen of political economy and taxation. Canada, Ontario, Kitchener, 2001, 333 p.

11. Smith A. An inquiru into the nature and causes of the wealth of nations. USA, New York, Metalibri, 2007, 754 p.

12. www.baku.msz.gov.pl

## POLŞA VƏ AZƏRBAYCAN RESPUBLİKALARININ İQTİSADİ ƏLAQƏLƏRİNİN ÜMUMİ MƏNZƏRƏSİ

Polşa və Azərbaycan respublikalarının iqtisadiyyatının inkişaf xüsusiyyətlərinin, xarici əlaqələrinin, eləcə də sahə quruluşunun müqayisəli təhlili qarşılıqlı iqtisadi bağlantıların yeni istiqamətlərinin aşkarlanmasına və perspektivliyinə imkanlar yaradır. Qloballaşmanın mahiyyətində duran əsas məsələ dünya evinin bütün müstəvilərdə vahid məcraya istiqamətlənməsinə, sosial, iqtisadi, mədəni, siyasi sferada olanların ortaqlıq nöqtələrinin tapılmasına bağlanır. Polşa və Azərbaycan respublikalarının iqtisadi əlaqələrinin perspektiv inkişaf istiqamətlərinin bir problem olaraq bütöv şəkildə təhlili də buraya daxil olmaqla ciddi fakt zənginliyi ilə səciyyələnir. Çünki həm Polşanın, həm də Azərbaycanın bir respublika olaraq iqtisadi imkanları qarşılıqlı yararlanmanı, təbii resurslardan, əmək qüvvəsindən, texnologiyanın müasir nəaliyyətlərindən birgə istifadənin gərəkli əhəmiyyətini və perspektivlərini aydınlaşdırır.

Polşa iqtisadiyyatının ümumi inkişaf dinamikası müxtəlif

polyak müəlliflər tərəfindən araşdırılmışdır: Skrzypczynski (2010), Gradzewicz et al. (2010), Adamowicz et al. (2008) və qismən Wosko (2009). Blazer Mazur, Lukasz Lenart, Mateusz Pipien və başqaları ciddi elmi qənatlərlə faktlaşır. Məlum olduğu kimi, Polşa Respublikası Mərkəzi Avropada olub bir sıra sahələrin üstünlükləri, məsələn, xidmət sahəsi, daxili bazarlarının imkanlığı, iqtisadi münasibətlərin əhəmiyyətliliyi ilə seçilir. Burada respublikanın çoğrafi şəraitin uğurluluq əmsalı da mühüm önəm daşıyır. Belə ki, qərbdə Almaniya, cənubda Çex Respublikası və Slovakiya, şərqdə Ukrayna və Belarus, şimalda Baltik dənizi, Litva və Rusiya ilə həmsərhəd olması bazar keçidlərinə, onun idxal, ixrac münasibətlərinin əhatəliliyinə əsas verir. Ölkənin bundan əlavə Danimarka və İsveçlə dəniz sərhədləri vardır ki, bu da xarici iqtisadi münasibətlərin qurulmasının münbitliliyini şərtləndirir. Polşanın ərazisi 312.683 km$^2$, əhalisi 37 milyondan çoxdur.

Azərbaycanın ümumi coğrafi şəraitinə, yerləşmə arealının xüsusiyyətlərinə diqqət yetirdikdə uğurluluq baxımından ciddi bir mənzərə yaranır. Belə ki, Azərbaycan Respublikası Cənubi Qafqaz, Xəzər dənizi hövzəsində yerləşən dövlət kimi bərpa olunmayan resursların zənginliyi ilə seçilir. Onun iqtisadi imkanlılığı, geoiqtisadi şərait üçün əlverişli səciyyə daşıması, tranzit ölkə kimi Şərq, Qərb, Şimal, Cənub üçün böyük marağa səbəb olması XXI əsrin yeniləşən iqtisadi mənzərəsində mühüm önəm daşıyır. Şimaldan Rusiya, Gürcüstan, qərbdən Ermənistan,Türkiyə və cənubdan İran ilə həmsərhəd olması geoiqtisadi proseslərin təşkilində uğurlu perspektivlər vəd edir. Xəzər dənizi hövzəsi ölkələrinin ticarət əlaqələrində son dərəcədə əsaslı bir faktdır. Ona görə də bərpa olunan və bərpa olunmayan resursların fərqliliyi, eləcə də coğrafi şəraitin özünəməxsusluğu baxımından bu iki ölkə eyni iqlim şəraitinə hesablanır. Azərbaycan Cənubi Qafqaz ərazisində öz iqtisadi potensialı, bərpa olunan və olunmayan iqtisadiyyatının zənginlikləri, xarici bazarda təmsil ol-

unma xüsusiyyətlərinin dinamikası ilə uğurlu tərəfdaşdır. Ona görə də Azərbaycanın bir Asiya ölkəsi (Avropa ilə Asiyanın kəsişdiyi sərhədlərdə yerləşməsi baxımından) olaraq Polşa ilə, daha doğrusu, bir mərkəzi Avropa ölkəsi ilə iqtisadi münasibətlərinin perspektivlərinin izlənməsi digər ölkələrlə də tipoloji təhlillərə ciddi əsas verir.

Polşanın ilə Azərbaycan iqtisadi müstəvidə əlaqələrinin təhlili siyasi və mədəni əlaqələrin də tarixini aydınlaşdırmağı zəruriləşdirir. Əlbəttə tarixi mənbələr, elmi ədəbiyyatların, mətbuat orqanlarının verdiyi bilgilər zəngin fakt bolluğunu müəyyənləşdirir. Hələ XIX əsrin əvvəllərindən başlayaraq Polşanın elm, mədəniyyət adamlarının, yaradıcı mühitin, coğrafiyaçıların Qafqaza, eləcə də onun bir hissəsi olan Azərbaycana marağı həmişə artan istiqamətdə getmişdir. Bunu memarlıq abidələri, Polşa etnoqraflarının, arxeoloqlarının, tarixçilərinin, ədəbiyyatşünas və musiqiçilərinin dedikləri də tam aydınlıqla göstərir. Məsələn, Polşa şərqşünası Yozef Sepkovskinin tərcümələri, B.Romanoviç Bakı və onun memarlığı haqqında məqalələri (1825), "Koroğlu" dastanının kitab kimi ilk nəşri (1842, Aleksandr Xodzkonun) və s. bu bağlantıların, Azərbaycana olan marağın göstəricisidir. Polşa Şərqşünaslıq məktəbinin Azərbaycanla bağlı gördükləri gərəkli işlər bu gün də özünün masştabına, dəyərlilik dərəcəsinə görə xüsusi çəkiyə malikdir. Sovetlər dönəmində hadisələrin gedişi isə bir başqa xətlidir, daha doğrusu, Azərbaycan sovetlər ittifaqının ərazi birliyində Polşa isə sosialist ölkələri çevrəsində bir-biri ilə bağlanırdı. Ona görə də bu iki ölkənin sovetlər ittifaqının dağılmasından sonrakı mərhələdə ümumi mənzərəsinin işlənməsi, inkişaf səviyyəsinin öyrənilməsi bir problem olaraq əsaslı özünəməxsusluqlarla, fakt zənginlikləri ilə səciyyələnir.

Müasir texnoloji inkişafın sürəti dünyanı çox kiçiltmiş və zərurətləri, ölkələrin iqtisadi, mədəni bağlantılarını, olanlardan birlikdə faydalanmanı qaçılmaz etmişdir. Ona görə də zəngin

sərvət resursları ilə güc mərkəzində olan Xəzər hövzəsi və Qara dəniz ətrafında baş verənlərlə, daha doğrusu, iqtisadi proseslərin mənzərəsi ilə xidmət sahəsinin üstünlükləri ilə seçilən Mərkəzi Avropanın müqayisəli iqtisadi təhlili geoiqtisadi münasibətlərin inkişaf mənzərəsini müəyyənləşdirir. İdxal və ixrac münasibətləri, istehsal hədəflərinin aydınlığı, bazar münasibətlərinin düzgün qurulması bir bütöv olaraq hamısında qarşılıqlı yararlanmanın vacibliyi münasibətlərin dinamikliyinə, həyat səviyyəsinin yüksəldilməsinə əsas olur. Bunlar bir istiqamətdə iqtisadi diplomatiyanın düzgünlüyündən, uğurluluğundan asılıdır. Məlum olduğu kimi, "iqtisadi diplomatik fəaliyyətin tənzimlənməsində mühüm prinsiplərdən biri də təbii ehtiyatlar və iqtisadi fəaliyyət üzərində dövlət suverenliyinin təmin olunmasıdır. Qeyd olunan prinsip özündə aşağıdakıları ehtiva edir:

-dövlətin sərvət, sahiblik, sərəncam, istifadə və müstəqil iqtisadi fəaliyyəti;

-müvafiq sferada iqtisadi fəaliyyətə nəzarət;

-təbii ehtiyatların istifadəsi rejiminin sərbəst müəyyən edilməsi;

-beynəlxalq hüquqa uyğun olaraq xarici kapitalı ictimai, dövlət maraqları naminə milliləşdirmək;

-təbii resursların istehsalçılarının təşkilatında birləşmək;

-təbii ehtiyatların və suverenliyin müvəqqəti itirilməsi ilə əlaqədar işğal olunmuş ərazilərlə özünün təbii resursları üzərində nəzarətin bərpa edilməsi zamanı dəymiş zərərin ödənilməsi və s.

Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində xüsusi çəkisi olan prinsiplərdən biri də iqtisadi əməkdaşlıq prinsipidir" (7, 92-93). Göründüyü kimi, iqtisadi diplomatik münasibətlər müstəvisində verilmiş bu müddəalar konseptual bir mənzərəni, təbii ehtiyat və iqtisadi fəaliyyətlə bağlı olanları ehtiva edir.

Polşa və Azərbaycan respublikaları öz tarixi, dövlətçilik ənənəsi ilə daha qədimlərə, orta əsrlərə bağlanır. Belə ki, tarixi mənbələrin verdiyi məlumata görə ilk polyak dövləti X əsrə (966)

aid edilir və sərhədləri təxminən bugünkü Polşa Respublikasının sərhədləri ilə üst-üstə düşür. Polşa Avropa Birliyi, NATO, BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı, Dünya Ticarət Təşkilatının üzvüdür. Avropa ittifaqında əhali sayına görə altıncı yerdədir. On altı voyevodalıqdan ibarət liberal demokratik ölkə olan Polşa bütün iqtisadi göstəriciləri, imkanları ilə tərəfdaş kimi xüsusi önəm daşıyır.

Polşa sənayesi əsaslı müxtəlifliklərlə səciyyələnir. Gəmi istehsalı, meşə sahələri, tekstil, kimya, metal sənayesi, alüminium, neft məhsulları başlıca istiqamətlər kimi uğurlu inkişafla xarakterizə olunur. Dada çox isə mədənçilik və mədən sənayesi ilə xarici bazarda təmsil olunur. Onu da əlavə edək ki, Polşa Almaniya və İngiltərədən sonra Avropanın ən çox kömür istehsal edən ölkəsidir. Duz, dəmir, manqan və s.yeraltı sərvətləri sırasında xüsusi çəkiyə malikdir. Son dövrlərdə ən çox uğur qazanan sahələrdən biri kağız sənayesinin inkişafıdır.

"Polşa yeyinti sənayesində konsentrasiya prosesləri də özünü göstərir. 2010-cu ildə sektorda fəaliyyət göstərən təxminən 16 min şirkətin yalnız 1,7% -ni təşkil edən 250-dən çox işçi işləyən şirkətlər bütün məşğulluqların 36,9% -ni və istehsal dəyərinin 54,1% -ni təşkil ediblər. Üç kapital qrupu neft istehsalında gəlirlərin 85,7%, pivə istehsalında 78,5%, tütün sənayesində 76,9%, kartof istehsalında 75,6%, şəkər istehsalı isə 69,6% təşkil etmişdir. 2003-2010-cu illərdə istehsal dəyərinin 102,7-dən 158,9 milyard zl-ə qədər artmış, müəssisələrin sayı 19,52-dən 15,97 minədək azalmıdır. 2013-ci ildə satışda konsentrasiya nisbəti qida istehsalında 0,79, içki istehsalı 0,66, tütün sənayesində isə 0,37 təşkil etmişdir. Qida sektorunda konsentrasiya prosesinin davam edəcəyi və böyük şirkətlərin rolu artacağı da nəzərdə tutulur" (9, 1012).

"2002-2013-cü illərdə Polşa qida sahəsində məhsulun dəyəri və məhsul faktorunun xərcləri və dünya kənd təsərrüfatı məhsulunun qiyməti (2010=100, real 2005 US dollars)

Polşada qida sektorunda 2002-2013 dövründə analiz edilmiş şirkətlərin istehsal dəyərinin böyük artımı müşahidə edilir. 2013-ci ildə maksimum 212,93 milyon zl olmuş və 2002-ci ilə nisbətən 127.22% artım özünü göstərmişdir. Qeyd edək ki, 1995-2013-cü illərdə bütün Polşa aqro-ərzaq sektorunun ixracı 3 milyard avrodan 14 milyard avroya, məsələn, 2012-ci ildə demək olar ki, 77 faizi AB bazarlarına çıxmışdır" (9, 1025).

Polşa iqtisadiyyatında enerji istehsalı xüsusi çəkiyə malikdir. Hətta enerji baxımından inkişaf etmiş ölkələr sırasında Polşa xüsusi olaraq qeyd edilir. Bundan əlavə kömürlə işləyən dəmir və polad sənayesi ölkə üçün əsaslı gəlir qaynağı olaraq vurğulanır. Bıdqoş, Poznan, Vroslav və s. elektrik mühəndisliyi sənayesi baxımından Avropada xüsusi sənaye mərkəzlərindəndir. Qdansk və Seçin limanları ölkənin iqtisadi imkanlılığının təmin olunmasında əhəmiyyətli rol oynayır. Yerli qida, alüminium və süni kübrə sənayeləri inkişaf və gəlirlilik imkanlarına görə xüsusi çəkiyə malikdir. Bu sənaye sahəsi üzrə olanlardır ki, ümumi şəkildə vurğuladıq və idxal, ixrac baxımından ölkənin yaşayış səviyyəsinin yaxşılaşmasında xüsusi rol oynayır. Xidmət sahələrinin inkişafı da Polşa iqtisadiyyatında önəmli yer tutur. Əmək bazarında gedən müsbət tendensiyalı proseslər bütünlükdə xarici iqtisadi əlaqələrin formalaşmasında gərəkli əhəmiyyət daşıyır. Polşa iqtisadiyyatının inkişaf xüsusiyyətlərini aydınlaşdırmağa ciddi əsas olur. Məlum olduğu kimi, iqtisadiyyatın transformasiyasını üç istiqamətdə qruplaşdırırlar:

"-cəmiyyətin və iqtisadiyyatın liberallaşdırılmasının əsası kimi gəlirlərin formalaşdırılmasına sistemli münasibət;

-bazar iqtisadiyyatının bazisi kimi kapitalların yaranmasına və fəaliyyətinə münasibətin sistemli surətdə yenidən qurulması;

İdarəetmənin, iqtisadiyyatın – institutsional strukturuna, bazar tələblərinə uyğun yenidən qurulması" (5, 598). Əlbəttə həm Polşa, həm də Azərbaycan cəmiyyətin və iqtisadiyyatın liberallaşdırılmasında xeyli müvəffəqiyyətli addımlar atmışdır. Ölkənin

bu istiqamətdə həyata keçirdiyi sistemli münasibət konsepsiyası müxtəlif sahələrin uğurlar qazanmasına əsas olmuşdur. İqtisadi proseslərin uğurluluğu üçün elmi ədəbiyyatda istənilən ölkə üçün liberallaşdırma, sabitləşdirmə, özəlləşdirmə, iqtisadi institutların formalaşdırılması, iqtisadiyyatın strukturunun yenidən qurulması kimi ciddi istiqamətlər vurğulanır. Əlbəttə bu xətlərin mahiyyətində olduqca əsaslı problemlərin həll olunması dayanır ki, Azərbaycan və Polşa ölkələri bu sahədə gərəkli addım atmış və atmaqdadır. Artıq iqtisadiyyatın, demək olar, bütün sahələri ilə bağlı iqtisadi institutlar sistemli təhlillər aparır, ölkə və dünya iqtisadi sferasında baş verənləri ciddi təhlillər etməklə gərəkli nəticələrə gələ bilirlər. Ona görə də Polşa və Azərbaycan iqtisadiyyatının inkişaf xüsusiyyətinin, sahə quruluşunun, xarici iqtisadi əlaqələrinin müqayisəli öyrənilməsi daha çox fakt bolluğu ilə səciyyələnir.

XVIII əsrin sonu, XIX əsrin əvvəllərində yaşamış ingilis iqtisadçısı D. Rikardo vurğulayırdı ki, “xarici ticarət, bir ölkə üçün olduqca faydalı olmasına baxmayaraq, gələcəkdə gəlir əldə edə biləcəyi obyektlərin məbləğini və müxtəlifliyini artırır və malların bolluq və ucuzluğu, səmərənin qənaət edilməsi və səmərəliliyinin təşviqi ilə təmin edir. Əmtəə idxalı əmək haqqının xərcləndiyi təsvirdən başqa olmadıqda, səhmdar mənfəətini artırmaq meyli yoxdur.

Yolların və kanalların yaradılması və ya istehsalda və ya malların çatdırılmasında əmək qabiliyyətinin azaldılması vasitəsi ilə, maşınların ixtirası ilə əmək qabiliyyətinin daha yaxşı şəkildə bölüşdürülməsi ilə heç vaxt artım olmaz” (10, 89). Azərbaycan və Polşa respublikaları eyni iqlim xüsusiyyətləri ilə səciyyələnir və kənd təsərrüfatının inkişafı və imkanlılığı baxımından geniş faktura ilə maraq doöurur. Əkinçilik məhsulları baxımından geniş imkanlara malik olan Polşa kartof, tütün, kətan, çovdar, arpa, buğda, yulaf üçün xeyli üstünlüklərə malikdir. Heyvandarlıq sahəsində mal və qoyunçuluq təsərrüfatı geniş inkişaf etmişdir.

Balıqçılıq sənayesində də ciddi nailiyyətlər vardır. Əhalinin 30%-i əkinçilik və heyvandarlıqla məşğul olur. Polşanın iqtisadi əlaqələrinin mühüm hissəsi Almaniya ilə bağlıdır. Bundan əlavə İngiltərə və ABŞ ilə əsaslı iqtisadi əlaqələri vardır. Polşanın bir dövlət olaraq idxal etdiyi məhsulların mühüm hissəsini tekstil xammalı, dəmir cövhəri, maşın və təchizat, taxıl məhsulları, neft və s.-dir.

Polşa Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 27-də tanıyıb və 1992-ci il fevralın 21-də iki ölkə arasında diplomatik əlaqələr qurulub. 2001-ci ildə Polşanın Azərbaycanda, 2004-cü ildə isə Azərbaycanın Polşada səfirliyi təsis edilib. Son illər Azərbaycan - Polşa iqtisadi-ticari əlaqələr sahəsində ciddi uğurlar əldə olunub. Azərbaycandan ixrac olunan məhsulun tərkibində neft və neft məhsulları üstünlük təşkil edir. Enerji sahəsində əməkdaşlıqda da böyük perspektivlər gözlənilir. Bu isə Polşanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın əhəmiyyətinin yaxın illərdə daha da artacağını göstərir.

Son dövrlərin statistik göstəricilərinə diqqət yetirdikdə məlum olur ki, Polşanın sənayesi yüksək göstəricilərlə səciyyələnir və müxtəlifliklərlə maraq doğurur. Yüngül və ağır sənaye, kimya sənayesi, gəmi istehsalı, metal avtomobil, təyyarə, maşın, sement, alüminium başlıca sənaye aspektləridi. Son zamanlarda taxta-şalban və kağız sənayeləri, tekstil, meşə məhsulları da ölkənin iqtisadi həyatında xüsusi rola malikdir. Mədənçilik və mədən sənayesi olduqca inkişaf etmişdir. Bunların ən əhəmiyyətliləri kömür, sink və misdir. Yeraltı qaynaqlarının səmərəliliyi də beynəlxalq iqtisadi əlaqələrdə Polşanın ciddi tərəfdaş olduğunu əsas edir. Bütün bunlar Polşa ilə Azərbaycan arasında xarici iqtisadi əlaqələrin, geoiqtisadi münasibətlərin uğurluluğuna əsas verir. Məlum olduğu kimi, Avropa geoiqtisadi məkan olaraq iqtisadi göstəricilərinin müxtəlifliyi, iqtisadi potensialının çəkisi ilə fərqlənir. Ona görə də güc və potensial baxımından bu ölkələr özü də fərqli-fərqli iqtisadi münasibətlərlə tənzimlənirlər.

Məsələn, Avrozonaya daxil olan ölkələr daha əlverişli üstünlüklərlə çıxış edirlər. Avropa İttifaqı ölkələrində müsbət olan odur ki, iqtisadi sabitlik xüsusi bir hal kimi müşahidə olunur. Avropa Komissiyasının hesabatında vurğulananlar da bunu göstərir. Daha yüksək iqtisadi artımlar (Avrozonaya daxil olmayanlar timsalında) sırasında Çexiya, İsveç, Ruminiya, Polşa xüsusi olaraq önəm kəsb edir.

Aydınlıq üçün Polşada istehsal olunan malların bir hissəsinə diqqət yetirək; bunlar elektronika, vertolyot və təyyarə (PZL Swidnik, PZL Mielec), gəmi (Gdansk Shipyard, Szczecin Shipyard, Gdynia  Polşa Dəniz Tersanesi), avtobus və tramvay  (Solaris, Solbus), hərbi avadanlıqlar (FB "Lucznik" Radom, Bumar-Labedy SA), kimyəvi məhsullar, dərmanlar (Polpharma, Polfa), şüşə dulusçuluq (Boleslawiec), ərzaq (Tymbark, Hortex, E.Wedel), geyim (LLP) və s. Onu da əlavə edək ki, Polşa dünyanın ən böyük mis, gümüş, kömür istehsalçılarındandır. Bütün bunlar geoiqtisadi sferada qarşılıqlı iqtisadi münasibətlərin qurulması üçün ciddi imkanlar yaradır.

Rəsmi sənədlərə görə, 2017-ci il Polşa iqtisadiyyatında ümumi daxili məhsulun həcmi 521.03 milyard dollar, artım dərəcəsi 0.9%, işsizlik dərəcəsi 6.6%, inflyasiya dərəcəsi 2.1%, xarici ticarət dövriyyəsi 764 mlyn avrodur. Full-time işləyənlər 15 mlyn, part-time işləyənlər 1 mlyn-dur. İstehlak qiymətləri indeksi 172.2, istehsal qiymətləri indeksi 109.1, ÜDM deflyatoru indeksi 108.7, ixrac qiymətləri indeksi 100.2, idxal qiymətləri indeksi 101.7, valyuta ehtiyatı 110.7 mlrd dollar, ticarət balansı 764 mlyn avro, ixrac 17 mlrd avro, idxal 16 mlrd avro-dur. Xarici borc 360 mlrd dollar, kapital axını 1 mlrd avro, xarici birbaşa investisiya 171 mlrd avro, qızıl ehtiyatları 103 ton, dövlətin xərcləri 84 mlrd zloty, dövlətin gəlirləri 263 mlrd zloty, fiskal xərclər 260 mlrd zloty, sənaye istehsalı 12.3%, avtomobil istehsalı 45.5 min, sement istehsalı 1 mlrd 748 min ton, rəqabətlilik indeksi 4.56, rəqabətlilik dərəcəsi 36, korporativ gəlirlər 85 mlrd zloty, istehlak

xərcləri 270 mlrd zloty, istehlak krediti 677 mlrd zloty, şəxsi əmanətlər -12.55%, korporativ vergi dərəcəsi 19%, şəxsi gəlir vergisi 32%, satış vergi dərəcəsi 23%, sosial təminat vergi dərəcəsi 36.12%, şirkətlər üçün sosial təminat vergi dərəcəsi 22.41%, işçilər üçün sosial təminat vergi dərəcəsi 13.71%-dir (12). Göründüyü kimi, sənədlər əsasında göstərilmiş bu faktlar Polşa iqtisadiyyatının ümumi məzmununu, əhalinin yaşayış səviyyəsinin vəziyyətini, respublika iqtisadiyyatının inkişaf xüsusiyyətlərini və xarici iqtisadi əlaqələrdə yerini müəyyənləşdirməyə əsas verir.

Polşa və Azərbaycan Respublikalarının ikitərəfli əməkdaşlığı qarşılıqlı anlaşma, iqtisadi bağlantıların gücləndirilməsi, bazar münasibətlərinin, eləcə də böyük layihələrin həyata keçirilməsində qarşılıqlı yararlanma kimi məsələlər əsas tuturdu. Polşanın yüksək səviyyəli hökümət nümayəndələrinin Azərbaycana gəlişi, eləcə də Azərbaycan dövlət rəsmilərinin Polşaya səfərləri iqtisadi münasibətlərin daha da dərinləşməsinə, əlavə istiqamətlərdə birgə çıxış etməyə əsas verir. Avrasiya Neft Nəqli Dəhlizi Layihəsinin (EAKTR) mühüm hissəsi olan Odessa-Brodi boru kəməri "Sarmatia konsorsiumu" formatında reallaşdırılır ki, bu da əlavə imkanlara, qarşılıqlı faydalanmanın gərəkliliyinə əsas olur. Polşa, Litva, Ukrayna, Gürcüstan və Azərbaycanını energetika şirkətləri burada əsaslı uğurlara imza atırlar. Polşa və Azərbaycan üzrə hökumətlərarası komissiyanın IV iclasında (24 noyabr 2010-cu il) Polşa baş naziri və iqtisadiyyat naziri effektivliyin artırılmasını, Sarmatiyanın yeni şəraitlə uyğunlaşması gərəkliyini bir problem kimi xüsusi olaraq vurğuladı. D.Rikardo vurğulayırdı ki, "bəzən xarici ticarətdə xüsusi tacirlər tərəfindən verilən böyük mənfəət ölkədə ümumi mənfəət dərəcəsinin yüksəlməsinə əsas olur. Digər iş yerlərindən səmərənin soyudulması, yeni və faydalı xarici ticarətdən istifadə etmək, ümumiyyətlə qiymətləri artıracaq və bununla da gəlirləri artacaqdır" (10, 85). Polşanın şərq siyasətinin əsaslarında mühüm

hissəni Azərbaycanla qurduğu iqtisadi münasibətlər, xarici ticarət sayəsində həyata keçirdiyi iqtisadi perspektivlər əsas edir. Onuda əlavə edək ki, "1990-cı illərin ortalarından etibarən Polşada makroiqtisadi siyasət rejiminin inkişafının funksionallığının göstəricisi deməyə əsas verir ki, Polşa əhəmiyyətli böyük istehsal sektoru sayəsində ticarət balansını artırmışdır" (8, 849). Ona görə də həm Polşa, həm də Azərbaycan idxal və ixrac proseslərinin tənzimlənməsi və qarşılıqlı faydalanma üçün xüsusi çəkiyə malikdir. A.Smit vurğulayırdı ki, "bütün müxtəlif əmanətlər üzrə, adi dərəcə nisbəti, gəlirlərin müəyyənlik və ya qeyri-müəyyənliyi ilə daha az və ya çox dəyişir. Bunlar daxili ticarətdə və xarici ticarətdə bəzi sahələrdə başqalarına nisbətən daha az qeyri-müəyyəndir" (11, 91).

Polşa və Azərbaycan respublikalarının iqtisadiyyatının Qərb və Şərq iqtisadi sistemləri üzrə geniş müstəvidə təhlili, eləcə də bərpə olunan və olunmayan iqtisadi göstəricilərinin xüsusiyyəti ilə araşdırılması perspektiv imkanlar yaradır və respublikamızın iqtisadi potensialının daha da güclənməsi haqqında müsbət təsəvvür formalaşdırır. Çünki bu ölkələrin iqtisadiyyatının inkişaf xüsusiyyətləri, sahə quruluşu, xarici iqtisadi əlaqələri iqtisadi münasibətlərin düzgünlüyünü düşünməyə əsas verir. Bütün bunlar problemin köklü şəkildə müxtəlif səviyyədə izlənməsini və sistemli araşdırmaları zəruri edir.

## ƏDƏBİYYAT

1. Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.

2. Azərbaycanın statistik göstəriciləri. Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2017, 814 s.

3. Benjamin J.Cohen. Pulun coğrafiyası. Bakı, Əbilov, Zeynalov oğulları, 2003, 192 s.

4. Gənciyev G. Beynəlxalq iqtisadi münasibətlər: müasir

vəziyyət və inkişaf problemləri. Bakı: Elm, 2005, 260 s.

5. İqtisadi nəzəriyyə. (müəllimlər: T.S.Vəliyev, Ə.P.Babayev, T.Q.Babayev, İ.M.Quliyev, N.O.Eminov və s.). Bakı, Çaşıoğlu, 2001, 692 s.

6. Koçetov E.Q. Geoiqtisadiyyat. Bakı, İqtisad Universiteti, 2015, 438 s.

7. Məhərrəmov A.M. İqtisadi diplomatiya. Bakı, Adventa MMC, 2013, 386 s.

8. Milka Kazandziska, Berlin School of Economics and Law, Carl von Ossietzky University Oldenburg, Germany, Macroeconomic Policy Regime in Poland, Proceedings of the 8th International Conference on Applied Economics Contemporary Issues in Economy under the title Market or Government?. Torun, Poland: Institute of Economic Research and Polish Economic Society Branch in Toruń, 18-19 June 2015, 1817 p.

9. Justyna Kufel, Institute of Agricultural and Food Economics – National Research Institute, Poland, Monopolistic Markups in the Polish, Proceedings of the 8th International Conference on Applied Economics Contemporary Issues in Economy under the title Market or Government?. Torun, Poland: Institute of Economic Research and Polish Economic Society Branch in Toruń, 18-19 June 2015, 1817 p.

10. Rikardo D. On the prinsiplen of political economy and taxation. Canada, Ontario, Kitchener, 2001, 333 p.

11. Smith A. An inquiru into the nature and causes of the wealth of nations. USA, New York, Metalibri, 2007, 754 p.

12. state.gov.az

13. state.gov.pl

## AZƏRBAYCAN VƏ POLŞA RESPUBLİKALARININ İNKİŞAFININ DİNAMİK GÖSTRƏRİCİSİ

Azərbaycan və Polşa Respublikalarının beynəlxalq iqtisadi münasibətlərinin təhlili sosial, iqtisadi, mədəni, siyasi sferada baş verənlərin ümumi məzmununu, qloballaşan dünyada bağlantıların perspektivini aydınlaşdırmaq üçün əsaslı material verir. Çünki Azərbaycanın zəngin karbohidrat yataqları, neft resursları, eləcə də iqtisadiyyatın digər alternativ sahələri və s. baxımından ciddi bağlantıları vəd edir. Polşanın iqtisadiyyatın ayrı-ayrı sahələrində əldə etdiyi uğurlar qarşılıqlı faydalanma, ehtiyacların öncüllənməsi üçün geniş imkanlar yaradır. Bütün bunlar bir bütöv olaraq sistemli təhlilləri zəruriləşdirir.

Azərbaycan-Türkiyə, Azərbaycan-İran, Azərbaycan-Rusiya, Azərbaycan-Ukrayna, Azərbaycan-Kanada və s. baxımından iqtisadi münasibətlərin araşdırılması iqtisadi sferada zəngin elmi-nəzəri bazanın yaranmasını düşünməyə əsas verir. Azərbaycan və Polşa Respublikalarının iqtisadi əlaqələrinin perspektiv inkişaf istiqamətlərinin bir problem olaraq bütöv şəkildə təhlili də buraya daxil olmaqla ciddi fakt zənginliyi ilə səciyyələnir. Çünki həm Azərbaycanın, həm də Polşanın bir respublika olaraq iqtisadi imkanları qarşılıqlı yararlanmanı, təbii resurslardan, əmək qüvvəsindən, texnologiyanın müasir nailiyyətlərindən birgə istifadənin gərəkli əhəmiyyətini və perspektivlərini aydınlaşdırır.

Polşa Respublikası Mərkəzi Avropada olub bir sıra sahələrin üstünlükləri, məsələn, xidmət sahəsi, daxili bazarlarının imkanlığı, iqtisadi münasibətlərin əhəmiyyətliliyi ilə seçilir. Burada respublikanın çoğrafi şəraitin uğurluluq əmsalı da mühüm önəm daşıyır. Qərbdə Almaniya, cənubda Çex Respublikası və Slovakiya, şərqdə Ukrayna vəBelarus, şimalda Baltik dənizi, Litva və Rusiya ilə həmsərhəd olması idxal, ixrac münasibətlərinin əhatəliliyinə əsas verir. Ölkənin Danimarka və İsveçlə dəniz sərhədləri vardır ki, bu da xarici iqtisadi münasibətlərin qurulma-

sının münbitliliyini şərtləndirir.

Azərbaycanın ümumi coğrafi şəraitinə, yerləşmə arealının xüsusiyyətlərinə diqqət yetirdikdə uğurluluq baxımından ciddi bir mənzərə yaranır. Cənubi Qafqazda, Xəzər dənizi hövzəsində yerləşən dövlət kimi bərpa olunmayan resursların zənginliyi ilə seçilir. Onun iqtisadi imkanlılığı, geoiqtisadi şərait üçün əlverişli səciyyə daşıması, tranzit ölkə kimi Şərq, Qərb, Şimal, Cənub üçün böyük marağa səbəb olması XXI əsrin yeniləşən iqtisadi mənzərəsində mühüm önəm daşıyır.

Azərbaycan ilə Polşanın iqtisadi müstəvidə əlaqələrinin təhlili siyasi və mədəni əlaqələrin də tarixini aydınlaşdırmağı zəruriləşdirir. Əlbəttə tarixi mənbələr, elmi ədəbiyyatların, mətbu orqanlarının verdiyi bilgilər zəngin fakt bolluğunu müəyyənləşdirir. Hələ XIX əsrin əvvəllərindən başlayaraq Polşanın elm, mədəniyyət adamlarının, yaradıcı mühitin, coğrafiyaçıların Qafqaza, eləcə də onun bir hissəsi olan Azərbaycana marağı həmişə artan istiqamətdə getmişdir. Bunu memarlıq abidələri, Polşa etnoqparlarının, arxeoloqlarının, tarixçilərinin, ədəbiyyatşünas və musiqiçilərinin dedikləri də tam aydınlıqla göstərir. Məsələn, Polşa şərqşünası Yozef Sepkovskinin tərcümələri, B.Romanoviç Bakı və onun memarlığı haqqında məqalələri (1825), “Koroğlu” dastanının kitab kimi ilk nəşri (1842, Aleksandr Xodzkonun) və s. bu bağlantıların, Azərbaycana olan marağın göstəricisidir.

Azərbaycanın Xəzər hövzəsi ölkəsi kimi iqtisadi potensialının Mərkəzi Avropanın digər bir ölkəsi, Polşa ilə əlaqələrinin geoiqtisadi münasibətlər səviyyəsində təhlili müasir şəraitdə qloballaşmanın genetikasını, onun daxili texnoloji sferasında baş verənləri, hansı məzmunla səciyyələndiyini aydınlaşdırmağa şərait yaradır. İqlim şəraitinin eyniyyətində, lakin fərqli-fərqli siyasi sistemlərin əhatəsində beynəlxalq iqtisadi münasibətlər səviyyəsində məsələnin araşdırılması bütünlükdə dünya iqtisadi sferasındakıların təmas nöqtələrini, iqtisadi proseslərin inkişaf texnologiyalarını aydınlaşdırmağı, perspektiv dünya hədəflərini

diqiqləşdirməyi bir zərurətə çevirir. İdxal və ixrac münasibətləri, istehsal hədəflərinin aydınlığı, bazar münasibətlərinin düzgün qurulması bir bütöv olaraq hamısında qarşılıqlı yararlanmanın vacibliyi münasibətlərin dinamikliyinə, həyat səviyyəsinin yüksəldilməsinə əsas olur. Bunlar bir istiqamətdə iqtisadi diplomatiyanın düzgünlüyündən, uğurluluğundan asılıdır. Məlum olduğu kimi, "iqtisadi diplomatik fəaliyyətin tənzimlənməsində mühüm prinsiplərdən biri də təbii ehtiyatlar və iqtisadi fəaliyyət üzərində dövlət suverenliyinin təmin olunmasıdır... Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində xüsusi çəkisi olan prinsiplərdən biri də iqtisadi əməkdaşlıq prinsipidir" (7, 92-93). Ona görə də beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində iqtisadi əməkdaşlıq prinsipinin müəyyənləşdirilməsi və qoyuluşu ciddi və gərəkli olan məsələdir.

Qərbə açılma siyasəti Polşanın tarixində yeni mərhələdir. Azərbaycan və Polşanın eyni zaman kəsiyində müstəqillik qazanması iqtisadiyyatda islahatları, sistemli iqtisadi siyasətlərin həyata keçirilməsini aktuallaşdırdı. Artıq həm Azərbaycan, həm də Polşa uğurlu inkişaf yoluna qədəm qoymuş, dövlət müstəqilliyindən sonrakı problemlərinin böyük bir hissəsini həll etmişdir. Beynəlxalq İnkişaf assosiasiyası, Beynəlxalq Maliyyə Korporasiyası, Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Əmək və Kənd təsərrüfatı Fondu, Ümumdünya Ticarət Təşkilatı və s. təşkilatlarda təmsil olunması və işlər qurması gərəkli perspektivanı müəyyənləşdirir.

Polşa sənayesi əsaslı müxtəlifliklərlə səciyyələnir. Gəmi istehsalı, meşə sahələri, tekstil, kimya, metal sənayesi, alüminium, neft məhsulları başlıca istiqamətlər kimi uğurlu inkişafla xarakterizə olunur. Dada çox isə mədənçilik və mədən sənayesi ilə xarici bazarda təmsil olunur. Onu da əlavə edək ki, Polşa Almaniya və İngiltərədən sonra Avropanın ən çox kömür istehsal edən ölkəsidir. Duz, dəmir, manqan və s.yeraltı sərvətləri sırasında xüsusi çəkiyə malikdir. Son dövrlərdə ən çox uğur qazanan

sahələrdən diri kağız sənayesinin inkişafıdır.

Həm Polşa, həm də Azərbaycan cəmiyyətin və iqtisadiyyatın liberallaşdırılmasında xeyli müvəffəqiyyətli addımlar atmışdır. Ölkənin bu istiqamətdə həyata keçirdiyi sistemli münasibət konsepsiyası müxtəlif sahələrin uğurlar qazanmasına əsas olmuşdur. İqtisadi proseslərin uğurluluğu üçün elmi ədəbiyyatda istənilən ölkə üçün liberallaşdırma, sabitləşdirmə, özəlləşdirmə, iqtisadi institutların formalaşdırılması, iqtisadiyyatın strukturunun yenidən qurulması kimi ciddi istiqamətlər vurğulanır. Ələbttə bu xətlərin mahiyyətində olduqca əsaslı problemlərin həll olunması dayanır ki, Azərbaycan və Polşa ölkələri bu sahədə gərəkli addım atmış və atmaqdadır. Ümumiyyətlə, iqtissadiyyatın transformasiyasını üç istiqamətdə qruplaşdırırlar:

“-cəmiyyətin və iqtisadiyyatın liberallaşdırılmasının əsası kimi gəlirlərin formalaşdırılmasına sistemli münasibət;

-bazar iqtisadiyyatının bazisi kimi kapitalların yaranmasına və fəaliyyətinə münasibətin sistemli surətdə yenidən qurulması;

İdarəetmənin, iqtisadiyyatın – institutsional strukturuna, bazar tələblərinə uyğun yenidən qurulması” (6, 598). Ona görə də Azərbaycan və Polşa iqtisadiyyatının inkişaf xüsusiyyətinin, sahə quruluşunun, xarici iqtisadi əlaqələrinin müqayisəli öyrənilməsi daha çox fakt bolluğu ilə səciyyələnir.

Beynəlxalq iqtisadi münasibətlər səviyyəsində Azərbaycan ilə Polşa arasında bağlanan sazişlər, müqavilələr, perspektiv layihələr, ölkə prezidenti səviyyəsində imzalanan sənədlər məhz bu uğurlu başlanğıcın, güzəştli münasibətlərin, qarşılıqlı yararlanmanın nəticəsidir. Dünyanın müasir iqtisadi mənzərəsində gedən proseslər, geoiqtisadi məkanların formalaşması və yeni məzmun, mahiyyətlə görünüşü, heç şübhəsiz bu proseslərdə iştirakı və ayaqlaşmanı zəruri edir.

XVIII əsrin sonu, XIX əsrin əvvəllərində yaşamış ingilis iqtisadçısı D. Rikardo vurğulayırdı ki, “xarici ticarət, bir ölkə üçün olduqca faydalı olmasına baxmayaraq, gələcəkdə gəlir əldə

edə biləcəyi obyektlərin məbləğini və müxtəlifliyini artırır və malların bolluq və ucuzluğu, səmərənin qənaət edilməsi və səmərəliliyinin təşviqi ilə təmin edir" (8, 89). Bu mülahizə özlüyündə iqtisadi münasibətlərin uğurluluğu timsalında ciddi fakturaya əsaslanır. Sosializm sistemindən çıxmış ölkələrin iqtisadi problemlərinin çözülməsi, uğurluluq əmsalının yuksəldilməsi üçün beynəlxaq iqtisadi əlaqələrin düzgünlüyü əsas olandır.

Azərbaycan və Polşa respublikaları eyni iqlim xüsusiyyətləri ilə səciyyələnir və kənd təsərrüfatının inkişafı və imkanlılığı baxımından geniş faktura ilə səciyyələnir. Əkinçilik məhsulları baxımından geniş imkanlara malik olan Polşa kartof, tütün, kətan, çovdar, arpa, buğda, yulaf üçün xeyli üstünlüklərə malikdir. Heyvandarlıq sahəsində mal və qoyunçuluq təsərrüfatı geniş inkişaf etmişdir. Balıqçılıq sənayesində də ciddi nailiyyətlər vardır. Əhalinin 30%-i əkinçilik və heyvandarlıqla məşğul olur. Polşanın iqtisadi əlaqələrinin mühüm hissəsi Almaniya ilə bağlıdır. Bundan əlavə İngiltərə və ABŞ ilə əsaslı iqtisadi əlaqələri vardır. Polşanın bir dövlət olaraq idxal etdiyi məhsulların mühüm hissəsini tekstil xammalı, dəmir cövhəri, maşın və təchizat, taxıl məhsulları, neft və s.-dir.

Son dövrlərin statistik göstəricilərinə diqqət yetirdikdə məlum olur ki, Polşanın sənayesi yüksək göstəricilərlə səciyyələnir və müxtəlifliklərlə maraq doğurur. Yüngül və ağır sənaye, kimya sənayesi, gəmi istehsalı, metal avtomobil, təyyarə, maşın, sement, alüminium başlıca sənaye aspektləridi. Son zamanlarda taxta-şalban və kağız sənayeləri, tekstil, meşə məhsulları da ölkənin iqtisadi həyatında xüsusi rola malikdir. Mədənçilik və mədən sənayesi olduqca inkişaf etmişdir. Bunların ən əhəmiyyətliləri kömür, sink və misdir. Yeraltı qaynaqlarının səmərəliliyi də beynəlxalq iqtisadi əlaqələrdə Polşanın ciddi tərəfdaş olduğunu əsas edir. Bütüqn bunlar Polşa ilə Azərbaycan arasında xarici iqtisadi əlaqələrin, geoiqtisadi münasibətlərin uğurluluğuna əsas verir. Məlum olduğu kimi, Avropa geoiqtisadi məkan

olaraq iqtisadi göstəricilərinin müxtəlifliyi, iqtisadi potensialının çəkisi ilə fərqlənir. Ona görə də güc və potensial baxımından bu ölkələr özü də fərqli-fərqli iqtisadi münasibətlərlə tənzimlənirlər. Məsələn, Avrozonaya daxil olan ölkələr daha əlverişli üstünlüklərlə çıxış edirlər.

Aydınlıq üçün Polşada istehsal olunan malların bir hissəsinə diqqət yetirək; bunlar elektronika, vertolyot və təyyarə (PZL Swidnik, PZL Mielec), gəmi (Gdansk Shipyard, Szczecin Shipyard, Gdynia Polşa Dəniz Tersanesi), avtobus və tramvay (Solaris, Solbus), hərbi avadanlıqlar (FB “Lucznik” Radom, Bumar-Labedy SA), kimyəvi məhsullar, dərmanlar (Polpharma, Polfa), şüşə dulusçuluq (Boleslawiec), ərzaq (Tymbark, Hortex, E.Wedel), geyim (LLP) və s. Onu da əlavə edək ki, Polşa dünyanın ən böyük mis, gümüş, kömür istehsalçılarındandır. Bütün bunlar geoiqtisadi sferada qarşılıqlı iqtisadi münasibətlərin qurulması üçün ciddi imkanlar yaradır.

Polşa Avropa Birliyi, NATO, BMT, Dünya Ticarət Təşkilatı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa İqtisadi Sahəsi, Avropada Əməliyyat, Beynəlxalq Atom Enerji Təşkilatı, Avopa Məkanı Agentlik, G6, Baltik dənizi Dövlətləri Şurası, Visegrad qrupu, Weimar Üçbucağı və Şengen Anlaşması kimi beynəlxalq təşkilat və qruplarda təmsil olunur. Bunların bir hissəsində Azərbaycan ilə Polşa eyni sistemdə birləşir, ayrı-ayrı problemlərin, iqtisadi layihələrin həyata keçirilməsində iştirak edirlər. Yəni dünyanın siyasi, iqtisadi, texnoloji proseslər müstəvisində xeyli kiçilməsi həm də münasibətlərin, qarşılıqlı anlaşmaların baş verməsi üçün ciddi bağlantıları əsas edir. Polşanın Baltik dənizi dövlətləri ilə, Azərbaycanın Xəzər hövzəsi dövlətləri ilə bir xətdə bağlanması da bir başqa müstəvidə dövlət qurupları ilə əlaqələrin və təmas xətlərinin bağlanmasına şərait yaradır. Məlum olduğu kimi Qara dəniz ətrafı ölkələr, Xəzər hövzəsi dövlətlər öz coğrafi şəraitinin uğurluluğu, ticarət, nəqliyyat prosesinin həyata keçirilməsi üçün ən əhəmiyyətli ərazidir. Qədim

zamanlardan Qərblə Şərqi, Cənubla Şimalı birləşdirən bu ərazilər yaddaşlarda karvan yolu kimi ciddi iqtisadi, siyasi, mədəni bağlantıları özündə ehtiva edir. Sovetlər imperiyasının dağılması həmin yaddaşın oyanışı, transmilli layihələrin həyata keçirilməsi üçün bir əsas oldu. Böyük iqtisadi layihələr, neft və qaz kəmərlərinin çəkilməsi, dünyanın güc mərkəzlərinin bu layihələrdə mühüm tərəf kimi təmsil olunma cəhdləri və s. hamısı dünyanın iqtisadi xəritəsində gedən proseslərin ayrılmalardan çox qloballaşdığını, qlobal maraqların önəmlilik təşkil etdiyini göstərir.

Azərbaycan Xəzər hövzəsi dövlətlər sırasında əsaslı imkanlılıqla təmsil olunur. Zəngin karbohidrat yataqları, neft strategiyası, qeyri-neft sektorunda gedən inkişaf tendensiyası bir bütöv olaraq bizə əsas verir ki, bunların iqtisadi uğurluluq əmsalından istifadə etməklə ölkənin dinamik inkişafını, davamlılıq sistemini yaradaq. Azərbaycanın, Qazaxsıstanın və Türkmənistanın malik olduğu enerji ehtiyatları güclü rəqabətlilik zəminində yeni bazarların və yeni iqtisadi münasibətlərin gərəkliliyini əsas edir və regionu iqtisadi maraqların cəmləşdiyi nöqtəyə çevirir. Rusiyanın, ABŞ-ın, Avropa irtifaqı ölkələrinin, İranın mövqe üstünlüyü müstəvisində yeritdiyi iqtisadi siyasət eyni zamanda Azərbaycan üçün perspektivlər vəd edir. Əlavə onu da deyək ki, bütün bu zənginlik geoiqtisadi maraqlarla yanaşı, həm də geosiyasi, geostrateji mövqe uğrunda mübarizəni də ortaya qoyur. Azərbaycanın bir dövlət olaraq yeritdiyi iqtisadi siyasət qasrşılıqlı anlaşma, qarşılıqlı faydalılıq prinsipinə hesablanmışdır. Məhz Polşa Respublikası ilə olan anlaşmalar iqtisadi müstəvidə proseslərin düzgünlüyünə, inkişaf dinamikasının təmininə, bazar münasibətləri səviyyəsində uğurlu siyasətin həyata keçirilməsinə hesablanmışdır. Polşanın iqtisadiyyatının yüksələn səviyyədə nəzərə çarpması, iqlim şəraiti səviyyəsində hər iki ölkənin yaxınlıqları, ölkələrin sahə quruluşundakı yaxınlıqlar, iqtisadiyyatın inkişaf xüsusiyyətlərinin oxşarlıqları gərəkli bağlantılara şərait yaradır.

Azərbaycan neft ölkəsi olaraq böyük perspektivlər vəd edir

və onun karbohidrat potensialı bundan birgə yararlanmanı bir zərurət kimi ortaya qoyur. Bütün bunlardan yüksək səviyyədə istifadə etməklə Azərbaycan qeyri neft sahəsində aparılan işlərin daha da yaxşılaşdırılması təmin etməyə çalışır. Polşanın iqtisadi göstəricilərində gəmi istehsalı, meşə sahələri, tekstil, kimya, metal sənayesi, alüminium, neft məhsulları, mədənçilik və mədən sənayesi kömür istehsal, duz, dəmir, manqan və s. mühüm yer tutur. Xidmət sahələrində olan göstəricilər mühüm tərəf kimi önəm daşıyır. Ona görə də həm Polşa, həm də Azərbaycan idxal və ixrac proseslərinin tənzimlənməsi və qarşılıqlı faydalanma üçün xüsusi çəkiyə malikdir. A.Smit vurğulayırdı ki, "bütün müxtəlif əmanətlər üzrə, adi dərəcə nisbəti, gəlirlərin müəyyənlik və ya qeyri-müəyyənliyi ilə daha az və ya çox dəyişir. Bunlar daxili ticarətdə və xarici ticarətdə bəzi sahələrdə başqalarına nisbətən daha az qeyri-müəyyəndir". (9, 91).

Azərbaycan və Polşa Respublikalarının iqtisadiyyatının sahə quruluşunun, inkişaf xüsusiyyətlərinin, xarici əlaqələrinin tipoloji baxımdan təhlili özlüyündə geniş fakturaya, qarşılıqlı iqtisadi bağlantıların yeni istiqamətlərinin yaranmasına və perspektivliyinə imkanlar yaradır. Qloballaşmanın mahiyyətində duran əsas məsələ dünya evinin bütün müstəvidə vahid məcraya istiqamətlənməsi, sosial, iqtisadi, mədəni, siyasi sferada olanların ortaqlıq nöqtələrinin tapılmasıdır. Beynəlxalq iqtisadi əlaqələrin uğurluluğu timsalında respublikamızın iqtisadi strateji hədəflərinin sistemli şəkildə öyrənilməsi gələcəyə hesablanmış bir hadisədir. Bu istiqamətdə müxtəlif səviyyəli araşdırmalar aparılmışdır. Azərbaycan və Polşa Respublikalarının iqtisadiyyatının Qərb və Şərq iqtisadi sistemləri üzrə geniş müstəvidə təhlili, eləcə də bərpə olunan və olunmayan iqtisadi göstəricilərinin xüsusiyyəti ilə araşdırılması perspektiv imkanlar yaradır və respublikamızın iqtisadi potensialının daha da güclənməsi haqqında müsbət təsəvvür formalaşdırır. Çünki bu ölkələrin iqtisadiyyatının inkişaf xüsusiyyətləri, sahə quruluşu, xarici iqtisadi əlaqələri iqtisadi münasi-

bətlərin düzgünlüyünü düşünməyə əsas verir. Bütün bunlar problemin köklü şəkildə müxtəlif səviyyədə izlənməsini və sistemli araşdırmaları aktuallaşdırır.

## ƏDƏBİYYAT

1. Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.

2. Azərbaycanın statistik göstəriciləri. Bakı: Səda, 2012, 816 s.

3. Azərbaycanın statistik göstəriciləri. Bakı: Səda, 2013, 804 s.

4. Butler Eamon. Adam Smit – iqtisadiyyatın əlifbası. Bakı, Azad düşüncələr, 2008, 134 s.

5. Həsənov Ə. Xəzər –Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti. Bakı: Zərdabi LTD MMC, 2016, 296 s.

6. İqtisadi nəzəriyyə. Dərslik. Bakı, Çaşıoğlu, 2001, 691 s.

7. Məhərrəmov A.M. İqtisadi diplomatiya. Bakı, Adventa MMC, 2013, 386 s.

8. Rikardo D. On the prinsiplen of political economy and taxation. Canada, Ontario, Kitchener, 2001, 333 p.

9. Smith A. An inquiru into the nature and causes of the wealth of nations. USA, New York, Metalibri, 2007, 754 p.

10. state.gov.az

11. state.gov.pl

12. tradingeconomic.com

# AZƏRBAYCAN VƏ POLŞA RESPUBLİKALARININ İQTİSADİ MÜNASİBƏTLƏRİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Azərbaycan və Polşa Respublikalarının beynəlxalq iqtisadi münasibətlərinin təhlili sosial, iqtisadi, mədəni, siyasi sferada baş verənlərin ümumi məzmununu, qloballaşan dünyada bağlantıların perspektivini aydınlaşdırmaq üçün əsaslı material verir. Çünki Azərbaycanın zəngin karbohidrat yataqları, neft resursları, eləcə də iqtisadiyyatın digər alternativ sahələri və s. baxımından ciddi bağlantıları vəd edir. Polşanın iqtisadiyyatın ayrı-ayrı sahələrində əldə etdiyi uğurlar qarşılıqlı faydalanma, ehtiyacların öncüllənməsi üçün geniş imkanlar yaradır. Bütün bunlar bir bütöv olaraq sistemli təhlilləri zəruriləşdirir.

Azərbaycan və Polşa Respublikalarının iqtisadiyyatının sahə quruluşunun, inkişaf xüsusiyyətlərinin, xarici əlaqələrinin tipoloji baxımdan təhlili özlüyündə geniş fakturaya, qarşılıqlı iqtisadi bağlantıların yeni istiqamətlərinin yaranmasına və perspektivliyinə imkanlar yaradır. Qloballaşmanın mahiyyətində duran əsas məsələ dünya evinin bütün müstəvidə vahid məcraya istiqamətlənməsi, sosial, iqtisadi, mədəni, siyasi sferada olanların ortaqlıq nöqtələrinin tapılmasıdır. Beynəlxalq iqtisadi əlaqələrin uğurluluğu timsalında respublikamızın iqtisadi strateji hədəflərinin sistemli şəkildə öyrənilməsi gələcəyə hesablanmış bir hadisədir. Bu istiqamətdə müxtəlif səviyyəli araşdırmalar aparılmışdır. Məsələn, Azərbaycan-Türkiyə, Azərbaycan-İran, Azərbaycan-Rusiya, Azərbaycan-Ukrayna, Azərbaycan-Kanada və s. baxımından iqtisadi münasibətlərin araşdırılması iqtisadi sferada zəngin elmi-nəzəri bazanın yaranmasını düşünməyə əsas verir. Azərbaycan və Polşa Respublikalarının iqtisadi əlaqələrinin perspektiv inkişaf istiqamətlərinin bir problem olaraq bütöv şəkildə təhlili də buraya daxil olmaqla ciddi fakt zənginliyi ilə səciyyələnir. Çünki həm Azərbaycanın, həm də Polşanın bir res-

publika olaraq iqtisadi imkanları qarşılıqlı yararlanmanı, təbii resurslardan, əmək qüvvəsindən, texnologiyanın müasir nailiyyətlərindən birgə istifadənin gərəkli əhəmiyyətini və perspektivlərini aydınlaşdırır.

Polşa Respublikası Mərkəzi Avropada olub bir sıra sahələrin üstünlükləri, məsələn, xidmət sahəsi, daxili bazarlarının imkanlığı, iqtisadi münasibətlərin əhəmiyyətliliyi ilə seçilir. Burada respublikanın çoğrafi şəraitin uğurluluq əmsalı da mühüm önəm daşıyır. Qərbdə Almaniya, cənubda Çex Respublikası və Slovakiya, şərqdə Ukrayna və Belarus, şimalda Baltik dənizi, Litva və Rusiya ilə həmsərhəd olması idxal, ixrac münasibətlərinin əhatəliliyinə əsas verir. Ölkənin Dani-marka və İsveçlə dəniz sərhədləri vardır ki, bu da xarici iqtisadi münasibətlərin qurulmasının münbitliliyini şərtləndirir.

Azərbaycanın ümumi coğrafi şəraitinə, yerləşmə arealının xüsusiyyətlərinə diqqət yetirdikdə uğurluluq baxımından ciddi bir mənzərə yaranır. Cənubi Qafqazda, Xəzər dənizi hövzəsində yerləşən dövlət kimi bərpa olunmayan resursların zənginliyi ilə seçilir. Onun iqtisadi imkanlılığı, geoiqtisadi şərait üçün əlverişli səciyyə daşıması, tranzit ölkə kimi Şərq, Qərb, Şimal, Cənub üçün böyük marağa səbəb olması XXI əsrin yenilən iqtisadi mənzərəsində mühüm önəm daşıyır.

Azərbaycan ilə Polşanın iqtisadi müstəvidə əlaqələrinin təhlili siyasi və mədəni əlaqələrin də tarixini aydınlaşdırmağı zəruriləşdirir. Əlbəttə tarixi mənbələr, elmi ədəbiyyatların, mətbu orqanlarının verdiyi bilgilər zəngin fakt bolluğunu müəyyənləşdirir. Hələ XIX əsrin əvvəllərindən başlayaraq Polşanın elm, mədəniyyət adamlarının, yaradıcı mühitin, coğrafiyaçıların Qafqaza, eləcə də onun bir hissəsi olan Azərbaycana marağı həmişə artan istiqamətdə getmişdir. Bunu memarlıq abidələri, Polşa etnoqparlarının, arxeoloqlarının, tarixçilərinin, ədəbiyyatşünas və musiqiçilərinin dedikləri də tam aydınlıqla göstərir. Məsələn, Polşa şərqşünası Yozef Sepkovskinin tərcümələri,

B.Romanoviç Bakı və onun memarlığı haqqında məqalələri (1825), "Koroğlu" dastanının kitab kimi ilk nəşri (1842, Aleksandr Xodzkonun) və s. bu bağlantıların, Azərbaycana olan marağın göstəricisidir.

Azərbaycanın Xəzər hövzəsi ölkəsi kimi iqtisadi potensialının Mərkəzi Avropanın digər bir ölkəsi, Polşa ilə əlaqələrinin geoiqtisadi münasibətlər səviyyəsində təhlili müasir şəraitdə qloballaşmanın genetikasını, onun daxili texnoloji sferasında baş verənləri, hansı məzmunla səciyyələndiyini aydınlaşdırmağa şərait yaradır. İqlim şəraitinin eyniyyətində, lakin fərqli-fərqli siyasi sistemlərin əhatəsində beynəlxalq iqtisadi münasibətlər səviyyəsində məsələnin araşdırılması bütünlükdə dünya iqtisadi sferasındakıların təmas nöqtələrini, iqtisadi proseslərin inkişaf texnologiyalarını aydınlaşdırmağı, perspektiv dünya hədəflərini diqiqləşdirməyi bir zərurətə çevirir. İdxal və ixrac münasibətləri, istehsal hədəflərinin aydınlığı, bazar münasibətlərinin düzgün qurulması bir bütöv olaraq hamısında qarşılıqlı yararlanmanın vacibliyi münasibətlərin dinamikliyinə, həyat səviyyəsinin yüksəldilməsinə əsas olur. Bunlar bir istiqamətdə iqtisadi diplomatiyanın düzgünlüyündən, uğurluluğundan asılıdır. Məlum olduğu kimi, "iqtisadi diplomatik fəaliyyətin tənzimlənməsində mühüm prinsiplərdən biri də təbii ehtiyatlar və iqtisadi fəaliyyət üzərində dövlət suverenliyinin təmin olunmasıdır... Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində xüsusi çəkisi olan prinsiplərdən biri də iqtisadi əməkdaşlıq prinsipidir" (7, 92-93). Ona görə də beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində iqtisadi əməkdaşlıq prinsipinin müəyyənləşdirilməsi və qoyuluşu ciddi və gərəkli olan məsələdir.

Qərbə açılma siyasəti Polşanın tarixində yeni mərhələdir. Azərbaycan və Polşanın eyni zaman kəsiyində müstəqillik qazanması iqtisadiyyatda islahatları, sistemli iqtisadi siyasətlərin həyata keçirilməsini aktuallaşdırdı. Artıq həm Azərbaycan, həm də Polşa uğurlu inkişaf yoluna qədəm qoymuş, dövlət müstə-

qilliyindən sonrakı problemlərinin böyük bir hissəsini həll etmişdir. Beynəlxalq İnkişaf assosiasiyası, Beynəlxalq Maliyyə Korporasiyası, Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Əmək və Kənd təsərrüfatı Fondu, Ümumdünya Ticarət Təşkilatı və s. təşkilatlarda təmsil olunması və işlər qurması gərəkli perspektivanı müəyyənləşdirir.

Polşa sənayesi əsaslı müxtəlifliklərlə səciyyələnir. Gəmi istehsalı, meşə sahələri, tekstil, kimya, metal sənayesi, alüminium, neft məhsulları başlıca istiqamətlər kimi uğurlu inkişafla xarakterizə olunur. Dada çox isə mədənçilik və mədən sənayesi ilə xarici bazarda təmsil olunur. Onu da əlavə edək ki, Polşa Almaniya və İngiltərədən sonra Avropanın ən çox kömür istehsal edən ölkəsidir. Duz, dəmir, manqan və s.yeraltı sərvətləri sırasında xüsusi çəkiyə malikdir. Son dövrlərdə ən çox uğur qazanan sahələrdən diri kağız sənayesinin inkişafıdır.

Həm Polşa, həm də Azərbaycan cəmiyyətin və iqtisadiyyatın liberallaşdırılmasında xeyli müvəffəqiyyətli addımlar atmışdır. Ölkənin bu istiqamətdə həyata keçirdiyi sistemli münasibət konsepsiyası müxtəlif sahələrin uğurlar qazanmasına əsas olmuşdur. İqtisadi proseslərin uğurluluğu üçün elmi ədəbiyyatda istənilən ölkə üçün liberallaşdırma, sabitləşdirmə, özəlləşdirmə, iqtisadi institutların formalaşdırılması, iqtisadiyyatın strukturunun yenidən qurulması kimi ciddi istiqamətlər vurğulanır. Əlbəttə bu xətlərin mahiyyətində olduqca əsaslı problemlərin həll olunması dayanır ki, Azərbaycan və Polşa ölkələri bu sahədə gərəkli addım atmış və atmaqdadır. Ümumiyyətlə, iqtissadiyyatın transformasiyasını üç istiqamətdə qruplaşdırırlar:

“-cəmiyyətin və iqtisadiyyatın liberallaşdırılmasının əsası kimi gəlirlərin formalaşdırılmasına sistemli münasibət;

-bazar iqtisadiyyatının bazisi kimi kapitalların yaranmasına və fəaliyyətinə münasibətin sistemli surətdə yenidən qurulması;

İdarəetmənin, iqtisadiyyatın – institutsional strukturuna, bazar tələblərinə uyğun yenidən qurulması” (6, 598). Ona görə

də Azərbaycan və Polşa iqtisadiyyatının inkişaf xüsusiyyətinin, sahə quruluşunun, xarici iqtisadi əlaqələrinin müqayisəli öyrənilməsi daha çox fakt bolluğu ilə səciyyələnir.

Beynəlxalq iqtisadi münasibətlər səviyyəsində Azərbaycan ilə Polşa arasında bağlanan sazişlər, müqavilələr, perspektiv layihələr, ölkə prezidenti səviyyəsində imzalanan sənədlər məhz bu uğurlu başlanğıcın, güzəştli münasibətlərin, qarşılıqlı yararlanmanın nəticəsidir. Dünyanın müasir iqtisadi mənzərəsində gedən proseslər, geoiqtisadi məkanların formalaşması və yeni məzmun, mahiyyətlə görünüşü, heç şübhəsiz bu proseslərdə iştirakı və ayaqlaşmanı zəruri edir.

XVIII əsrin sonu, XIX əsrin əvvəllərində yaşamış ingilis iqtisadçısı D. Rikardo vurğulayırdı ki, “xarici ticarət, bir ölkə üçün olduqca faydalı olmasına baxmayaraq, gələcəkdə gəlir əldə edə biləcəyi obyektlərin məbləğini və müxtəlifliyini artırır və malların bolluq və ucuzluğu, səmərənin qənaət edilməsi və səmərəliliyinin təşviqi ilə təmin edir” (8, 89). Bu mülahizə özlüyündə iqtisadi münasibətlərin uğurluluğu timsalında ciddi fakturaya əsaslanır. Sosializm sistemindən çıxmış ölkələrin iqtisadi problemlərinin çözülməsi, uğurluluq əmsalının yuksəldilməsi üçün beynəlxaq iqtisadi əlaqələrin düzgünlüyü əsas olandır.

Azərbaycan və Polşa respublikaları eyni iqlim xüsusiyyətləri ilə səciyyələnir və kənd təsərrüfatının inkişafı və imkanlılığı baxımından geniş faktura ilə səciyyələnir. Əkinçilik məhsulları baxımından geniş imkanlara malik olan Polşa kartof, tütün, kətan, çovdar, arpa, buğda, yulaf üçün xeyli üstünlüklərə malikdir. Heyvandarlıq sahəsində mal və qoyunçuluq təsərrüfatı geniş inkişaf etmişdir. Balıqçılıq sənayesində də ciddi nailiyyətlər vardır. Əhalinin 30%-i əkinçilik və heyvandarlıqla məşğul olur. Polşanın iqtisadi əlaqələrinin mühüm hissəsi Almaniya ilə bağlıdır. Bundan əlavə İngiltərə və ABŞ ilə əsaslı iqtisadi əlaqələri vardır. Polşanın bir dövlət olaraq idxal etdiyi məhsulların mühüm hissəsini tekstil xammalı, dəmir cövhəri, maşın və

təchizat, taxıl məhsulları, neft və s.-dir.

Son dövrlərin statistik göstəricilərinə diqqət yetirdikdə məlum olur ki, Polşanın sənayesi yüksək göstəricilərlə səciyyələnir və müxtəlifliklərlə maraq doğurur. Yüngül və ağır sənaye, kimya sənayesi, gəmi istehsalı, metal avtomobil, təyyarə, maşın, sement, alüminium başlıca sənaye aspektləridi. Son zamanlarda taxta-şalban və kağız sənayeləri, tekstil, meşə məhsulları da ölkənin iqtisadi həyatında xüsusi rola malikdir. Mədənçilik və mədən sənayesi olduqca inkişaf etmişdir. Bunların ən əhəmiyyətliləri kömür, sink və misdir. Yeraltı qaynaqlarının səmərəliliyi də beynəlxalq iqtisadi əlaqələrdə Polşanın ciddi tərəfdaş olduğunu əsas edir. Bütüqn bunlar Polşa ilə Azərbaycan arasında xarici iqtisadi əlaqələrin, geoiqtisadi münasibətlərin uğurluluğuna əsas verir. Məlum olduğu kimi, Avropa geoiqtisadi məkan olaraq iqtisadi göstəricilərinin müxtəlifliyi, iqtisadi potensialının çəkisi ilə fərqlənir. Ona görə də güc və potensial baxımından bu ölkələr özü də fərqli-fərqli iqtisadi münasibətlərlə tənzimlənirlər. Məsələn, Avrozonaya daxil olan ölkələr daha əlverişli üstünlüklərlə çıxış edirlər.

Aydınlıq üçün Polşada istehsal olunan malların bir hissəsinə diqqət yetirək; bunlar elektronika, vertolyot və təyyarə (PZL Swidnik, PZL Mielec), gəmi (Gdansk Shipyard, Szczecin Shipyard, Gdynia  Polşa Dəniz Tersanesi), avtobus və tramvay  (Solaris, Solbus), hərbi avadanlıqlar (FB "Lucznik" Radom, Bumar-Labedy SA), kimyəvi məhsullar, dərmanlar (Polpharma, Polfa), şüşə dulusçuluq (Boleslawiec), ərzaq (Tymbark, Hortex, E.Wedel), geyim (LLP) və s. Onu da əlavə edək ki, Polşa dünyanın ən böyük mis, gümüş, kömür istehsalçılarındandır. Bütün bunlar geoiqtisadi sferada qarşılıqlı iqtisadi münasibətlərin qurulması üçün ciddi imkanlar yaradır.

Polşa Avropa Birliyi, NATO, BMT, Dünya Ticarət Təşkilatı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa İqtisadi Sahəsi, Avropada Əməliyyat, Beynəlxalq Atom Enerji Təşkilatı,

Avopa Məkanı Agentlik, G6, Baltik dənizi Dövlətləri Şurası, Visegrad qrupu, Weimar Üçbucağı və Şengen Anlaşması kimi beynəlxalq təşkilat və qruplarda təmsil olunur. Bunların bir hissəsində Azərbaycan ilə Polşa eyni sistemdə birləşir, ayrı-ayrı problemlərin, iqtisadi layihələrin həyata keçirilməsində iştirak edirlər. Yəni dünyanın siyasi, iqtisadi, texnoloji proseslər müstəvisində xeyli kiçilməsi həm də münasibətlərin, qarşılıqlı anlaşmaların baş verməsi üçün ciddi bağlantıları əsas edir. Polşanın Baltik dənizi dövlətləri ilə, Azərbaycanın Xəzər hövzəsi dövlətləri ilə bir xətdə bağlanması da bir başqa müstəvidə dövlət qurupları ilə əlaqələrin və təmas xətlərinin bağlanmasına şərait yaradır. Məlum olduğu kimi Qara dəniz ətrafı ölkələr, Xəzər hövzəsi dövlətlər öz coğrafi şəraitinin uğurluluğu, ticarət, nəqliyyat prosesinin həyata keçirilməsi üçün ən əhəmiyyətli ərazidir. Qədim zamanlardan Qərblə Şərqi, Cənubla Şimalı birləşdirən bu ərazilər yaddaşlarda karvan yolu kimi ciddi iqtisadi, siyasi, mədəni bağlantıları özündə ehtiva edir. Sovetlər imperiyasının dağılması həmin yaddaşın oyanışı, transmilli layihələrin həyata keçirilməsi üçün bir əsas oldu. Böyük iqtisadi layihələr, neft və qaz kəmərlərinin çəkilməsi, dünyanın güc mərkəzlərinin bu layihələrdə mühüm tərəf kimi təmsil olunma cəhdləri və s. hamısı dünyanın iqtisadi xəritəsində gedən proseslərin ayrılmalardan çox qloballaşdığını, qlobal maraqların önəmlilik təşkil etdiyini göstərir.

Azərbaycan Xəzər hövzəsi dövlətlər sırasında əsaslı imkanlılıqla təmsil olunur. Zəngin karbohidrat yataqları, neft strategiyası, qeyri-neft sektorunda gedən inkişaf tendensiyası bir bütöv olaraq bizə əsas verir ki, bunların iqtisadi uğurluluq əmsalından istifadə etməklə ölkənin dinamik inkişafını, davamlılıq sistemini yaradaq. Azərbaycanın, Qazaxsıstanın və Türkmənistanın malik olduğu enerji ehtiyatları güclü rəqabətlilik zəminində yeni bazarların və yeni iqtisadi münasibətlərin gərəkliliyini əsas edir və regionu iqtisadi maraqların cəmləşdiyi nöqtəyə çevirir. Rusiyanın, ABŞ-ın, Avropa irtifaqı ölkələrinin,

İranın mövqe üstünlüyü müstəvisində yeritdiyi iqtisadi siyasət eyni zamanda Azərbaycan üçün perspektivlər vəd edir. Əlavə onu da deyək ki, bütün bu zənginlik geoiqtisadi maraqlarla yanaşı, həm də geosiyasi, geostrateji mövqe uğrunda mübarizəni də ortaya qoyur. Azərbaycanın bir dövlət olaraq yeritdiyi iqtisadi siyasət qasrşılıqlı anlaşma, qarşılıqlı faydalılıq prinsipinə hesablanmışdır. Məhz Polşa Respublikası ilə olan anlaşmalar iqtisadi müstəvidə proseslərin düzgünlüyünə, inkişaf dinamikasının təmininə, bazar münasibətləri səviyyəsində uğurlu siyasətin həyata keçirilməsinə hesablanmışdır. Polşanın iqtisadiyyatının yüksələn səviyyədə nəzərə çarpması, iqlim şəraiti səviyyəsində hər iki ölkənin yaxınlıqları, ölkələrin sahə quruluşundakı yaxınlıqlar, iqtisadiyyatın inkişaf xüsusiyyətlərinin oxşarlıqları gərəkli bağlantılara şərait yaradır.

Azərbaycan neft ölkəsi olaraq böyük perspektivlər vəd edir və onun karbohidrat potensialı bundan birgə yararlanmanı bir zərurət kimi ortaya qoyur. Bütün bunlardan yüksək səviyyədə istifadə etməklə Azərbaycan qeyri neft sahəsində aparılan işlərin daha da yaxşılaşdırılması təmin etməyə çalışır. Polşanın iqtisadi göstəricilərində gəmi istehsalı, meşə sahələri, tekstil, kimya, metal sənayesi, alüminium, neft məhsulları, mədənçilik və mədən sənayesi kömür istehsal, duz, dəmir, manqan və s. mühüm yer tutur. Xidmət sahələrində olan göstəricilər mühüm tərəf kimi önəm daşıyır. Ona görə də həm Polşa, həm də Azərbaycan idxal və ixrac proseslərinin tənzimlənməsi və qarşılıqlı faydalanma üçün xüsusi çəkiyə malikdir. A.Smit vurğulayırdı ki, “bütün müxtəlif əmanətlər üzrə, adi dərəcə nisbəti, gəlirlərin müəyyənlik və ya qeyri-müəyyənliyi ilə daha az və ya çox dəyişir. Bunlar daxili ticarətdə və xarici ticarətdə bəzi sahələrdə başqalarına nisbətən daha az qeyri-müəyyəndir”. (9, 91).

Azərbaycan və Polşa Respublikalarının iqtisadiyyatının Qərb və Şərq iqtisadi sistemləri üzrə geniş müstəvidə təhlili, eləcə də bərpə olunan və olunmayan iqtisadi göstəricilərinin xüsusiyyəti

ilə araşdırılması perspektiv imkanlar yaradır və respublikamızın iqtisadi potensialının daha da güclənməsi haqqında müsbət təsəvvür formalaşdırır. Çünki bu ölkələrin iqtisadiyyatının inkişaf xüsusiyyətləri, sahə quruluşu, xarici iqtisadi əlaqələri iqtisadi münasibətlərin düzgünlüyünü düşünməyə əsas verir. Bütün bunlar problemin köklü şəkildə müxtəlif səviyyədə izlənməsini və sistemli araşdırmaları zəruri edir.

## ƏDƏBİYYAT


1. Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.
2. Azərbaycanın statistik göstəriciləri. Bakı: Səda, 2012, 816 s.
3. Azərbaycanın statistik göstəriciləri. Bakı: Səda, 2013, 804 s.
4. Butler Eamon. Adam Smit – iqtisadiyyatın əlifbası. Bakı, Azad düşüncələr, 2008, 134 s.
5. Həsənov Ə. Xəzər –Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti. Bakı: Zərdabi LTD MMC, 2016, 296 s.
6. İqtisadi nəzəriyyə. Dərslik. Bakı, Çaşıoğlu, 2001, 691 s.
7. Məhərrəmov A.M. İqtisadi diplomatiya. Bakı, Adventa MMC, 2013, 386 s.
8. Rikardo D. On the prinsiplen of political economy and taxation. Canada, Ontario, Kitchener, 2001, 333 p.
9. Smith A. An inquiru into the nature and causes of the wealth of nations. USA, New York, Metalibri, 2007, 754 p.
10. state.gov.az
11. state.gov.pl
12. tradingeconomic.com

## AZƏRBAYCAN-POLŞA İQTİSADİ ƏLAQƏLƏRİ: MÖVCUD VƏZİYYƏTİ VƏ DİNAMİKASI

Azərbaycan və Polşa Respublikasının iqtisadi əməmkdaşlığının mövcud vəziyyətinin təhlili tarixi bağlantıların dinamik mənzərəsini aydınlaşdırır. Baltikyanı ölkə kimi Polşa ciddi iqtisadi imkanlılığı, yeni texnologiyaların tətbiqi, dünya iqtisadi evində tutduğu mütərəqqi mövqe ilə müsbət təsəvvür formalaşdırmışdır. Azərbaycanın Xəzərhövzəsi dövlət kimi tranzit ölkəsi olaraq zəngin təbii resursları ilə xüsusi önəm daşıyır, yeritdiyi iqtisadi siyasət qarşılıqlı əlaqələr üçün geniş imkanlar yaradır. Dövlət səviyyəsində aparılan müzakirələr, saziş və müqavilələr əsaslı perspektivlər vəd edir. Polşa ilə qurulan iqtisadi əməkdaşlıq bunun klassik nümunəsidir. İqtisadiyyatın müxtəlif sahələrinə olan yatırımlar, biznes forumları, şirkət anlaşmaları, xidmət və turizm sahəsində atılan gərəkli addımlar mövcud vəziyyəti və onun perspektivlərini müəyyənləşdirir.

Azərbaycan və Polşa respublikalarının mövcud iqtisadi əlaqələrinin təhlili mükəmməl bir təsəvvür formalaşdırır. Çünki tarixi bağlantıları ilə orta əsrlərə gedən bu ölkələrin keçib gəldiyi yolda iqtisadi, siyasi, mədəni əlaqələr həmişə ciddi dinamika ilə səciyyələnmişdir. Azərbaycanın müstəqilliyindən sonrakı dövrdə baş verənlər isə çoxyönümlü xarakteri ilə xüsusi əhəmiyyət daşıyır. Maşınqayırma, ağır sənaye, yüngül sənaye, neft məhsulları, meşə sənayesi, kənd təsərrüfatı məhsulları və s. sahədə aparılan işlər, eləcə də ortaq layihələrin həyata keçirilməsi, sərmayə yatırımları, qarşılıqlı anlaşmalar, tələbə mübadiləsi və s. dövlət və hökumət səviyyəsində perspektivlərin dinamikasını ortaya qoyur.

Azərbaycan və Polşa Respublikalarının iqtisadi əlaqələrinin perspektivlərinin elmi-nəzəri aspektdə təhlilində ən mühüm məsələlərdən biri bu əlaqələrin təkmilləşdirilməsi və onun həlli istiqamətlərinin müəyyənləşməsidir. Məlum olduğu kimi, Polşa

Respublikasının Azərbaycanın suverenliyini tanıdığı və ikitərəfli münasibətlərin qurulduğu vaxtdan (21 fevral 1992-ci il) qarşılıqlı əlaqələr həmişə inkişaf edən istiqamətdə getmişdir. Polşa Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdəndir (27 dekabr 1991-ci il). Prezident, Baş nazir səviyyəsində müxtəlif illərdə olan görüşlər bir istiqamətdə ölkələrin iqtisadi inkişafının yaxşılaşmasına, qarşılıqlı iqtisadi bağlantıların yaranmasına hesablanmışdır. 1997-ci il Azərbaycan prezidenitinin Polşaya səfərində (ilk səfər) ikitərəfli münasibətlərin inkişaf etdirilməsi, Dostluq və Əməkdaşlıq haqqında bəyannamənin imzalanması, gəlir və əmlak vergilərindən yayınmaların qarşısının alınması, mədəni və elmi əməkdaşlıq məsələləri, investisiyaların qarşılıqlı təşviqi və qorunması, mülki hava yolları, turizm sahəsində əməkdaşlıq və s. məsələlər sonrakı işlərin görülməsi üçün əsas olmuşdur. Sonrakı il ATƏTİN o vaxtkı səfiri, Polşanın xarici işlər nazirinin Azərbaycana səfəri (25 noyabr 1998-ci il), Popşa Respublikasının prezidentinin Azərbaycana səfəri (27-29 oktyabr 1999-cu il), eləcə də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Polşa Respublikasının Neft və Qaz Şirkəti arasında Qarşılıqlı anlaşma Memorandiumunun imzalanması artıq iqtisadi əlaqələrin yüksəlmə xarakterini və qarşılıqlı maraqların ödənilməsinə hesablandığını düşünməyə əsas verir. 2005-ci il martın 30-da Azərbaycan prezidentinin Polşaya rəsmi səfəri (yeddi sənəd imzalanmışdır), 2006-cı il mayın 22-23-də GUAM-ın Kiyevdə keçirilən sammitində Polşa prezidentinin (Lex Kaçinski) qonaq qismində iştirakı, 2007-ci il martın 30-da Polşa prezidentinin Azərbaycana rəsmi səfəri, 2007-ci il iyunun 18-də Polşa prezidentinin GUAM-ın Zirvə görüşündə iştirakı məqsədilə Azərbaycana gəlişi, 2008-ci il fevralın 26-da Azərbaycan prezidentinin Polşaya səfəri, 2008-ci il iyulun 1-də Batumidə keçirilən GUAM sammitində Polşa prezidenti ilə görüş, 2009-cu il iyulun 2-də Polşa prezidentinin Azərbaycana rəsmi səfəri, 2017-ci il iyunun 26-28-də Azərbaycan prezidentinin Polşaya rəsmi səfəri

bütünlükdə qarşılıqlı əlaqələrin uğurlu inkişafına, problemlərin həllinə yönlənmişdi.

2008-ci il fevralın 26-da Azərbaycan prezidentinin Polşaya rəsmi səfərində diqqət mərkəzində saxlanan mühüm məsələlərdən biri iqtisadi əməkdaşlıq məsələləri idi. Orada vurğulanırdı ki, son illərdə Azərbaycan və Polşa iqtisadi-ticari sahədə ciddi uğurlasr əldə etmişdir. Əlavə olunurdu ki, 2008-ci ildə iqtisadi münasibətlər tariximizdə ilk dəfə olaraq Azərbaycan müsbət saldoya nail olmuş və iki ölkə arasında mal dövriyyəsi 166,9 milyon ABŞ dollarına çatmışdır. Məlum olduğu kimi, Azərbaycan zəngin yeraltı sərvətləri, neft ehtiyatları, karbohidrat yataqları ilə dünyanın yanacağa tələbatının çoxaldığı vaxtda xüsusi əhəmiyyət kəsb edir. Ümumiyyətlə, region olaraq tranzit dəhliz kimi və geoiqtisadi bağlantıların yaranması, zəngin iqtisadi göstəriciləri, sabit siyasi mühit yarada bilməsi və s. baxımından xüsusi olaraq iqtisadi əlaqələr üçün mühüm rola malikdir. Ona görə də Polşa ilə iqtisadi bağlantılarının dinamikası müsbət təəssürat yaratmış və həmişə qarşılıqlı yararlanmaya hesablanmışdır. Enerji təhlükəsizliyi sahəsində Polşa ilə Azərbaycan arasında danışıqlara xüsusi önəm verilmişdir. Çünki bu sahədə ciddi perspektivlər vəd olunur və daha uğurlu imkanlılıq yaradır.

Azərbaycanla Polşanın iqtisadi münasibətlərinin ümumi məzmunu strateji əməkdaşlıq funksiyasında ciddi mahiyyət kəsb edir. Polşanın NATO, Avropa Birliyi, Dünya Ticarət Təşkilatı, Avropa İqtisadi Sahəsi, Avropada Əməliyyat, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Beynəlxalq Atom Enerji Təşkilatı, Avopa Məkanı Agentlik, G6, Visegrad qrupu, Weimar Üçbucağı və Şengen Anlaşması, Baltik dənizi Dövlətləri Şurası kimi beynəlxalq təşkilat və qruplarda iştirakı və üzvlüyü Azərbaycan üçün daha əsaslı perspektivlər vəd edir. Çünki Polşa Mərkəzi Avropanın ən inkişaf etmiş ölkələrindən biri kimi iqtisadi sahədə əsaslı addımlar atmaqdadır.

Diplomatik əlaqələrin iyirmi beş illiyi müstəvisində aparılan təhlillərdə Polşa respublikasının Baş nazirinin çıxışında ikitərəfli münasibətlərin önəmliyi, biznes forumunun keçirilməsinin gərəkliliyi və bu forumların müəyyən vaxtlarda yenidən təkrarlanması kimi məsələlər xüsusi olaraq qabardılmışdır. Eyni zamanda Azərbaycan prezidentinin son səfəri səviyyəsində imzalanan sənədlərin əməkdaşlığın daha da artırılması baxımından hüquqi baza olduğu qeyd edilmişdir. Ticarət dövriyyəsinin artırılması, Polşa və Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi müstəvisində qətiyyətli addımların atılması, mövcud iqtisadi əlaqələrin daha da genişləndirilməsi kimi məsələlər və s. sənədlərdə yer almışdır. Avropanın enerji təhlükəsizliyində Azərbaycanın müstəsna rolu vardır. Onun zəngin karbohidrogen yataqları, neft ehtiyatları və neft məhsulları mühüm çəkiyə malikdir. Cənub Qaz Dəhlizinin bu sahədə artan rolu ölçüyəgəlməzdir.

İqtisadi əlaqələrinin mövcud vəziyyəti üzərində aparılan təhlillər uğurlu perspektivlər vəd edir və iqtisadi münasibətlərin bu günə qədərki mənzərəsi fonunda ciddi bir dinamika nəzərə çarpır. "Bir kəmər, bir yol" prinsipinə hesablanan bu bağlantılar sonrakı mərhələdə nəqliyyat dəhlizinin yaradılmasında Azərbaycanın və Polşanın fəallığını bir daha faktlaşdırır. Qarşılıqlı ticarət dövriyyəsi ölkənin mövcud potensiyasını əks etdirir. Nəqliyyat, energetika, kənd təsərrüfatı, turizm, emal sənayesi, metallurgiya, tikinti materialı və konstruksiya istehsalı, meşə sənayesi və s. sahələrdə olan göstəricilər iqtisadi əlaqələrin müasir vəziyyətidir. Adam Smit vurğulayırdı ki, "bütün topdansatış ticarət, təkrar topdansatış satmaq üçün bütün alışlar üç növə endirilə bilər. Ev ticarəti, istehlakın xarici ticarəti və daşıma ticarətidir" (6, 287). İqtisadçı alimin vurğuladığı üç növ (ev ticarəti, istehlakın xarici ticarət və daşıma ticarəti) bütün potensiyasi ilə iqtisadi münasibətlərin məzmununu ifadə edir.

Polşanın iqtisadi potensiasına fikir verdikdə Mərkəzi Avropanın ən qüdrətli ölkələrindən biri kimi ciddi bazar imkanları

ilə maraq doğurur. Beynəlxalq təşkilat və qruplarda iştirakı və üzvlüyü iqtisadi əməkdaşlıq üçün əlavə imkanlar yaradır. Polşanın hazırkı inkişaf göstəricisinə diqqət yetirdikdə investisiyaların azalması ilə iqtisadi artımda da 20016-cı ilə üzrə faiz dərəcələrinin aşağı düşdüyü müşahidə olunur. Belə ki, 2016-cı ildə iqtisadi artım 2,8%-ə qədər geriləmiş, bu da 2015-ci ilin əvvəlindən 3,9% investisiyaların azalması ilə bağlıdır. Ümumi investisiyalar yüksək istehsal imkanlarına baxmayaraq 5,5% azalmışdır ki, bu da 2002-ci ildən bu yana ən böyük azalma kimi vurğulanır.

Dünya bankının hesabatında vurğulanır ki, "xüsusi istehlak 2008-ci ildən bəri ən güclü templə 3,6% artarkən böyümənin əsas sürücüsü idi. Bu, rekord yüksək işsizlik nisbəti, real əməkhaqqının sabit artımı və yeni Ailə 500+ pensiya proqramı sayəsində güclü real gəlir artımı sayəsində artıb 2016-cı ilin aprel ayında təqdim edildi" (8). Həmin sənətdə o da vurğulanır ki, 2016-cı ildə əmək bazarı şəraitinin artması və işsizliyin rekord səviyyəyə çatması müşahidə olunmuşdur. Belə ki, 2016-cı ilin dördüncü rübündə 5,5% təşkil etmişdir. Azərbaycan və Polşa arasında iqtisadi əlaqələrin mövcud vəziyyəti, strukturu və dinamikası energetika, nəqliyyat, dəmir yolu, infrastruktur, kənd təsərrüfatı, maşınqayırma, turuzm, ərzaq, tikinti əczaçılıq, neft və neft məhsulları və s. kimi böyük, həm də əsaslı bir şəbəkəni əhatə edir ki, bu da xüsusi perspektivlərə yol açır.

Xarici ticari əlaqələrin gücləndirilməsi və Polşa bazarlarından bu istiqamətdə yüksək səviyyədə yararlanma eyni zamanda digər ölkələrlə iqtisadi, siyasi, mədəni bağlantıların da gərəkliyini aydınlaşdırır. Çünki Polşanın Avropa İqtisadi Sahəsi ilə bağlantıları, Baltik Dənizi Dövlətləri Şurasında təmsili mövcud vəziyyətin qorunması ilə kifayətlənməyi əsas etmir, əksinə bu imkanlardan daha çox yararlanmanı, ondan istifadənin genişləndirilməsini əsas edir. Azərbaycanın Şərq-Qərb, Şimal-Cənub tranzit xətlərinin üzərində yerləşməsi və bütünlükdə iqti-

sadi məkan olaraq daha ciddi marağa səbəb olması əsaslı perspektivlərə şərait yaradır. Biznes forumda vurğulanırdı ki, 550 Polşa şirkəti Azərbaycanla əməkdaşlıq edir.

Polşanın yüksək səviyyəli hökumət nümayəndələrinin Bakıya çoxsaylı səfəri, aparılan müzakirələr, iqtisadi bağlantıların real mənzərəsi və perspektiv vəziyyəti geniş müzakirələrin mövzusuna çevrilibdir. Avrasiya Neft Nəqli Dəhlizi Layihəsinin (EAKTR) regionda oynadığı rol və ondan enerji ehtiyaclarının ödənilməsi baxımından istifadənin mexanizmi böyük bağlantıları, beynəlxalq iqtisadi münasibətlər səviyyəsində əlaqələrin gərəkliyini aydınlaşdırır. Odessa – Brodi boru kəməri Avrasiya Neft Nəqli Dəhlizi Layihəsinin (EAKTR) bir hissəsi kimi regionun enerji təhlükəsizliyi üçün xüsusi çəkiyə malikdir. Odessa – Brodi boru kəməri "Sarmatia konsorsiumu" formatında həyata keçirilir. Azərbaycan, Gürcüstan, Polşa, Ukrayna, Litva energetika şirkətləri burada təmsil olunur. Hökumətlərarası Komissiyasının Bakıda keçirilmiş IV iclası (24 noyabr 2010-cu il) zamanı effektivliyin artırılmasının, həmçinin Sarmatiyanın yeni şəraitlərə uyğunlaşmasının zərurətini müzakirələrdə xüsusi olaraq vurğulanmışdı.

Azərbaycanın nəqliyyat-komunikasiya sahəsindəki üstünlükləri, transmilli dünyanın mövcud şəraitdə iqtisadi siyasətdə əldə etməyə çalışdığı üstünlüklərin sistemliliyi böyük perspektivləri aktlaşdırır. Dünyanın müxtəlif güc mərkəzlərinin Avrasiyada geosiyasi maraqlarının kəskinləşməsi ilk növbədə regionun zəngin enerji resursları ilə bağlıdır. Ona görə də Xəzər hövzəsi Qərb-Şərq, Şimal-Cənub geosiyasi, geoiqtisadi maraqlarının kəsişdiyi nöqtə kimi xüsusi diqqət mərkəzində dayanır. Polşa ilə iqtisadi münasibətlərdə də enerji resurslarından yararlanma iqtisadi əlaqələrin ümumi mənzərəsini, struktur sxemini və dinamikasını aşkarlayır. Neft, qaz, neft məhsulları ilə bağlı təşkil edilən sərgilər, forumlar məhz bu böyük maraqların, geoiqtisadi vəziyyətdə üstünlük əldə etmənin prinsipi kimi nəzərə

çarpır. Məsələn, Bakıda keçirilən 22-ci Beynəlxalq "Xəzər neft, qaz, neftayırma və neft kimyası" sərgidə (2-5-iyun 2015-ci il) Polşa şirkətlərinin təmsil olunması və ikitərəfli danışıqlarda olan razılaşmalar iqtisadi bağlantıların mövcud vəziyyəti, struktur sxemi təməl prinsipləri haqqında dolğun təsəvvür yaradır. Burada iqtisadi əlaqələrin perspektivliyi bir xətt kimi xüsusi ilə diqqət mərkəzində dayanır.

Avropa İqtisadi Sahəsi iqtisadi siyasətin, geoiqtisadi məqsədlərin reallaşdırılması üçün xüsusi mikanlara malikdir. Azərbaycan öz iqtisadi strategiyasını, qarşıya qoyduğu hədəfləri reallaşdırmaq və müxtəlif məqsədli bağlantılarını qurmaq üçün buradan sistemli şəkildə istifadə etməyə şalışır. Polşa ilə iqtisadi tərəfdaşlıq planları region baxımından uğurluluq əmsalı və birinin Xəzərhövzəsi dövləti, digərinin Baltik ətrafı dövləti kimi xüsusi çəkiyə malik olması birbaşa dövlət maraqlarını əsas edir. Mhəz bu məqsədlə də Polşa ilə Azərbaycan respublikası prezidentlərinin müxtəlif vaxtlardakı görüşü, biznes forumların təşkili, qeyri dövlət sektorları səviyyəsində olan anlaşmalar (məsələn, 550 Polşa şirkəti) bütünlükdə hər iki dövlətin iqtisadi maraqlarına, tərəfdaşlıq müstəvisində böyük layihələrin reallaşdırılması daha ciddi perspektivlərə şərait yaradır.

Azərbaycan və Polşa iqlim şəraitinin yaxınlığı baxımından da diqqəti cəlb edir və məsələnin təkcə neft və qaz ehtiyatları müstəvisində olması ilə tükənmədiyini aydınlaşdırır. Düzdü, Azərbaycan neft, neft məhsulları və neft sənayesi, eləcə də karbohidrat yataqlarının zənginliyi ilə Polşanın və digər dövlətlərin, bütünlükdə Avropanın marağındadır və iqtisadi əlaqələr üçün geniş perspektivlər vəd edir. Ancaq qeyri-neft sektorunda da olan perspektivlər və son dövrlərdə marağın bu sahəyə yönləndirilməsi də digər ticari əlaqələrinin yaranmasına əsas olur. Aqrar sahədə aparılan işlər pambıq, maldarlıq (qoyunçuluq, heyvandarlıq, quşçuluq), üzümçülük, baramaçılıq, taxıl, kartof və s. sahəsində olan canlanma, kürü istehsalı, balıq sənayesi və s. hamısı Polşa

ilə iqtisadi münasibətlərin perspektivasını aydınlaşdırır.

***Cədvəl 1***

| | |
|---|---|
| 2017-ci il (tonla) | |
| Ət | 2824977 |
| Süd | 536493 |
| kərə yağı və süddən hazırlanmış məhsullar<br>meyvə-tərəvəz | 3335886<br>18440914 |
| Çay | 801594 |
| Buğda | 60797370 |
| bitki və heyvan mənşəli piylər və yağlar | 9530018 |
| şəkər | 23313518 |
| Sement | 2009183 |
| plastika və onlardan hazırlanmış məhsullar | 11142942 |
| oduncaq və ondan hazırlanmış məhsullar,<br>qara metallar və ondan hazırlanmış məhsullar | 49666772 |

*Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi*

2017-ci ilin ilk səkkiz ayı ərzində idxalın miqdarına diqqət yetirək. Ət (2824977 ton), süd 536493 ton), kərə yağı və süddən hazırlanmış məhsullar (3335886 ton), meyvə-tərəvəz (18440914 ton), çay (801594 ton), buğda (60797370 ton), bitki və heyvan mənşəli piylər və yağlar (9530018 ton), şəkər (23313518 ton), tütün və tütün məhsulları, sement (2009183 ton), əczaçılıq məhsulları (715393 ton), plastika və onlardan hazırlanmış məhsullar (11142942), oduncaq və ondan hazırlanmış məhsullar, qara metallar və ondan hazırlanmış məhsullar (49666772 ton), maşın, mexanizm, elektrik avadanlıqları və onların hissələri, nəqliyyat vasitələri və digər məhsullar Azərbaycana idxal olunmuşdur. Bunların bir hissəsi Polşadan Azərbaycana gətirilən mallardır ki, iqtisadi münasibətlərin tənzimlənməsində xüsusi çəkiyə malikdir. Əlbəttə Azərbaycanın iqtisadi imkanlılıq göstə-

ricisi daha perspektivli, regionun daha inkişaf etmiş ölkəsi təsəvvürü formalaşdırmağa əsas verir. (Cədvəl 1)

Azərbaycan Polşa şirkətləri üçün təkcə bərpa olunmayan ehtiyatları baxımından önəm daşımır. Qeyri-neft sektoru da böyük layihələrin həyata keçirilməsi, əsaslı işlərin görülməsi üçün perspektivlər vəd edir. Çünki Azərbaycan kənd təsərrüfatı məhsullarının yetişməsi və gəlirlilik əmsalının yüksəldilməsi üçün əsaslı imkanlara malikdir. İqlim şəraitinin uğurluluğu pambıqçılıq, üzümçülük, baramaçılıq, bağçılıq (meyvəçilik), heyvandarlıq, əkinçilik və s. üçün ciddi imkanlara malikdir. Təsadüfi deyildir ki, aqrar sahəni eilmi-nəzəri təhlillərdə neft sektoruna alternativ sahə kimi qeyd edirlər. Azərbaycan turizm baxımından da geniş imkanlara malikdir. Turizmin bir istiqamət olaraq son dövrlərdə inkişaf etdirilməsi və bu sahədə özünü göstərən canlanma mühüm əhəmiyyət kəsb edir. Azərbaycanla Polşa Respublikasının iqtisadi sahədə əlaqələrinin mövcud vəziyyəti öz məzmunu, tipologiyası, çoxşaxəli xarakteri ilə daha geniş perspektivlər vəd edir və dinamikliyi ilə səciyyələnir.

Azərbaycanın aqrar sahədə perspektivləri ciddi və uğurlu iqtisadi bağlantıların həyata keçirilməsinə şərait yaradır. Düzdür, Azərbaycan bir neft ölkəsi kimi tanınır, lakin onun zəngin iqlim şəraiti digər alternativ sahələrin də mövcudluğunu düşünməyə əsas verir. Son dövrlər aqrar sahədə artım tempinin dinamikası bunun göstəricisidir. Məsələn, bitkiçilik sahəsində olan nailiyyətlər ayrı-ayrı illərin yekunları müstəvisində təhlil etdikdə əsaslı perspektivlər vəd edir. 2014-cü ilin göstəricilərinə diqqət yetirək, qarğıdalı da daxil olmaqla 2383,3 min ton taxıl, 819,3 min ton kartof, 1187,7 min ton tərəvəz, 41,0 min ton pambıq, 849,9 min ton meyvə və giləmeyvə, 440,9 min ton bostan məhsulları, 147,7 min ton üzüm, 175,1 min ton şəkər çuğunduru, 20,3 min ton dən üçün günəbaxan, 2,9 min ton tütün, 474,2 ton yaşıl çay yarpağı toplanmış, diri çəkidə 505,5 min ton ət, 1855,8 min ton süd, 1562,7 milyon ədəd yumurta və 16,8 min ton yun

istehsal olunmuşdur. 2013-cü ilin müvafiq dövrünə nisbətən ət istehsalı 1,7 faiz, süd istehsalı 3,3 faiz, yumurta istehsalı 11,5 faiz, yun istehsalı 1,6 faiz artmışdır. (9). Sonrakı illərdə bu temp həmişə çoxalan istiqamətdə getmişdir. Təkcə onu demək kifayətdir ki, iqtisadi və sosial sahələrin inkişafı üçün 17.6 milyard manat həcmində vəsait yönəldilmiş və 13.3 milyard manatlıq tikinti-quraşdırma işləri görülmüşdür.

Polşanın Mərkəzi Statistika Bürosunun məlumatlarına görə, 2010-cu ilin yanvar – iyul aylarında iki ölkə arasında ticarət dövriyyəsi 51,5 milyon dollar təşkil etmişdir. Həmin dövriyyənin 45,2 milyon dolları Polşadan Azərbaycana ixrac olmuşsa, 6,5 milyon dollar idxalın payına düşmüşdür. (Cədvəl 2)

***Cədvəl 2***

| ***Xarici ticarət dövriyyəsi (2010-cu il) milyon dollar*** | |
|---|---|
| 51,5 | |
| 45,2 (İxrac) | 6,5 (İdxal) |

*Mənbə: Poşa Dövlət Statistika Komitəsi*

Maşınqayırma və kimya sənayesi, aqrar sahə, metallurgiya, meşə sənayesi (kombinat) və mebel istehsalı, tikinti materiallari və konstruksiya istehsalı, yüngül sənaye, ağır sənaye, gəmi istehsalı, tekstil, kimya, meşə məhsulları, metal sənayesi, avtomobil, təyyarə, maşın, sement, alüminium Polşa respublikasının başlıca sənaye aspektləridi. Taxta-şalban və kağız sənayeləri də son zamanlarda xüsusi inkişafla xarakterizə olunur. Mədənçilik və mədən sənayesinin inkişafı üçün əsaslı imkanlar vardır və bu sahədə ölkə iqtisadiyyatı xüsusilə seçilmədədir. Kömürün, sink və misin mühüm önəm daşıması ölkənin xarici iqtisadi əlaqələrinin də inkişafına xüsusi təsir etmişdir. Ölkənin dayanıqlı inkişafının təmini üçün bütün bunlardan istifadə etməklə, idxal və ixrac məsələsində müsbət saldonu qorumaqla artıq Polşa

inkişaf etməkdə olan Avropa ölkələri arasında xüsusi çəkiyə malikdir. Mərkəzi Avropada, Baltikyanı ölkələr arasında Polşa öz iqtisadi münasibətlərinin tənzimlənməsi, iqtisadi siyasətin uğurluluğu baxımından Şərq tərəfdaşlığında da ciddi gərəkli təsəvvürlər formalaşdırmış və indi də formalaşdırmaqdadır. Azərbaycanın Xəzərhövzəsi dövlətlər sistemində Polşa ilə ciddi iqtisadi, mədəni bağlantıları iqtisadi əlaqələrin mövcud vəziyyətindən əlavə perspektivlərinin fundamentallığını da aydınlaşdırır. Bütün bunlar bir bütöv olaraq Azərbaycan və Polşa Respublikalarının iqtisadi əlaqələrinin mövcud vəziyyəti, strukturu və dinamikası haqqında dolğun təsəvvür yaradır.

Azərbaycan və Polşa Respublikalarının iqtisadi əməkdaşlığının mövcud vəziyyətinin təhlili əsaslı perspektivlər haqqında düşünməni gərəkli edir. Çünki orta əsrlərdən gələn bu bağlantıların möhkəm enerji qaynaqları, zəngin təcrübi bazası vardır. Azərbaycan və Polşanın son dövrlərdə, daha doğrusu, sovetlər birliyinin dağılmasından sonrakı iqtisadi əməkdaşlığı bu əlaqələrin yeni mərhələyə daxil olması təsəvvürünü formalaşdırmışdır. Çünki hökumət və dövlət səviyyəsində olan anlaşmalar, sazişlər, forumlar mütəmadi xarakteri ilə iqtisadi göstəricilərdə reallaşmışdır. Polşanın Mərkəzi Avropa ölkəsi olaraq apardığı iqtisadi islahatlar, liberallaşmanın uğurluluğu, yüksək inkişaf tempi və s. qarşılıqlı bağlantılar üçün geniş imkanlar yaradır. Azərbaycanın zəngin təbii resursları, geoiqtisadi mənzərəsi, iqlim şəraiti, yeritdiyi uğurlu iqtisadi siyasət və s. Polşa ilə iqtisadi əlaqələr üçün mühüm əhəmiyyət daşıyır. Bütün bunlar iqtisadi əlalələrin perspektivləri haqqında dolğun təsəvvür formalaşdırır.

## ƏDƏBİYYAT

1. Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.

2. Ələkbərov Ə.H., Vəliyev M.Ə., Məmmədov S.M., M.K.Ramazanov. Beynəlxalq iqtisadi təşkilatlar. Bakı: Çaşıoğlu, 2010, 384 s.

3. Həsənov Ə. Xəzər –Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti. Bakı: Zərdabi LTD MMC, 2016, 296 s.

4. Məhərrəmov A.M. İqtisadi diplomatiya. Bakı, Adventa MMC, 2013, 386 s.

5. Rikardo D. On the prinsiplen of political economy and taxation. Canada, Ontario, Kitchener, 2001, 333 p.

6. Smith A. An inquiru into the nature and causes of the wealth of nations. USA, New York, Metalibri, 2007, 754 p.

7. Toporowski. İqtisadiyyatda Polşa töhfəsi. Htt:www.res.org.uk/view/art4Apr14Features.html.

8. (http://www.woldbank.orq/en/country/poland/ overview#3).

9. state.gov.az.

10. state.gov.pl

## AZƏRBAYCAN VƏ POLŞA RESPUBLİKALARI ARASINDA TİCARƏT ƏLAQƏLƏRİ VƏ ONUN ÜMUMİ VƏZİYYƏTİ

Azərbaycan və Polşa Respublikasının ticarət əlaqələrinin ayrı-ayrı illər üzrə izlənməsi iki ölkə arasında bağlantıların dinamik mənzərəsini müəyyənləşdirir. Statistik göstəricilər ilbəil artan iqtisadi əməmkdaşlığın perspektivləri haqqında dolğun təsəvvür yaradır. Hər iki ölkənin yerləşdiyi coğrafi məkan, onların istehsal imkanları və xarici ölkələrlə ticarət qurmaq baxımından əlverişli bazar şəraiti qarşılıqlı faydalanmanı, ehtiyacların aradan qaldırılmasını zəruri edir. Baltikyanı ölkə kimi Polşa və Xəzərhövzəsi dövlət olaraq Azərbaycanın ticarət əlaqələri, idxal, ixrac prosesləri kontekstində müstəsna imkanlara malikdir. İqtisadiyyatın müxtəlif sahələrinə olan yatırımlar, biznes forumları, şirkət anlaşmaları, xidmət və turizm sahəsində atılan gərəkli addımlar mövcud vəziyyəti və onun perspektivlərini müəyyənləşdirir.

Azərbaycan və Polşa Respublikalarının iqtisadi əlaqələrinin perspektiv inkişaf probleminin aydınlaşdırılmasında mühüm istiqamətlərdən birini ticarət əlaqələrinin inkişafının müasir vəziyyəti təşkil edir. Mövcud statistik göstəricilər üzrə aparılan təhlillər, bazarın diqqətlə nəzərdən keçirilməsi şəraitin qiymətləndirilməsini, keyfiyyət dərəcəsində tələb və təklifin müəyyənləşməsini aktuallaşdırır. Çünki həm Polşa, həm də Azərbaycan ticarət əlaqələrində uğurlu tərəfdaş kimi münbit bazar şəraitinə, ticarət əlaqələrinin geniş bağlantılarının həyata keçirilməsinə malik ölkələrdəndir. Bazar münasibətlərinin bir bütöv olaraq iki ölkə müstəvisində təhlili əsaslı faktura ilə səciyyələnir və münasibətlərin perspektivasını aktuallaşdırır.

Azərbycan tərəfdaş kimi dünyanın bütün ölkələri ilə balanslaşdırılmış əlaqələrin həyata keçirilməsinə həmişə üstünlük vermişdir. Təxminən 150-dən çox ölkə ilə olan əlaqələri artıq iqtisadi, siyasi, mədəni çevrədə böyük bir təcrübənin qazanılma-

sının göstəricisidir. Şərq və Qərblə apardığı anlaşmalar, qonşu dövlətlərlə yeritdiyi məqsədyönlü siyasət Azərbaycanın bir tərəfdaş kimi uğurlu partyor olduğunu aşkarlayır. Mərkəzi Avropanın inkişaf etmiş dövlətlərindən olan Polşa ilə iqtisadi əlaqələrinin perspektivliyi ölkənin coğrafi şəraitdə olan çəkisi, bərpa olunan və olunmayan ehtiyatlarının zənginliyi, eyni zamanda bazarının uğurluluq əmsalı ilə xüsusi əhəmiyyət daşıyır. Ölkənin ümumi quru ərazisi 30629 min hektar, meşə ilə örtülü torpaqları 9192 min hektardır. Meşə ilə örtülü torpaqların ölkə ərazisindəki payı 30%-i əhatə edir. Coğrafi məkan olaraq ticarət münasibətlərinin qurulması üçün bu əsaslı göstəricidir.

Yüngül sənaye, ağır sənaye, metallurgiya, aqrar sənaye, meşə sənayesi (kombinat) və mebel istehsalı, gəmi istehsalı, maşınqayırma, tekstil, avtomobil, təyyarə, maşın, sement, alüminium, tikinti materiallari və konstruksiya istehsalı, kimya sənayesi və s. sahələrdə Azərbaycan Respublikasının Polşa Respublikası ilə apardığı ticarət əlaqələri ehtiyacların öncüllənməsini, zəruri tələbatların ödənilməsini bir prinsip kimi əsas edir. Ümumiyyətlə, beynəlxalq ticarətdə əlaqələrin yaranması zərurətə bağlanır. Belə ki, yerli istehsalın bütün ehtiyacları ödəməməsi (yəni kifayət etməməsi), əmtə qiymətindəki fərqlilik, fərqli istehsal münasibətləri, bazar əlaqələrini zəruri edir. Azərbaycan da qloballaşan dünyanın bir hissəsi kimi dünyanın böyük bir hissəsi ilə ticarət bağlantılarındadır. Bu bağlantılar ixrac və idxal olunma ilə səciyyələnir ki, kifayət qədər əhatəliliyi özündə ehtiva edir. "Müasir dövrdə təbiətlə cəmiyyət arasında və eləcə də beynəlxalq aləmdə ölkələr arasında əmələ gələn ziddiyyətlərin həll edilməsi üçün elmi-texniki tərəqqinin mühüm rolu vardır. Elmi-texniki tərəqqi təkcə məhsuldar qüvvələrin yüksəldilməsindən ibarət olmayıb, o, həm də cəmiyyətdə siyasi, iqtisadi, mədəni təbii (bioloji) və s. proseslərlə bağlı köklü dəyişikliklərin baş verməsində həlledici rola malikdir" (3, 689). Artıq dünyanın müasir mənzərəsi yeni qloballaşma mühitində çox kiçik görünür və artan

enerji ehtiyaclarında iqtisadi, siyasi, mədəni bağlantıları bir zərurət kimi qarşıya qoyur. Ona görə də dünya sərvətlərindən olanlar səviyyəsində qarşılıqlı faydalanma, zəruri ehtiyacların ödənilməsi ciddi əlaqələri, dövlət səviyyəsində anlaşmaları, böyük birliklər, bazarlar daxilində əlaqəli fəaliyyəti aktlaşdırır.

Azərbaycan və Polşa Respublikası prezidentlərinin sonuncu görüşündə Polşa prezidenti vurğuladı ki, bizim Azərbaycanla ticarət əlaqələrimiz 100 milyon dollar civarındadır və əlavə etdi ki, bu imkanlarımız, iqtisadi potensialımızın mövcudluğu səviyyəsində çox azdır və buna görə də biznes forumlarında əlaqələrimizin güclənməsi sahəsində daha əhatəli danışıqlar aparmalıyıq. Doğurdan da, Azərbaycan bir region olaraq trans-milli dünyanın xüsusi önəm verdiyi imkanlılıqla nəzərə çarpır. Artan maraqlar, böyük dövlətlərin siyasi, iqtisadi maraqları burada özünü daha qabarıq göstərir. Şərq-Qərb, Şimal-Cənub nöqtələrinin kəsişmə mərkəzində olması, nəqliyyat-kommunikasiya imkanlarının kifayət dərəcədə böyüklüyü ilə mühüm mövqe ifadə edir. Məlum olduğu kimi, Xəzər dənizi, Qafqaz bir region olaraq dünyanın iqtisadi, siyasi maraqlarında geoiqtisadi məkan kimi ilk yerlərdən birini tutur. XXI əsrin düşüncəsində Xəzər hövzəsi və Cənubi Qafqaz öz zəngin karbohidrat ehtiyatları, neft zənginliyi və nəqliyyat-komunikasiya imkanları ilə xüsusi üstünlüklərə malikdir. Ona görə də Azərbaycanın bu böyük maraqlar əhatəsində düzgün iqtisadi siyasət həyata keçirməsi, bazar münasibətlərində uğurlu yol tutması özlüyündə beynəlxaq iqtisadi münasibətlər sistemində xüsusi çəkiyə malik olması təsəvvürünü formalaşdırır.

Azərbaycan ixrac və idxal əməliyyatlarında geniş bir şəbəkə ilə təmsil olunur, Almaniya, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Tacikistan, Özbəkistan, Danimarka, Ukrayna, Hindistan, İtalya, Kanada, Çin, Litva, Meksika, Niderland, Norveç, Koreya Respublikası, Ruminya, ABŞ, Türkiyə, Finlandiya, Fransa, İsveç, Yaponiya və s. ölkələrlə güclü iqtisadi bağlan-

tılardadır. Polşa Respublikası ilə də ixrac və idxal əlaqələrindədir və bu əlaqələrin dinamikası Azərbaycanın müstəqilliyindən bu yana həmişə müsbət bir mənzərə ilə səciyyələnmişdir. Məsələn, ixrac və idxal proseslərinin 2005-ci ildən bu yana olan mənzərəsinə fikir verdikdə bu bütün təfərrüatı ilə görünür. Azərbaycanın idxal və ixracına diqqət yetirək: 2005-ci ildə ixrac (milyard ABŞ dolları ilə) 4347,2, idxal 4211,2, saldo136, 0 olmuş, 2006-cı ildə ixrac (milyard ABŞ dolları ilə) 6372,2, idxal 5266,7, saldo1105,5 olmuş, 2007-ci ildə ixrac (milyard ABŞ dolları ilə) 6058,2, idxal 5713,5, saldo344,7 olmuş, 2008-ci ildə ixrac (milyard ABŞ dolları ilə) 47756,0, idxal 7170,0, saldo 40586,0 olmuş, 2009-cu ildə ixrac (milyard ABŞ dolları ilə) 14701,4, idxal 6123,1, saldo 8578,3 olmuş, 2010-cu ildə ixrac 21360,2, idxal 6600,6, saldo 14759,6 olmuş, 2011-ci ildə ixrac (milyard ABŞ dolları ilə) 34405,7, idxal 9756,0, saldo 24649,7 olmuş, 2012-ci ildə ixrac 23908,0, idxal 9652,9, saldo 14255,1 olmuş, 2013-cü ildə ixrac 23975,4, idxal 10712, 5, saldo 13262,9 olmuş, 2014-cü ildə ixrac 21828,6, idxal 9187, 7, saldo 12640,9 olmuş, 2015-ci ildə ixrac 11424,5, idxal 9221,4, saldo 2203,1 olmuşdur. Həmin dövr üçün Polşa respublikasının ixrac və idxal göstəricilərinə diqqət yetirək: 2005-ci ildə ixrac 89,2, idxal 100,8, saldo -11,5 olmuş, 2010-cu ildə ixrac 159,8, idxal 178,1, saldo -18,3 olmuş, 2012-ci ildə ixrac 183,5, idxal 196,2. Saldo 12,7 olmuş, 2013-cü ildə ixrac 202,1, idxal 205, 2, saldo -3,1 olmuş, 2014-cü ildə ixrac 216,7, idxal 219,7, saldo -3,2 olmuşdur (Bax: Azərbaycan statistik göstəriciləri).

Polşanın müxtəlif sahələrdəki üstünlüyü Azərbaycanın metallurgiyaya, yüngül sənayeyə, kömür sənayesinə, meşə təsərrüfatı ehtiyaclarına və s. olan tələbatını ödəmək üçün xüsusi imkanlar yaradır. Xidmət sahəsində olan üstünlükləri, eləcə də turuzm sahəsindəki imkanları qarşılıqlı faydalanma baxımından mühüm əhəmiyyətə malikdir. Məhz Azərbaycanla Polşa tərəfdaş ölkə olaraq bir-biri ilə sistemli bazar münasibətlərində olması ilə təkcə

ehtiyaclarını ödəmir, həm də məhsullarının ixracı üçün əlavə imkanlar yaradır. Bütün bunların nəticəsi idi ki, Polşa prezidenti ticari əlaqələrinin genişləndirilməsini və imkan baxımından yüz milyon dollar səviyyəsində olan ticarət əlaqələrinin elə də uğurlu olmadığını göstərmişdir. Eyni zamanda qeyd etmişdir ki, həm Azərbaycan, həm də Polşa iqtisadi münasibətlərin inkişaf etdirilməsi və daha da genişlənməsi üçün lazımı qədər imkanlara malikdir. Biznes forumun keçirilməsi, 550-dən çox şirkətin bu forumda iştirakı, qarşılıqlı fikir mübadilələri, müzakirələr hamısı bazar münasibətlərinin tənzimlənməsinə və perspektivlərin müəyyənləşməsinə əsas olmuşdur. Azərbaycan təkcə neft ehtiyatlarının zənginliyi ilə maraq doğurmur, burada digər tərəf qeyri-neft sektoru ilə bağlı olanlardı.

2015-ci il üzrə Polşa ilə xarici ticarət əlaqələrinə diqqət yetirdikdə idxal (min ABŞ dolları ilə) idxal 90732, ixrac 6509,0, saldo 84223,7 olmuşdur. Azərbaycanın idxalında 2015-ci ildə əsas tərəfdaşların xüsusi çəkisi baxımından 1%, yeri 19-u tutmuşdur. Azərbaycanla Polşa arasındakı əlaqələr ayrı-ayrı illərin statistik göstəricisində həmişə yüksələn xətdə olmuşdur.

Onu da əlavə edək ki, Polşa ilə Azərbaycan respublikası arasında ticarət əlaqələrinin müasir vəziyyətində təkcə kəmiyyət və keyfiyyət məsələləri ilə ümumi mənzərəyə yanaşmaq bir tərəfdir, burada digər tərəf effektivliklə bağlıdır. Çünki "iqtisadi artımın kəmiyyət və keyfiyyət xüsusiyyətlərini təhlil edərkən onun effektivliyini də nəzərə almaq lazımdır. Yalnız istehsalın effektivliyinə əsaslanan iqtisadi artım cəmiyyətin artan tələbatını təmin edir... İqtisadi effektivliyin göstəricisi müxtəlif mənşəlidir. Effektivlik göstəriciləri arasında əmək məhsuldarlığı, məhsulun keyfiyyəti, material və əmək tutumu mühüm əhəmiyyət kəsb edir" (4, 13-14). Əlbəttə Polşa ilə Azərbaycanın iqtisadi əlaqələrinin ümumi mənzərəsi bütün müstəvilərdə iqtisadi effektivliyin üstünlüklərinə və onun təmininə hesablanmışdır.

Polşanın bazar iqtisadiyyatının ümumi təməl prinsipləri

müstəvisində Avropaya inteqrasiyası ölkənin iqtisadi yüksəlişi üçün əsas olmuşdur. Keçən əsrin 90-cı illərindən başlayan bu prosesdən artıq təxminən 27 illik zaman keçməsinə baxmayaraq böyük təşkilat və qurumlarda iqtisadi inkişaf konsepsiyası ilə təmsil olunmaqla yanaşı, eyni zamanda yeni texnologiyalar kontekstində dayanıqlı ölkə inkişafını təmin etmişdir. Baltseroviç planının həyata keçirilməsindən bu yana (daxili qiymətlərin liberalizasiyası, idxalın artımı, inflyasiyadan yüksək faiz normasının tətbiqi və s) Polşa iqtisadi sferada ciddi uğurlar əldə etmiş və Avropada xüsusi çəkiyə malik dövlət təsəvvürü formalaşdırmışdır. Polşanın müasir kapital bazarı və iş bazarı ümumi Avropa ölkələrinin inkişaf tempi ilə ayaqlaşmaya hesablanmışdır. Hazırda Polşa Mərkəzi Avropada iqtisadiyyatının dinamik mənzərəsi ilə təkcə Avropa məkanında deyil, eləcə də yaxın və uzaq ölkələrlə müsbət ticarət bağlantılarındadır. İnkişaf edən iqtisadiyyata malik bir ölkə kimi beynəlxaq sferalarda (ÜTT, İİƏT, CEFTA) təmsil olunur. İqtisadi inkişaf tempi istehsalın müxtəlif sahələrində nikbin təsəvvür formalaşdırır və Avropa Birliyi, Xəzər Hövzəsi ölkələri ilə sistemli ticarət əlaqələri yaratmağa əsas verir. Məsələn, Polşa Avropa Birliyi və Xəzər hövzəsi dövlətləri üçün yaxşı tərəfdaşdır, ixracın 70% Avropa Birliyi ilə bağlıdır. Birliyin ölkələrindən gələn idxal məhsulları ümumi idxalın demək olar 60%-ni təşkil edir. İqtisadçıların qənaətinə görə, iqtisadi artımın əsas mühərriki Polşada özəl sektor olmuşdur. Daha rəqabətli mühitin yaradılması özlüyündə ölkənin iqtisadiyyatının armasının faktına çevrildi. Məsələn, təkcə onu demək kifayətdir ki, özəl sktor ümumi daxili məhsulun 75 %-ni əhatə edirdi. İş qabiliyyətinə malik əhalinin 70%-nin özəl sektorda çalışması ölkənin inkişafı üçün böyük göstərici idi.

Şərq tərəfdaşlığı Şərqi Avropa və Cənubi Qafqaz ölkələrinin Avropa Birliyinə yaxınlaşması və inteqrasiyası kimi əsaslı strateji məqsədin həyata keçirilməsinə xidmət edir. Bu özlüyündə tədrici xarakter daşıyıb Avropa birliyinə yeni proqressiv məzmunun qatıl-

ması deməkdir. Şərq Tərəfdaşlığına Praqada keçirilmiş Zirvə toplantısında (7 may 2009-cu il) start verilmiş və hiquqi yaxınlaşmanın həyata keçirilməsi məqsədi daşımışdır. Burada bazar iqtisadiyyatı, tarazılaşdırılmış inkişaf, enerji təhlikəsizliyi əsas istiqamətlərdən biri kimi əsas götürülür. Azad ticarət məkanının yaradılması Şərq tərəfdaşlığının ortaya qoyduğu məsələlərdən biridir. Azərbaycan Respublikası Şərq Tərəfdaşlığı müstəvisində Polşa ilə ciddi iqtisadi, siyasi, mədəni sahələrdə əlaqələrini qurur və bu əlaqələr bir istiqamətdə ticari bağlantıların müasir vəziyyəti ilə müəyyənləşir.

Polşanın və Azərbaycanın iqtisadi artımına təsir göstərən amillərdən biri onların həyata keçirdiyi xarici ticarət siyasətidir. Ümumiyyətlə, bu dünya ölkələrinin hər biri üçün xarakterik məsələdir və Azərbaycan respublikası da iqtisadi sahədə üstünlüklərini artırmaq üçün bundan geniş şəkildə yararlanır. Burada sektorlararası bölgünün dəyişməsi, rəqabət gücünün artırılması, səmərəliliyin yüksəldilməsi, bazar həcminin artırılması, ölkə daxilində mövcud olmayan xammal və materialların əldə olunması, ölkələrarası və sektorlararası bilgi və informasiyadan yararlanma kimi əsaslı məsələlər qarşılıqlı yararlanmaya və inkişafa yol açır.

Coğrafi şəraitin üstünlüyü də əsaslı iqtisadi perspektivlər vəd edir. Şərq Tərəfdaşlığı timsalında həyata keçirilən layihələr, qarşılıqlı biznes forumlarının təşkili imkanların müəyyənləşməsinə, hədəflərin dəqiqliyinə istiqamətlənmiş məsələlərdir. Məsələn, "enerji təhlükəsizliyi"nin təmini anlamında aparılan müzakirələr Avropanın və dünyanın artan enerji tələbatının ödənilməsi üçün alternativ variantların nəzərdən keçirilməsi bir məqsəd olaraq gündəmdə dayanır. Azərbaycan neftinin Ukraynaya çatdırılmasına dair razılaşmalar və xammalın Belorusiyaya nəqli ölkələr arasında danışıqlarda diqqət mərkəzində saxlanmış və əsaslı müzakirələrin mövzusuna şevrilmişdir. Belə bir məqsədin reallaşması ticarət əlaqələrinin daha da genişlənməsi və "EAKTR" layihəsinin uğurlu nizamlanması üçün zəmindir.

Xarici ticarət ölkələrarası əlaqələrin (bütün müstəvilərdə) dinamikası və məzmunu haqqında dolğun təsəvvür yaradır, bir növ informasiya, texnoloji sistemdə, eləcə də digər xidmət sahələrində əsaslı işlərin müsbət məcraya istiqamətlənməsi üçün zəmin olur. Azərbaycanın xarici ticarət əlaqələrində yaxın, uzaq ölkələrin böyük bir hissəsinin adı keçir və qarşılıqlı anlaşmaya, münasibətlərin uyğunluğuna hesablanır. Türkiyə, Gürcüstan, Rusiya, İran, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Ukrayna, Moldava, Belorusiya, Çin, Bolqarıstan, Ruminiya, Slovakiya, Litva və s. dünyanın 150-dən çox ölkələri ilə bazar münasibəti bir bütöv olaraq ölkə maraqlarının ödənilməsinə və qarşılıqlı bağlantıların daha da güclənməsinə yönəlmişdir. Azərbaycan və Polşanın ticarət əlaqələrinin müasir vəziyyətində də məhz rəqabət gücünün artırılması, səmərəliliyin yüksəldilməsi, bazar həcminin yaxşılaşdırılması, ölkə daxilində mövcud olmayan xammal və materialların əldə olunması, ölkələrarası və sektorlararası bilgi və informasiyadan yararlanma kimi məsələlər əsas götürülmüşdür.

Azərbaycan və Polşa respublikalarının ticarət əlaqələrinin müasir vəziyyətini ayrı-ayrı illərin göstəriciləri əsasında izlədikdə ciddi bir mənzərə yaranır. Paul R. Kruqman və Maurice Obstfeld "İnrternational economics: theory and policy" əsərində vurğulayır ki, "Ricardian beynəlxalq ticarət nəzəriyyəsinə bir giriş təqdim edir; ticarətin əsas modeli iki ölkəni, iki məhsulu və bir istehsal amilini, əməyi əhatə edir. Mətn ekspozisiyası istehsal imkanlarının sərhəddi və bir ölkənin mal qiymətlərinin araşdırılması ilə başlanır. Bu konsepsiyaları bir ölkə üçün müəyyən etdikdən sonra, fərqli nisbi vahid əmək tələblərinə malik olan ikinci bir ölkə tətbiq olunur. Analiz onu göstərir ki, ən azı bir ölkə istehsalatda ixtisaslaşacaq. Əlavə, malların davamlılığı ilə Rikardiya modelini təqdim edir. Xarici ölkədə məhsuldarlıq artımının ölkənin rifahı üzərində təsiri bu model ilə araşdırılmalıdır". (2, 4).

Azərbaycanın Cənubi Qafqaz ölkəsi olaraq yerləşdiyi ərazi

və iqlim şəraiti, eləcə də zəngin bərpa olunan və bərpa olunmayan resurs imkanları daha geniş perspektivlər vəd edir. Eyni zamanda ticari əlaqələrin genişləndirilməsi, Avropa bazarlarından yararlanmanın zərurətini aydınlaşdırır. Çünki Azərbaycan və Polşa Respublikalarının  ticarət əlaqələrinin müasir vəziyyəti təkcə bu iki ölkə arasında olanlarla məhdudlaşmamış və bunlar bütünlükdə Avropaya açılan qapıları, perspektivləri müəyyənləşdirir. Ona görə də Azərbaycanın  Polşa ilə ticarət əlaqələrinin inkişafının müasir vəziyyəti yeni mərhələyə daxil olmanın gərəkliyini, mövcud bağlantıların müxtəlif istiqamətlərdə neft, neft məhsulları, neft avadanlıqları, ağır sənaye, yüngül sənayə, kənd təsərrüfatı, turizm və s. sahədə daha sistemli layihələrin həyata keçirilməsini gərəkli edir. Çünki həm Polşa, həm də Azərbaycan Respublikası prezidentlərin sonuncu görüşündə deyildiyi kimi kifayət qədər geniş iqtisadi imkanlara malikdir və ticarət əlaqələrini daha da inkişaf etdirmək  lazımdır.

Məlum olduğu kimi, Azərbaycan neft ölkəsidir, lakin onun potensial iqtisadi mənzərəsi, karbohidrat yataqlarının zənginliyi, digər yeraltı sərvətləri daha böyük iqtisadi bağlantılara şərait yaradır. Aqrar sahə baxımından da Azərbaycan  böyük imkanlarla diqqəti cəlb edir. Respublikanın iqlim şəraiti, kənd təsəərfatı məhsullarının yetişdirilməsi üçün böyük əhəmiyyət kəsb etməsi Polşa ilə iqtisadi əlaqələrə perspektiv vədlər verir. Polşa respublikası Mərkəzi Avropa məkanında inkişaf etməkdə olan ölkələrdəndir. Onun iqtisadiyyatının müasir mənzərəsi ikitərəfli iqtisadi əlaqələrin inkişafını və perspektivini bir problem kimi öyrənib uğurlu nəticələr çıxarmağa əsas verir. Bütün bunlar Azərbaycan və Polşa respublikalarının  ticarət əlaqələrinin  inkişafının müasir vəziyyəti və perspektivləri haqqında dolğun təsəvvür yaradır.

Azərbaycan və Polşa Respublikalarının ticarət əlaqələrinin mövcud vəziyyətinin təhlili ciddi faktura ilə səciyyələnir. Ayrı-ayrı illər üzrə statistik göstəricilərin izlənməsi, idxal və ixracın ümumi mənzərəsi ilə bağlı dolğun təsəvvür yaradır. Bazardakı tələb və

təklifin nədən ibarət olmasını, yüksək keyfiyyətli məhsulların istehsalı müstəvisində işlərin qurulmasını gərəkli edir. Çünki həm Azərbaycan, həm də Polşa bazar münasibətləri baxımından daha ciddi, həm də əsaslı imkanlara malikdir. Hökumət və dövlət səviyyəsində olan anlaşmalar, sazişlər, forumlar mütəmadi xarakteri ilə qarşılıqlı maraqların perspektivini açıqlayır. Polşanın Mərkəzi Avropa ölkəsi olaraq apardığı iqtisadi islahatlar, liberallaşmanın uğurluluğu, yüksək inkişaf tempi və s. bunun nümunəsidir. Azərbaycanın zəngin təbii resursları, geoiqtisadi mənzərəsi, iqlim şəraiti, yeritdiyi uğurlu iqtisadi siyasət və s. Polşa ilə iqtisadi əlaqələr üçün mühüm əhəmiyyət daşıyır. Bütün bunlar ticarət əlalələrin daha da genişlənməsi üçün imkanları aydınlaşdırır.

## ƏDƏBİYYAT

1. Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.

2. Krugman R.Paul, Obstfeld Maurice. İnternational economics: theory and policy. (sixth edition). Boston, 2015, 185 p.

3. İqtisadi nəzəriyyə. Dərslik. Bakı, Çaşıoğlu, 2001, 691 s.

4. Qənbərov Fuad Əlinağı oğlu. Qloballaşma şəraitində Azərbaycanda iqtisadi artımın təmin edilməsinin xarici iqtisadi amilləri. (Avtoreferat. İqtisad elmləri doktoru). Bakı, AMEA, İqtisad İnstitutu, 2014, 48 s.

5. Məhərrəmov A.M. İqtisadi diplomatiya. Bakı, Adventa MMC, 2013, 386 s.

6. Rikardo D. On the prinsiplen of political economy and taxation. Canada, Ontario, Kitchener, 2001, 333 p.

7. Smith A. An inquiru into the nature and causes of the wealth of nations. USA, New York, Metalibri, 2007, 754 p.

8. Toporowski. İqtisadiyyatda Polşa töhfəsi. Htt:www. res. org.uk/view/art4Apr14Features.html.

9. (http://www.woldbank.orq/en/country/poland/overview#3).

10. Source: state.gov.az.

## BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏR: GEOİQTİSADİ AMİLLƏR

***(Azərbaycan və Polşa Respublikalarının iqtisadi münasibətləri üzrə)***

Azərbaycan və Polşa Respublikasının iqtisadi əməmkdaşlığının təhlilində geoiqtisadi amillər mühüm tərəfdir. Son dövrün araşdırmalarında bu faktor ciddi yanaşmaları aktuallaşdırır. Heç şübhəsiz dünya iqtisadi məkanında gedən proseslər geoiqtisadi mənzərənin fenomenliyini düşünməyi zəruri edir və problemin mahiyyətinin aydınlaşmasına yardımçı olur. Apardığımız təhlillərdə geomaliyyə, geoinformatika, geoloqistika, geomədəniyyət və s. Polşa və Azərbaycan müstəvisində ciddi faktları ortaya qoyur. Avropa və Asiya məkanında geoiqtisadi proseslərin daha təfərrüatlı təhlilinə imkan yaradır.

Beynəlxalq iqtisadi əlaqələrdə aktual, həm də elmi-nəzəri baxımdan ciddi problemlərdən biri geoiqtisadi amillərlə üstünlük verilməsidir. Azərbaycan və Polşa Respublikalarının beynəlxalq iqtisadi münasibətlərinin inkişaf tendensiyasının, spesifikasının müəyyənləşməsində geoiqtisadi amillər mühün önəm daşıyır. Azərbaycan və Polşa Respublikalarının iqtisadi əməkdaşlıq istiqamətində olan məqsədyönlü fəaliyyəti bunun göstəricisidir. Belə ki, Azərbaycan Respublikasının prezidenti Polşaya ilk rəsmi səfərindən (26-28 avqust 1997-ci il) başlayan bu bağlantılar həmişə yüksələn istiqamətdə getmişdir. Polşa prezidentinin Azərbaycana səfərində (27-29 oktyabr 1998-ci il) iqtisadi əməkdaşlıq müstəvisində aparılsan anlaşmalar, məsələn, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Polşa Respublikasının Neft və Qaz Şirkəti arasında imzalanan Qarşılıqlı Anlaşma Memerandumu və digər iqtisadi əhəmiyyətli qərarlar ölkələrin perspektiv inkişafına hesablanmışdır.

Azərbaycan prezidentinin Polşaya sonrakı səfərləri (5 mart

2005- cü il, 26 fevral 2008-ci il, 26-28 iyun 2017-ci il), eləcə də Polşa prezidentinin Azərbaycana səfərləri (30 mart 2007-ci il, 2 iyun 2009-cu il) və yaxud da GUAM-ın zirvə görüşlərində (18 iyun 2007-ci il Bakıda, 1 iyul 2008-ci il Batumi) və s. görüşlər ikitərəfli əməkdaşlığın perspektivlərini müəyyənləşdirmişdir. “Azərbaycan Respublikası və Polşa Respublikası Prezidentlərinin Məşvərət Komitəsinin Nizamnaməsi”, “Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Polşanın “Grupa Lotos” Səhmdar Cəmiyyəti arasında niyyət haqqında Protokol” (2 iyul 2009-cu il), əməkdaşlıq cədvəlləri və s. hamısı bir istiqamətdə iqtisadi əlaqələrin güclənməsini ehtiva edir. “Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında Tərəfdaşlıq və İqtisadi Əməkdaşlığa dair Yol Xəritəsi haqqında Birgə Bəyannamə” eləcə də beş bəndlik sənəd iki ölkə arasında olan iqtisadi əlaqələrin güclənməsinin ən bariz nümunəsidir. Azərbaycan Prezidentinin Polşaya sonuncu səfəri (26-28 iyun 2017-ci il) iqtisqdi əməkdaşlığın, geoiqtisadi şəraitin qiymətləndirilməsi baxımından müstəsna faktura ilə səciyyələnir.

Məlum olduğu kimi, geoiqtisadiyyat dövlətin konkret mühit və şərait daxilində iqtisadi münasibətlərini, fəaliyyət sistemini tədqiq etməklə beynəlxalq arenada strategiya və taktikasını formalaşdırmaq kimi ciddi bazanı özündə ehtiva edir. Burada geniş bir spektr, iqtisadi, siyasi və coğrafi istiqamətlər bir bütöv olaraq cəmlənir. Geoiqtisadi məkan, dünyanın geoiqtisadi atlası, mütəhərrik iqtisadi sərhədlər, dünya gəliri, strateji manevr və strateji effektlər, geoiqtisadi texnologiyalar, etnoiqtisadi sistemlər, geoiqtisadi təzminat, geoiqtisadi təhlükəsizlik və s. kimi ciddi faktorlar terminin məzmununda cəmlənir. Ona görə də bu problemin bir bütöv olaraq təhlili bütünlükdə beynəlxalq iqtisadi münasibətlərin uğurluluğu üçün əsas olur. Bunlara xarici iqtisadi doktrina və xarici iqtisadi strategiya müstəvisində yanaşmaq və bu kontekstdə də təhlil faktına çevirmək lazımdır.

Qloballaşma, beynəlxalq iqtisadi sferada baş verənlər yeni-

yeni elmi istiqamətlərin yaranmasını, inkişafını və perspektivlərini müəyyənləşdirir. Geoiqtisadiyyat da bir elm sahəsi kimi son dövrlərdə formalaşmasına baxmayaraq ciddi elmi baza ilə səciyyələnir. Geomaliyyə, geoinformatika, geoloqistika, geomədəniyyət XXI əsrin başlanğıcında reallığın hadisəsi kimi ortaya çıxmaqla qlobalistikanı bir bütöv olaraq ehtiva edir. Geoiqtisadiyyatın özündə bir çoxcəhətlilik var ki, bu da dünya iqtisadi mənzərəsində baş verənlərin rəngarəngliyindən, praqmatik səciyyəsindən irəli gəlir. E.Q.Koçetov bu məsələni şərh edərkən xüsusi olaraq vurğulayır ki, "geoiqtisadiyyat (geoekonomics) - 1) iqtisadi atributlar sistemi vasitəsilə qlobal dünyanın təfsirini əks etdirən konseptual baxışlar; 2) dünya iqtisadi proseslərin baş verdiyi qlobal iqtisadi məkanın konturlarını müəyyənləşdirən milli çərçivədən kənara çıxarılmış iqtisadi atributlar və iqtisadi münasibətlər sistemi; 3) milli iqtisadiyyatların və dövlət institutlarının simbiouzu, milli və üst milli iqtisadi və dövlət sturkturlarının qarşılıqlı "toxunması"; 4) dövlət siyasətinin iqtisadi amillər, dünyanın geoiqtisadi atlasında (həmçinin onun milli hissəsində) əməliyyatlar aparılması, yüksək geoiqtisadi texnologiyalar əsasında dünya gəlirinin formalaşdırılması və bölüşdürülməsində iştirak məqsədi ilə milli iqtisadiyyatların və onların təsərrüfat subyektlərinin beynəlmiləlləşdirilmiş təkrar istehsal nüvələrinə (dövrlərinə) daxil olması ilə müəyyən edilən baxışlar sistemi (konsepsiyası)"dir (4, 17). Göründüyü kimi, beynəlxalq iqtisadi münasibətlərin uğurluluq əmsalında birbaşa geoiqtisadi amillər mühüm rol oynayır.

Geoiqtisadi proseslərin özündə gələcəyə istiqamətlənmiş konseptual baxışlar, elmi-nəzəri təhlillər üçün mükəmməl baza var və onun verdiyi imkanlardan istifadə etməklə dünya düzənində baş verən və verə biləcək iqtisadi proseslərin ümumi dinamikasını müəyyənləşdirmək olur. Dünya iqtisadi proseslərinin baş verdiyi qlobal iqtisadi məkan öz olanları ilə iqtisadi münasibətləri müəyyənləşdirir və bu münasibətlərin davamlılığı,

düzgün nizamı həm də perspektivləri açıqlayır. Azərbaycan bvə Polşa respublikalarının iqtisadi əlaqələri üzərində aparıəlan müşahidələr onu göstərir ki, yüksək geoiqtisadi texnologiyalar sayəsində geoiqtisadi siyasətin həyata keçirilməsi gəlirlərin artırılmasına, uğurlu bölüşdürülməsinə və rifahın yaxşılaşdırılmasına hesablanır. Burada əlbəttə digər müstəvidə dünyanın yenidən dərk edilməsinə meyllənmə var və bu isə yeni yanaşmaları, prinsipləri, sistemin yenilənməsi qanunauyğunluqlarını əsas edir. Geoiqtisadi amillər iqtisadi sferada beynəlmiləlləşmənin müasir mexanizmlərinin yaranmasının gərəkliyini ortaya qoyur. Artıq bütün olanlar yeni iqtisadi sərhədlərlə, yəni əlavələrin, alternativlərin ortaya çıxması ilə şərtlənir. Transmilli dünya gücləri və yerli dövlətlər geoqitisadi münasibətlər səviyyəsində Cənubi Qafqazda və Xəzər hövzəsində ciddi fəaliyyət proqramı ilə təmsil olunurlar. Ümumiyyətlə, "XX əsrin son onilliyində və XXI əsrin başlanğıcından dünyada gedən ictimai-siyasi və beynəlxalq əhəmiyyətli hadisələr nəticəsində Xəzər dənizi və Qafqaz regionu yenidən öz əhəmiyyətinə görə dünyada mərkəzi yerlərdən birini tutdu. Planetin artan enerji ehtiyacı və ticarət əlaqələrinin genişləndirilməsi tələbatı qarşısında Xəzər hövzəsi və Cənubi Qafqaz özünün zəngin karbohidrogen ehtiyatları, Şərq-Qərb, Şimal-Cənub əlaqələrində, nəqliyyat-kommunikasiya sahəsindəki imkanları ilə bütün transmilli dünyanın nəzər-diqqətini özünə cəlb edərək geoiqtisadi maraqların kəsişmə nöqtəsinə çevrilmişdir" (3, 9). Xəzər, Qara dəniz hövzəsi, Cənubi Qafqaz timsalında söylənmiş bu mülahizələr özlüyündə dünya geoiqtisadi məkanında gedən prosesləri, iqtisadi maraqların səbəb və mahiyyətini müəyyənləşdirir. Beynəlxalq iqtisadi münasibətlərdə geoqitisadi amillər bir sıra məsələlərin gərəkliyini aktuallaşdırır və ciddi təsəvvürlər ortaya qoyur.

a) dünya sisteminin yeni geoiqtisadi sferalarda vahidləşməsi;

b) beynəlmiləlləşmənin mexanizmlərində dəyişiklliklərin zərurəti;

c) dünya əmək bölgüsündə geoiqtisadi məkanın rolu və iqtisadi sərhədlərin təzələnməsi;

ç) əmtə istehsalının modifikasıyasında baş verən dəyişmələr;

d) beynəlmiləlləşmiş təkrar istehsal nüvələrinin formalaşması;

e) milli xarici iqtisadi modellərin strateji effektliliyi və s.

Beynəlxalq iqtisadi əlaqələrdə geoiqtisadi amillərin əhəmiyyəti geoiqtisadi sistemin birbaşa məzmunu ilə bağlanır. Milli inkişafın ümumi hədəfləri onun həyata keçirilməsində strateji ehtiyatları hədəfləyir. Çünki hər hansı milli iqtisadiyyat (məsələn, Azərbaycan və Polşa iqtisadiyyatı) özlüyündə dayanıqlılığa, dinamikanın gözlənməsinə yönəlir. Bunun isə təkcə hansısa sərhədlər daxilində qorunuşu və mövcudluğu mümkünsüzdür. Əsas olan mühitdə və daha geniş sferada tənzimlənmənin həyata keçirilməsi, dünya düzənində baş verənlərlə müvaziliyin gözlənməsidir. Mövcud zaman kəsiyində geoiqtisadi qlobal dəyişikliklər, xarici geoiqtisadi sistemlərin məzmunu, uzunmüddətliliyi, perspektivə hesablanmış doktrinalara diqqət yetirməyi və işlərin bu müstəvidə həyata keçirilməsini gərəkli edir. Müasir proseslər diqqətin strateji ehtiyatlara yönləndirilməsini və onların formalaşdırılması prosesində geoiqtisadi amillərin rolunu müəyyənləşdirməyi diqqət önünə gətirir. Qlobal dəyişikliklər şəraitində dünya birliyinin genetikası üzərində təhlillər aparan institutlar gediləcək yolun iqtisadi perspektivlərinə diqqəti yönəldirlər. Burada mühüm olan dünya gəlirinin formalaşdırılması və onun haqqında dolğun təsəvvür yaradılması deyil, əlbəttə bu mühüm məsələlərdəndir, onun ikinci tərəfində həmin gəlirin bölüşdürülməsinin hansı qanunauyğunluq əsasında həyata keçirilməsi məsələsidir. Bütün iqtisadi institutlar və iqtisadi fikrin nəzəri yönləndiriciləri öz müşahidələrini baş verənlər üzərində cəmləşdirir, dünya iqtisadi pulsunun perspektivasını ortaya qoymağa çalışırlar. Burada əlbəttə dinamik və təhlükəsiz qoşulma, münbit şəraitin təmini, inkişafın yeni nöqtələrinin müəyyənliyi

kimi məsələlər də vardır.

Avropa elmi bu gün geoiqtisadi proseslərin ümumi mənzərəsində bir tərəf olaraq diqqəti dayanıqlı inkişafa və onun təmin olunması mexanizmlərinin hazırlanmasına daha çox diqqət yetirir. “Milli maraqlar”, “milli təhlükəsizlik üzərinə köklənmiş geoiqtisadi proseslərin gedişinin ümumi məzmununda da dayanıqlılığın təminatı və onun perspektivinin hansı dərəcəyə hesablanmasıdır. Müasir dünya reallığının dərki və sürətlə gedən yeniləşmənin tərəf və təklif paketlərinin elmi mexanizmlərlə təhlili baş verənləri hansı səviyyədə ehtiva edir. Klassiklərin, neoklassiklərin, keynsçilərin, neokeynisçilərin düşüncələrində özünə yer almış iqtisadi sferanın prinsipləri, eləcə də sonrakı mərhələdə meydana çıxmış nəzəriyyələr, məsələn, məhsulun həyat dövrü nəzəriyyəsi, rəqabət üstünlüyü nəzəriyyəsi, kəsişən tələb nəzəriyyəsi ortaya qoyduğu konsepsiya ilə iqtisadi münasibətlərin tənzimlənməsini yeni dünya müstəvisində nə dərəcədə ifadə edir. Müasir dünya reallığında yeni qlobal proseslərin dinamik mənzərəsi perspektivdə əlbəttə mühitin və reallığın özünə uyğun bir qanunauyğunluğu müəyyənləşdirir. Onun mexanizmlərində isə geoiqtisadi münasibətlərin mənzərəsindən əlavə inkişaf texnologiyası, spesifiklilik sxemləri boy göstərir. Geoiqtisadi amillərin (iqtisadiyyat üçün əlverişli olan sahə və ərazilər) uğurluluğunda iqlim şəraiti, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı üçün mövcud şərait, təbii ehtiyatlar, resursların düzgün istiqamətlənməsi və s. nə varsa hamısı bir bütöv olaraq geoiqtisadi mühitdə təmsilolunmanı müəyyənləşdirir.

Geoiqtisadi proses qlobal dönüşü əsas edir. Çünki dünyanın müasir iqtisadi mənzərəsinə kənardan baxdıqda diaxronik mənzərə iqtisadiyyatın özünün tələbləri və reallığı ilə razılaşmağı ortaya qohyur. Əlbəttə burada ayaqlaşma, geoiqtisadi məkanda baş verənlərin və iqtisadi proseslərin millilik ampulasında nələrlə təmsil olunması kimi məsələlər vardır. Bütün məsələlərə millilik mövqeyindən baxmaqla geoiqtisadi gedişatların mahiyyətinə

diqqət yetirmək mümkün də deyildir.

Bazarın geoiqtisadi məkanda birgə tənzimlənməsi iqtisadi çevrənin gəlirlilik və işləklik dərəcəsini müəyyənləşdirir. Heç şübhəsiz bu da qarşılıqlı təsir və asılılığığı ortaya qoyur. "Təkraristehsal proseslərinin qarşılıqlı kəsişməsi, tam yeni texnologiyaların yaradılması, beynəlxalq mübadilənin "zehniləşdirilməsi" – bütün bunlar dünya əmtə münasibətlərində əks olunmaya bilməzdi. Yeni beynəlxalq ünsiyyət obyektləri və subyektləri yaranmışdır. Müasir xarici sahənin ən vacib məqamlarından biri də əmtəənin dəyişməsinin və dünya təsərrüfatı ünsiyyətinin təşkili – iqtisadi strukturunun təkamülünün qarşılıqlı təsir və qarşılıqlı asılılığımnın nəzərə alınmasıdır" (4, 33). Müasir beynəlxalq iqtisadi əlaqələrdə geiqtisadi amillərin əhəmiyyəti qarşılıqlı əlaqə, asılılıq və anlaşma ilə reallaşır ki, bu da bazarların birgə tənzimlənməsinə əsas olur.

Azərbaycan və Polşa respublikaları kontekstində apardığımız təhlillər təkcə iki respublika arasında iqtisadi münasibətləri sərgiləməklə kifayətlənmir, burada həm də yeni-yeni xətlər, istiqamətlər, perspektivlər müəyyənləşir. Çünki Azərbaycan özünün uğurluluq əmsalı baxımından geiqtisadi məksn olaraq böyük vədlər verir. Xəzər hövzəsindəki karbohidratlar, neft sənayesinin inkişaf perspektivləri və onun əldə etdiyi nailiyyətlər, irihəcmli layihələr, qeyri-neft sahələrinin inkişafı üçün münbit şəraitin olması geoiqtisadi amillərin Azərbaycan səviyyəsində əhəmiyyətliliyini əsas edir. Məhz bu baxımdan Xəzər hövzəsi və Cənubi Qafqazın geoiqtisadi xarakteristikası beynəlxalq, regional müstəvisində böyük vədlər verir. Bu region öz əhəmiyyətlilik dərəcəsinə görə dünyanın daha çox diqqət mərkəzində dayanır.

Qlobal iqtisadiyyatda iqtisadi fəaliyyət müxtəlifliklə, beynəlmiləlləşmiş təkrar istehsal nüvələrinin çoxluğu və dinamikliyi ilə şərtlənir ki, bu da geoiqtisadi mühitdə canlanmanı, qarşılıqlı münasibətləri və onun müsbətyönümlülüyünü müəyyənləşdirir. Beynəlxalq iqtisadi münasibətlərdə geiqtisadi

amillərin əhəmiyyətinin təhlili beynəlmiləlləşmənin hansı səviyyədə aparılmasını, parametrlərinin bir bütöv olaraq aydınlaşmasını zəruriləşdirir. Dünya təsərrüfat sistemi geoiqtisadi amillərin əhəmiyyətliliyində milli iqtisadiyyatları iqtisadi-texnoloji baxımdan yaxınlıqla yekunlaşdırmır, əlbəttə bu mühüm şərtdir, burada digər tərəf, sənaye və aqrar sahədə olanlarla bağlıdır. Dünya təsərrüfat sistemi bunların bir məcrada birliyinə əsaslanır.

Beynəlxalq iqtisadi əlaqələrin inkişafı, yeni məcraya istiqamətlənməsi, yeniləşmə ilə təzahürü işlərin düzgün qurulması, geoiqtisadim mənzərənin aydın dərki ilə bağlı hadisələrdir. Bütün bunlar ixtisaslaşmaya aparan yolu müəyyənləşdirir, qrşılıqlı iqtisadi bağların möhkəmliyini və perspektivasını aktlaşdırır, lakin ixtisaslaşmada əks tərəfin, daha doğrusu, işlərin birtərəfli istiqamətlənməsinin (gedişinin) mənfi ola biləcək faktorları ehtiyatlanmanı, müxtəlif səbəblərə hazırolmanı da gərəkli edir. Geoiqtisadi sferada bütün proseslərin reallığa hesablanması, strateji hədəflərin aydınlığı və ehtiyatlılıq bir bütöv olaraq dərki və onun nəzərə alınması vacibdir. “Qeyd etmək lazımdır ki, dünya təsərrüfat sistemində gedən qlobal proseslər ölkənin beynəlxalq əmək bölgüsündə malik olduqları üstünlüklər, milli iqtisadiyyatlaırn inkişaf potensialı və konkret şəraitin xüsusiyyətləri nəzərə alınmaqla məqsədyönlü xarici iqtisadi siyasətin aparılması lazım gəlir. Bu isə öz növbəsində beynəlxalq hüquq normalarına və mütərəqqi dünya təcrübəsinə əsaslana dünya təsərrüfat sisteminin, beynəlxalq iqtisadi münasibətlərin və milli iqitsadiyyatın inkişaf xüsusiyyətlərini və perspektivlərini nəzərə alan səmərəli xarici iqtisadi fəaliyyətin, o cümlədən xarici ticarət fəaliyyətinin mükəmməl və çevik dövlət tənzimlənməsi sisteminin yaradılmasını nəzərdə tutur” (5, 3-4). Milli iqtisadiyyatın inkişaf potensialı dünya təsərrüfat sistemində gedən qlobal proseslərlə bağlanır, ölkələrin beynəlxalq əmək bölgüsündə malik olduqları üstünlüklər onlardan sistemli yararlanmanın vacibliyini gərəkli edir. Konkret şəraitin nəzərə alınması, geoiqti-

sadi sferanın özünün uğurluluq dərəcəsi, xarici ticarət dövriyyəsindəki artım tempi dövlətlərin iqtisadi maraqlarındamüsbət tendensiyanı ifadə edir.

Xəzər hövzəsi və Qara dəniz ətrafı dövlətlərin geoiqtisadi sferada artan gücü daha geniş proporsiyada ümumi mənzərənin izlənməsini, dünya iqtisadi məkanında bura artan maraqların genetikasını və perspektivasını ciddi təhlil faktına çevirməyi gərəkli edir. Burada milli dövlətlərin özlərinin iqtisadi potensialının müəyyənləşməsi, bağlantılarının hansı sərhədlər daxilində qurulması, yaxın, uzaq ərazilərlə münasibətlərin iqtisadi müstəvidə tənzimlənməsi, ölkələrin ixrac resurslarının işlənməsi, müasir texnalogiyaların cəlb olunması və qarşılıqlı yararlanma və s. kimi məsələlər geoiqtisadi sferanın ümumi mənzərəsini ortaya qoyur.

Təbii resursların ölkələr üzrə paylanmasındakı fərqliliklər təbii ki, geoiqtisadi sferada əlaqələrin daha da möhkəmliliyinə, qarşılıqlı yararlanmaya, işlərin birgə aparılmasına, iqtisadi münasibətlərin düzgün qurulmasına əsas olur. Xəzər hövzəsi, Qərb-Şərq, Şimal-Cənub geoiqtisadi məkanında baş verən proseslər birbaşa həmin ərazilərdəki geosiyasi mənzərənin atlasına da təsir edir. Xəzər hövzəsindəki zəngin karbohidratlar, yeraltı sərvətlərin, enerji resurslarının əhatəliliyi, daşımaların həyata keçirilməsi üçün münbitlik şəraiti dünya ölkələrinin artan marağını təbii edir. Burada digər istiqamətdə torpaq-iqilm şəraiti, Cənubi Qafqaz ölkələrinin coğrafi mövqeyi, əmək resurslarının imkanlılıq səviyyəsi, ölkənin daxili bazarlarının potensiyası, səmərəlilik və iqtisadi maraqlar və s. kimi ciddi amillər mühüm rol oynayır. Bütün bunlar kəsişən maraqlarda geoiqtisadi qarşıdurmalara, maraqların toqquşmasına, mövqe üstünlüyünün əldə olunması kimi amillərə də yol açır. Geosiyasi mühitin gərginliyi Xəzər hövzəsi ölkələri timsalında nümunədir. Bütün mövcud proseslərin izlənnməsi, müxtəlif müstəvidə təhlili geoiqtisadi mənzərənin düzgün qiymətləndirilməsindən, iqtisadi

mənzərənin qarşılıqlı əməkdaşlıq əsasında öyrənilməsindən, təbii resursların, əmək potensiyasının, elmi-texniki tərəqqinin ümumi uğurlarının tətbiqi timsalında sıralanmasından asılıdır. Geoiqtisadi vəziyyətin düzgün qiymətləndirilməsi bütün proseslərə, milli iqtisadiyyatların, rifahın yaxşılaşmasına təsir edir. Məlum oldu]u kimi, "beynəlxalq iqtisadi miqyasda əlaqəələrin inkişafı iki əsas şərtlə əsaslanır: birincisi, xarici iqtisadi əlaqələrin obyektiv zəruriliyinə; ikincisi isə həmin əlaqələrin qarşılıqlı faydalı olmasına.

Dünya təcrübəsi göstərir ki, dövlətlər arasındakı iqtisadi əlaqələr daim artır və genişlənir. Bu prosesin obyektiv əsasları aşağıdakılardır:

-ümumdünya əmək bölgüsü;

-təsərrüfat həyatının beynəlmiləlləşməsi.

...Müasir dövrdə xarici iqtisadi inkişafda xarici iqtisadi əlaqələrin əhəmiyyəti və rolunun nəzəri və metodoloji əsasları tədqiq edilərkən müəyyən edilmişdir ki, Azərbaycan beynəlxalq iqtisadi münasibətlər sisteminə aktiv inteqrasiya etmək üçün böyük potensial imkanlara malikdir" (2, 8). Dövlətlər arasında əlaqələrin artma tendensiyası geoiqtisadi amillərin əhəmiyyətliyi üzərində qurulur. Qara dəniz iqtisadi əməkdaşlıq ittifaqı ümumi mahiyyəti, məqsəd və məramı ümumdünya əmək bölgüsünün prinsiplərinə, qarşılıqlı anlaşmaya, problemlərin birgə həllinə hesablanmışdır. Burada nəzərə çarpan ana xətt təsərrüfatın beynəlmiləlləşdirilməsidir ki, bu da geoiqtisadi maraqların ödənilməsini əsas edir.

Ümumiyyətlə müasir qloballaşma milli iqtisadiyyatların beynəlxalq müstəvidə yaxınlaşmasını, sərvətlərin bölüşdürülməsində, iqtisadi nizamın yaradılmasında, texnologiyaların tətbiqində, əmək bölgüsündə vahid sistemdən çıxış etməni zəruri edir. Ayrıca bir ölkənin bütün problemlərini ödəməsi, ehtiyacların daxili imkanlar hesabına aradan qaldırılması mümkünsüzdü. Məhz bu baxımdan beynəlxalq iqtisadi münasibətlər çərçivəsində

problemlərin həlli geoiqtisadi amillərin əhəmiyyətliliyi səviyyəsində bir mövqedən çıxış etməyi şərtləndirir. Təbii resursların ölkələr üzrə paylanmasındakı fərqliliklər, torpaq-iqilm şəraiti, ölkələrin coğrafi mövqeyi, əmək resurslarının imkanlılıq səviyyəsi, ölkənin daxili bazarlarının potensiyası, səmərəlilik və iqtisadi maraqlar, elmi-texniki tərəqqi və s. kimi amillər geoiqtisadi sferanın əhəmiyyətlilik dərəcəsini bir bütöv olaraq aydınlaşdırır. Ölkələr öz potensiyası ilə bu amillər kontekstində beynəlxalq iqtisadi əlaqələrdə təmsil olunurlar. Azərbaycan və Polşa Pespublikalarının iqtisadi əlaqələrinin bu sistem üzərində təhlili ciddi bir iqtisadi fakturanı ortaya qoyur. Azərbaycanın zəngin enerji resursları, onun mənimsənilməsi, birgə işlənmə və yararlanma müxanizmi, ixrac marşrutları, istehsal və istehlak problemləri, qeyri-neft sahələrinə olan marağın güclənməsi beynəlxalq iqtisadi əlaqələrdə geoiqtisadi amillərin əhəmiyyətliliyi müstəvisində reallaşır. Son olaraq beynəlxaq iqtisadi əlaqələrin əhəmiyyətliliyi kontekstində bütöv bir modeli ortaya qoyur.

Beynəlxalq iqtisadi əlaqələrdə geoiqtisadi amillərin təhlili ciddi faktlarla səciyyələnir və problemin daha geniş müstəvidə şaxələnməsini faktlaşdırır. Belə ki, dünyanın müasir düzəni geoiqtisadiyyat kontekstində geomaliyyə, geoinformatika, geoloqistika, geomədəniyyət və s. kimi məsələləri də təhlil etməyi zəruri edir. Çünki problemin bütöv şəkildə götürülməsi mahiyyətin aydınlaşmasına, gəlinən qənaətlərin dolğunluğuna əsas olur. Azərbaycan və Polşa respublikalarının iqtisadi əməkdaşlığında ən zəruri istiqamətlərdən biri, bəlkə də birincicilərdən biri geoiqtisadi təhlillər müstəvisində gəlinən qənaətlərdir. Dünya iqtisadi məkanında gedən proseslərin yaxın zamanlarda bunun gərəkliyini daha aydınlıqla göstərməsi təhlillərdə qənaət kimi görünür.

## ƏDƏBİYYAT

1. Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.

2. Eyvazov Aqil. Azərbaycan və Ukrayna respublikaları arasında iqtisadi əlaqələrin təkmilləşdirilməsi istiqamətləri. Avtoreferat (iqtisad elmləri namizədi). Bakı, İqtisad İnstitutu, 2008, 24 s.

3. Həsənov Ə. Xəzər –Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti. Bakı: Zərdabi LTD MMC, 2016, 296 s.

4. Koçetov E.Q. Geoiqtisadiyyat. Bakı, İqtisad Universiteti, 2015, s. 33 438 s.

5. Köçərli Anar. Müasir şəraitdə xarici ticarətin inkişafının nəzəri problemləri. Avtoreferat (iqtisadiyyat üzrə fəlsəfə doktoru). Bakı, İqtisad Universiteti, 2011, 24 s.

6. Məhərrəmov A.M. İqtisadi diplomatiya. Bakı, Adventa MMC, 2013, 386 s.

7. Smith A. An inquiru into the nature and causes of the wealth of nations. USA, New York, Metalibri, 2007, 754 p.

8. Toporowski. İqtisadiyyatda Polşa töhfəsi. Htt:www.res.org.uk/view/art4Apr14Features.html.

9. www.prezident.az.

10. Source: state.gov.az.

11. state.gov.pl

## AZƏRBAYCAN, TÜRKİYƏ VƏ POLŞA: ŞAXƏLƏNƏN YERALTI RESURSLAR

Azərbaycan və Türkiyə iqtisadi əlaqələrinin artan tempi böyük perspektivlər vəd edir və qloballaşan dünyada yeni bağlantıların, iqtisadi münasibətlərin formslsşmasına əsas olur. Avropa iqtisadi məkanı müstəvisində olan artan temp bunun ən yaxşı nümunələrindəndir. Müxtəlif tərəfli beynəlxalq iqtisadi münasibətlərin qurulması, dünya ehtiyaclarının öncüllənməsi birgə fəaliyyət sistemlərinin yaranmasını zərurət olaraq qarşıya qoyur. Polşa Respublikası ilə iqtisadi münasibətlərin tənzimlənməsi və inkişaf etdirilməsi sahəsində olanlar bunun nümunəsidir. Belə ki, Azərbaycan Türkiyə və Polşa ilə yalnız iqtisadi əlaqələr baxımından deyil, həm də sosial-mədəni münasibətlərin tənzimlənməsi və tarixi nümunəsi baxımından ciddi poerspektivlər vəd edir.

Azərbaycan, Türkiyə və Polşa əlaqələri bir istiqamətdə enerji ehtiyaclarının tənzimlənməsi əsasında formalaşır. Bu inkişaf xarici və regional siyasətdə ölkənin prioritetlərini müəyyən edir və münasibətlərin davam etdirilməsində qarşılıqlı siyasi iradənin əsasını müəyyənləşdirir. Enerji əməkdaşlığının inkişafı, Türkiyənin regionda enerji mərkəzinə çevrilməsi təşəbbüsləri və Azərbaycan neftinin tranzit vasitəsilə Avropaya, eləcə də Mərkəzi Avropanın inkişaf etmiş dövlətlərindən sayılan Polşaya nəqli dünya düzənində bağlantıların perspektivini aydınlaşdırır. Proseslərin gedişi enerji siyasətinin tətbiqi baxımından Azərbaycana böyük dvidentlər gətirmiş və tranzit ölkə olmadan energetika mərkəzi olan ölkəyə çevirilməsinə şərait yaratmışdır.

Sovetlər birliyinin dağılmasından sonra Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr həmişə yüksələn xətlə inkişaf etmişdir. Bu inkişaf bir istiqamətdə qardaş ölkə ilə yaradılan iqtisadi münasibətlərdə özünü göstərir. Türkiyə, əsas ticarət ölkə-

lərində 1 milyon 958 min dollar ilə ikinci sıradadır. Bu ümumi dövriyyənin təxminən 14% -ni təşkil edir. Yalnız bir fakt Rusiya bu sahədə Türkiyədən sonra gəlir. Ancaq bu, bütün potensialın istifadə edilməsini nəzərdə tutmur. 2000-ci ildə Azərbaycan və Türkiyə arasında xarici ticarət dövriyyəsinin həcmi 326 milyon dollar təşkil etmişdir. 2006-cı ildə bu rəqəm 1 milyard 35 milyon dollara çatırdı. 2013-ci ildə xarici ticarət dövriyyəsi 3 milyard 300 milyon dollar, 2016-cı ildə bu göstərici 1 milyard 600 milyon dolları təşkil etmişdir. Gördüyünüz kimi, bu əlaqələr tempi müxtəlif amillər səbəbindən aşağı düşmüşdü.

Dövlət başçıları arasında növbəti yüksək səviyyəli görüşdə iqtisadi sahədə imzalanmış sənəd növbəti mərhələ üçün çox böyük önəm kəsb etdi. Söhbət güzəştli, yəni imtiyazlı ticarət razılaşması ilə bağlı məsələlərin qabardılması idi. Görüşdə xüsusi olaraq vurğulandı ki, bu razılaşma ilə iki ölkə arasında ticarət dövriyyəsi əhəmiyyətli dərəcədə artacaqdır. Qarşılıqlı təhlillərdə bunun böyük bir zərurət olduğu qeyd edildi. İndiyədək Azərbaycandan Türkiyəyə 10 milyard, Türkiyədən Azərbaycana isə 11 milyard dollar sərmayə qoyulub. Bu investisiyaların həcminin daha da artırılması perspektiv kimi qarşıda durur.

“Azərbaycanın regional və qlobal arenada rolu: reallıqlar və perspektivlər” mövzusunda konfransı iqtisadi sferada maraqların çoxalan tempini müəyyənləşdirirdi. Macarıstan Xarici İşlər və Ticarət İnstitutunun baş direktorunun müavini Latsilu Vasa öz təqdimatında bu məsələlərə xüsusi önəm vermiş, iqtisadi əməkdaşlığın daha da artırılmasını diqqət önünə gətirmişdi. Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri, investisiya əlaqələri, nəqliyyat əlaqələri, logistika və enerji sahəsində olanlar Azərbaycanın bölgədəki geosiyasi əhəmiyyətini ortaya qoyan faktlardır. O qeyd etdi ki, "Avropa İttifaqı-Azərbaycan əlaqələrində başlanğıc nöqtəsi 1996-cı ildə imzalanan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi - qeyri-güzəştli ticarət və investisiya sazişidir. Bundan əlavə, Avropa Qonşuluq Siyasəti və Şərq tərəfdaşlığı

ölçüsü çox vacibdir. Şərq Tərəfdaşlığı təhlükəsizlik seçimi ilə bağlıdır, amma iqtisadi əhəmiyyətə malikdir".

İxracatın və idxal nömrələrinin Avropa İttifaqının idxal və ixrac tərəflərindən ən əhəmiyyətli tərəfdaş olduğu vurğulanır. Sonuncu müzakirələrdə qeyd edildi ki, "ötən il idxalın sayı AB ölkələrindən gələn idxalın 1/3 hissəsini təşkil edir. İxracat strukturunda enerji mallarının yüksək nisbətdə olması səbəbindən ixrac daha da diqqətəlayiqdir. Baryerlərin və inzibati yüklərin azaldılması Avropa İttifaqı ilə iqtisadi əlaqələri artıra bilər. Daha əvvəl göstərilən razılaşma və gələcək hadisələr AB ölkələri ilə Azərbaycan arasında biznesin daha asan və daha səmərəli olmasına kömək edəcəkdir. Ancaq Avropa Birliyi ilə idxal və ixrac arasında bir qeyri balans var. Azərbaycan əsasən mineral məhsulları və süd məhsulları AB-yə ixrac edir, həm də nəqliyyat və maşınqayırma avadanlığını, eləcə də emal məhsulları idxal edir. Bəzən neft ixrac baxımından xam maddələr və məhsullar içərisinə daxil edilir, ancaq idxal dəyərli məhsullar içərisində hesablanır. Buna görə, ÜDM-nin hesablanması optimist deyil. 2011 - 2015 illəri arasında Aİ-dən gələn illik orta artım tempi 5% təşkil edib, lakin eyni dövrdə Aİ-yə ixracat illik 8,8% azalıb. Bu, əvvəlki dövrə nisbətən daha yaxşıdır".

Polşa və Azərbaycan arasında iqtisadi əlaqələrdə potensial hələ də bütün tərəfləri ilə ortaya qoyulmamışdır. Düzdür, kifayət qədər güclü bağlantılar, iqtisadi əlaqələrin inkişaf edən tempi aydın şəkildə müşahidə olunur. Polşa prezidenti Andrzej Dudanın çıxışlarında da bu məsələlər bir fakt olaraq qabardılmışdır. Polşa tərəfindən birgə təşkil olunmuş Polşa-Azərbaycan Biznes Forumunun əsasında da məhz iqtisadi bağlantıların daha da inkişaf etdirilməsi dayanırdı. Forum 2017-ci il iyunun 27-də təşkil olunmuş və Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Polşaya səfər etmişdi. Burada müzakirə mövzusu olan məsələlərdən biri Azərbaycan və Polşa Yeni ipək yolunun canlandırmaqda mühüm rol oynaya bilər problemi ilə bağlı idi.

Polşa prezidenti Andrzej Duda bu məsələyə xüsusi həssaslıq göstərmişdir. Doğurdan da Xəzər regionunda Polşa etibarlı tərəfdaş qazandı. Azərbaycan prezidenti İlham Əliyev "Polşanı hörmət və dəyərləndirən tərəfdaş" kimi xüsusilə yüksək qiymətləndirdi.

Polşanın Azərbaycanla iqtisadi münasibətlərdə yüksək səviyyənin olduğu həmişə vurğulanır. Böyük iqtisadi potensiala malik olan qlobal əhəmiyyətli layihələrin həyata keçirilməsi, iqtisadi münasibətlərin tənzimlənməsi üçün əlavə perspektivlər vəd edir. Ümumi anlaşma və müzakirələrdə nəzərə çarpan əsas məsələlərdən biri Polşa iqtisadi diplomatiyasının başlıca məqsədi ilə bağlı idi. Sahibkarlara yeni bazarlar axtarmaq mühüm əhəmiyyət kəsb edir. İki ölkə arasında infrastruktur, nəqliyyat, enerji, eləcə də yüksək texnologiyanı, o cümlədən informasiya texnologiyaları sahəsində birgə əməkdaşlıq bağlantıların məzmununu təşkil edir. İqtisadi İnkişaf nazirinin müavini Tadeusz Kościński vurlayırdı ki, Polşada hazırlanan innovasiya texnologiyalarının Azərbaycan iqtisadiyyatının inkişafında mühüm ola bilər. PAİH İdarə Heyətinin üzvü Wojciech Fedkonun sözlərinə görə, Agentlik 2018-1919-cu illərdə xarici ofisini Bakıda yerləşdirməyi planlaşdırır. (PAİH) (http://www. paih.gov.pl/20170627/business_potential_of_Azerbaijan#).

Azərbaycanın Türkiyə və Polşa ilə əsaslı iqtisadi münasibətləri gərəkli perspektivlər vəd edir. Türkiyə və Polşa Qərbə inteqrasiya üçün Azərbaycanı müdafiə edir. Bu baxımdan, BTC, BTE və SCG Azərbaycanı Qərb enerji təhlükəsizliyi strukturuna inteqrasiya etmək üçün vasitədir. TANAP + TAP, Avropaya qaz tədarükünün diversifikasiyasını 10 milyard dollara çatdıracağını proqnozlaşdırır. Problemlərin öncüllənməsi üçün Avropanın qaz tələbatını nəzərdən keçirmək çətin deyil. Əhəmiyyətli balans mühafizəsi Türkiyə və Azərbaycanın ümumi məqsədində dayanır. Prosesin gedişi Türkiyə-Azərbaycan əlaqələrinin enerji yönümlü olduğu və əvvəlki dövrlərdən daha güclü bir təmələ

əsaslandığını düşünməyə imkan verir. Mövcud əlaqənin gələcəyi böyük ölçüdə siyasi iradənin səviyyəsinin saxlanmasına əsaslanır. Cənub Qaz Dəhlizi və ikitərəfli ticarət dövriyyəsi üçün mühüm perspektivlər müəyyənləşdirir.

## ƏDƏBİYYAT

1. Pınar Akpınar and Bülent Aras, "The Relations between Turkey and the Caucasus", in Perceptions, Vol. 16, No. 3 (Autumn 2011)

2. Bülent Aras, "Azerbaijan Presidential Elections 2013", in Caspian Report, Vol. 2, No. 5 (Fall 2013)

3. Emin Emrah Danış, "Şah Deniz, Türkiye'ye ve Bölgeye Kazandırmaya Devam Ediyor = Shah Deniz Keeps Contributing to the Development of Turkey and the Region", in Hazar World, No. 16 (March 2014)

4. Ahmet Davutoğlu, "Turkey's Foreign Policy Vision: An Assessment of 2007", in Insight Turkey, Vol. 10, No. 1 (2008)

5. Hakan Fidan and Rahman Nurdun, "Turkey's Role in the Global Development Assistance Community: The Case of TIKA (Turkish International Cooperation and Development Agency)", in Journal of Southern Europe and the Balkans, Vol. 10, No. 1 (April 2008)

6. Emre İşeri, "Geopolitics of Oil and Pipelines in the (Eurasian) Heartland", in Bülent Gökay (ed.), The Politics of Oil. A Survey, London, Routledge, 2006,

# AZƏRBAYCAN VƏ POLŞA: QARŞILIQLI İQTİSADİ MÜNASİBƏTLƏRİNİN İNKİŞAF MEYİLLƏRİ

Azərbaycan və Polşa Respublikasının iqtisadi əməmkdaşlığının təhlilində ən mühüm məsələlərdən birisi iqtisadi əlaqələrin inkişaf istiqamətlərinin aydınlaşmasıdır.. Çünki dünya düzənində gedən proseslər, yeni iqtisadi islahatları, yeni texnologiyaların tətbiqini bir zərurət olaraq qarşıya qoyur. Həm Azərbaycanın, həm də Polşanın mövcud iqtisadi mənzərəsində ciddi perspektivləri müəyyənləşdirən sahələr vardır. Onların inkişaf etdirilməsi, ortaq layihələrin hazırlanıb həyata keçirilməsi, birgə investisiya siyasətinin aparılması və s. növbəti fəaliyyətdə xüsusi ilə diqqət mərkəzində saxlanmalıdır. Kənd təsərrüfatının, turizmin, təhsil mübadiləsinin, yüngül və ağır sənayenin ayrı-ayrı sahələrinin inkişafında birgə fəaliyyət proqramlarının hazırlanması və həyata keçirilməsi bu xüsusda mühüm önəm kəsb edir.

Azərbaycan və Polşa Respublikalarının iqtisadi əlaqələrinin sistemli elmi-nəzəri təhlilində mühüm istiqamətlərdən biri iqtisadi əlaqələrin perspektivlərinin və onun təkmilləşdirilməsi istiqamətinin müəyyənləşməsidir. Düzdür, Azərbaycan və Polşa Respublikalarının siyasi, iqtisadi, mədəni əlaqələrinin kifayət qədər zəngin tarixi vardır. Lakin onun sonuncu mərhələsi sovetlər imperiyasının dağılmasından sonrakı dövrlə bağlıdır. Elə də uzun zaman müddətini əhatə etməyən bu əlaqələr böyük rəngarəngliklə, ciddi əhatəliliklə görünür. Qloballaşan dünyanın inkişaf tendensiyaları qarşılıqlı əlaqələri nəinki qaçılmaz edir, həm də əsas xəttə çıxarır. İqtisadi fikrin görkəmli nümayəndələrinin qənaətinə görə beynəlxalq iqtisadi münasibətlərin 80 faizdən çoxu xarici ticarət əlaqələrinə bağlanır.

Azərbaycan və Polşa ilə iqtisadi əlaqələrin inkişaf perspektivləri təxminən iyirmi beş illik zaman müddətində müsbət bir dinamika ilə səciyyələnir ki, bu da əmtəə və xidmət ticarətindən tutmuş kapitalın və investisiyaların hərəkətinə, işçi qüvvələrin

miqrasiyasına, maliyyə və kredit münasibətlərinə, elmi-texniki əməkdaşlığa və s. qədər bir müxtəlifliyi əhatə edir. Polşa ilə xarici iqtisadi əlaqələrin inkişafında və təkmilləşdirilməsində bunlar mühüm istiqamətlər olmaqla daha fundamental addımların atılması gərəkliyini də əsas edir. Əlbəttə son dövrün iqtisadi münasibətlərində elmi-texniki əməkdaşlıq, dünyanın müasir mənzərəsində və artan tələbatında elmi kadrların birgə fəaliyyət və mübadiləsi ciddi, həm də pedrspektivli tərəf kimi önəm daşıyır.

Azərbaycan və Polşa respublikasının iqtisadi əlaqələrinin nikişaf meylləri. Xarici iqtisadi əlaqələrin araşdırılmasının D.Rikardodan, E.Hekşer, B.Olindən, P.Samuelsondan, M.Rpoznerdən, R.Vernondan gələn özünəməxsus qiymətləndirmə və təhlil konsepsiyası vardır. Elmi nəzəri fikirdə belə bir tezis var ki, inkişaf etməkdə olan əmək və torpaq ehtiyatları ilə daha geniş imkanlara malikdirlər. Azərbaycan və Polşa Respublikalarının iqtisadi mənzərəsinə diqqət yetirdikdə və bu prizmadan yanaşdıqda ciddi perspektivlər müşahidə olunur. Azərbaycan neft ölkəsi kimi çağdaş dünya iqtisadi məkanında tanınmışdır və məsələnin mahiyyəti, yəni ölkənin vəd edən perspektivləri bununla yekunlaşmır, burada kapitalın digər sahələrə yönləndirilməsi və digər sahələrin də inkişaf etdirilməsi mühüm amilə çevrilir. Məsələn, Azərbaycanın və Plolşanın iqlim şəraiti kənd təsərrüfatının inkişafı üçün əsaslı perspektivlərə imkan yaradır. Qeyri-neft sahəsində olan imkanlar alternativ sahə kimi xarici iqtisadi münasibətlər çevrəsində ciddi inkişafı vəd edir. Pambıqçılıq, tütünçülük, üzümçülük, baramaçılıq, qoyunçuluq, maldarlıq, meyvə və tərəvəz sahəsində müəyyənləşmiş dövlət proqramları yaxın zamanlarda iqtisadi əlaqələrin çevrəsinin və tutumunun daha da inkişaf edəcəyini aydınlaşdırır.

Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və ixrac yönümlü məhsulların həcminin artırılması Azərbaycanın aqrar sahədə əsaslı layihələrin həyata keçirilməsinə şərait yaradır.

Çünki neftdən sonra ən perspektivli sahə olan kənd təsərrüfatı Polşa ilə qarşılıqlı əlaqələrin inkişaf meyillərində mühüm tərəfdir. İstehlakçıların seçim zövqü, ölkənin beynəlxalq əmək bölgüsündə aktiv iştirakı, dünya təsərrüfat sisteminə inteqrasiya Azərbaycanın iqtisadi siyasətində xüsusi bir məqsəd kimi nəzərə alınır.

Polşa ilə iqtisadi münasibətlərin inkişaf meyillərində ən vacib məsələlərdən biri elmi-texniki tərəqqinin inkişaf mənzərəsi ilə bağlıdır. Burada məsələ təkcə Polşa və Azərbaycan iqtisadi münasibətləri səviyyəsində deyil, ümumilikdə qloballaşan dünyanın iqtisadi mənzərəsində bu vacib şərtdir. Elmi-texniki nailiyyətlərin surət tempi müasir dünyanı çox kiçiltmişdir və eyni zamanda faydalanmanın birgə fəaliyyət zərurətini yaratmışdır. Elmi-texniki tərəqqinin son nailiyyətləri, yeni maşın və texniki avadanlıqların istehsala tətbiqi, ümumiyyətlə idxal prosesinin uğurlu aparılması, xarici bazarda mövqeyin zəifləməməsi üçün bütün imkanlardan keyfiyyət baxımından yararlanma, ixrac üstünlüklərinin qorunuşu və s. əsas olaraq həmişə diqqətdə saxlanır.

Xarici əlaqələrin düzgün həyata keçirilməsi investisiyaları, kapital qoyuluşunu da zəruri edir. Bunlar əməyin kapitalla silahlanması olmaqla Polşa ilə əlaqələrin daha intensivliyini və qarşılıqlı faydalanmanı, əməyin səmərəliliyini, məhsuldarlığı artırır. İstehsal təmərgüzləşmələri üçün yaranan şərait xarici əlaqələrin ümumi məzmununda dayanır. Məlum olduğu kimi, "istehsalın təmərgüzləşməsi əməyin məhsuldarlığını artırmaqla yanaşı, məhsulun qiymətini aşağı salır, əlaqədar sahələrdə əməyə qənaət etməyə imkan yaradır. İxrac olunan məhsul nomenklaturasının ölkə daxilində istifadə olunması isə keyfiyyət səviyyəsinin yüksəlməsi, texniki tərəqqinin sürətlənməsi və iqtisadi nisbətin rasionallaşmasına kömək edir və s". (6, 12). Polşa ilə iqtisadi münasibətlərinin dinamikasında nəzərə çarpan müxtəliflik ölkənin potensial imkanlarına hesablansa da ümumi

mənada bunlar hələ keçən illər ərzində bütün olanları özündə ehtiva etmir. Bunu Azərbaycan prezidentinin Polşaya sonuncu səfərindəki söhbətlərdə, müzakirələrdə də görmək olur.

Azərbaycanın iqtisadi imkanları kontekstində iqtisadi əlaqələrin daha da gücləndirilməsi aqrar sənayenin, eləcə də qeyri-neft sahələrinin nikişaf etdirilməsi buna ciddi əsas verir. Metal konstruksiyalar, qara metallardan boru fitinqləri, yeyinti sənayesi üçün avadanlıqlar, paltaryuyan maşınlar, hesablama maşınları və qurğuları, süd və qaymaq, kərə yağı, digər süd yağları və pastaları, pendiur və kəsmik, kartof , buğda unu, ət kolbasası, şəkərli qənnadı məmulatları, şokalad və şokalad məhsulları, makaron məmulatları çörək, unlu qənnadı məmulatları, sabun, dərman vasitələri, sintetik yuyucu maddələr, oturacaq mebelləri, ağacdan ofis, mətbəx, yataq və digər mebellər, kağız və kartondan sanitar-gigiyenik məmulatlar və s. idxal sahəsində olan göstəricilərdir. Azərbaycanda olan ayrı-ayrı illər üzrə idxal və ixrac məsələlərinə və Polşanın bu tərəfdaşlıq çəkisinə diqqət yetirdikdə əhəmiyyətli bir mənzərə yaranır. Məsələn, 2011-ci ildə idxal 119516,7, ixrac 3110,5 (dollarla), saldo – 116406,2 olmuşdur ki, 2011-ci ilin 2010-cu ilə nisbəti faizlə idxal 464,7%, ixrac 53,9%-dir. Azərbaycanın idxalında əsas tərəfdaş çəkisi 1,2 %, yeri 17-dir.

2012-ci ildə idxal 45255,8, ixrac 3483,0 ABŞ dolları, saldo -41772,8 olmuşdur. 2012-ci ilin 2011-ci ilə nisbəti faizlə idxal 37,9%, ixrac 112,0%-dir. Azərbaycanın idxalında əsas tərəfdaş çəkisi 0,5, yeri 29-dur.

2013-cü il üzrə idxal 46475,8, ixrac 3483,0 ABŞ dolları, saldo -36254,1 olmuşdur. 2013-cü ilin 2012-ci ilə nisbəti faizlə idxal 102,7,% ixrac 293,5%-dir. Azərbaycanın idxalında əsas tərəfdaş çəkisi 0,4, yeri 29-dur.

2014-cü il üzrə idxal 62348,9, ixrac 16329,8 ABŞ dolları, saldo -46019,1 olmuşdur. 2014-cü ilin 2013-cü ilə nisbəti faizlə idxal 134,2 %, ixrac 159,8%-dir. Azərbaycanın idxalında əsas

tərəfdaş çəkisi 0,7%, yeri 24-dür.

Azərbaycan və Polşa Respublikalarının iqtisadə əlaqələrində özünü göstərən meyillər iqtisadi münasibətlərin çevrəsini genişləndirə bilmək imkanlarını aydınlaşdırır. Məlum olduğu kimi, "Azərbaycan istehlak etdiyindən əlavə bir sıra mallar dünya bazarlarına çıxarır. Lakin texnoloji imkanların məhdudluğu səbəbindən Azərbaycan yenə də xammal ixrac edən ölkə kimi çıxış edir. Azərbaycan istehsal etdiyi pambığı, şərab yarımfabrikatlarını, fermentləşdirilmiş tütünü, kimya xammalını, neft məhsulları xammalını, elektron, elektronika, cihazlaşdırma sənaye sahələri üzrə yüzlərlə adda kompleksləşdirici məmulatı son məhsul həddinə çatmadan respublikadan kənara göndərməli olur" (5, 627). Azərbaycan və Polşa Respublikalarının iqtisadi münasibətlərinin ümumi mənzərəsində olan indiki göstəricilər ticarət əlaqələrinin daha perspektivli imkanları üçün əsaslı imkanlar yaradır. Ona görə də Azərbaycan xammal ixrac edən ölkə olmadan ikinci sferaya, yüksək texnalogiyalar əsasında məhsul edən ölkəyə çevrilməyi məqsədə çevirir.

Polşa Respublikası ilə Azərbaycan Respublikası arasında olan görüşlərdə forumların təşkili mühüm önəm kəsb edir. Polşalı nazirin vurğuladığı "belə tədbirlərin davam etdirilməsi iqtisadi əməkdaşlığın inkişafına, eləcə də iş adamları arasında yeni əlaqələrin qurulmasına töhfə verəcək". Doğrudan da əməkdaşlığın əsas istiqamətləri 550 Polşa şirkətinin Azərbaycanla əməkdaşlıq etməsi timsalında dolğun bir təsəvvür yaradır və iqtisadi əlaqələrin möhkəmliyini aydınlaşdırır. Polşanın İnformasiya və Xarici İnvestisiyalar Dövlət İnkişaf Bankının, Xarici Ticarətin Dəstəklənməsi Departamentinin, "M.Promotion" Agentliyinin və digər qurumların bu sahədə olan addımları xüsusi əhəmiyyət kəsb edir.

Əkinçilik məhsulları baxımından Polşa daha çox kartof, tütün, kətan, çovdar, arpa, buğda və yulaf  və s. üstünlükləri vardır. Kənd təsərrüfatı məhsullarının ixracı sahəsində olan

mənzərə də bunu aydınlaşdırır və daha da çoxalan istiqamətini müəyyənləşdirir. Heyvandarlıq, balıqçılıq baxımından da əsaslı imkanlar vardır. Təkcə onu demək kifayətdir ki, Polşada işləyən əhalinin 30%-ə yaxın bir hissəsi əkinçilik və heyvandarlıqla məşğul olar. Bu özlüyündə ölkənin iqtisadi potensialının kənd təsərrüfatı sahəsində inkişaf tendensiyasını müəyyənləşdirir. Azərbaycan və Polşanın qarşılıqlı iqtisadi münasibətlərinin inkişaf meyilləri kənd təsərrüfatı sahəsində yaxın gələcək üçün ciddi perspektivlər vəd edir.

Azərbaycan və Polşanın iqtisadi münasibətlərinin dinamikası iqtisadi imkanların perspektivləri müstəvisində həmişə çoxalan istiqamətdə getmişdir. Keçən əsrin 90-cı illərindən başlayan bu dinamika hökumətlərarası komissiyaların fəaliyyətində, biznes forumlarında, dövlət səviyyəsində olan görüş və müzakirələrdə daha əlavə imkanların ortaya çıxması ilə nəticələnmişdir. Məsələn, 2015-ci iyun ayının 2-5-də Bakıda keçirilən 22-ci Beynəlxalq Xəzər neft, qaz, neftayırma və neft kimyası konfransında (sərgi də olmuşdur) Polşanın bir neçə şirkəti olmuş və Azərbaycan-Polşa hökumətlərarası komissiyasının həmsədri ilə (Polşa tərəfin) ciddi müzakirələr aparılmışdır. Təkcə onu demək kifayətdir ki, Azərbaycan ilə Polşa arasında olan əmtəə dövriyyəsi 2013-cü illə müqayisədə 2014-cü ildə əmtəə dövriyyəsinin həcmi 10 milyon artmış və beləliklə 140 milyona çatmışdır. Və yaxud da 2015-ci ilin birinci rübündə idxal 3,7 milyon dollar, ixrac isə 27,6 milyon dollar olmuşdur. Bütün müzakirələrdə qeyri-neft sahəsində əməkdaşlıq, kənd təsərrüfatında Polşanın Azərbaycana olan marağı vurğulanmışdır. Beynəlxalq qida sərgisində də Polşa şirkətklərinin Azərbaycana marağı xüsusi önəm kəsb etmişdir (23).

Kənd təsərrüfatının inkişafı sahəsində də Polşa xüsusi imkanlılıqla seçilir. Regionun iqlim şəraiti, torpaqların münbitliliyi, kənd təsərrüfatına qoyulan investisiyaların xüsusi çəkisi dövlətin bu sahəyə diqqətinin göstəricisidir. Kartof, tütün, kətan,

çovdar, arpa, buğda, yulaf əkinçilik sahəsində aparıcı yerləri tutur. Heyvandarlıq, balıqçılıq sahəsində də ölkə böyük gəlir əldə etməsi ilə seçilir. Qoyunçuluq, maldarlıq sahəsində olan irəliləyişlər, bütünlükdə kənd təsərrüfatının inkişaf tempi bu istiqamətdə xarici əlaqələrin bağlantılarını əsas edir. Təkcə onu demək kifayətdir ki, ölkə əhalisinin 30%-ə yaxın hissəsi kənd təsərrüfatı sahəsində çalışır. Bütün bunlar Polşanın Mərkəzi Avropanın inkişaf etmiş dövləti olaraq iqtisadi münasibətlər müstəvisində xüsusi rolu olduğunu aydınlaşdırır.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması üçün ən mühüm olan ifrat iqtisadi asılılığın aradan qaldırılmasıdır. Həm Azərbaycanın, həm də Polşanın bərpa olunan və bərpa olunmayan iqtisadi resursları bütün vəziyyətlərdə iqtisadi asılılığın aradan qaldırılmasına əsas verir. Xarici iqitsadi siyasətin həyata keçirilməsində iqtisadi təhlükəsizlik bir tərəf kimi əsas olandır. Burada digər məsələlərdən və həm də əsas olan tərəflərdən biri ixrac potensialının inkişaf etdirilməsidir. Polşanın Azərbaycanla ixrac və idxal mənzərəsinə diqqət yetirdikdə bu mənzərə bütün təfərrüatı ilə aydın görünür.

Azərbaycanın zəngin karbohidrat yataqları Avropanın və region ölkələrinin iqtisadi ehtiyaclarının, dünyanın artan yanacaq problemlərinin həlli üçün mühüm funksiyaya malikdir. Ölkənin yeritdiyi xarici iqtisadi siyasət qarşılıqlı iqtisadi, mədəni əlaqələrin güclənməsinə və onun perspektivinə hesablanmışdır. 2017-ci il sentyabrın 14-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü ilə bağlı saziş Azərbaycana olan iqtisadi marağın və birgə fəaliyyətin nümunəsidir. SOCAR-ın AÇG-də payı 11,6 %-dən 25 %-ə qaldırılması Azərbaycanın iqtisadi əlaqələrinin perspektivlərini, region ölkəsi olaraq dünya marağında mərkəzi yerlərdən birini tutmasını düşünməyə əsas verir.

İdxal və ixrac sahəsində həyata keçirilən proseslər Polşa ilə

bağlantıların güclənən tendensiyasına dayanır. Çünki həm Polşa, həm də Azərbaycan öz iqlim şəraitinin yaxınlığı, iqtisadi imkan göstəricilərinin müəyyən sistemləri ilə eyni müstəvidə dayanır. Dayanıqlı inkişafın təmin edilməsi sahəsində əsaslı iqtisadi siyasətin müəyyənləşməsi hər iki ölkənin infrastrukturunda xeyli uğurların əldə olunmasına gətirib çıxarmışdır. Son hesablamalara diqqət yetirdikdə aydınlaşır ki, 2017-ci ilin yanvar-avqust aylarında Azərbaycanın ticarət əməliyyatlarının həcmi 1 milyard 523 milyon 794,46 min ABŞ dolları təşkil etmişdir. Neft məhsulları, xam neft, təbii qaz, elektrik enerjisi, meyvə-tərəvəz, çay, bitki və heyvan mənşəli piylər və yağlar, şəkər, spirtli və spirtsiz içkilər, kimya sənayesi məhsulları, plastmas və ondan hazırlanan məhsullar, pambıq lifi, pambıq iplik, qara metallar və onlardan hazırlanmış məhsullar, aliminum və ondan hazırlanmış məhsullar və s. (ixracda əsas mallar) Azərbaycanın iqtisadi münasibətlər sistemində bütöv bir mənzərənin mövcudluğunu aydınlaşdırır. Azərbaycanın neft ölkəsi olaraq xarici ticarətinin əsasında neft və neft məhsulları tutsa da, lakin digər sektorlar üzrə də genişləndirməni zəruri edir.

Azərbaycanın 2017-ci ilin yanvar-avqust ayları ərzində ticarət əməliyyatlarında idxal olunan malların əsas hissəsini yeyinti məhsulları, ət, süd, kərə yağı və süddən hazırlanmış digər yağlar, meyvə-tərəvəz, çay, buğda, bitki və heyvan mənşəli piylər və yağlar, şəkər, tütün və tütün məhsulları, sement, əczaçılıq məhsulları, plastmas və ondan hazırlanmış məmulatlar, qara metallar və ondan hazırlanmış məmulatlar, oduncaq və ondan hazırlanmış məmulatlar, maşın mexanizmləri, elektrik aparatları, avadanlıqları və onların hissələri, nəqliyyat vasitələri və onların hissələri, mebel və onun hissələri və s. təşkil etmişdir. 2016-cı ilin müvafiq dövrü ilə müqayisə apardıqda müəyyən geriləmələr özünü göstərir. Məsələn, 2016-cı ilin ilk səkkiz ayı ərzində idxal statistik dəyərdə 5534150.09 ABŞ dolları ilə təşkil etmişsə, 2017-ci ilin müvafiq dövründə 530078439 ABŞ dolları olmuşdur. Milli

iqtisadiyyatın qlobal dünyaya qoşulması Polşa və Azərbaycan müstəvisində iki məkan Avropa və Asiya baxımından bütöv bir sistemin işlənməsi və açılması kimi qiymətləndirilir. Ümumiyyətlə, dünya iqtisadiyyatının mahiyyəti, qlobal transformasiyalar milli iqtisadiyyatları ayrı-ayrılıqda nəzərdən keçirməyi zəruri edir. Çünki ümumilikdə milli iqtisadiyyatlar bir bütöv olaraq dünya iqtisadiyyatını və onun işləklik mexanizmini aydınlaşdırır. Azərbaycanın iqtisadi münasibətlər sferasında nəzərə çarpan idxal, ixrac geriləmələri baş verən böhranla və onun doğurduğu səbəblərlə əlaqələnsə də, artıq vəziyyətin aradan qaldırılması üçün görülən tədbirlər dövlət siyasəti səviyyəsində inkişafın təmin edilməsinə hesablanmışdır. Polşa Respublikası ilə aparılan danışıqlar, xidmət sahəsində olan nailiyyətlər (onu da əlavə edək ki, Polşanın iqtisadi göstəricilərində xidmət sahələri xüsusi çəkiyə malikdir), eləcə də maşın və maşın avadanlıqları, kənd təsərrüfatı məhsulları, dərman məhsulları, yüngül sənaye, yeyinti sənayesi və s. sahəsində olan inkişaf iqtisadi sahədə əldə olunan nailiyyətlər kimi mühüm önəm daşıyır.

Nəticə. Azərbaycanın və Polşanın iqlim şəraiti bu sahənin inkişaf etdirilməsi və dünya bazarına çeşidli məhsullarla çıxışı üçün xüsusi təsəvvür formalaşdırır. Son dövrlərdə baramaçılıq, pambıqçılıq, tütünçülük, üçzümçülük, heyvandarlıq və s. sahələrdə həyata keçirilən dövlət siyasəti bütünlükdə ölkənin bərpa olunmayan maddi ehtiyatlara bağlanmadığını və digər tərəflərə də diqqət yetirdiyini aydınlaşdırır. Çünki Azərbaycan coğrafi şəraiti, flora və faunasının zənginliyi baxımından daha əsaslı perspektivlərə yol açır. Polşanın və Azərbaycanın iqtisadi göstəricilərində alternativ sahələrə önəm verilməsi və ondan yararlanmaq cəhdləri yeni inkişaf tendensiyasını, bağlantıların, ticari münasibətlərin qurulmasını gərəkli edir. Ölkənin dövlət siyasətində kənd təsərrüfatı, ümumilikdə qeyri-neft sektoru ən ümudverici, perspektivli tərəf olaraq mütəxəssislər, iqtisadçılar tərəfindən vurğulanır. Bütün bunlar bir bütöv olaraq Polşa ilə

Azərbaycanın qarşılıqlı iqtisadi münasibətlərinin inkişaf meyillərinin perspektivini, gələcəyə hesablanan müsbət inkişafın nəticələrini, onların çoxşaxəliliyini aydınlaşdırır.

## ƏDƏBİYYAT

***Azərbaycan dilində***

1. Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.

2. Abdullayev S.Azərbaycan Respublikasının xarici ticarət sahəsində qanunvericiliyinin təhlili. Bakı: Adiloğlu, 84 s.

3. Butler Eamon. Adam Smit – iqtisadiyyatın əlifbası. Bakı, Azad düşüncələr, 2008, 134 s.

4. Əhmədzadə H. İnvestisiya qoyuluşlarının iqtisadi inkişafa təsirinin modelləşdirilməsi. AMEA-nın İqtisad İnstitutu, Elmi əsərlər, 2010, № 2, s. 66-71

5. İqtisadi nəzəriyyə. Bakı: Çaşıoğlu, Azərnəşr, 2001, 692 s.

6. Köçərli A. Müasir şəraitdə xarici ticarətin inkişafının nəzəri problemləri. Avtoreferat (iqtisad üzrə fəlsəfə doktoru). .Bakı, İqtisad Universiteti. 2011, 26 s.

***İngilis dilində ədəbiyyat***

7. Dominika Kasprowicz, Grzegorz Forys, Dorota Murzyn, Politics, society and the economy in contemporary Poland. Warsaw, Poland: Scholar Publishing House, 2016, 220 p.

8. Jeffrey Sachs, Poland's Jump to the Market Economy. London, UK: The MIT Press (August 22, 1994), 144 p.

9. Wladyslaw Majkowski, People's Poland Patterns of -Social Inequality and Conflict. England: Greenwood Press Westport, 1985, 234 p.

10. William Dan Perdue, Modernization Crisis: The Transformation of Poland Westport, England: Praeger, September 26, 1995, 264 p.

11. Raymond Taras, Consolidating Democracy in Poland. Boulder, CO: Westview Press, 1995, 288 p.
12. Clifford R. Barnett, Poland: It's People, Its Society, Its Culture. New Haven, CT: HRAF Press, 1958, 484 p.
13. Stanislaw Starski, Class Struggle in Classless Poland. Boston: South End Press, 1982, 276 p.
14. Gregorz Węcławowicz, Contemporary Poland: Space and Society. Boulder, CO: Westview Press, 1996, 208 p.
15. Padraic Kenney, Rebuilding Poland: Workers and Communists, 1945-1950. Ithaca, NY: Cornell University Press, 1997, 388 p.
16. Wladyslaw Majkowski, People's Poland: Patterns of Social Inequality and Conflict. Westport, CT: Greenwood Press, 1985, 260 p.

***Polyak dilində ədəbiyyat***

17. Lissowska, Maria, Instytucje gospodarki rynkowej w Polsce = Institutions for market economy: the case of Poland. Poland: Wydawnictwo C.H. Beck, 2008, 271 p.
18. Milczarek-Andrzejewska, Dominika, Zagadnienie siły w ekonomii – na przykładzie sektora rolno – spożywczego w Polsce. Poland: Instytut Rowoju Wsi i Rolnictwa Polskiej Akademii Nauk, 2014, 167 p.
19. Kisiel - Łowczyc, Anna B., Polska w gospodarce światowej = Poland in the world economy, 27-28 April 1995, Sopot. Poland: Instytut Handlu Zagranicznego Uniwersytetu Gdańskiego, 1995, 265 p.
20. Chodubski, Andrzej, Azerbejdżan-Polska: odsłony kontaktów kulturowych. Poland: Wydawnictwo Adam Marszałek, 2015, 327 p.

***İnternet resursları***
21. state.gov.az
22. state.gov.pl
23. report.az. 2015

## AZƏRBAYCAN - POLŞA İQTİSADİ ƏLAQƏLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ HƏLLİ İSTİQAMƏTLƏRİ

Tarixi XV əsrə gedib çıxan Azərbaycan və Polşa əlaqələri (Ağqoyunlu hökmdarı Uzun Həsənlə Polşa kralı Yagello arasındakı əlaqələr) bütün mərhələlərdə müsbət bir tendensiyaya köklənmişdir. Sovetlər birliyinin dağılmasından sonra isə bu əlaqələr yeni mərhələyə daxil olmuş, Azərbaycan və Polşa siyasi, iqtisadi, mədəni sahələrdə ciddi təsəvvürlər formalaşdırmışlar. Keçən əsrin 90-cı illərindən bu yana olan müddətdə hər iki ölkə öz müstəqil siyasətini, iqtisadi, mədəni bağlantılarını müəyyənləşdirmişlər. Qonşuluq, dostluq, qarşılıqlı əməkdaşlıq üzərində həyata keçirilən bu siyasət artıq beynəlxalq təşkilatlarda uğurlu təsəvvürlər formalaşdırmışdır.

İqtisadi əməkdaşlığın təkmilləşdirilməsi və həlli perspektivləri. Azərbaycan və Polşa Respublikalarının perspektiv inkişaf probleminin araşdırılmasında mühüm istiqamətlərdən biri iki ölkənin iqtisadi əlaqələrinin təkmilləşdirilməsi və onun həlli istiqamətləridir. Azərbaycan və Polşa mövcud olduğu regionun xüsusi çəkiyə malik ölkəsi olmaqla ciddi perspektivlər vəd edir. Onun bərpa olunan və bərpa olunmayan maddi ehtiyatları, həyata keçirdiyi iqtisadi islahatlar dayanıqlılığın təmini üçün ən əsas göstəricidir. 2007-ci il maliyyə böhranından sonra fasiləsiz iqtisadi artımla maraq doğuran Polşa Respublikası iqtisadi potensialına görə Mərkəzi Avropanın dördüncü ölkəsi kimi qiymətləndirilir. Azərbaycanla olan bağlantıları, siyasi, iqtisadi, mədəni

əlaqələri dövlət və hökumət səviyyəsində olan görüşlərdə, prezidentlərin imzaladığı tərəfdaşlıq sənədlərində, biznes forumlarda əsas məsələ kimi diqqət mərkəzində olmuşdur. Son biznes forumunda 500 Polşa şirkətinin təmsil olunması (26-28 iyun 2017-ci il) Azərbaycana olan marağın və uğurlu tərəfdaş kimi diqqəti cəlb etmənin göstəricisidir. "Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında Tərəfdaşlıq və İqtisadi Əməkdaşlığa dair Yol Xəritəsi haqqında Birgə Bəyannamə" və digər 5 sənəd böyük perspektivlərə yol açır. Ən əsas olanlardan biri iqtisadi sahədə əməkdaşlıqla bağlı idi ki, burada nəqliyyat, energetika, maşınqayırma, kənd təsərrüfatı və s. önəmli yer tuturdu.

Azərbaycanla Polşa Respublikalarının iqtisadi əlaqələrinin təmkilləşdirilməsi sosializm sisteminin dağılmasından sonra yeni sferaya daxil olmuş və təxminən iyirmi altı illik zaman müddətində daim yüksələn xətlə özünü göstərmişdir. Azərbaycanın müstəqilliyinin tanınmasından (27 dekabr 1991- ci il), diplomatik münasibətlərin yaranmasından (21 fevral 1992-ci il), Azərbaycanda Polşa səfirliyinin açılmasından (23 avqust 2001-ci il), Polşada Azərbaycan səfirliyinin açılmasından (30 avqust 2004-cü il) başlayan əlaqələr bütünlükdə iqtisadi, siyasi və mədəni istiqamətləri özündə ehtiva edir. Dövlət başçıları səviyyəsində olan görüşlərdə də (25-28 avqust 1997-ci il Azərbaycan prezidentinin səfəri, 27-29 oktyabr 1999-cu il Polşa prezidentinin Azərbaycana səfəri, 27-28 aprel 2004-cü il Azərbaycan prezidentinin Avropa iqtisadi sammitində iştirak etmək üçün Polşaya səfəri, 30-31 mart 2005-ci il Azərbaycan prezidentinin rəsmi səfəri, 15-17 may 2005-ci il Azərbaycan prezidentinin Varşavada Avropa Şurasının üçüncü Sammitində iştirak etmək üçün Polşaya səfəri, 30-31 mart 2007-ci il Polşa prezidentinin rəsmi səfəri, 11-12 may 2007-ci il Azərbaycan prezidentinin Krakov Enerji sammitində iştirak etmək məqsədilə Polşaya səfəri, 18-19 iyun 2007-ci il Polşa prezidentinin GUAM sammitində iştirak

məqsədilə Azərbaycana səfəri, 26-27 fevral 2008-ci il Azərbaycan prezidentinin Polşaya rəsmi səfəri, 12 avqust 2008-ci il Polşa prezidentinin Gürcüstana rəsmi səfəri zamanı Gəncəyə gəlməsi, 14 noyabr 2008-ci il Polşa prezidentinin 4-cü Bakı Enerji sammitində iştirak məqsədilə Azərbaycana səfəri, 2-3 iyul 2009-cu il Polşa prezidentinin Azərbaycana rəsmi səfəri, 24-26 iyul 2011-ci il Polşa prezidentinin Azərbaycana rəsmi səfəri və s.) iqtisadi əlaqələrin təkmilləşməsi sahəsində ciddi addımlar atılmışdır. Parlamentlər arası danışıqlar, eləcə də baş nazirlər, nazirlər arası olan danışıqlar bütövlükdə münasibətlərin inkişaf və təkmilləşmə tempinin ümumi məzmununu əhatə edir. 2010-cu ildə Milli Məclisdə Azərbaycan-Polşa parlamentlərarası əlaqələr üzrə işçi qrupu, 2012-ci ildə Polşa parlamentində Polşa-Azərbaycan parlamentlərarası işçi qrupunun yaranması, 2006-cı ildə Hökumətlərarası birgə komissiyanın yaradılması Polşa ilə çoxyönlü və rəngarəng bağlantıların perspektivlərini müəyyənləşdirir ki, bunların da əsas hədəflərindən birini iqtisadi sahədə atılan addımlar təşkil edirdi. Çünki Azərbaycanın güclü iqtisadi potensiyası təkcə Polşa müstəvisində deyil, bütünlükdə Avropa ölkələri kontekstində ciddi əməkdaşlığı zəruri edir.

Polşa Mərkəzi Avropanın inkişaf etmiş ölkəsi olaraq Azərbaycanla iqtisadi, siyasi, mədəni əməkdaşlığa xüsusi önəm vermiş və tarixi bağlantıların yeni mərhələsi kimi daha perspektivli addımlar atmaq yolunu tutmuşdur. Məsələn, Avrasiya Neft Nəqli Dəhlizi Layihəsinin (EAKTR) mühüm tərkib hissəsi olan Odessa – Brodi boru kəməri "Sarmatia konsorsiumu" formatında görülən böyük layihəni xatırlatmaq kifayətdir. Region üçün mühüm önəm daşıyan bu layihə Polşa, Ukrayna, Litva, Azərbaycan və Gürcüstanın energetika şirkətlərininnn birgə fəaliyyəti ilə reallaşır. 2010-cu il noyabrın 24-də Bakıda keçirilmiş Polşa – Azərbaycan iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının IV iclası zamanı aparılan müzakirələrdə effek-

tivliyin artırılması, Sarmatiyanın yeni şəraitə uyğunlaşması mühüm məsələ kimi vurğulanmışdır. Ümumiyyətlə, Şərq Tərəfdaşlığı təşəbbüsünün "Enerji təhlükəsizliyi" məsələsi ən önəmli mövzu olaraq vaxtaşırı müzakirələrin əsas mövzusu olur. Azərbaycan neftinin Ukraynaya çatdırılmasına dair razılaşmalar iqtisadi əlaqələrin təkmilləşdirilməsi və onun həlli istiqamətləri baxımından mühüm önəm daşıyan məsələlərdəndir. Müzakirələrdə xammalın Belarusiyaya nəqli lazımı qədər əsaslandırılmışdır. Belə bir plan-proqramın həyata keçirilməsi iqtisadi münasibətlərin, ticarət istifadəsinin nümunəsi olaraq perspektivlərə yol açır. EAKTR layihəsi təkcə Polşa və Azərbaycan müstəvisində əhəmiyyət daşımır, bütünlükdə Şərq və Qərb, Asiya ilə Avropa kontekstində əlaqələrin genişlənmə gərəkliyini düşünməyə əsas verir.

2015-ci il iyunun 2-5-də Bakıda keçirilən 22-ci Beynəlxalq "Xəzər neft, qaz, neftayırma və neft kimyası" sərgisi və konfransında iştirak etmək məqsədi ilə Polşa hökümət nümayəndələrinin Azərbaycana gəlişi və apardığı müzakirələr qarşılıqlı maraqların, iqtisadi, siyasi, mədəni bağlantıların zəruriliyini və gələcəyə hesablanmasını aktlaşdırır. Sərgi və konfransda Polşanı bir neçə şirkət təmsil etmiş, danışıqlarda ayrı-ayrı sahələr üzrə iqtisadi münasibətlərin qurulması kontekstində razılaşmalar olmuşdur. Məlum olduğu kimi, Şərq-Qərb, Şimal-Cənub nəzqliyyat dəhlizləri Azərbaycan ərazisindən keşir və bu "bir kəmər, bir yol" tezisində məsələnin həm Polşa, həm də Avropa üçün nə qədər əsaslı funksiya daşımasını düşünməyə şərait yaradır. Azərbaycanla Polşa arasında geniş, həm də çoxyönlü əməkdaşlıq formatı yaranmışdır ki, bu da beynəlxalq qanunlar və qarşılıqlı anlaşmalar, dostluq münasibətləri çərçivəsində nizamlanır. Ona görə də iqtisadi əlaqələrin təkmilləşdirilməsi problemini aşağıdakı istiqamətdə sistemləşdirmək olar:

a) enerji təhlükəsizliyinin həlli və təkmilləşdirilməsi müstə-

visində;

b) Şərq-Qərb, Cənub-Şimal nəqliyyət dəhlizlərinin perspektivləri baxımından;

c) sənayenin müxtəlif sahələrində ixrac-idxal münasibətlərinin genişləndirilməsi kontekstində;

ç) kənd təsərrüfatının inkişaf etdirilməsi və birgə layihələrin həyata keçirilməsi;

d) ticarət münasibətlərinin təkmilləşdirilməsi və daha da inkişaf etdirilməsi cəhətdən;

e) hökumətlərarası müzakirələrin və vaxtaşırı biznes forumlarının təşkili;

ə) şirkətlərarası birgə fəaliyyətin gücləndirilməsi;

d) mədəni əlaqələrin daha da artırılması və s.

Azərbaycan və Polşa müasir infrastrukturun perspektivlərinə hesablanmış struktur yaratmaqla xidmət sahələrində, yeni texnoloji sferanın tətbiqinə maraq göstərməklə region dövlətləri üçün də üstünlükləri ilə seçilir. Azərbaycanın və Polşanın dəmir yolları, dəniz limanları, aeroportları, avtomobil yolları, bütünlükdə infrastruktur sistemi, nəqliyyat kommunikasiya səhəsində imkanları və atdığı addımlar transmilli dünya üçün böyük önəm daşıyır. Qədim ticarət yolunun, çox əski zamanlardan gələn ənənənin yeni sferada davamı və yeni müstəvidə inkişafı, həyata keçirdiyi iqtisadi siyasət Cənubi Qafqaz məkanında yaxşı tərəfdaş və bazar münasibətlərinin müvəffəqiyyətli tənzimlənməsi məqsədini müəyyənləşdirir.

Məlum olduğu kimi, dövlətin rolu baxımından işlərin qurulmasında "sənaye cəhətdən inkişaf etmiş və xüsusən də inkişaf etməkdə olan ölkələrdə dövlət beynəlxalq əmək bölgüsünə prioritet şəkildə daxil olmaq üçün nəzərdə tutulmuş sahələrin – onların daxilində isə şirkət və korporasiyaların (inkişaf etməkdə olan ölkələrdə - təşəkkül tapmış strukturlar) dəqiqliklə seçimini edir. Dövlətin bu prosesə təsiri müvafiq sahələrə,

şirkətlərə xarici avadanlıq alınması üçün kreditlərin verilməsi, ixracın genişləndirilməsi üçün kreditlər üzrə zəmanət və sığortaların təmin olunması, avadanlıqların amortizasiyasına güzəştli müddətin təyin edilməsi, gəlirə vergi qoyulması zamanı imtiyazların təqdim olunması kimi dövlət tənzimlənməsi üsul və metodlarının geniş arsenalından istifadə etmək yolu ilə həyata keçirilir" (6, 88). Azərbaycanla Polşanın iqtisadi münasibətlərinin təkmilləşdirilməsi və onun həlli istiqamətləri baxımından görülən işlərin mahiyyət və məzmununda bunlar bir tərəf olaraq sistemli şəkildə qorunmaqla bərabər, həm də inkişaf etdirilir. Prezidentlərin son görüşündə (26-28 iyun 2017-ci il) müzakirələrdə vurğulanan əməkdaşlıq formatı səviyyəsində strateji fəaliyyətin müəyyənləşməsi sonrakı fəaliyyət sistemi üçün də atılacaq addımların ümumi məzmununu göz önünə gətirir.

Azərbaycanın Polşa ilə iqtisadi əlaqələrinin təkmilləşdirilməsi və həlli yolları yenilələn dünyanın təsərrüfat sisteminin innovativ xarakterinə uyğunlaşdırılmalıdır. Burada xarici ticarət dövriyyəsinin artımından əlavə iqtisadi səmərəliliyin yüksəldilməsi bir məqsəd kimi əsas götürülür. Çünki bazar sistemində rəqabətliliyin qorunuşu və onun bütün məzmununa əməl olunması dinamikliyin təmini üçün əsas olur. Artıq Azərbaycanın neftdən asılılıq vəziyyətinə salınması dərk olunmuş və alternativ sahələrin inkişaf etdirilməsi sahəsində ciddi layihələr həyata keçirilməkdədir. Kənd təsərrüfatının bir istiqamət olaraq inkiçaf etdirilməsi sahəsində atılan addımlar daha uğurlu inkişaf vəd edir.

Milli iqtisadiyyatın formalaşması müstəvisində strateji hədəflərin müəyyənləşdirilməsi, xarici ticarətin səmərəliliyinin artırılması iqtisadi münasibətlərin təkmilləşdirilməsində xüsusi məqsədə çevrilir. Azərbaycanın və Polşanın Dünya Ticarət Təşkilatı, Avropa İqtisadi Sahəsi, Avropada Əməliyyat, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Beynəlxalq Atom Enerji Təşkilatı, Avopa Məkanı Agentlik, G6, Visegrad qrupu,

Weimar Üçbucağı və Şengen Anlaşması, Baltik dənizi Dövlətləri Şurası  və s. müstəvisində apardığı anlaşmalar ölkənin ixrac potensialının dünya bazarında müqayisəli üstünlüklərin əldə olunmasına hesablanmışdır. Burada daha çox hazır məhsul ixrac etmək üstünlüyünün əldə olunması və eyni zamanda yeni texnalogiyaların ölkəyə idxalı iqtisadi imkanların dəyərləndirilməsinə bağlanır. ***Kimya sənayesi***, tekstil, avtomobil, təyyarə, maşın, sement, ***metallurgiya, aqrar sənaye, meşə sənayesi (kombinat) və mebel istehsalı***, yüngül sənaye, ağır sənaye, gəmi istehsalı, ***maşınqayırma, tikinti materiallari və konstruksiya istehsalı***, alüminium və s. sahədə Polşa ilə iqtisadi əlaqələrin qurulması və müqayisəli üstünlüklərin dəyərləndirilməsi sırf perspektivləri ortaya qoyur.

Azərbaycanın və Polşanın iqtisadi əlaqələrinin təkmilləşdirilməsində hər iki ölkənin investisiya imkanlarının və biznes mühitinin araşdırılması və bunların daha uğurlu sistemlərinin yaradılması mühüm şərtlərdəndir. Çünki hər iki ölkənin iqtisadi-ticarət sahəsində əldə etdikləri uğurlar daha sistemli təhlilləri və şəraitin qiymətləndirilməsini gərəkli edir. Məlum olduğu kimi, Azərbaycanın ixrac etdiyi məhsullar sırasında neft və neft məhsulları aparıcılıq təşkil edir. Karbohidrat yataqlarının zənginliyi ilə seçilən respublika Xəzəryanı dövlət kimi öz iqtisadi potensiyası ilə xüsusi çəkiyə malikdir. Polşanın enerji təhlükəsizliyinin aradan qaldırılması sahəsində Azərbaycanın oynadığı rol xüsusi əhəmiyyət daşıyır.

Məlum olduğu kimi, xarici iqtisadi əlaqələrin ən vacib istiqamətlərindən, bəlkə də mühüm olanlarından biri elmi-texniki tərəqqi ilə bağlıdır. Qloballaşan dünyanın dərk olunması və onun artan ehtiyacların ödənilməsində imkanlılıq səviyyəsi məhz elmi-texniki tərəqqinin uğurları ilə müəyyənləşir. Bu gün Polşanın iqtisadi potensialında xidmət sahələrinin, eləcə də yeni texnalogiyaların iqtisadiyyata tətbiqinin müstəsna rolu vardır. Əlbəttə

yüksək texniki səviyyəli maşın və avadanlıqların ölkəyə idxalı məhsulların xarici bazarda mövqeyinin qorunuşuna, ona olan ehtiyacın zərurət kimi müəyyənləşməsinə səbəb olur. Burada əsas olan məsələlərdən biri yeni texnika və texnalogiyaların iqtisadiyyata tətbiqi məsələsidir. Çünki bunların vasitəsilə əmək məhsuldarlığının artırılması, xarici bazarda mövqenin gücləndirilməsi təmin olunur.

İqtisadi əlaqələrin perspektivlərini, eləcə də ölkə daxilində iqtisadi sferadakı proseslərin ümumi mənzərəsini nəzərdən keçirdikdə həm Azərbaycan, həm də Polşa respublikası ciddi iqtisadi proseslərin gedişi, dinamik mənzərənin yaranması üçün əsas verir. Çünki bərpa olnan və olunmayan ehtiyatların ümumi mənzərəsi düşünülmüş iqtisadi siyasətin aparılmasını aktlaşdırır və geoiqtisadi mühitdə hər iki ölkənin hansı potensialla təmsil olduğunu aydınlaşdırmağa imkanlar yaradır. Məlum olduğu kimi, iqtisadi artımın kəmiyyət və keyfiyyət xüsusiyyətlərini təhlil edərkən onun effektivliyi bir tərəf kimi diqqət mərkəzində saxlanır. "Yalnız istehsalın effektivliyinə əsaslanan iqtisadi artım cəmiyyətin artan tələbatını təmin edir. İqtisadi effektivliyin qiymətləndirilməsi onu daha yaxşı təmin edən nəticənin məsrəflər ilə müqayisə olunmasına əsaslanmışdır. İqtisadi effektivliyin göstəriciləri müxtəlif mənşəlidir. Effektivlik göstəriciləri arasında əmək məhsuldarlığı, məhsulun keyfiyyəti, material və əmək tutumu mühüm əhəmiyyət kəsb edir" (8, 13-14). Azərbaycan və Polşa iqtisadi əlaqələrinin təkmilləşdirilməsi və onun həlli istiqamətlərində effektivlik göstəricilərinə əməl olunması mühüm tərəfdir və bunun da müəyyən nəticələri əmək məhsuldarlığında, əmək tutumunda, məhsulların keyfiyyət dərəcəsinin daim qaldırılması məsələlərində həməşə əsas kimi diqqət mərkəzində saxlanır. Burada mühüm olanlardan biri də xarici ticarət əlaqələri ilə yanaşı, xarici investisiyaların qoyuluşu məsələsidir. Azərbaycan və Polşa Respublikaları iqtisadi münasibətlərin təkmilləş-

dirilməsində ayrı-ayrı alternativ sahələrə birgə investisiya qoyuluşu ilə də yeni bağlantılara, yeni inkişafa nail ola bilərlər. Əlbəttə Azərbaycanın zəngin neft ehtiyatları, karbohidrat yataqları dünyanın artan ehtiyaclarında böyük investorları özünə cəlb etmişdir. Təkcə onu demək kifayətdir ki, 1995-2012-ci illərdə 144.42 milyard dollar sərmayə Azərbaycan iqtisadiyyatına qoyulmuşdur və bunların böyük bir hissəsi xarici investorların üzərinə düşmüşdür. Belə bir addımın atılması təkcə neft sektorunda olan artımın ümumi mənzərəsi ilə yekunlşmır, burada qeyri-neft sektorunda da müəyyən işlərə, tikinti, xidmət, rabitə və s. sahələrə də özünün təsirini göstərir. Bunlar özlüyündə iqtisadi və hüquqi islahatlara yol açır və bütün istiqamətlərdə vaxtaşırı yeniləşmə və təkmilləşmələrlə səciyyələnir. Eyni zamanda iqtisadi münasibətlərin artan tempi ilə önə gəlir. Azərbaycan və Polşa iqtisadi münasibətlərinin təkmilləşdirilməsi sahəsində aparılan bütün işlər məhz məhsulun keyfiyyət göstəricilərinin, gəlirliliyin təmin olunması məsələsinə hesablanmışdır.

Polşa ilə Azərbaycan respublikalarının iqtisadi münasibətlərinin inkişaf və təkmilləşdirilməsində daxili və xarici iqtisadi amillərin düzgünlüyünün nəzərə alınması mühüm olan məsələlərdəndir. Çünki həm Polşa, həm də Azərbaycan müxtəlif müstəvilərdə iqtisadi mənzərənin dinamikası baxımından eyni xarakterlidir. Paralel xarici iqtisadiyyat məkanında tərəfdaş kimi Polşanın verdiyi perspektivlər qarşılıqlı dinamikanı, yeni texnologiyalar əsasında inkişafı, istehsalda keyfiyyət göstəricilərinin artırılmasını imkanlaşdırır və qaçılmazlıq yaradır. Artıq dünyanın iqtisadi sferasında baş verənlər bir həqiqət olaraq iqtisadi artımın müəyyənliyində və reallaşmasında xarici ticarəti əsas fakta çevirmişdir. Turizm iqtisadiyyatın gücləndirilməsi müstəvisində xarici amil olaraq özü ilə birgə digər sektorlara da gərəkli təsir göstərir. Məsələn, mehmanxana və istirahət kompleksləri, nəqliyyat, infrastruktur sahələrinin inkişafını zəruriləşdirir. Ona

görə də Azərbaycan turizm sahəsinin inkişafı baxımından əlverişli şəraitə malik olması ilə çox seçilir. Son dövrlərdə dövlətin bu sahəyə xüsusi diqqət yetirməsi və ciddi layihələr həyata keçirməsi böyük turist axınının yaranması ilə nəticələnmişdir. Məhz Polşa ilə iqtisadi əlaqələrin təkmilləşdirilməsində turuzmin bir sahə olaraq inkişaf etdirilməsi daha çox əhəmiyyət daşıyır.

İqtisadi artımın həyata keçirilməsində regionun, eləcə də etnosun təsərrüfat və yaşam düşüncələri, imkanlılıq dərəcəsi xüsusi tərəf kimi nəzərə alınmalıdır və bu iqtisadi inkişafın millilik konsepsiyasının müəyyənləşməsinə dayanır. Məsələn, Azərbaycanın həyata keçirdiyi xarici iqtisadi siyasətdə millilik milli xüsusiyyətləri və maraqları, milli iqtisadiyyatın formalaşdırılmasını qaçılmaz edir. Milli iqtisadiyyatın dünya təsərrüfat məkanına uğurlu inteqrasiyası, heç şübhəsiz, həm Polşanın, həm də Azərbaycanın iqtisadi gücünün artımına və əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına şərait yaradır. Bütün bunlar Polşa ilə Azərbaycanın iqtisadi münasibətləri kontekstində aparılan təhlillərdir ki, daim təkmilləşmələri, yeni yanaşmaları və reallığın, dünya iqtisadi sferasında baş verən proses və yeniləşmələrin nəzərə alınmasını zəruri edir, proseslərin bu müstəvidə aparılmasını aktuallaşdırır.

## ƏDƏBİYYAT

### *Azərbaycan dilində*

1. Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.

2. Abdullayev S.Azərbaycan Respublikasının xarici ticarət sahəsində qanunvericiliyinin təhlili. Bakı: Adiloğlu, 84 s.

3. Butler Eamon. Adam Smit – iqtisadiyyatın əlifbası. Bakı,

Azad düşüncələr, 2008, 134 s.
4. Əhmədzadə H. İnvestisiya qoyuluşlarının iqtisadi inkişafa təsirinin modelləşdirilməsi. AMEA-nın İqtisad İnstitutu, Elmi əsərlər, 2010, № 2, s. 66-71
5. Əliyev Ş. Xüsusi iqtisadi zonaların təşkili problemləri və inkişaf perspektivləri. Bakı: Elm, 2008, 250 s.
6. Koçetov E.Q. Geoiqtisadiyyat. Bakı, İqtisad Universiteti, 2015, s. 33 438 s.
7. Köçərli A. Azərbaycanın xarici iqtisadi fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin bəzi məsələləri. // "Azərbaycan Respublikasında sahibkarlığın inkişaf problemləri" Elmi-praktik konfransın materialları. Bakı: 2003, s. 212-213.
8. Qəhrəmanov Fuad Əlinağı oğlu. Qloballaşma əşraitində Azərbaycanda iqtisadi artımın təmin edilməsinin xarici iqtisadi amillər. Avtoreferat, (iqtisad elmləri doktoru). Bakı, AMEA. İqtisad İnstitutu, 2014, 48 s.

***İngilis dilində ədəbiyyat***

9. Axel Leijonhufvud, Monetary Theory and Policy Experience. New York: Palgrave, 2001, 380 p.9. Dominika Kasprowicz, Grzegorz Forys, Dorota Murzyn, Politics, society and the economy in contemporary Poland. Warsaw, Poland: Scholar Publishing House, 2016, 220 p.
10. Krugman R.Paul, Obstfeld Maurice. İnternational economics: theory and policy. (sixth edition). Boston, 2015, 185 s.
11. Raphael Shen, The Polish Economy: Legacies from the Past, Prospects for the Future. New York: Praeger Publishers, 1992, 252 p.
12. Raymond Taras, Consolidating Democracy in Poland. Boulder, CO: Westview Press, 1995, 288 p.
13. Ray Abrahams, After Socialism: Land Reform and Social

Change in Eastern Europe. Providence, RI: Berghahn Books, 1996, 236 p.

14. Wladyslaw Majkowski, People's Poland Patterns of Social Inequality and Conflict. England: Greenwood Press Westport, 1985, 234 p.

15. William Dan Perdue, Modernization Crisis: The Transformation of Poland Westport, England: Praeger, September 26, 1995, 264 p.

***Polyak dilində ədəbiyyat***

16. Chodubski, Andrzej, Azerbejdżan-Polska: odsłony kontaktów kulturowych. Poland: Wydawnictwo Adam Marszałek, 2015, 327 p.

17. Jankiewicz, Sławomir, Uwarunkowania rozwoju polskiej gospodarki w dobie globalizacji = The conditions for development of the polish economy in a world of globalization. Poland: Wydawnictwo Wyższej Szkoły Bankowej w Poznaniu, 2014, 126 p.

18. Lissowska, Maria, Instytucje gospodarki rynkowej w Polsce = Institutions for market economy: the case of Poland. Poland: Wydawnictwo C.H. Beck, 2008, 271 p.

19. Milczarek-Andrzejewska, Dominika, Zagadnienie siły w ekonomii – na przykładzie sektora rolno – spożywczego w Polsce. Poland: Instytut Rowoju Wsi i Rolnictwa Polskiej Akademii Nauk, 2014, 167 p.

## AZƏRBAYCANIN POLŞA RESPUBLİKASI İLƏ SAHƏVİ İQTİSADİ ƏLAQƏLƏRİ VƏ ONUN PERSPEKTİVLƏRİ

Azərbaycan və Polşa Respublikasının iqtisadi əməkdaşlığının təhlilində əsas istiqmətlərdən biri sahə iqtisadiyyatı ilə bağlıdır. Çünki sahəvi iqtisadiyyatla bağlı işlərin qurulması, müştərək layihələrin həyata keçirilməsi ehtiyacların öncüllənməsi, ölkənin perspektivləri üçün ciddi imkanlar yaradır. Məsələn, kənd təsərrüfatının, turizmin, təhsil mübadiləsinin, yüngül və ağır sənayenin ayrı-ayrı sahələrinin inkişafında birgə fəaliyyət proqramlarının hazırlanması və həyata keçirilməsi bu xüsusda mühüm önəm kəsb edir. Ölkə prezidentlərinin sonuncu görüşündə, biznes forumda da sahəvi iqtisadiyyatın inkişafı ilə bağlı anlaşmalar əldə edilmişdir. Həm Polşanın, həm də Azərbaycanın sahə iqtisadiyyatı ilə bağlı geniş imkanları vardır.

Azərbaycan və Polşa Respublikalarının iqtisadi əlaqələrinin perspektivlərində mühüm istiqamətlərdən biri sahəvi iqtisadi əlaqələrlə bağlıdır. Azərbaycan Cənubi Qafqaz dövlətləri arasısında iqtisadi potensialı ilə daha çox seçilən və perspektivlər vəd edən ölkədir. Onun zəngin karbohidrat yataqları, neft ehtiyatları, eləcə də kənd təsərrüfatının inkişafı üçün yararlı iqlim şəraiti ciddi iqtisadi layihələrin, investisiya qoyuluşlarının aparılmasını gərəkli edir. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadi mənzərəsində baş verənlər dünyanın artan ehtiyaclarında bu əraziyə marağın təsadüfi olmadığını, iqtisadi uğurların əldə olunması üçün daha geniş imkanlılığını düşünməyə əsas verir. Şərq-Qərb, Şimal-Cənub əlaqələrində, böyük və perspektivli layihələrin həyata keçirilməsində, nəqliyyat-kommunikasiya imkanları ilə transmilli dünya maraqlarını reallaşdırmağa daha əsaslı şərait yaradır. Regionun geoiqtisadi və geosiyasi mənzərəsi bütünlükdə dünyanın siyasi, iqtisadi güc

mərkəzlərinin buraya meyillənməsinə əsas olmuşdur.

Sahəvi iqtisadi əlaqələr və onun perspektivləri. Azərbaycanın qloballaşan dünyada həyata keçirdiyi iqtisadi siyasət qarşılıqlı bağlantıların yaranmasına, əhalinin rifah halının yüksəldilməsinə, ciddi partnorların əldə edilməsinə hesablanmışdır. Polşa ilə apardığı iqtisadi siyasət də özünün məzmunu və genetik funksiyası ilə məhz bunlara, yüksək nailiyyətlərə, iqtisadi imkanların artırılmasına xidmət edir. Çünki həm Azərbaycan, həm də Polşa region ölkəsi olaraq xüsusi çəkiyə malikdir. Onun iqtisadi göstəriciləri və artım dinamikası təbii bağların yaranmasını, ehtiyacların öncüllənməsini, yeni texnalogiyalar əsasında inkişafın dinamikliyinin təmin olunmasını, müxtəlif sahələr üzrə uğurlu iqtisadi proseslərin davamlılığını aktlaşdırır. Polşa Mərkəzi Avropanın inkişaf etmiş dövlətlərindən biri olmaqla regionda xüsusi çəkiyə malikdir. Onun iqtisadi sferada həyata keçirdiyi uğurlu siyasət qarşılıqlı əlaqələrin, ölkənin rifah halının yaxşılaşdırılmasının mühüm faktı olaraq əsas götürülür. Siyasi müstəvidə məsələləri şərh edən Z.K.Bıezinski (2, 256) asılılığın azaldılması üçün ilk növbədə Qərbə inteqrasiyasını öz əsərlərində vurğulayırdı. Çünki Azərbaycanın iqtisadi və siyasi mövqeyinin güclənməsi regionun geoiqtisadi mənzərəsinə güclü təsir etməklə aslılığın azaldılmasına şərait yaradır. Artıq Xəzər hövzəsi dövlətlərdə gedən iqtisadi proseslər transmilli layihələrin həyata keçirilməsi ilə reallaşmışdır.

Azərbaycanın ixrac potensialında, məlum olduğu kimi, neft daha çox üstünlük təşkil edirdi və neft ölkəsi olaraq iqtisadiyyatın bir sahədə təmsil olunması faktlaşırdı. Lakin dövlətin həyata keçirdiyi uğurlu iqtisadi siyasət alternativ sahələrin də inkişafını priaritet kimi qarşıya qoyurdu. Son olaraq bunun nəticəsi kimi, neftdən asılılığın azaldılması bir məqsədə çevrildi və kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsində ciddi addımlar atıldı. Baramaçılıq, pambıqçılıq, heyvandarlıq, bağçılıq, üzümçülük və s. sahəsində görülən böyük işlər şübhəsiz ki, yaxın zamanlarda

ölkənin kənd təsərrüfatı baxımından da Avropanın bazarlarında ciddi şəkildə təmsil olunmasını aktlaşdıracaqdı. Məhz Polşa ilə iqtisadi münasibətlərin daha da inkişaf etdirilməsində bu ən aparıcı xətt kimi xüsusi perspektivlər vəd edir.

Azərbaycan Respublikası prezidentinin Polşaya sonuncu rəsmi səfərində də (26-28 iyun 2017-ci il) digər məsələlərlə yanaşı, sahəvi iqtisadi əlaqələrin yaradılması və perspektiv inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi bir problem olaraq diqqət mərkəzində saxlanmışdır. Biznes forum əsasən bu məsələlər üzərində işlərin gedişinə yönəlmişdir. Polşa sənayesində olan müxtəliflik, gəmi istehsalı, tekstil, kimya, meşə məhsulları, metal sənayesi, avtomobil, təyyarə, maşın, sement, alüminium, taxta-şalban, kağız sənayesi, mədənçilik və mədən sənayesi və s. sahəvi iqtisadi əlaqələrin inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın zəngin flora və faunası, təbii ehtiyatları, iqlim şəraiti Polşa respublikası ilə sahəvi əlaqələrin, birgə layihələrin həyata keçirilməsi üçün daha çox önəmlidir. Məhz Polşa prezidentinin öz çıxışında iqtisadi potensialdan lazımı qədər istifadə olunmamasını vurğulaması təsadüfi deyildir. Azərbaycan ilə Polşa arasında iqtisadi əməkdaşlıq məsələləri və qarşılıqlı fəaliyyət imkanları həmişə ciddi məsələ kimi diqqət mərkəzində saxlanılmışdır. Burada əmtə dövriyyəsi baxımından olan artım da bir fakt olaraq xüsusi önəm daşıyır. Məsələn, iki ölkə arasında əmtə dövriyyəsinin həcmi 2013-cü illə müqayisədə 2014-cü ildə 10 milyon dollar artmış və 140 milyon dollara çatmışdır. Bu artım sonrakı illərdə də müşahidə olunmuş və malların çeşidliyində müxtəliflik yaratmışdır. Bakıda Polşa şirkətləri ilə əməkdaşlıq baxımından seminarların keçirilməsi iqtisadi əlaqələrin gücləndirilməsinə və alternativ variantların müəyyənləşməsinə xidmət edir. Kənd təsərrüfatı sahəsinə olan maraq bunun nümunəsidir. Bakıda keçirilən beynəlxalq qida sərgisində Polşa xüsusi nümayəndə heyəti ilə təmsil olunmuşdur.

Sahəvi iqtisadi əlaqələrin perspektiv inkişaf problemində ən

mühüm istiqamətlərdən birisi investisiyaların qoyuluşudur ki, ondan uğurla istifadə etməklə ciddi nəticələr əldə etmək olar. Burada əlbəttə güzəşt və imtiyaz məsələləri də bir tərəf kimi diqqət mərkəzində saxlanmalıdır. Beynəlxalq səviyyədə rəqabət qabiliyyətli sistemin qurulması ilə kənd təsərrüfatının müxtəlif sahələrinə investisiyaların yatırılması və onun istiqamətinin düzgünlüyü, yüksək texnoloji imkanlardan yararlanma əsaslı nəticələri faktlaşdırır. Çünki Azərbaycanın iqlim şəraiti, torpaqların münbitliliyi və kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün əlverişliliyi Polşa investorlarının sahəvi iqtisadiyyata marağını artırmışdır.

Polşa – Azərbaycan iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanun gördüyü işlərdə daha şox diqqət yetirilən istiqamətlərdən biri sahəvi iqtisadi əlaqələrin qurulmasıdır. Sonuncu biznes forumunda 500 Polşa şirkətinin iştirakı və birgə fəaliyyət anlaşmalarının aparılması ayrı-ayrı sahələr üzrə perspektivləri müəyyənləşdirir. İqtisadi əlaqələrin inkişaf tempini öyrənmək üçün təkcə 2010-cu illə sonrakı mərhələdə idxal-ixrac göstəricilərinə fikir vermək kifayətdir. Polşanın Mərkəzi Statistika Bürosunun məlumatlarına görə, 2010-cu ilin yanvar – iyul aylarında iki ölkə arasında ticarət dövriyyəsi 51,5 milyon dollar təşkil etmişdir. Həmin dövriyyənin 45,2 milyon dolları Polşadan Azərbaycana ixrac olmuşsa, 6,5 milyon dollar idxalın payına düşmüşdür.

Azərbaycan 2014-cü ilin göstəricilərinə görə, dünyanın 147 ölkəsinin hüquqi və fiziki şəxsləri ilə iqtisadi əlaqələrdədir. 108 ölkə əmtə ixrac etmiş və 135 ölkədən əmtə idxal olunmuşdur. Onlardan 44-ü Avropa ölkələri, 33-ü Amerika, 43-ü Asiya ölkələrinin payına düşür. Bütün bunlar Azərbaycanın iqtisadi bağlantılarının ümumi mənzərəsidir ki, onun da mühüm hissəsi Polşa ilə iqtisadi əlaqələrin qurulmasına xidmət edir. Burada tələbə mübadiləsindən tutmuş turizm bağlantılarına qədər geniş bir şəbəkə vardır ki, bu da ***maşınqayırma və kimya sənayesi, aqrar sənaye, metallurgiya, meşə sənayesi (kombinat) və mebel***

***istehsalı***, tikinti materiallari və konstruksiya istehsalı, yüngül sənaye, ağır sənayə, gəmi istehsalı, tekstil, meşə məhsulları, metal sənayesi, avtomobil, təyyarə, maşın, sement, alüminium, taxta-şalban və kağız sənayeləri, mədənçilik və mədən sənayesini özündə əhatə edir. Tələbə mübadiləsi sahəvi iqtisadə əlaqələrin inkişafında mühüm yer tutur və Polşa tərəfi Azərbaycan vətəndaşları üçün çoxlu sayda təqaüd proqramları həyata keçirir. Bu isə dövlətin həyata keçirdiyi təhsil strategiyasının mühüm bir faktı kimi ciddi önəm daşıyır.

Azərbaycan və Polşa Respublikalarının sahəvi iqtisadi əlaqələri aqrar sahədə taxıl, pambıq, meyvə və giləmeyvə, tərəvəz, kartof, bostan məhsulları, üzüm, şəkər çuğunduru, günəbaxan, çay yarpağı, ət, süd, yun, qoyunçuluq və maldarlıq; sənaye məhsulu istehsalı mədənçıxarma bölməsində, emal bölməsində, elektrik enerjisi, qaz və buxar istehsalı, tullantıların təmizlənməsi və emalı, neft sektoru, emal bölməsində qida məhsulları, içki, geyim, toxuculuq sənayesi məhsulları, kimya sənayesi məhsulları, tikinti materialları, hazır metal məmulatları, metallurgiya sənayesi məhsulları, elektrik avadanlıqları, avtomobil və qoşquların, zərgərlik, musiqi, idman və tibb avadanlıqları istehsalı, maşın və avadanlıqların quraşdırılması və təmiri və s. böyük bir zənginliyi və əsaslı bağlantıları zəruri edir. Polşanın və Azərbaycanın ÜTT-yə qoşulması və dünyanın əksər ölkələri ilə iqtisadi əlaqələr qurmaq istiqamətində həyata keçirdikləri möhkəm hüquqi bazaya əsaslanır (1, 18). Bu isə xarici ticari əlaqələrin tənzimlənməsi üçün lazımı qanunların, təcrübənin, gərəkli aktların, müəssisə təminatlarının yaranmasına səbəb olur.

Son dövrlərdə ərazi nüsbətlərində baş verən proseslər iqtisadi zonaların, ərazilərin yaranması və iqtisadi ixtisaslaşmanın baş verməsi ilə sonuclanmaqdadır. Məsələn, Azərbaycanın ayrı-ayrı zonalarında aparılan islahatlar, pambıqçılıq, üzümçülük, heyvandarlıq və yaxud da sənaye baxımından olan ixtisaslaşmalar buna nümunədir. Polşanın da iqtisadi mənzərəsində sahəvi

iqtisadiyyatın inkişafı üçün perspektivlər vəd edən zonalar vardır ki, bu da iqtisadi əlaqələrin perspektiv istiqamətləri baxımından xüsusi önəm daşıyır. Ona görə də investisiyaların qoyuluşu, etibarlı və perspektivli tərəfdaşlıq, iqtisadi əməkdaşlıq, dövlətin həyata keçirdiyi iaqisadi siyasət baxımından Polşa və Azərbaycan Respublikaları özlüyündə yaxşı tərəfdaş təsəvvürünü formalaşdırmışdır. Meşə təsərrüfatının, eləcə də mebel və taxta sənayesinin inkişafı baxımından Polşa geniş imkanlarla nəzərə çarpır ki, bunların sahəvi iqtisadi əlaqələr baxmından mühüm önəm daşıması əsasdır. Təkcə onu demək kifayətdir ki, meşə ilə örtülü torpaqların ölkə ərazisində payı 30 faizi təşkil edir (3, 16). Bu olduqca mühüm göstəricidir. Son dövrlərdə kağız sənayesinin, ağac məmulatlarından hazırlanmış məhsulların sahə iqtisadiyyatında oynadığı rol xüsusi diqqəti cəlb edir.

Qarşılıqlı əlaqələr təbii ki, iqtisadi sahələr üzrə hesablanır və biznes forumların keçirilməsi, dövlət və hökumət səviyyəsində aparılan danışıq və anlaşmalar və s. hamısı məhz iqtisadi strategiyanın həyata keçirilməsinə hesablanır. Nəqliyyat və energetika sahəsində aparılan danışıqlar iqtisadi blokda olanların bir hissəsi kimi önəm daşıyır. Məlum olduğu kimi, Azərbaycan nefti Polşaya çatdırılır və Azərbaycanın tərəfdaş ölkələrlə həyata keçirdiyi nəhəng layihə Cənub Qaz Dəhlizi dünyanın artan yanacaq ehtiyaclarının ödənilməsinə xidmət edir. Azərbaycan qazı bu dəhliz vasitəsilə Avropa bazarlarına çatdırılır. Bu layihənin birinci mərhələsinin işləri artıq başa çatmaq üzrədir və ikinci sonuncu mərhələsi isə 2020-ci ilə hesablanmışdır. Azərbaycanın zəngin enerji resursları Avropanın qaz təhlükəsizliyinin təmin olunması üçün mühüm funksiyaya malikdir.

Azərbaycanın və Polşanın mövcud iqtisadi potensialı və sahəvi iqtisadiyyatı böyük layihələrə əsas verir, hətta Avropanın digər dövlətlərinin bu iqtisadi əməkdaşlıqda təmsil olunmağa şərait yaradır. Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycandan keçir və iqtisadi əlaqələrin genişləndirilməsi

üçün bu özlüyündə xüsusi göstəricidir. Məlum olduğu kimi, "transmilliləşmə proseslərinin dərinləşməsinə müvafiq olaraq yeni sazişlərin böyük bir sinfi – kompensasiya, obyektlərin inşasına baş podrat, əmtə mübadiləsi əməliyyatları, birbaşa əlaqələr qurulan və müştərək müəssisələr yaradılan istehsalat fəaliyyətinin demək olar ki, bütün sahələrində istənilən xidmətlərin təqdim olunması və s. formalaşır. Dünya bazarı da köklü dəyişikliklərə məruz qalır: yeni əmtəə formaları - əmtəə-obyekt və əmtəə proqramla əməliyyatlar baş verir" (4, 144). Əlbəttə sahəvi iqtiusadi əlaqələrdə bunlar bir sistem vahidi kimi xüsusi önəm daşıyır və ticari əlaqələrin bağlantılarını bu və ya digər dərəcədə şərtləndirir. Çünki dünya iqtisadiyyatı və dünya bazarı bütün olanlara, hətta milli iqtisadiyyatlarda baş verənlərə çox həssaslıqla mövqe göstərir.

Azərbaycanın və Polşanın sahə iqtisadiyyatı baxımından əlaqələrinin düzgün qurulması perspektivləri müəyyənləşdirir. Daha doğrusu, ölkə iqtisadiyyatında mövcud şəraitin qiymətləndirilməsi, sərmayə yatırımları, ikitərəfli faydalanma şərtləri, sahənin münbitlilik şəraiti və s. məsələlər nəzərə alınmaqla əsaslı fəaliyyət sisteminin yaradılması təkcə iki ölkə səviyyəsində deyil, eyni zamanda digər tərəfdaşların da iqtisadi məkanda işbirliyinə müxtəlif səviyyədə cəlb olunmasına şərait yaradır. Dəniz limanları, dəmir yolları, aeroportlar, avtomobil yolları müasir dünya standartlarına cavab verməklə böyük bağlantıların yaranmasına, transmilli layihələrin reallaşmasına imkan yaradır.

Azərbaycanın Polşa ilə sahə iqtisadiyyatının perspektivlərində kənd təsərrüfatı mühüm tərəfdir. Çünki Azərbaycanın iqlim şəraiti, torpaqlarının münbitliyi bu sahəyə xüsusi investisiyaların qoyulmasını və yüksək texnalogiyaların tətbiqi ilə müsbət məhsuldarlıq əldə etməyə şərait yaradır. Əkinçilik məhsullarının yetişdirilməsi baxımından regionun ümumi mənzərəsi əsaslı perspektivlər vəd edir. Son dövrlərdə pambıqçılıq və üzümçülük, baramaçılıq dövlət səviyyəsində xüsusi qayğı ilə əhatə

olunmuşdur. Azərbaycan və Polşa respublikalarının iqlim şəraitinin yaxınlığı və onların region üçün oynadığı rol onların birgə fəaliyyətinə və müxtəlif istiqamətli işlərinin perspektivlərinə əsas verir.

Meşə təsərrüfatı respublikanın ümumi torpaq sahəsinin 12 %-ni təşkil edir (5, 3). Son dövrlərdə meşə təsərrüfatının inkişaf etdirilməsi sahəsində atılan addımlar, eləcə də meşəsalma məsələlərinə verilən önəm faiz göstəricilərində müsbət tendensiyanı müəyyənəlşdirmişdir.

***Table 1***

**Azərbaycan və Polşa üzrə meşə sahələri**

| | **Ölkənin ümumi quru ərazisi, min ha** | **Meşə ilə örtülü torpaqlar, min ha** | **Meşə ilə örtülü torpaqların ölkə ərazisində payı, faiz** |
|---|---|---|---|
| Azərbaycan | 8266 | 1021 | 12,4 |
| Polşa | 30629 | 9192 | 30,0 |

İşləyən əhalinin 30 %-ə yaxın bir hissəsi əkinçilik və heyvandarlıqla məşğul olur(6, 3). Buğda, arpa, kartof, tütün, çovdar və yulaf  əkinçilik məhsulları sırasında xüsusi üstünlük qazanır. Heyvandarlıqda isə bu üstünlüyü mal və qoyun təşkil edir.

Polşa iqtisadiyyatında xidmət sahəsi özünün xüsusi çəkisi ilə ön sırada durur. Azərbaycanda və Polşada turizm  əsaslı perspektivlər vəd edir. İqtisadi sahədə həyata keçirilən liberallaşma siyasəti ölkə iqtisadiyyatının inkişafı üçün əsaslı zəmin yaratdı. Kiçik və orta dövlət  müəssələrinin özəlləşdirilməsi sahəsində atılan addımlar, xarici investisiyaların cəlb edilməsi 2009-cu il qlobal iqtisadi böhranından sonra artımın təminatçısına çevrilmişdir. Məsələn, Polşa iqtisadiyyatında 2013-cü ilin noyabrında 16 % artım müşahidə olunmuşdur.

Polşa Azərbaycanla kənd təsərrüfatı sahəsində həmişə əməkdaşlığa  etmək məqsədində olduğunu vurğulamışdı. Bakıda keçirilən beynəlxalq qida sərgisində Polşanın da iştirak etməsi

(22 may 2015-ci) bunun nümunəsi idi (6, 4). Bakıdakı sərgidə ilk dəfə iştirak edən Polşa Azərbaycanla qarşılıqlı əməkdaşlıq, kən təsərrüfatı sahəsində əməkdaşlıq, birgə fəaliyyət göstərmək kimi məsələləri xüsusi olaraq vurğulamışdır.

Polşa Avropanın və Asiyanın bir çox ölkələri ilə əməkdaşlıq edir. Azərbaycan da bu əməkdaşlıqda, sahəiqtisadiyyatının inkişafında ən uğurlu partyorlardandır. Məlum olduğu kimi, ölkədə maşın və kimyəvi məhsullardan sonra qida sənayesi ixrac səviyyəsinə görə üçüncü sıradadır. Bu özlüyündə yüksək göstəricidir və Azərbaycan həmin əməkdaşlıqdan kənd təsərrüfatının inkişaf etdirilməsi, sərmayələrin yatırılması, ortaq bizneslərin yaradılması baxımından daha çox diqqəti cəlb edir. Bakı Biznes Mərkəzində keçirilən tədbirdə kənd təsərrüfatı və qida sənayesi, İKT, sənaye, səhiyyə və digər sahələrdə fəaliyyət göstərən 150-dən çox Polşa iş adamı iştirak etmişdir. Sonuncu forumda (2017) bu 500-ə çatmışdır (5, 3). Onu da əlavə edək ki, hazırda 550 Polşa şirkəti Azərbaycanla əməkdaşlıq edir. Bu əməkdaşlıq müxtəlif iqtisadi sahələri, investisiya yatırımlarını, ortaq işləri təşkil edir.

Azərbaycan və Polşanın sahəvi iqtisadi əlaqələrində ticarət və xidmət, sənaye (mədənçıxarma, qida məhsulları istehsalı, neft emalı müəssisələrində istehsal, kimya sənayesi, tikinti materialları istehsalı), kənd, meşə və balıqçılıq (bostan məhsulları, meyvə və giləmeyvə, pambıqçılıq, yaşıl çay yarpağı), təhsil, elm, mədəniyyət və s. sahələr mühüm perspektivlər vəd edir. Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında Strateji Tərəfdaşlıq və İqtisadi Əməkdaşlığa dair Yol Yol Xəritəsi haqqında Birgə Bəyannamə" (2017) energetika, nəqliyyat, rabitə və s. sahələri əhatə edir ki, bu da özlüyündə sahə iqtisadiyyatının inkişaf perspektivləri baxımından yeni mərhələni səciyyələndirir.

Xarici ticarət əlaqələrinin daha da artırılması, nəqliyyat daşımaları və xidmət ticarətnin digər sahələri, turizm, xarici investisiya qoyuluşu, iqtisadiyyatın müxtəlif sahələrində birgə layihələrin həyata keçirilməsi, kənd təsərrüfatının müxtəlif

sahələri izrə əməkdaşlığın təmin olunması, rəqabət siyasətinin uğurla aparılması, elm, təhsil layihələri və s. Polşa ilə sahəvi bağlantılarda perspektiv imkanları, inkişaf istiqamətlərini müəyyənləşdirir. Bütün bunlar Azərbaycan və Polşa Respublikalarının sahəvi iqtisadi bağlantılar baxımından geniş imkanlarla və perspektiv inkişafla səciyyələnməsini düşünməyə, uğurlu iqtisadi siyasət strategiyasını həyata keçirməyə əsas verir.

## ƏDƏBİYYAT

1. Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.

2. Бжезинский З.К. Выбор: Мировое господства или глобальное лидерство. Москва, Международные отношения, 2005, 288 с.

3. Dominika Kasprowicz, Grzegorz Forys, Dorota Murzyn, Politics, society and the economy in contemporary Poland. Warsaw, Poland: Scholar Publishing House, 2016, 220 p.

4. Koçetov E.Q. Geoiqtisadiyyat. Bakı, İqtisad Universiteti, 2015, s. 33 438 s.

11. Frances Millard, Polish Politics and Society. Great Britain: MPG Books Ltd, Bodmin, 1999, 246 p.

5. state.gov.az

6. state.gov.pl

## AZƏRBAYCAN VƏ POLŞA RESPUBLİKALARI: QARŞILIQLI İQTİSADİ ƏLAQƏLƏR

Azərbaycan və Polşa Respublikalarının iqtisadi əlaqələrinin perspektiv inkişaf istiqamətlərinin bir problem olaraq təhlili ciddi fakt zənginliyi ilə səciyyələnir. Azərbaycan Respublikası Cənubi Qafqaz, Xəzər dənizi hövzəsində yerləşən dövlət kimi bərpa olunmayan resursların zənginliyi ilə seçilir. Onun iqtisadi imkanlılığı, geoiqtisadi şərait üçün əlverişli səciyyə daşıması, tranzit ölkə kimi Şərq, Qərb, Şimal, Cənub üçün böyük marağa səbəb olması XXI əsrin yeniləşən iqtisadi mənzərəsində mühüm önəm daşıyır.

Polşanın Beynəlxalq İnkişaf Assosiasiyası, Beynəlxalq Maliyyə Korporasiyası, Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Əmək və Kənd təsərrüfatı Fondu, Ümumdünya Ticarət Təşkilatı və s. təşkilatlarda təmsil olunması və işlər qurması gərəkli perspektivanı müəyyənləşdirir.

Azərbaycan və Polşa Respublikalarının sahə quruluşu, iqtisadiyyatının tarixi perspektivası və inkişaf xüsusiyyətləri Avropa və Asiya iqtisadiyyatında gedən proseslər kontekstində əsaslı faktura ilə səciyyələnir. Avropa məkanında ərazi və əhali sayına görə boyük potensiyaya malik olan Polşa Azərbaycan üçün ciddi iqtisadi tərəfdaş kimi mühüm önəm daşıyır.

Polşa sənayesi əsaslı müxtəlifliklərlə səciyyələnir. Gəmi istehsalı, meşə sahələri, tekstil, kimya, metal sənayesi, alüminium, neft məhsulları başlıca istiqamətlər kimi uğurlu inkişafla xarakterizə olunur. Dada çox isə mədənçilik və mədən sənayesi ilə xarici bazarda təmsil olunur.

Polşa iqtisadiyyatında enerji istehsalı xüsusi çəkiyə malikdir. Hətta enerji baxımından inkişaf etmiş ölkələr sırasında Polşa xüsusi olaraq qeyd edilir. Bıdqoş, Poznan, Vroslav və s. elektrik mühəndisliyi sənayesi baxımından Avropada xüsusi sənaye

mərkəzlərindəndir. Qdansk və Seçin limanları ölkənin iqtisadi imkanlılığının təmin olunmasında əhəmiyyətli rol oynayır. Yerli qida, alüminium və süni kübrə sənayeləri inkişaf və gəlirlilik imkanlarına görə xüsusi çəkiyə malikdir.

Azərbaycan və Polşa respublikaları eyni iqlim xüsusiyyətləri ilə səciyyələnir və kənd təsərrüfatının inkişafı və imkanlılığı baxımından geniş faktura ilə maraq doğurur. Əkinçilik məhsulları baxımından geniş imkanlara malik olan Polşa kartof, tütün, kətan, çovdar, arpa, buğda, yulaf üçün xeyli üstünlüklərə malikdir.

Son dövrlərin statistik göstəricilərinə diqqət yetirdikdə məlum olur ki, Polşanın sənayesi yüksək göstəricilərlə səciyyələnir və müxtəlifliklərlə maraq doğurur. Yüngül və ağır sənaye, kimya sənayesi, gəmi istehsalı, metal avtomobil, təyyarə, maşın, sement, alüminium başlıca sənaye aspektləridi. Son zamanlarda taxta-şalban və kağız sənayeləri, tekstil, meşə məhsulları da ölkənin iqtisadi həyatında xüsusi rola malikdir.

Mədənçilik və mədən sənayesi olduqca inkişaf etmişdir. Bunların ən əhəmiyyətliləri kömür, sink və misdir. Yeraltı qaynaqlarının səmərəliliyi də beynəlxalq iqtisadi əlaqələrdə Polşanın ciddi tərəfdaş olduğunu əsas edir. Bütün bunlar Polşa ilə Azərbaycan arasında xarici iqtisadi əlaqələrin, geoiqtisadi münasibətlərin uğurluluğuna əsas verir.

Polşa dünyanın ən böyük mis, gümüş, kömür istehsalçılarındandır. Bütün bunlar geoiqtisadi sferada qarşılıqlı iqtisadi münasibətlərin qurulması üçün ciddi imkanlar yaradır. Polşa Avropa Birliyi, NATO, BMT, Dünya Ticarət Təşkilatı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa İqtisadi Sahəsi, Avropada Əməliyyat, Beynəlxalq Atom Enerji Təşkilatı, Avopa Məkanı Agentlik, G6, Baltik dənizi Dövlətləri Şurası, Visegrad qrupu, Weimar Üçbucağı və Şengen Anlaşması kimi beynəlxalq təşkilat və qruplarda təmsil olunur.

Polşanın Baltik dənizi dövlətləri ilə, Azərbaycanın Xəzər hövzəsi dövlətləri ilə bir xətdə bağlanması da bir başqa müstəvidə

dövlət qurupları ilə əlaqələrin və təmas xətlərinin bağlanmasına şərait yaradır. Məlum olduğu kimi Qara dəniz ətrafı ölkələr, Xəzər hövzəsi dövlətləri öz coğrafi şəraitinin uğurluluğu, ticarət, nəqliyyat prosesinin həyata keçirilməsi üçün ən əhəmiyyətli ərazidir.

## ƏDƏBİYYAT

1. Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı: Elm, 2005, 252 s.

2. Ələkbərov Ə. Beynəlxalq iqtisadi münasibətlər. Bakı: Çaşıoğlu, 2010, 648 s.

3. Majkowski Wladyslaw. People's Poland: Patterns of Social Inequality and Conflict. Westport, CT: Greenwood Press, 1985, 260 p.

4. Raymond Taras. Consolidating Democracy in Poland. Boulder, CO: Westview Press, 1995, 288 p.

5. Węcławowicz Gregorz. Contemporary Poland: Space and Society. Boulder, CO: Westview Press, 1996, 208 p.

## AZƏRBAYCAN - POLAŞA İQTİSADİ ƏLAQƏLƏRİ: DAVAMLI İNKİŞAF STRATEGİYASI

Azərbaycan və Polşa iqtisadi əlaqələrinin geniş müstəvidə təhlili yeni texnalogiyaların tətbiqi istiqamətdə münasibətlərin birgə nəzərdən keçirilməsini mühüm və başlıca olan kimi gərəkli edir. Çünki müasir dünyanın iqtisadi mənzərəsində baş verənlər, siyasi və mədəni sferada olanlar təkcə mərkəzdənqaçmalarla məhdudlaşmır, mərkəzəqaçma faktlarının da funksiyasını faktlaşdırır. Ona görə də qarşılıqlı münasibətlər, ehtiyacların öncüllənməsi və inkişafın uğurlu təminatı üçün beyin kapitalı müstəsna funksiyası ilə seçilir. Məsələn, dünya şöhrətli alim Lütfi Zadənin nəzəriyyəsi həyatımızın elə bir sahəsi yoxdur ki, orada özünə yer almasın. İndi dünyanın hər tərəfində onun əldə etdiyi nailiyyətlər tətbiq olunur və həmin uğurları davam etdirəcək güclü məktəb fəaliyyət göstərir.

İnformasiya texnologiyaları və onun prioritetlərindən olan elmin müasir dinamik mənzərəsi daim fəaliyyəti, axtarışları və əlavələri ciddi şəkildə şərtləndirir. Əldə edilən nailiyyət artıq bu müstəvidə şaquli və üfiqi əlavələrin olunmasını və gözləyən ehtiyacların öncüllənməsini zərurətə çevirir. Son dövrlərdə Azərbaycan və Polşa respublikalarının dövlət səviyyəsində apardığı müzakirələr, rəsmiləşdirilən tərəfdaşlıq sənədləri, biznes forumları çoxşaxəliliklə səciyyələnir.

Qeyri-səlis idarəetmə modeli yeni texnikadan yararlanmanın ən vacib şərti kimi müəyyənləşir. Qeyri-səlis paltaryuyan maşınlar, tozsoranlar, yüksək fırınlar, metro qatarları, atom enerji blokları, nəqliyyat vasitələri, helikopterlər və s. kimi dinamik obyektlərin idarə edilməsi kompleks texnoloji proseslərin faktıdır. Siyasi qruplaşmaların mövcud mənzərəsi və iqtisadi

maraqların daha qabarıq şəkildə görünüşü məsələyə beyin kapitalı müstəvisində birgə yanaşmaları da zəruri edir. Maraqların öncüllənməsi üçün daim birgə fəaliyyət proqramlarının işlənməsi diqqət mərkəzində saxlanır. Həm də dövlət səviyyəsində bu kimi müəssisələrin yaradılmasına əsaslı ehtiyacların yaranması müşahidə olunur. Müasir zamanda insanların sosial, iqtisadi və ətraf mühit ehtiyaclarını necə tarazlaşdırılması probleminə görə beynəlxalq səviyyədə konfrans, simpozium keçirilir. Siyasi və ictimai qurumların qəbul etdiyi qərarlar özlüyündə daha çox dayanıqlı inkişafın təmin olyunmasına bağlanır. Burada həm də strateji amillər diqqət mərkəzində saxlanır, növbəti nəsillər üçün daha yaxşı bir gələcəyi təmin etmək amal kimi qarşıya qoyulur.

Brundtland Hesabatından bəri davamlı inkişaf arxa planda idi. Lakin dünyanın müasir mənzərəsi, proseslərin gedişinin mürəkkəbliyi və eyni zamanda artan iqtisadi ehtiyacların öncüllənməsi bunu zərurət kimi qarşıya qoyur. Maşınqayırma, ağır sənaye, kimya sənayesi, meşə sənayesi, kənd təsərrüfatı sahəsində və s. yeni texnologiyaların tətbiqi, həm də onların təkrarən təkmilləşdirilməsi sahəsində işlərin aparılması vacib olandır. Onu da əlavə edək ki, davamlı inkişaf əsas olan kimi 1992-ci ildə Rio-de-Janeyroda BMT konfransına irəli sürülmüşdür.

Lutfizadənin nəzəriyyəsi öz mükəmməlliyi və imkanlılığı ilə elmin, texnikanın müxtəlif sahələrinə təsir etmək gücündədir. Onun əldə etdiyi uğurlar sayəsində dünyanın ən modern texnologiyaları yaradılmışdır. Müasir kompyuterləşmənin son dərəcədə sürətlə dünyanı fəth etməsi, yeni nailyyətlərin, məsələn, robot sistemlərin formalaşdırılması digər sahələrdə də şaxələnmənin aparılmasını gərəkli edir. Qeyri-səlis məntiq nəzəriyyəsi elmdə inqilabın yeni mərhələsidir. Polşa və Azərbaycan iqtisadi əlaqələrinin perspektivlərində bu nailiyyətlərdən yararlanmaq və onun tətbiqinin daha mütərəqqi sistemlərinə birgə müvəffəq olmaq qarşıda duran məsələlərdəndir. 2015-ci ilin

sentyabrında Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 17 Davamlı İnkişaf Məqsədləri olan 2030 Yerli Davamlı İnkişaf Gündəmini qəbul etdi. Hər bir ölkədə 2016-cı ildən 2030-dək müəyyənləşmiş həmin məqsədlər həyata keçirilir.

Davamlı inkişaf müasir dünyada ən vacib problemlərdir. OECD ölkələri davamlı inkişafın elmi təhlili problemi üçün vaxtaşırı islahatlar həyata keçirirlər. Onu da əlavə edək ki, davamlı inkişaf strategiyası sosial, iqtisadi və ekoloji sahələri əhatə edir. Avropa Birliyi və Avropanın elmi-nəzəri strategləri davamlı inkişaf haqqında mükəmməl elmi baza formalaşdırmışlar. Məsələn, Dünya Bankı 1987-ci ildə davamlı inkişafa dair bir tərif təsvir etmişdir: "gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətini ödəmədən günümüzün ehtiyaclarına cavab verən inkişaf." (1)

OECD ölkələri davamlı inkişaf proqramı layihələrini hazırlamaq sahəsində xeyli gərəkli addımlar atdılar və onun genişləndirilməsini bir məqsəd olaraq vurğuladılar. Aparılan təhlillər və əldə olunan qənaətlər davamlı inkişafda üç istiqamətə (iqtisadi, sosial, ətraf mühit) daha çox üstünlük verir:

Həmin istiqmətlərin özü də daxilində alt başlıqlarda müxtəlif hissələrə ayrılır: Məsələn, a) iqtisadi sahədə: xidmətlər, ədalətli paylanma, həyat keyfiyyəti, kənd təsərrüfatı, sənaye artımı, əməyin istifadəsi;

b) sosial sahədə: ədalətlilik, iştirak, mədəni qoruma;

c) ətraf mühitində: təbii ehtiyatlar, təmiz hava və su.

Bunlar özlüyündə nə qədər fərqli və bir-birindən ayrı görünsə də əslində alt qatda biri digərini şərtləndirir. Bir növ inkişafın özünü təmin edən sistem funksiyasında nəzərə çarpır. Davamlı inkişaf göstəricilərinin müvəffəqiyyəti səviyyələrə görə qruplaşdırılan ayrılmış bölmələrdir: Milli (AB üzv dövlətləri), regional (NUTS1, NUTS2) və yerli (LAU1).

Davamlı İnkişaf Strategiyasının hədəflərində yeni texno-

logiyaların (məsələn, hidrotexniki qurğuların tikintisi texnologiyası, informasiya və kommunikasıya texnologiyası, hesablama və rabitə texnologiyası və s.) yeri və rolunun müəyyənləşməsi mühüm məsələdir. Dünya elmi-nəzəri fikri nanotexnologiya istiqamətində uğurları ilə ictimai, iqtisadi, mədəni sferaların bütün tərəflərinə təsir etmişdir. Mövcud fundamental biliklər, modelləşdirmə, sintez və inteqrasiya, təcrübə və s. nailiyyətlərin müəyyənliyində müstəsna funksiya daşıyır. Nanoistehsal, daha doğrusu strukturlu qurğuların yaradılması, digər istiqamətdə qurğuların strukturunun çeşidlənməsi və onun iqtisadiyyatdakı nəticələri yeni perspektivləri işarələyir. Onu da əlavə edək ki, bunlar bir istiqamətdə AB üzvlüyündə praktiki olaraq araşdırılır. Burada Polşada davamlı inkişafın araşdırılması da bir tərəf kimi diqqət mərkəzində saxlanır. Polşada aparılan elmi-nəzəri tədqiqatlar davamlı inkişafın müxtəlif istiqamətlərinə diqqət yetirməyi və onun həyata keçirilməsi mexanizmini öyrənməyi üstün tutur. (Professor Jerzy Sleszynski, professor Rişard Piasecki, Andezej Kassenberg, Karina Kostrzewa, Sebastian Gil və başqaları).

Əsas məqsəd Polşada sosial və iqtisadi həyatı stimullaşdırmaqdır. Sosial və iqtisadi həyatın stimullaşdırılması üçün Aİ layihələri əsas tutulur və müxtəlif aidiyyatı qurumlar, elmi tədqiqat mərkəzləri bu işlərə cəlb edilir. Onların əldə etdiyi nəticələr, gəlinən qənaətlər perspektivləri müəyyənləşdirməklə gediləcək yolun məzmunu haqqında dolğun təsəvvür yaradır. İqtisadi artımın təmin edilməsi, enerji istifadəsinin səmərəliliyi, ətraf mühitin mühafizəsi, mədəni irs və qeyri-maddi mədəni abidələr, gələcək üçün qorunması və ötürülməsi və s. kimi hədəflər Polşanın davamlı inkişafına əsaslanır. Azərbaycan Respublikasının strateji hədəflərində də bunlar bir tərəf kimi əsas götürülür.

Aİ davamlı inkişafın 2 tendensiyasına daha çox diqqət ye-

tirir:

a) Lisbon strategiyası (yeni iş yerlərinin açılması və qabaqcıl texnologiyaların inkişafı);

b) Aİ sərmayələrindən müvəffəqiyyətli istifadə ilə davamlı inkişafı təmin etmək və Polşada rəqabət qabiliyyətini təmin etmək üçün əmanət əldə etmək.

Avropanın və Şərqin kəsişməsində yerləşən Azərbaycan üçün Avropa Birliyinin davamlı inkişaf proqramından yararlanma və mövcud təcrübəyə əsaslanmaqla perspektivləri müəyyənləşdirmək mühüm olandır. Digər istiqamət Avropa ölkələri ilə birgə fəaliyyət proqramının hazırlanmasına bağlanır. Polşanın və Azərbaycanın davamlı inkişafının (iqtisadi, sosial, ekoloji) ümumi istiqamətlərini müqayisəli şəkildə öyrənmək və mövcud vəziyyətdən çıxış etməklə hədəfləri müəyyənləşdirmək ən önəmli məsələlərdəndir. Davamlı inkişafda bərpa olunan və bərpa olunmayan resursların rolu Azərbaycan üçün müəyyənləşdirilməlidir.

Davamlı inkişaf strategiyasının müxtəlif istiqamətləri müəyyənləşdirilmişdir və onun perspektivasının aydınlığı üçün sistemli elmi-nəzəri müşahidələrə ehtiyac duyulur. Bununla belə, davamlı inkişafla bağlı elə də  çox empatik və praktik araşdırmalar aparılmamışdır. "Minilliyin İnkişaf Məqsədləri"ndə sosial və iqtisadi rifahı stimullaşdırmaq məsələsi xüsusi məqsəd olaraq qoyulmuşdur. Azərbaycan üçün davamlı inkişafın məqsədi "ekstremal yoxsulluq və aclıq problemini  aradan qaldırmaq, universal ibtidai təhsilə nail olmaq, gender bərabərliyini dəstəkləmək, ana sağlamlığını inkişaf etdirmək, ətraf mühitin davamlılığını təmin etmək, məqsədlərə daxil olan inkişaf üçün qlobal tərəfdaşlıq gəmisini inkişaf etdirmək"dir (2). İqtisadi, sosial, ekoloji sahələrdə perspektivlərin müəyyənləşdirilməsi və hədəflərə doğru atılacaq addımların dəqiqləşməsi, yeni texnologiyalar üzərində uğurların hesablanması müsbət nəticələr vəd edir.

Tədqiqatın əsas məqsədi Polşa və Azərbaycan üçün davamlı

inkişafın (fərqli və oxşar) xarakterik xüsusiyyətlərinin müəyyən edilməsi, perspektivlərinin aydınlaşması məsələsidir. Nano-texnologiyaların istehsala daha geniş müstəvidə gətirilməsi və onun yeni istiqamətlərinin aşkarlanması sahəsində birgə fəaliyyət proqramlarının yaradılmasına vaxtaşırı ehtiyac duyulur. Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi bunun üçün əsaslı perspektivlər açmışdır. Dünyanın müasir mənzərəsində ondan yararlanmanın nəticələri göz qabağındadır. İndi başlıca olan ondan müxtəlif sahələrdə yararlanmaqla (iqtisadi, psixologiya, dilçilik, siyasət, fəlsəfə, sosiologiya və s.) perspektivlər üçün imkan əldə etməkdir.

Hökumət gələcək nəsillər üçün cəmiyyətdə davamlı inkişaf konsepsiyasının məlumatlandırılması və dəstəklənməsi məsələsini geniş müstəviyə çıxarmalı, birgə fəaliyyət proqramlarını reallaşdırmalıdır. L.Zadənin sistem nəzəriyyəsi, nəzarət nəzəriyyəsi və tətbiq sahəsində əldə etdiyi nailiyyətlərin müxtəlif müstəvilərə çıxarılması və yeni-yeni istiqamətlərdə işlənməsi zərurətə çevrilir. "Mitsubishi", "Toshiba", "Sony", "Canon", "Sanyo", "Nissan", "Honda" (Yaponiya şirkətləri) "General Motors", "General Electrics", "Motorola", "Dupont", "Kodak" (Amerika şirkətləri) bu nəzəriyyədən yararlanmaqla ciddi uğurlara imza atmışlar. Məsələn, Danimarkada qeyri-səlis məntiq əsasında fəaliyyət göstərən sement sobaları istehsal olunur. L.Zadənin qeyri-səlis məntiq nəzəriyyəsindən Azərbaycan və Polşa iqtisadi əlaqələrinndə yararlanmaqla digər müstəvidə yeni uğurlara imza atmaq mümkündür. Məlum olduğu kimi, klassik və neoklasik iqtisadiyyatda bütün olanlar maksimum mənfəət və kommunal pula hesablanır. Bu gün bu nəzəriyyələr (L.Zadənin nəzəriyyələri) həyatımızın bütün sahələrində geniş tətbiq olunur. İnsan kimi düşünən kompüterlər, təcrübə və bilik təcrübəsi olan maşınlar, süni və hesablama zəkası olan digər maşınlar və s. Qeyri-səlis məntiq nəzəriyyəsi kosmik proqramların həyata

keçirilməsi sahəsində də  olanlarla yanaşı, əlavə perspektivlər vəd edir.

Teorik məqalə Polşa ilə Azərbaycan arasında davamlı inkişaf baxımından qeyri-müəyyən bir əlaqəni göstərir. Onu da əlavə edək ki, iqtisadiyyatda davamlı inkişafın müxtəlif hipotezləri var. Onların təhlilə gətirilməsi və perspektivlərinin nələrlə səciyyələnməsi xüsusi mahiyyət daşıyır. Məsələn, Simon Kuznets əyri, bu, ətraf mühitin keyfiyyəti və iqtisadi inkişafı haqqında fərziyyədir. İnkişafın gedişində orta gəlir və müəyyən nöqtəyə çatana qədər müxtəlif ekoloji tənəzzül göstəricilərini ortaya qoyur.

İnkişaf etmiş ölkələrin əksəriyyətində enerjinin gerçək ÜDM-ə nisbəti düşdü, ümumi enerji isə artdı. Məsələn, sənaye ölkələrində istixana qazlarının emissiyası yüksələn tempdədir. İnkişaf etmiş ölkələrdə ümumi mənzərəni diqqətdən keçirdikdə aydınlaşan odur ki, şirin su təminatı və tənzimlənməsi, balıqçılıq və torpaq məhsuldarlığı azalmağa davam edir.

"Ekoloji iqtisadiyyat iqlim dəyişikliyi" adlı kitabda iqlim dəyişikliyi probleminin daha böyük bir problem olduğu aydınlaşır. Davamlı inkişafın hədəfləri kontekstində istiqamətləndirildiyi haqqında dolğun təsəvvür formalaşır. "İqlim dəyişikliyi böhranının həlli" kitabında vurğulanır ki, iqlim dəyişikliyinin böhranı əsas problemdir. İqlim dəyişikliyi həm də bəşəriyyətin düşdüyü vəziyyətin başlıca səbəblərindən biri kimi qeyd olunur. Buna baxmayaraq, problemin həllində bir sıra məqsədlər (insan rifahını yaxşılaşdırmaq, təhlükəsiz atmosferi və və s.) əsas olandı .

Polşada davamlı inkişafı tədqiq edən ciddi elmi mərkəzlər və alimlər vardır. Məsələn, Jerzy Sleszynski və Sebastian Gil "Polşa üçün davamlı iqtisadi rifahın indeksi" kitabını yazmışlar. Bu müəlliflər Polş üçün davamlı iqtisadi rifahın indeksini hesablamışlar. Onlar sürətlə davam edən iqtisadi rifahın indekslərini

(uzunmüddətli ətraf mühitə zərər, ozon qatının tükənməsi, yollar və yol qəzalarının səbəb olduğu zərərlər) göstərmişlər.

Karina Kostrzewa və Ryszard Piasecki "Polşada davamlı inkişafa dair yanaşmalar"ı tədqiq etmişdir. Onlar davamlı inkişaf və onun Polşaya təsirini yazdılar. Azərbaycanda da bu müstəvidə bir sıra uğurlu  proqram və tədqiqatlar ortaya çıxmaqdadır. BMTİP Azərbaycanın davamlı inkişafı ilə islahat aparır. İnsan inkişafı proqramı, innovativ məşğulluq miqyası, qeyri-neft iqtisadiyyatının şaxələndirilməsi, davamlı enerjinin yaxşılaşdırılması, torpaqların parçalanması və ormansızlaşması, Xəzər dənizinin bioloji müxtəlifliyini qorumaq üçün təşəbbüslər göstərilir (3). Perspektivləri və mövcud problemlərin aradan qaldırılmasını reallaşdırmaq sahəsində daha ciddi işləri düşünməyə əsas yaradır.

Azərbaycan hökuməti "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişafa dair Dövlət Proqramı" və sosial inkişaf, iqtisadi artım və ətraf mühitin qorunması ilə bağlı Azərbaycan üçün Minilliyin İnkişaf Məqsədlərinin göstəricilərini proqnozlaşdırmışdır. Davamlı inkişaf bu Minilliyin İnkişaf Məqsədlərinin davam etdirilməsinin təsir faktorudır. Davamlı inkişafa dair Dövlət Proqramı özlüyündə işsizlik üçün xüsusi təcrübə və resurslar verir və insan həyatının rifahını yaxşılaşdırmağa, özəl sektorla əməkdaşlığa kömək edir, ətraf mühitin idarəedilməsini təkmilləşdirmək üçün Azərbaycanı dəstəkləyir və iqlim dəyişikliyinin təsirlərini azaldır.

Beynəlxalq konfrans və elmi disputlarda davamlı inkişaf dünyanın ən vacib məsələlərindən biri olaraq göstərilir. Dünya elmi-nəzəri fikri müxtəlif səviyyələrdə davamlı inkişafı tədqiq probleminə çevirir və onun perspektivlərini müəyyənləşdirmək isitqamətində addımlar atırlar.  On yeddi ölkənin davamlı inkişafı həyata keçirilməsi və inkişaf üçün lazım olan 17 məqsəd son dövrlərdə xüsusilə qeyd olunmaqdadır. Ölkələrin gələcəyi üçün

nəzərdə tutulan bu hədəflər, layihənin həyata keçirilməsində bəzi gecikmələr nəzərə alınmazsa ciddi perspektivlər vəd edir. Burada əlbəttə aradan qaldırılmalı problemlər də vardır. Onu da əlavə edək ki, hər iki ölkə üçün  eyni probleml faktorlar da nəzərə çarpır. Bunlar daha çox Asiya və  Avropa miqyasında yaşananlarla bağlıdır.

Dünya müharibələrindən sonra başlayan megatrends özünü müxtəlif istiqamətlərdə göstərdi. Megatrends aşağıdakılardır:

a) demoqrafik dəyişikliklər və artan rifah problemləridir ki, bu da demoqrafik sahədə, ailələrdə yaşanan problemlərlə bağlanır və erkən boşanmaların artan problemləri ilə səciyyələnir;

b) qlobal iqtisadiyyatda dəyişikliklər və narahatlıqlar; resursların dəyişməsi və azalması dünya resursları problemini reallaşdırdı;

c) qloballaşmadan uzaqlaşa bilməmək, kiçik şəhərlərdə aparıcı qüvvələrin və iqtisadiyyatın ümumi  dəstəklənməsi;

ç) iqlim dəyişikliyi və resursların artması timsalında ozon təbəqəsinin qorunmasıdır ki, bu da iqtisadiyyatın uğursuzluğu və bunun sloganından çıxan təhlükəsizlik timsalında daha çox həssaslıq tələb edir;

d) texnoloji irəliləyişlər və insan amili və s.

Azərbaycan və Polşa iqtisadi problemləri müstəvisində bu istiqamətlər ciddi həssaslıq və yeni texnalogiyanın nailiyyətlərindən uğurla istifadəni gərəkli edir. Qeyri səlis məntiqin əldə etdiyi uğurlar dünya iqtisadi düzənində yeni müvəffəqiyyətlərə imkanlar yaradır. Onlardan biri yoxsulluq probleminin həlli istiqamətində atılan addımlardır. Onu da əlavə edək ki, hər bir ölkənin ÜDM problemi var. Kənd təsərrüfatında iqtisadi vəziyyət müsbət xarakterli olub daha çox perspektivlər vəd edir. Çünki hər iki ölkənin bu müstəvidə imkanları daha çox qiymətləndirilir. Məsələn, əkinçilik, qida emalı və heyvandarlıq üçün profilaktik tədbirlər inkişaf etməkdədir.

Davamlı yanaşma, ədalətli paylanma, resursların səmərəli yerləşdirilməsi, həyatın yüksək keyfiyyəti iqtisadiyyatın da uğurluluğunu şərtləndirir və bir sıra istiqmətləri aktuallaşdırır.

- Çünki davamlı yanaşma sabit miqyasda iqtisadiyyatdır və onunla da şərtlənir. Başqa müstəvidə bərpa olunan və yenilənə bilməyən resurslardır ki, çirklənməni udmaq qabiliyyəti ilə müəyyən edilir və  məhdudiyyətlər də ona əsasən qoyulur;
- ədalətli bölüşdürmə insanların yaşayış şəraitini əldə etmək məqsədinə hesablanır və imkan eyniliyi əsas olaraq tutlur;
- bazar iqtisadiyyatının imkanları baxımından, çatışmazlıqların öncüllənməsi üçün resursların effektiv ayrılması;
- iqtisadi inkişafın əsas məqsədi insan ehtiyacları baxımından prioritetləri müəyyənləşdirmək və bu istiqamətdə qətiyyətli addımlar atmaqdır.

Bütün bunlar bir isitqamətdə bərpa olunan və olunmayan resursların səmərəliliyini müəyyənləşdirməyi, yeni texnologiyalar əsasında iqtisadi inkişafın davamlılığını təmin etməyi faktlaşdırır.

Davamlı inkişaf üçün məlumatlar BMT-nin Davamlı İnkişaf Komissiyasından, statistik veb saytlarında sistemli şəkildə özünə yer alır. Dünya Bankının bu kontekstdə atdığı addımlar böyük perspektivlərə bağlanır. ÜDM, əhali, işsizlik Dünya Bankından və Eurostat səhifəsindən gəlir. Polşa üçün davamlı inkişaf göstəriciləri Polşa Statistika Komitəsindəndir. Millenium İnkişaf Məqsədləri Dünya Bankından, Azərbaycan Statistika Komitəsindən götürülmüşdür. Davamlı inkişaf və göstəriciləri BMT-nin İnkişaf Proqramı səhifələrindəndir. Polşa və Azərbaycan alimləri davamlı inkişaf haqqında ciddi həm də fundamental araşdırmalar aparmışlar.

## REFERENCES

1.www.worldbank.org
2.www.undp.org
3.www.UNDP.org
4.Gil S., Sleszynski J., Index of Sustainable Economic Welfare for Poland. Sustainable Development, Volume 11, Number 2, 2003.
5.Kiuila O., Sleszynski J., Expected effects of the ecological tax reform for the Polish economy. Ecological Economics, Vol. 46, No. 1, 2003.
6.Kostrzewa K., Piasecki R., Approaches To Sustainable Development in Poland, 2009/2 n- 352.
7.Bell S., Morse S., Sustainability indicators. Measuring the immeasurable, Earthscan, London, 2000.
8. Lawn Ph., Sustainable development indicators in ecological economics. Edward-Elgar, Cheltenham, 2007.
9. http://www.az.undp.org/content/azerbaijan/en/home/post-2015/
10.http://www.caspianinfo.com/wp-content/uploads/2013/05/Azerbaijan-Alternative-and-Renewable-Energy.
11. Lawn, P.A. (2003). “A theoretical foundation to support the Index of Sustainable Economic Welfare (ISEW), Genuine Progress Indicator (GPI), and other related indexes”. Ecological Economics.
12. Blewit John (2015). Understanding Sustainable Development (Second ed.). Routledge.

## SON SÖZ

Beləliklə, Azərbaycan və Polşa respublikalarının iqtisadi əlaqələri timsalında təqdim etdiyimiz bu toplu bir başlanğıc olaraq daha fundamental tədqiqatlar üçün qaynaq baxımından önəmli təsəvvür formalalaşdıra bilmə imkanları ilə səciyyələnir. İki ölkə arasındakı tarixi bağlantılar, ayrı-ayrı zaman kəsiklərində özünü göstərən mədəni əlaqələr iqtisadi və siyasi aspektdə açılımlar üçün, heç şübhəsiz, əsas olmuşdur.

Qafqazın müasir dünya düzənində geoiqtisadi, geosiyasi və geocoğrafi kontekstdə sərgilədiyi təsəvvür və Azərbaycanın Qafqaz mühitindəki funksional rolu Şərq-Qərb müstəvisində daha geniş perspektivləri ehtiva edə bilmək imkanları ilə xarakterizə olunur. Böyük mədəniyyət qurucusu kimi diqqət önünə gələn Azərbaycan bütünlükdə türk toplumları timsalında müəyyənləşmiş mənəviyyat və yaşam prinsiplərini bir normativ olaraq əsasa çevirir. Polşa Respublikası ilə olan təmaslar və Azərbaycanın dövlət və xalq səviyyəsində bura həssaslığı geniş perspektivlər üçün vəsilə olur.

Dövlət və hökumət səviyyəsində görülən  tədbirlər, müxtəlif istiqamətli layihələrin hazırlanması ikitərəfli münasibətlər baxımından ciddi perspektivləri sıralayır. Formların keçirilməsi, böyük birliklərlə bağlanan müqavilələr və s. bu gündən gələcəyə gedən yolda imkanların qiymətləndirilməsi sahəsində atılan addımlardır. İqtisadi aspektdə yazılmış məqalələr bütün spektrləri ilə tarixi olanları və çağdaş reallığa bağlanan mənzərəni təhlil etmək məramından ortaya çıxmışdır. Aparılan təhlillər ayrı-ayrı məqalələr səviyyəsində bağlantıların güclənməkdə olan məzmununu açıqlamaq və elmi-mədəni mühitin

diqqətini bura yönləndirmək məqsədi daşıyır. Bütünlükdə bunlar bir başlanğıc olaraq qaynaq funksiyasını yerinə yetirmək məramı ilə özünü təzahür etdirir. Gələcəyə açılan qapı funksiyasını yerinə yetirir.

**TOĞRUL ALLAHMANLI**
**AZƏRBAYCAN - POLŞA İQTİSADİ ƏLAQƏLƏRİ**
***(məqalələr)***

Kompüter tərtibatçısı
və dzayneri: ***Namiq VƏLİOĞLU***
Texniki redaktor: ***Nurlana ALLAHMANLI***
Korrektor: ***Zahirə HACIYEVA***

Yığılmağa verilib: **15.08.2024**
Çapa imzalanıb: **25.09.2024**
Fiziki çap vərəqi: **11,5**
Tiraj: **100**

Kitab "Zərdabi Nəşr" MMC Nəşriyyat Poliqrafiya
mətbəəsində ofset üsulu ilə çap olunub.
Ünvan: Bakı şəhəri D.Əliyeva 239/8